MÜNDƏRİCAT

8 İBRAHİM ƏLİYEV: XƏZƏRİN HÜQUQİ STATUSUNUN TƏSDİQİ VƏ ONUN REGİONDA ƏHƏMİYYƏTİ

7 ANAR EMİNOV: MÜASİR DÖVRDƏ AZƏRBAYCANIN SOSİAL SAHƏLƏRİNİN İNKİŞAFI HAQQINDA

10 FƏXRƏDDİN QULİYEV: XALQ POEZİYASINDA FORMA VƏ MƏZMUN DİALEKTİKASI

15 LAMİYƏ BAĞIRLI: MÜASİR QLOBALLAŞMA ŞƏRAİTİNDƏ AZƏRBAYCANDA İNSAN KAPİTALI VƏ ONUN İNKİŞAF PROBLEMLƏRİ

19 NİGAR AĞAYEVA: "DÖVLƏT İDARƏETMƏ SİSTEMİ" ANLAYIŞI: MAHİYYƏTİ VƏ STRUKTURU

23 QURBANƏLİ CƏBRAYIL OĞLU VƏLİYEV: İNFORMASİYA DAŞIYICILARINDA SAXLANAN MƏXFİ İNFORMASİYANIN KRİPTOQRAFİK MÜHAFİZƏSİNİN BƏZİ MƏSƏLƏLƏRİ

26 AYTƏN MƏMMƏDOVA: TURİZM MARKETİNQİNİN İNKİŞAF MƏRHƏLƏLƏRİ

29 RAHİM HƏSƏNOV: AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN YARANMASI ƏRƏFƏSİNDƏ MİLLİ LİDERLƏRİN BOLŞEVİZMƏ MÜNASİBƏTİ

33 VÜQAR HÜSEYNOV: AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN OLUNMASINDA HƏRBİ TƏHLÜKƏSİZLİK SİSTEMİNİN YERİ VƏ ROLU. HƏRBİ TƏHLÜKƏSİZLİYİN ƏSAS ELEMENTLƏRİNİN TƏYİNATI, ONLARIN MÖVCUD VƏZİYYƏTİ

40 ZÜMRÜD NURİYEVA: AZƏRBAYCAN RESPUBLİKASI VƏ MACARİSTAN ARASINDA XXI ƏSRİN İLK İLLƏRRİNDƏ TƏHSİL SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ

44 | ДЖАВИД ШИХАЛИЛИ:
РОЛЬ РОССИЙСКОЙ ФЕДЕРАЦИИ В ФОРМИРОВАНИИ КАСПИЙСКОГО РЕГИОНА НА СОВРЕМЕННОМ ЭТАПЕ

49 | AYGÜN MEHDİYEVA:
AYRI-SEÇKİLİYİN ANLAYIŞI VƏ HÜQUQI MƏZMUNU, ONA QARŞI MÜBARİZƏ

52 | RƏCƏB BABAYEV:
TERRORÇULUQLA BEYNƏLXALQ MÜBARİZƏNİN HÜQUQİ-NORMATİV ƏSASLARI

56 | ELNARƏ ÖMƏROVA: QLOBAL İQTİSADİ ÇAĞIRIŞLAR ŞƏRAİTİNDƏ KİÇİK VƏ ORTA MÜƏSSİSƏLƏRİN İNKİŞAF ETDİRİLMƏSİ PROBLEMLƏRİ

61 | HASAN KARADEMİR:
TÜRKİYƏ RESPUBLİKASININ CƏNUBİ QAFQAZDA ƏSAS GEOSİYASİ PRİORİTETLƏRİ

69 | ФАИК АЛИЕВ:
РОССИЯ И ЗАПАД - ПРОБЛЕМЫ ВЗАИМОВОСПРИЯТИЯ КУЛЬТУР

73 | AYGÜN QƏDİROVA:
XIX-XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ MİNGƏÇEVİR VƏ ƏTRAF BÖLGƏLƏRİ ƏHALİSİNİN DAİMİ YAŞAYIŞ MƏSKƏNLƏRİ

65 | GÜLNARƏ SƏDRƏDDİNOVA:
OSMANLI İMPERİYASINA QARŞI 1821-1830-CU İLLƏRDƏ BAŞ VERMİŞ YUNAN ÜSYANININ İLK İLLƏRİNDƏ RUSİYANIN MÖVQEYİ

"GEOSTRATEGİYA" jurnalı Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən Azərbaycan Respublikasının dissertasiyaların
Tarix, Antropologiya, Siyasi elmlər, Fəlsəfə, Sosiologiya və İqtisadi elmlər
üzrə əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına salınmışdır.

GEO STRATEGİYA

Təsisçi:
"Kaspi" Geosiyasi Araşdırmalar Mərkəzi

Baş redaktor:
Əli Həsənov
Redaktor:
İbrahim Əliyev
Redaktor müavini:
İsmayıl Qasımov

Korrektor:
Leyla Binyatova

Dizayner:
İman Hüseynov

Redaksiya heyəti:

Əli Həsənov
Mübariz Qurbanlı
Səlahəddin Xəlilov
Rüstəm Məmmədov
Rasim Musabəyov
Çingiz İsmayılov
Musa Qasımlı
İbrahim Əliyev
Ərəstun Mehdiyev
Cəfər Cəfərov
Elman Nəsirov
Hikmət Məmmədov
Elçin Əhmədov

Ünvan:
Mətbuat pr. 23M. Beynəlxalq Mətbuat Mərkəzinin 4-cü mərtəbəsi.
Tel: (+994 12) 537 16 05
Faks: (+994 12) 537 16 05
E-poçt:
strategiya.az@mail.ru

"Azərbaycan" nəşriyyatının mətbəəsində çap olunmuşdur.

Sifariş № 2558

Redaksiyanın icazəsi olmadan dərgidəki materiallardan istifadə etmək qadağandır.

Geosiyasət

XƏZƏRİN HÜQUQİ STATUSUNUN TƏSDİQİ VƏ ONUN REGİONDA ƏHƏMİYYƏTİ

İBRAHİM ƏLİYEV
Tarix üzrə fəlsəfə doktoru

Xəzər dənizi və onun əhatə etdiyi region dünya xəritəsində xüsusi yer tutur. Özünün coğrafi mövqeyinə, sərvətlərinə, regionun həyatında oynadığı rola görə həmişə unikallığı ilə semilmişdir. Son yüzilliklərdə isə onun karbohidrogen ehtiyatlarına maraq daha da artmış, dünya nəhənglərinin can atdıqları və maraqlarının kəsişdiyi bir məkan olmuşdur.

Xəzərin təbii sərvətlərindən öncə onun geosiyasi mövqeyi böyük əhəmiyyət kəsb etmişdir. Onun ətrafında uzun tarix boyu xalqların miqrasiyası prosesi getmiş, çoxsaylı dövlətlər təşəkkül tapmışdır. Dünya sivilizasiyaları tarixində onun bütün dövrlərində Xəzərin ətrafı böyük ənənələrə malik region kimi tanınmışdır. Təsadüfi deyildir ki, minilliklər boyu böyük güclər, qüdrətli imperiyalar buraya can atmış, möhkəmlənməyə çalışmışlar. Xəzər dənizi şərqlə qərb arasında birləşdirici mövqedədir. Eyni zamanda şimaldan gələn yollar Xəzər vasitəsilə İrana, Hindistana birləşdirdi. Hələ qədim dövrlərdən Çindən Avropaya qədər uzanan İpək yolunun kəsib keçdiyi yolun üzərində yerləşmişdi. Buna görə də Xəzər həmişə strateji əhəmiyyətə malik olmuş, bu gün də o ənənəni qoruyub saxlayır. (1,2,3)

Müasir dövrdə Xəzərin müasir dünya durumunda daha da artmışdır. Əgər həmişə onun geosiyasi mövqeyi, bioloji resursları, ecazkar təbiəti diqqəti çəkirdisə, son yüzilliklərdə onun karbohidrogen ehtiyatlarının əldə edilməsində günbəgün artan imkanlar buranı dünya güclərinin rəqabət meydanına çevirmişdir. Bu məqalədə diqqəti son onilliklər ərzində Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi ətrafında gedən danışıqlara və yekun sənədi kimi beş sahil dövləti tərəfindən bu barədə yekun konvensiyasının bağlanmasına, bu hadisənin regionun həyatında oynadığı rola yönəltmək istərdik.

Xəzərətrafı regionda münasibətlər son yüzilliklərdə Xəzərsahili dövlətlərin öz aralarında müxtəlif vaxtlarda bağlandığı müqavilələr əsasında tənzimlənmişdir. Hər dəfə geosiyasi vəziyyət dəyişdikcə müqavilələr yenilənmiş, konkret vaxt üçün konkret norma və prinsiplər müəyyənləşdirilmiş, münasibətlər tənzimlənmişdir.

SSRİ-nin dağılması və Xəzər ətrafında yeni dövlətlərin yaranmasına qədər Xəzər iki dövlətin – SSRİ və İranın ümumi istifadəsində idi və onların arasında bağlanan müqavilələr

əsasında tənzimlənirdi. 1921-ci və 1940-cı illərdə bu iki dövlət arasında bağlanmış müqavilələr həmin dövrdə Xəzərin hüquqi statusunun təməlini təşkil eddirdi.(4) Ondan əvvəl isə Xəzərin bölünməsi və onun resurslarından istifadə normaları 1813 və 1828-ci illərdə Rusiya imperiyası və İran arasında bağlanmış Gülüstan və Türkmənçay müqaviləsi əsasında həyata keçirilirdi. (5, 6. 7) Ondan əvvəl isə Rusiya və İran arasında 1723-cü ildə bağlanmış Peterburq müqaviləsi və 1732-ci ildə bağlanmış Rəşt müqaviləsində Xəzərlə bağlı məsələlər öz əksini tapmışdı. Lakin bu müqavilələrin heç birində Xəzərin hüquqi statusu haqqında məsələyə toxunulmamışdı. Səbəbi isə həmin amilin o vaxt o qədər də böyük və prinsipial əhəmiyyət kəsb etməməsi olmuşdur. Bu müqavilələr iki dövlət arasında bağlanırdı və onlar burada dövlət sərhədini müəyyənləşdirirdi. Digər tərəfdən isə həmin dövrdə Xəzərin sərvətləri, xüsusən onun neft ehtiyatları aktual deyildi.

1917-ci ildə Rusiya imperiyasının irsini davam etdirən Sovet dövləti Xəzərin məsələsində də əvvəlki müqavilələrin şərtlərini qüvvədə saxlamışdı. Onlar cüzi dəyişikliklərlə yeni müqavilələr imzalanmışdı. Əslində 1921-ci və 1940-cı illərdə Sovet dövləti və İran arasında bağlanmış müqavilələr ona qədər qüvvədə olan müqavilələrdən o qədər də ciddi fərqlənmirdi. Lakin burada artıq Xəzərin hüquqi statusu məsələsinə xüsusi diqqət ayrılırdı. Geosiyai vəziyyətin dəyişməsi həmin müqavilələrin tənzinməsinə və mövcud qeosiyasi yeniliklərin müqavilədə təsbit edilməsini zəruri edirdi. Müqavilənin 3-cü maddəsində deyilirdi: "Yüksək səviyyədə danışıq aparan hər iki tərəf (Rusiya və İran – İ.Ə.) 1881-ci il sərhəd komissiyasının təyin etdiyi sərhəd xəttini İran və Rusiya arasında su sərhədi kimi qəbul edir. Bu sərhəd mühafizə edilməlidir və toxunulmazdır."

Rusiya və İran arasında 1935-ci ildə bağlanmış "Ticarət, gəmiçilik və məskunlaşma haqqında" və 1940-cı ildə bağlanmış "Ticarət və gəmiçilik haqqında" müqavilələrində də Xəzərin Sovet-İran dənizi olduğu vurğulanır. Xəzərin bu iki dövlət tərəfindən ərazilərə bölünməsində və istifadəsində əvvəlki qaydalar saxlanılırdı. (8) XX əsrin axırlarında SSRİ-nin iflası, regionda yeni müstəqil dövlətlərin yaranması yeni geosiyasi vəziyyət yaratmışdır ki, bu da yeni şəraitdə beş dövlətin çıxışı olan Xəzərin həmsərhəd ölkələr arasında münasibətləri tənzimləyən, sərhədləri müəyyənləşdirən, norma və prinsipləri müəyyən edən razılaşmanın əldə edilməsinə ehtiyac yaradırdı.

Xəzərdə sərhədlərin müəyyənləşdirilməsi müstəqil dövlətlərin yaranması və qarşılıqlı tanınması məsələsinin tərkib hissəsi idi. O, region dövlətlərinin sərhədlərinin və suverenliyinin təsdiqini həll etməli idi. Buna görə də bu barədə danışıqlar müstəqil dövlətlərin yarandığı andan aktuallaşır və tezliklə rəsmi olaraq bu məsələ üzrə danışıqlar başlayır.

Xəzər dənizinin statusu haqqında 20 ildən artıq bir dövr ərzində davam edən danışıqların başa çatması hər cəhətdən əldə olunmuş nailiyyətin göstəricisidir. Məlumdur ki, müstəqilliyin ilk illərində region dövlətlərinin beynəlxalq münasibətlər həyatının mühüm məsələlərindən biri olan bu problem daim diqqət mərkəzində olmuş, çoxsaylı məsələlərin həllində öz mənfi təsirini göstərmiş, əlavə çətinliklər yaratmışdır. Xüsusən, Azərbaycanın neft layihələrinin işlənməsi, nəqliyyat koridorlarının yaradılması məsələsində Xəzərin hüquqi statusunun axıra qədər həll edilməməsi ciddi əngəllər yartmışdır. Düzdür, intensiv səylər

nəticəsində onların xeyli hissəsini dəf etmək mümkün olsa da, yekun razılığın olmaması öz mənfi təsirini göstərmişdir. Bu səbəbdən də 1996-cı ildə Xəzərin yeni reallıqlarını özündə əks etdirən yəni müqavilənin bağlanması üçün danışıqlar prosesinə start verilirdi. Xəzəryanı dövlətlərin xarici işlər nazirlərinin müavinləri səviyyəsində danışıqlar başlandı. Danışıqlar aparıldığı müddətdə Xəzəryanı dövlətləri arasında ikitərəfli və üçtərəfli müqavilələr imzalanmışdı və onlar müəyyən qədər Xəzərdən istifadə və onun resurslarının işlənməsində qanunvericilikdə olan boşluğu doldurmağa imkan verirdi. Əksər hallarda müstəqilliyə qədər mövcud olmuş bölgü, hüquqi norma və prinsiplər Sovet dövlətinin malik olduğu sənədlərə əsaslanırdı.

Xəzərin sektorlara bölünməsi məsələsi 1970-ci ildə qoyulur. Bu, ilk növbədə 1949-cu ildən başlayaraq Azərbaycan ərazisində dənizdə neft çlxarılması ilə sıx bağlı idi. Təsadüfi deyildir ki, bu bölgünü həyata keçirən SSRİ Neft Sənayesi Nazirliyi olmuşdu. Bu bölgüyə əsasən Xəzər Rusiya, Azərbaycan, Qazaxıstan, Türkmənistan və İran sektorlarına bölünür. Bu bölgünün əsasında dünyada beynılxalq-hüquqi praktikada hamı tərəfindən qəbul edilmiş coğrafi vəziyyəti əks etdirən orta xətt prinsipi götürülmüşdü.

Yeni vəziyyətdə Xəzərin hansı prinsip və status əsasında bölünməsi məsələsi uzun illər boyu aparılan danışıqların predmetinə çevrildi. Məsələnin həllinə yanaşmada müxtəliflik sahil dövlətlərinin fərdi maraqlarından irəli gəlirdi. Konkret olaraq, İranın və Türkmənistanın məsələnin sürətli həllinə mane olan tələbləri ümumi qərara gəlməni xeyli ləngitdi. Xəzərin dəniz və ya göl statusunda qəbul edilməsi də tərəflərin mövqeyindəki fərqlilikdən qaynaqlanırdı.

Danışıqlar prosesinin gedişinin müxtəlif mərhələlərində tərəflərin bu və ya digər məsələyə münasibələri birmənalı deyildi. Xəzərin hüquqi statusunun həll edilməsində konkret məsələlər, görünür, öz məqamını gözləyirdi. Həmin məqam və onunla bağlı olan konkret problemlər ortaya çıxmadan bu məsələlərdə konsensusa gəlmək mümkün olmurdu. Söhbət nəzəri cəhətdən müzakirə edildiyi vaxt ümumi razılığa gəlmək o qədər də asan deyildi. Digər tərəfdən bu amillər olmadan hər bir tərəfdaş özünün bu və ya digər məsələdə güzəştə getdiyini öz ölkəsinin ictimaiyyəti qarşısında izah etməsi çətin olurdu. Lakin yetişmiş arqumentlər kompromislərə haqq qazandırır və ümumi razılığa gəlinməni təmin edirdi. Bu məsələyə transxəzər boru kəmərlərindən tutmuş statusun qəbul edilməsi, akvatoriyanın, dənizin dibinin və təkinin bölünməsi, təhlükəsizliyin təmin edilməsində ümumi razılığa gəlinməsində müşahidə etmək mümkündür. Uzun illər ərzində mübahisə obyekti olmayan bu məsələnin gündəliyə çıxması yaranmış şəraitlə bağlı maraqların aktuallaşması və yeni şəraitdə yeni imkanlar əldə etmək cəhdləri ilə əlaqədardır.

1990-cı illərin əvvəllərində müstəqilliyin ilk illərində Xəzərin bölünməsi məsələsinin ortaya çıxması ilə əlaqədar onun statusunun problemi müxtəlif formatlı danışıqlarda səsləndirilir və araşdırılır. 1990-cı illərin ortalarında artıq tərəflərin özünəməxsus maraqlarına söykənən mövqeləri formalaşır və dəqiqləşdirilir. Xəzəryanı ölkələrin xarici işlər nazirlərinin müavinləri səviyyəsində intensiv danışıqlar 1996-cı ildə nümayəndəliklər arasında başlasa da, yalnız 1999-cu ildən etibarən Xəzərin statusu və bölünmə prinsipləri barədə mövqelər dəqiqləşdirilir və ikitərəfli razılaşmalar həyata keçirilir.

Azərbaycan Xəzərin hüquqi statusuna münasibətdə o mövqedən çıxış edir ki, Xəzər beş dövləti birləşdirən sərhədyanı göldür, buna görə də o, orta xətt prinsipi ilə bölünməlidir, onun əsasında isə 1970-ci il müqaviləsinin müəyyən etdiyi qayda durmalıdır. Bundan çıxış edərək Xəzəryanı dövlətlərin həmin bölgüyə əssaslanan sektorlarında yekun status müəyyənləşənə qədər işlərini görə bilərlər.

Danışıqlar zamanı İran və Türkmənistan dövlətləri fərqli mövqedə duraraq həmin təklifin əleyhinə çıxış edirlər. Onlarln fikrincə, Xəzər 20 faizlik ərazi prinsipi ilə bölünməlidir. İran eyni zamanda öz təkliflərində SSRİ və İran arasında 1921 və 1940-cı illərdə bağlanmış müqavilələrin 3-cü maddəsinə istinad edərək Xəzərin bu iki dövlətin azad gəmiçilik və balıqçılıq fəaliyyəti zonası kimi onun kondominium prinsipi ilə bölünməsini təklif edir. Onlar onunla barışmaq istəmirdilər ki, həmin müqavilələrin subyekti dəyişmişdir və yaranmış yeni geosiyasi vəziyyətdə Xəzərdən daha çox pay götürməyə çalışırdılar. Reallıq isə onda idi ki, Xəzər ətrafında yeni dövlətlər həmin müqavilələrin subyektlərindən birinin bölünməsi nəticəsində yaranmışdır və bu məsələnin digər subyektər aidiyyəti yoxdur.

1970-ci il Xəzər milli sektorlara bölünmüşdü. Bu bölgüyə görə Azərtbaycan Xəzərin məxsus 70 min kv km, Türkmənistan – 80 min kv km, Rusiya 60 min kv km, Qazaxıstan 105 min kv km, İran 55 min kv km sahəsinə malik oldular. O zaman İran bu məsələ ilə bağlı heç bir münasibət bildirməmişdi. Xəzərin hüquqi statusu haqqında bağlanmış sonuncu sənəd olmaqla özündən əvvəlki müqavilələri əvəz edir.

Danışıqlar prosesi aparıldığı bütün dövr ərzində intensiv olmuşdur. 1996-cı ildə başlayan vaxtdan işçi qrupunun 51 iclası keçirilmişdir. Xarici işlər nazirlərinin 10, prezidentlərin 5 görüşü keçirilmişdir. 2002-ci ildə Aşxabadda , 2007-ci ildə Tehranda, 2010-cu ildə Baklda və 2014-ci ildə Həştərxanda dövlət başçılarının iştirakı ilə 4 görüşü bu məsələyə verilən önəmdən xəbər verir. Nəhayət 2018-ci ildə Qazaxıstanın Aktau şəhərində Xəzəryanı dövlət başçılarının zirvə görüşündə yekun sənədi – Xəzərin Hüquqi statusu haqqında Konvensiya imzalanır. (9)

O, Xəzərin statusunu bir daha dəqiqləşdirir və yeni geosiyasi və geoiqtisadi reallıqdan çıxış edərək regionun hüquqi normalarını təsdiq etdi. Təsadüfi deyildir ki, sənədlərin imzalanması məqamında Konvensiyanı Xəzərin Konstitusiyası adlandırmışdılar.

Konvensiyaya əsasən Xəzərin səthi dəniz kimi qəbul edilir, buradan da bu səthin sahil dövlətləri tərəfindən istifadəsinin təməl prinsipləri müəyyənləıdirilmiş hesab edilir. Daha dəqiq desək, Xəzərin səthi sahil dövlətlərinin ümumi istifadəsində olması konvensiyada təsbit olunur. Dənizin dibi və tək tərəflər arasında razılaşmaya görə onlar arasında ərazilərə bölünür. Gəmiçilik, balıqçılıq, elmi tədqiqatların aparılması, magistral boru kəmərlərinin çəkilməsitərəflərin razılaşdırdıqları qaydalar əsasında həyata keçirilməsi nəzərdə tutulur. Elə bu məsələ ilə bağlı maraqlı bir məqamı xüsusi qeyd etmək vacibdir. Dənizin dibi ilə çəkilən boru kəmərinin razılaşmasının yalnız sektorundan keçən dövlətlər arasında razılaşdırılması nəzərdə tutulmuşdur.

Konvensiyanın vacib məqamlarından biri təhlükəsizlik məsələsi ilə bağlıdır. Sənəddə Xəzərsahili dövlətlərin hər birinin

xəzər dənizinin təhlükəsizliyində məsuliyyətini qeyd edərək kənar hər hansı bir dövlətin və ya gücün hərbi qüvvələrinin olmasını qadağan edən müddəa təsbit edilmişdir.

Eyni zamanda bütün sahil dövlətləri Xəzərin bioehtiyatlarının qorunması və ekoloji vəziyyətinin dəstəklənməsində məsuliyyət daşımaları konvensiyada xüsusi və əhəmiyyətli bir cəhət kimi diqqət mərkəzində saxlanılır. Maraqlı məqamlardan biri Rusiya prezidenti V.Putinin irəli sürdüyü "Xəzər iqtisadi forumunun" yaradılması ilə bağlıdır. Bu niyyət Xəzərdə yeni-yeni iqtisadi layihələrin başlamasından və böyük planlardan xəbər verir. Sənədin imzalanması faktik olaraq bu məsələdə mövcud olan ziddiyyətlərə son qoydu.

Beş dövlət arasında açıq qalmış sərhəd dəqiqləşmələri bir çox məsələlərdə mübahisələrə son qoymağa, bir sıra mürəkkəb məsələlərdə ümumi razılığa gəlməyə imkan verdi.

Konvensiyanın bağlanmasına qədər keçilən yol və aparılan danışıqlar prosesi asan olmamışdır. Regionun problemləri müəyyən məqamlarda elə həddə çatırdı ki, bu məsələlərdə ümumi razılığa gəlinməsinin qeyri mümkünlüyü təəssüratı yaranırdı. Həmin problemlər özü-özlüyündə, asanlıqla aradan qalxmamışdır. Xüsusən bu məsələlərdə Azərbaycanın ardıcıl mövqeyini və məqsədyönlü gərgin fəaliyyətini qeyd etmək lazımdır. Azərbaycanın Xəzərdə cəsarətli addımları – karbohidrogen ehtiyatlarının işlənməsində başlanan işlər, nəqliyyat qovşaqlarının inkişaf etdirilməsi və genişləndirilməsi, regionu geniş əhatə edən nəhəng iqtisadi layihələrin reallaşdırılması danışıqların ilk dövrlərində müşahidə edilən soyuqluqları və ehtiyyatlanmaları aradan qaldırdı.

Bu sənədin imzalanması Azərbaycan üçün müstəsna əhəmiyyətə malikdir. Əvvəla ölkənin Xəzərdəki milli sektorda həyata keçirdiyi nəhəng layihələrin yetkin hüquqi əsası təmin edildi. Buraya investisiya cəlb edilməsində əngəl törədən maneə aradan qalxmış oldu. İkincisi, Azərbaycanın regionda reallaşdırdığı layihələrin əhəmiyyəti bir daha təsdiq olundu. Onun reallığına şübhə ilə yanaşan dövlətlərin bu şübhələrinin əsası aradan qalxdı. Buna əyani sübut kimi həmin sənədin imzalanmasından sonra Azərbaycana edilən müraciətləri, dövlət başçılarının səfərlərini göstərmək kifayətdir.

Azərbaycanın Xəzərdə reallaşdırmağı planlaşdırdığı nəqliyyat layihələrinin dəyəri yüksəldi. Dünyanın böyük dövlətlərinin regionda marağı və Azərbaycanla əməkdaşlıq niyyətləri dərhal özünü açıq şəkildə göstərdi.

Azərbaycanın bu sahədə uğurları onun regionda nüfuzunun güclənməsinə bir daha təkan verdi. Təsadüfi deyildir ki,hələ də Azərbaycan torpaqlarının bir hissəsini işğalda saxlayan Ermənistan hakimiyyətini ciddi təşvişə saldı və onların ümidlərinə zərbə vurdu.

Bir sözlə, Azərbaycanın həyatın müxtəlif sahələrində əldə etdiyi digər uğurları kimi bu son nailiyyəti də onun regionun liderlərindən biri olmaq statusunu bir daha təsdiq etdi və möhkəmləndirdi.

ƏDƏBİYYAT

1. *Зонн И. С. и др. Каспийское море: Энциклопедия / И. С. Зонн, А. Г. Костяной, А. Н. Косарев, С. С. Жильцов. — 2-е изд., доп. и перераб. — М.: Восточная книга, 2013;*
2. *Жильцов С.С., Зонн И.С., Ушков А.М. Геополитика Каспийского региона. М., 2003.*
3. *Рустам Мамедов Международно-правовой статус Каспийского моря: вчера, сегодня, завтра (вопросы теории и практики) http://www.ca-c.org/journal/cac-09-2000/19.Mamedov.shtml*
4. *http://www.worldlii.org/int/other/LNTSer/1922/69.html*
5. *http://azerbaijan.az/portal/History/HistDocs/Documents/02.pdf*
6. *https://az.wikisource.org/wiki/ Türkmənçay_müqaviləsi*
7. *Kərim Şükürov. Türkmənçay – 1828: Tarixi xronika (İxtisarla). Bakı: 2006*
8. *http://www.azerbaijan.az/portal/WorldCommunity/CaspianStatus/caspianStatus_02_r.html*
9. *Конвенция о правовом статусе Каспийского моря от 12 августа 2018 г. http://kremlin.ru/supplement/5328*

Açar sözlər: *Xəzər dənizinin hüquqi statusu; Xəzər regionu; Xəzəryanı dövlətlər; enerji layihələri; nəqliyyat dəhlizləri*

Ключевые слова: *правовой статус Каспийского моря; Каспийский регион; Прикаспийские государства; энеергетические проекты; транспортнве коридоры*

Keywords: *legal status of the Caspian Sea; The Caspian region; Caspian states; energy projects; transport corridors*

РЕЗЮМЕ

Утверждение правового статуса Каспия и его значение для региона

В статье рассматриваются вопросы, касаюшиеся переговоры по определении правового статуса Каспия и раздела его на национальные сектора, выроботки норм и принципов взаимоотношений прикаспийских стран. Уделяется внимание значению подписания ими итогового документа – конвенции.

SUMMARY

Approval of the legal status of the Caspian Sea and its significance for the region

The article deals with issues related to the negotiations on the determination of the legal status of the Caspian Sea and its division into national sectors, the development of norms and principles of relations between the Caspian countries. Attention is paid to the importance of signing the final document - the convention.

Sosial

ANAR EMİNOV
İqtisad üzrə fəlsəfə doktoru

MÜASİR DÖVRDƏ AZƏRBAYCANIN SOSİAL SAHƏLƏRİNİN İNKİŞAFI HAQQINDA

Umummilli lider Heydər Əliyev 1969-cu il 14 iyul tarixindən respublikamıza rəhbərlik etmiş, milli şüurunun formalaşmasında, dövlətçilik ənənələrinin bərpa və inkişafında əvəzsiz xidmətlər göstərmiş, dünya siyasi tarixində özünəməxsus yer tutan dahi şəxsiyyətdir. Heydər Əliyev hakimiyyətə gəlmədən öncə Azərbaycan istər sosial-iqtisadi, istər kənd təsərrüfatı, istərsə də istehsal və istehlakın həcmi baxımından SSRİ-yə daxil olan digər respublikalardan geri qalırdı. Ümummilli lider belə acınacaqlı şəraitdə respublikaya rəhbər təyin edildi. O zamanlar insanların inkişafına inanmadığı iqtisadiyyatı Heydər Əliyev problemlərin həllinə yönəldilmiş tədbirlərin icrası ilə yüksəltməyə nail oldu. Həmin il sənayedə, kənd təsərrüfatında istehsal sahəsində diqqəti çəkən artıma nail olundu, iqtisadiyyatın inkişafı üçün zəmin yaradıldı. Eləcə də həmin dövrdə respublikamızda yolların uzunluğunun 1,2 dəfə artımın olması ilə bərabər sosial inkişafda 2 dəfədən artıq inkişaf olmuşdur. 1974-cü ilin statistik nəticələrini incələdiyimizdə respublikada yolların təmirinə ayrılmış vəsaitin 3,5 dəfə, investisiya qoyuluşlarının isə 2,5 dəfə artdığının şahidi oluruq.

Heydər Əliyev qeyri-neft sahələrinin,xüsusi ilə respublikanın regionlarının inkişaf etdirilməsinə, əhalinin yeni iş yerləri ilə təmin olunmasına, əhalinin rifahının yüksəlməsinə rayon, qəsəbə və kəndlərin mədəni simasının dəyişdirilməsinə xidmət edən çoxplanlı siyasət həyata keçirirdi. Heydər Əliyev insanların istirahətlərinin maraqlı, onlara ayrılan illik əmək məzuniyyətləri dövrünü səmərəli təşkil edilməsi üçün yeni turizm obyektlərinin tikintisinə xüsusi önəm verirdi. Belə ki, həmin dövrləri analiz etdikdə 1970-1972-ci illərdə Zaqatala, Şuşa, 1971-ci ildə Xankəndi, 1972-ci ildə

Mingəçevirdə turizmin inkişafına xidmət edən addımlar atıldı. Bununla yanaşı Qəbələdə, Nabranda və Bakıda mehmanxanalar istifadəyə verilməyə başlandı.

Həmçinin 1973-cü ildə Bakı şəhərində 1042 yerlik "Azərbaycan" mehmanxanası, 1978-ci ildə isə 200 yerlik "Moskva" mehmanxanası tikilib istifadəyə verildi. Bu mehmanxanalara müəyyən tədbirlərlə bağlı ölkəmizə SSRİ-yə daxil olan digər respublikalardan gələn turistlərlə yanaşı başqa ölkələrdən olan turistlərin gəlişi xarici turizmin inkişafını sürətləndirməyə başladı.

Heydər Əliyevin tapşırığı ilə "Turizm haqqında" Azərbaycan Respublikası Qanunu hazırlandı və qəbul edilmişdir. Heydər Əliyevin 18 aprel 2001-ci il tarixli sərəncamı ilə Gənclər, İdman və Turizm Nazirliyi yaradıldı və həmin il ÜmumdünyaTurizmTəşkilatınınüzvlüyünə qəbul olundu.

Heydər Əliyevin sərəncamı ilə "2002-2005-ci illər üçün turizmin inkişafının Dövlət Proqramı" təsdiq edilmişdir. Dövlət proqramında nəzərdə tutulan işlərin icrası nəticəsində bu gün turizm qeyri-neft sektorunun aparıcı qollarından birinə çevrilmişdir.

Yeni soial model -Heydər Əliyevin sosial iqtisadi modeli.

Ulu öndərin hakimiyyətə gəldiyi ilk illərdə müharibənin ağrılı nəticələri, qaçqı-məcburi köçkünlərin problemləri, onların sosial müdafiəsinin təşkili dövlətin qarşısında duran əsas vəzifələrdən idi. Sosial sahələrin inkişafı, əhalinin aztəminatlı təbəqəsinin sosial müdafiəsi, onlara yardımların göstərilməsi, yaşayış şəraitlərinin yüksəldilməsi üçün çoxsaylı tədbirlərin həyata keçirilməsinə ehtiyac yaranırdı. Yeni yaranmış dövlət üçün çox çətin prosesin öhdəsindən Ulu öndər dünya təcrübəsini öyrənərək və tətbiq edərək gəlməyə başladı. Heydər Əliyev 1994-cü ildə 8-11 fevral tarixlərində Türkiyəyə rəsmi səfəri çərçivəsində 1994-cü il 9 fevral tarixində tərəflər arasında "Təhsil, Texnika, Sosial, Mədəni və İqtisadi sahələrdə əlaqələr" anlaşma imzalanmışdır. Daha sonra 17 iyul 1998-ci ildə Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyəti arasında beş bölmə, beş hissə, 32 maddədən ibarət "Sosial güvənlik" sözləşməsi əldə edilmişdir. Bu sözləşmələrin nəticəsində Türkiyə modelləri ətraflı öyrənilmiş, cəmiyyətin inkişafı baxımından araşdırılmışdır. Müstəqilliyin ilk illərində sosial müdafiə sahəsində qaçqınların və məcburi köçkünlərin sosial müdafiəsinin təşkili diqqət mərkəzində olmuşdur. İlk illərdə bu yardımlar daha çox təşkilatların humanitar yardımlarına əsaslanırdısa Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra sosial cəhətdən həssas qruplar artıq dövlətin himayəsinə sığınmış, dövlətdən ayrılan ödənişlər və yardımlar hesabına öz həyatlarını müsbət istiqamətə dəyişdirməyə başlamışlar. Bundan əlavə əhalinin aztəminatlı təbəqələrinin ünvanlı sosial müdafiəsinin təşkil edilməsi məqsədilə 22 may 1996-cı ildə Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev tərəfindən imzalanmış "Aztəminatlı ailələrə verilən müavinətlərin artırılması haqqında" sərəncama əsasən müharibə əlillərinə, aztəminatlı ailələrə, şəhid ailələrinə və müddətli hərbi xidmətdə olan hərbi qulluqçuların uşaqlarına, yetim və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumlarına, Çernobıl qəzası nəticəsində əlil olmuş, yaxud vəfat etmiş valideynlərin uşaqlarına təyin olunan aylıq müavinətləri, uşağa qulluğa görə qismən ödənişli məzuniyyətdə olan şəxslərə müavinətlər, gəlirdən asılı olmayaraq uşaq doğulması və dəfn üçün birdəfəlik müavinətlərin təyin olunması müəyyən edilmişdir. (2)

1994-cü ilin 15 iyun tarixində "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi və iqtisadiyyatın maliyyə vəziyyətinin sabitləşdirilməsi tədbirləri haqqında" Fərman, Fərmandan irəli gələn vəzifələrin daha səmərəli yerinə yetirilməsi üçün "Əhalinin sosial müdafiəsi sahəsində əlavə tədbirlər haqqında" sənəd imzaladı. 1995-ci ildə qəbul edilən Konstitutsiyanın 16 –cı maddəsidə qeyd edilir: Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsinin, onun sosial müdafiəsinin və layiqli həyat səviyyəsinin qayğısına qalır. Sosial sahələrin inkişafı iə bağlı Ulu öndər 60-dan çox sənəd imzalamışdır. 1997-ci ildə əhalinin pensiya təminatının yaxşılaşdırlması üçün atılan addım təqdirəlayiqdir. Həmin ildən başlayaraq pensiyalar artırılmağa başlamış, bu isə istər sosial müavinət alan qrupların, istərsə də əmək pensiyası ilə təmin olunan əhalinin yaşayışına müsbət təsir göstərmişdir. Heydər Əliyevin əsasını qoyduğu uğurlu sosial siyasətinin nəticəsidir ki, bu gün Azərbaycanda işsizlik səviyyəsi əhəmiyyətli dərəcədə azaldılmış, yoxsulluq faizi 5-ə enmişdir.

1994-cü ildə ölkədə infilyasiya səviyyəsi 1763,5 % idi. Ölkənin valyuta ehtiyatları tükənmək üzrə idi və manat dəfələrlə ucuzlaşmışdı. Əhalinin vəziyyəti çox ağırlaşmış, əməkhaqqı 1991-ci ildən başlayaraq 8,2, əhalinin pul gəlirləri 3,6 dəfə aşağı düşmüşdü. Ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişi ilə sosial –iqtisadi inkişaf strategiyası hazırlandı. Buna müvafiq olaraq qəbul edilən qanunlar, qərarlar, dövlət proqramlarının uğurlu icrası ilə yaranmış vəziyyətdən çıxış yolu tapıldı. 1995-2003-cü illərdə dövlət büdcəsi gəlirləri 3 dəfə artmışdır.

Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra əhalinin həssas qruplarının müdafiəsi istiqamətində uğurlu addımlar atıldı, müharibədə əlil olmuş şəxslərə, sağlamlıqlarını itirən, sağlamlıq imkanları məhdud uşaqlara müavinətlər təyin edilməyə başlanıldı.Əhalinin pensiyaya ilə təminatı da həyata keçirilir, ildən-ilə pensiyaların miqdarı artırdı. Əgər 1995-ci ildə əhaliyə təyin olunan aylıq pensiyaların məbləği 1995-ci ildə 1,7 % təşkil edirdisə, artıq 2003-cü ildə 17,7 faizə çatmışdır.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi dövründə qısa iqtisadi təhlil etsək görərik ki, 1995-2003-cü illər ərzində Azərbaycan Respublikasının ÜDM-i 1,7 dəfə, dövlət büdcəsinin gəlirləri isə 4.1 dəfə, sənaye məhsullarının həcmi müqayisəli şəkildə 23,3%, kənd təsərrüfatı məhsullarının istehsalı 54,5%, respublikamızın xarici ticarət dövriyyəsi 4 dəfə artmışdır.

Ümumiyyətlə siyasi baxımdan Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsi idi ki, 1994-cü ilin mayında Ermənistanla atəşkəs əldə edilmişdir. Həmin ilin sentyabr ayının 20-də isə xarici ölkələrin neft şirkətləri ilə "Əsrin müqaviləsi" imzalandı. 1995-ci ildə keçirilən ümumxalq referendumunda Heydər Əliyevin tapşırığı və rəhbərliyi ilə hazırlanmış Azərbaycan Respublikasının

Konstitusiyası qəbul edildi. Konstitusiyanın qəbulu Azərbaycanın zəngin dövlətçilik tarixindən xəbər verir, Azərbaycanı demokratik ölkə olaraq tanıdırdı. Heydər Əliyevin gərgin əməyinin töhfəsidir ki, bugün Azərbaycan Respublikasının Konstitutsiyası inkişaf etmiş dünya ölkələrinin konstitutsiyaları ilə müqayisədə kifayət qədər mütərəqqi müddəaları ilə seçilir, insan hüquq və azadlıqlarının mühafizəçisi kimi çıxış edir. İnsan hüquqlarının bərpası və müdafiəsi istiqamətində atılan ən mühüm addımlarından biri, ölüm cəzasının ləğvidir. 1993-cü ildən ölüm cəzasının icrasına veto qoyulur, davamı olaraq 1998-ci ildə isə Şərqdə ilk dəfə olaraq Ümummilli liderimizin səyi nəticəsində Azərbaycanda bu cəza növü tamamilə ləğv edilmişdir.



Bu gün Azərbaycanda uğurla həyata keçirilən gənclər siyasətinin banisi də məhz ulu öndər Heydər Əliyevdir.1 fevral 1997-ci il tarixində Heydər Əliyev "2 fevral – Azərbaycan Gəncləri Gününün elan edilməsi haqqında" sərəncam imzalamışdır. 1999-cu ildə Heydər Əliyev tərəfindən imzalanan "Dövlət Gənclər Siyasəti haqqında" fərman bu sahəyə ayrılan xüsusi diqqətin bariz nümunəsidir.

Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 2001-ci il noyabrın 9-10-da ilə Dünya Azərbaycanlılarının I qurultayı keçirildi. Diaspor quruculuğunun əsasını təşkil edən qurultayda 36 xarici ölkədə yaşayan həmvətənlərimizin cəmləşdiyi 200-dən çox müxtəlif təşkilatdan 403 nümayəndə və 63 qonaq iştirak etmişdir(3).

Ulu öndərin qətiyyəti nəticəsində Azərbaycan Respublikası 2002-ci ildə Avropa Şurasına tamhüquqlu üzv qəbul edilmişdir. "Azərbaycanlılar! Harada olursan ol, hansı ölkədə yaşayırsan yaşa, ancaq Azərbaycan haqqında, Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü haqqında, Azərbaycan xalqının bu günü və gələcəyi haqqında düşünməlisən", – deyən azərbaycançılıq ideologiyasının banisi Ulu öndər Heydər Əliyev milli ideyanın yaranması, onun həyata keçirilməsi uğrunda mübarizə xalqın birliyi və milli süurun formalaşmasına, Azərbaycan dövlətçiliyinə, dövlətçiliyimizin inkişafına əvəzolunmaz töhfələr vermişdir. Hazırda müstəqil Azərbaycan dövləti bu siyasətin həyata keçirilməsi nəticəsində sürətlə inkişaf edir. Böyük türk dünyasının siyasi xadimi Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsi bu gün bütün dünyada qəbul edilir və layiqincə qiymətləndirilir. Bu gün Azərbaycan Heydər Əliyev yolu ilə möhkəm addımlarla irəliliyə doğru addımlayır. Ulu öndərin dövlət idarəçiliyi məktəbinin ən görkəmli nümayəndəsi Prezidentimiz İlham Əliyev atdığı addımlarla, xalqın tərəqqisi naminə görülən işlərlə Heydər Əliyev siyasi kursunun layiqli davamçısı olduğunu bir daha sübut edir.

ƏDƏBİYYAT

1. Azərbayan qəzeti,9 fevral 1994-cü il

2. Əliyev A., Qasımov N. Azərbaycanda əhalinin həyat səviyyəsinin yüksəldilməsinin aktual problemləri. Bakı: Azərbaycan, 2000, 124 s.

3. Əliyev Heydər. Müstəqillik yolu: seçilmiş fikirlər / H. Əliyev; red. Ə. Həsənov.- B.: Azərbaycan Universiteti nəşriyyatı,

4. "Sosial güvənlik" sözləşməsi.Bakı, 17 iyul 1998

5. Qasımlı, Musa. Heydər Əliyev - istiqlala gedən yol: 1969-1987-ci illər / M. Qasımlı; elmi red. Ə. Həsənov.- B.: Bakı Universiteti Nəşriyyatı, 2006

6. Mehdiyev R. Heydər Əliyev - Müstəqilliyimiz Əbədidir, Bakı, Azərnəşr, 2009,

7. Mehdiyev R. Ə. XXI əsrdəmilli dövlətçilik . Bakı. Qızılşərq mətbəəsi., 2003.

8. http://anl.az/down/meqale/azerbaycan/azerbaycan_may2009/77176.ht

9. http://serqqapisi.az/index.php/ictimai-siaysi/5562-2001-dzi-il-noyabr-n-9-10-da-dunya-azaerbaydzanl-lar-n-n-birindzi-gurultay-kechirilmishdir

10. https://www.president.az/azerbaijan/leader

11. http://www.azerbaijan-news.az/index.php?mod=3&id=2687

Açar sözlər: *dövlətçilik,rəhbərlik, konstitutsiya, uğurlu siyasət, respublika*

Key words: *statehood, leadership, constitution, successful politics, republic*

Ключевые слова: *государственность, лидерство, конституция, успешная политика, республика*

ABSTRACT

National leader Heydar Aliyev was a great personality who led the republic from July 14,1969, rendered invaluable services in the formation of national consciousness, the restoration and development of statehood traditions,and occupy a special place in world political history. The rich statehood experience of Heydar Aliyev, the political figure of the Great Turkic world, is accepted all over the world and is worthy of appreciation. Today, Azerbaijan is stepping forward with strong steps through Heydar Aliyev.

РЕЗЮМЕ

Национальный лидер Гейдар Алиев был великой личностью, которая руководила республикой с 14 июля 1969 года, оказала неоценимую помощь в формировании национального сознания, восстановлении и развитии традиций государственности и занимает особое место в мировой политической истории.

Опыт богатой государственности Гейдара Алиева, политического деятеля Великого тюркского мира, принят во всем мире и заслуживает высокой оценки. Сегодня Азербайджан продвигается с сильными шагами через Гейдара Алиев.

Mədəniyyət

XALQ POEZİYASINDA FORMA VƏ MƏZMUN DİALEKTİKASI

FƏXRƏDDİN QULİYEV
Heydər Əliyev adına
Azərbaycan Ali Hərbi məktəbi

Xalq poeziyası hər bir milli mədəniyyətin əsas daşıyıcısı, etnik, dini, etik dəyərlər sisteminin, dünyabaxışlarının ən etibarlı ifadəçisidir. Xalq poeziyası nümunələrinin təhlili xalq təfəkküründə poeziyanın ideya, məzmun və forma, struktur məsələlərinə etnik konseptual münasibətlərin formalaşdığını aşkar edir.

Forma və məzmun kateqoriyaları fəlsəfənin ilk və çoxaspektli kateqoriyalarındandır, fəlsəfi ensiklopediyalarda müxtəlif aspektlərdən şərh edilir.

Forma və məzmun təbii və sosial reallığın iki tərəfinin qarşılıqlı əlaqəsini əks etdirir: məzmun predmet və ya hadisələri yaradan element və proseslərin müəyyən qayda ilə nizamlanmış, sıralanmış məcmusu, forma məzmunun mövcudiyyət və ifadə üsulu, onun müxtəlif modifikasiyalarıdır. Başqa sözlə, məzmun tamın müəyyənedici tərəfi olaraq predmetin tərkib hissələrinin öz aralarında və digər predmetlərlə münasibətləri məcmusudur, forma məzmunun daxili təşkilidir. Məzmun gerçəklik haqqında təsəvvürlərimizin genişlənməsi və biliklərimizin inkişafını əks edirir, tamın dəyişkən, dinamik tərəfidir, forma isə hissəciklər arasında dayanıqlı əlaqələr sistemini əhatə edir, məzmuna nisbətən dəyişməyə davamlı, mühafizəkardır. [21, s. 383]. Daha ümumi şəkildə desək məzmun və forma gerçəkliyin müxtəlif obyektlərinin vəziyyət xarakteristikasıdır, məzmun predmet, hadisə və ya prosesi təşkil edən hissə, əlaqə və xassələrin vəhdətini ifadə edir, forma isə məzmunun daxili təşkili sistemi, həmin hissələrin əlaqə, nizamlama üsuludur.

Forma və məzmun münasibətləri analoji mahiyyət və hadisə, sistem və struktur münasibətləri ilə birlikdə tədqiq edilir.

Mahiyyət predmetin varlığının çoxsaylı və ziddiyyətli formaları ilə vəhdətdə onun daxili məzmunu, hadisə isə predmet mövcudiyyətinin xarici formasıdır. Mahiyyət zərurətlə bağlı olduğu halda, hadisədə təsadüflərin rolu qeyd olunmalıdır. Hadisə mahiyyətin və özünün, spesifik məzmununun daşıyıcısıdır. Hadisə buna görə heç vaxt tamamilə mahiyyətlə uyğun gəlmir və onu təhrif edir. Hadisə məzmundan zəngindir, obyektin əhəmiyyətli əlaqələrindən başqa təsadüfi münasibətləri də əhatə edir[18, s.682]. Mahiyyət ümumi, xüsusi və təkdə ən əhəmiyyətli, dəruni olandır, müəyyənedicidir, hadisə onların bilavasitə xarici ifadəsidir.

Məzmun eyni zamanda tərkib hissələrinin vəhdətindən ibarət sistem anlayışıdır, "sistem bir-biri ilə əlaqə və münasibətlərdə olan və müəyyən bütövlük və vəhdət yaradan elementlərin məcmusudur" [22, s.552]. Struktur daxili nizamlılıqdır, məzmunun zəruri komponentidir, "müxtəlif daxili və xarici dəyişmələrdə obyektin əsas xassələrini saxlamağı təmin edən dayanıqlı əlaqələr məcmusu, sistemin əsas xarakteristikası, onun invariant aspektidir"[22, s.629]. Struktur sistemin elementləri arasındakı rabitə formalarının mürəkkəbliyi və ierarxiyasını, daxili təşkili, anatomiyası və mövcudiyyət qaydalarını əks etdirir. Strukturun xassələri onu təşkil edən elementlərin xassələri ilə təyin edilir. Sistemin funksional elementləri struktura, strukturun elementləri isə sistemə təsir edir. Strukturun dəyişməsiylə obyektin məzmunu əhəmiyyətli dərəcədə dəyişir.

Poeziya gerçəkliyin qədim və effektiv inikas vasitələrindən biridir. Bu kontekstdə forma və məzmunun idrak nəzəriyyəsi kontekstində definisiyası poeziyanın eyni adlı problemlərinə aydınlıq gətirir.

Düşüncənin məzmun və forması idrak nəzəriyyəsinin fundamental anlayışlarıdır, bunların konkret mənası ilk nəzəri mücərrədlik və ideallaşdırmanın məcmusuyla təyin edilir. İnikas nəzəriyyəsinə görə düşüncənin məzmunu gerçəkliyin mücərrəd modeli, forması isə onun kateqorial strukturu, konseptual və əməliyyat sxemləridir. Belə ki, düşüncə obyektiv gerçəkliyi məzmun və formaca inikas edir, düşüncənin məzmunu bəşəriyyətin ümumi mənəvi mədəniyyətində təbiət və sosial hadisələrinin inikasıdır, yəni ictimai subyekt tərəfindəndən mənimsənilən ideallaşdırılmış təbiət və sosial reallıqdır. Düşüncənin məzmununa gerçəkliyin müxtəlif definasiyaları, yəni gerçəkliyin ümumi-mücərrəd əlaqə və münasibətləri daxildir, sonuncular müəyyən şəraitdə məxsusi məntiqi funksiyalar kimi düşüncənin formasına çevrilir [21, s.385].

Poeziya söz sənətidir, poeziayanın ontologiya və qnoseologiyası sözdə vəhdət halını alır, "söz və adda varlığın bütün mümkün olan və ağla gələn layları qovuşur, ad fizioloji, psixi, fenomenoloji, məntiqi, ontoloji sferaların mərkəzidir[17, s.44].

Hegel poziyada, ümumən incəsənətdə forma və məzmun dialektikasını müfəssəl tədqiq etmişdir. Hegelə görə poetik fantaziya diqqəti varlığın daxili və mahiyyət tərəfinə yönəldir, bu mayiyyəti formalaşdırır və obrazlarda ifadə edir [13, s. 189-190], poeziya insanı idarə edən qüvvələr haqqında biliyi ilkin mahiyyət formasında ifadə edir [14, s.170], xarici mövcud olanı daxili prinsipə uyğunlaşdırır [16 , s. 190].

İncəsənətin məzmunu ideya, forması isə hissi, obrazlı təcəssümdür. Bu iki tərəfin vasitəli ifadə olunması, sərbəst, ölçülüb-biçilmiş vəhdətdə birləşdirilməsi incəsənətin məqsədidir[12, s.75].

Beləliklə, məzmun formanın məzmuna keçidi, forma isə məzmunun formaya keçidindən ibarətdir [15, s.224]. Başqa sözlə, predmet və hadisələr onların əks tərəflərini təmsil edən öz məzmunu və formasına malikdir.

Yuxarıda təhlil olunan məzmun və forma münasibətləri Azərbaycan poeziyasında xüsusi bir mövzudur. Dahi Azərbaycan alimi Nəsirəddin Tusi şeir və qafiyə haqqında bu gün də əhəmiyyətini itirməyən elmi fikirlər söyləmişdir:Həqiqi şeir seçilmiş ahəngdar sözlərə deyilir. Əvvəli qarışıq sözlərdən ibarət olan bu kəlam yer, məna və sayına görə düzülür. Şeirdə hər bir qafiyənin özünəməxsus mövqeyi vardır. Şeirin cövhəri sözdür, siması isə, son dövr alimlərinin fikrincə vəzn və qafiyədir. Qafiyə ... mənanın surətini daha da çoxaldır. Məntiq alimlərinə görə şeirin mahiyyəti təxəyyüldür[11, s.182-183]. Tusi sözün misrada yeri, yəni indiki inversiya qanunu, ritmik vurğu yaratmaq üçün qrammatik qanunun pozulması, sözün sayı, yəni şeirin vəzni, mənaya görə isə ilk növbədə qafiyənin

semantik mərkəz rolu oynaması kimi nəzəri məsələləri hələ XIII əsrdə göstərmişdir. O, eyni zamanda qeyd edir ki, şeir yalnız ilham deyil, həm də təxəyyülün, idrak proseslərinin məhsuludur.

Dahi şairimiz Füzuli yaradıcılığında bu mövzu nəzəri və praktik cəhətdən geniş işlənmişdir, "Füzuli təkcə məzmun və forma məfhumlarının ifadəsində yüzdən çox qoşa istilahdan istifadə etmişdir" [5 , s. 55]. Şeirin məzmunu və onun məxsusi bir elm sahəsi olmasını dahi Füzuli belə ifadə edir: Elmsiz şeir əsası yox divar olur və əsassız divar ğayətdə bietibar olur [8 , 43], "Bil ki, şeir fəziləti də ayrı bir elmdir və kamal növlərindən mötəbər bir növdür"[9, s.17].

Forma və məzmun münasibətlərində sözü dürrə bənzədən böyük şair məzmunun ifadəsində söz düzümünün xüsusi əhəmiyyətini qeyd edir, forma və məzmunu cism və canla müqayisə edir: "Kəlam(söz) necə bir nazik sapdır ki, o xəzinənin dürrləri dənə-dənə bu sapa elə bir nizamla düzülmüşdür ki, heç bir məna onsuz surət ala bilmir:

Söz mənadan asılıdır, məna sözdən hər zaman,
Bir-birindən asılıdır necə ki, cism ilə can. [9 , 15].

Xalq poeziyası məzmun və forma arasındakı ziddiyyətləri, qarşılıqlı təsiri, formanın məzmuna əks təsirini daha qabarıq şəkildə əks etdirir.

Xalq poeziyası formaları ritm və metr kimi kriteriyalarla yaradılır. Ritm şeirin əsası, dayağı, zamana görə ardıcıllıq, prosesin müəyyən xarakteristikasının bərabər zaman intervallarında təkrarıdır. İntellektual, emosional ritmlər mövcuddur, emosional gərginliyin artması, azalması şəklində təzahür edir. Ritmik vahidlər ierarxiyası söz, söz birləşmələri, misra, bənd və bütöv şeir çərçivəsindəir.

Metr misradakı hecaların sayı, mütənasiblik, tarazlıq və əndazədir, formalaşan strukturun hüdudlarını, fəaliyyət konturlarını cızır. Metr statikdir, məhdudiyyətlər sistemi kimi onun üz qabığıdır, invariant sxemdir. Metr mətnin eyni ritmik elementlərinin, sillabik şeirdə vurğulu və vurğusuz hesaların bir-birini əvəzləməsidir.



Poeziyada sözlərin düzümü, nizamlığı əsas motivin adekvat, daha əhatəli ifadəsi üçün zəruridir. İnversiya açıq şəkildə göstərir ki, "sözlər zamana görə deyil, makanda öz yerini tutur, onlar makanda öz ilk mövqeyini əldə edə, yerini dəyişdirə, özü özlərinə müraciət edə və öz hərəkət əyrisini yavaş-yavaş inkişaf etdirə bilir" [23, s. 177]. İnversiya qəbul edilmiş normalardan yayınmadır, stilistik effekt, epitetləri seçmək, sözlər arasında yeni semantik əlaqə yaratmaq, cümlənin köməkçi üzvlərinin yerinin dəyişdirilməsidir[19, 260-277]. Poetik nitqdə inversiya söz və söz birləşmələrinə ifadəlilik gətirir, poetik mətndə formayaradıcı rol oynayır.

Xalq poeziyasının tədqiqinə bayatılardan başlamaq daha məqsədəuyğundur, bayatılarda etnosun bütün həyatı, sevinci, kədəri, mübarizəsi, insan, cəmiyyət, təbiət və kainat haqqında fikirləri öz əksini tapır. Bayatılar vasitəsi ilə etnosun həyat və təfəkkür tərzini öyrənmək olar. Bayatılar eyni zamanda xalq şeiri formalarının invariant əsasıdır, xalq şeiri formaları bayatılardan törəmələrdir. Dörd misra, yeddi hecadan ibarət bayatıların müxtəlif formaları mövcuddur: 1.üçüncü misradan başqa qalan misralar qafiyə ilə tamamlanır. 2. bayatı təcnisin qafiyələri cinas sistemindən ibarətdir. 3.misralarda həm qafiyə, həm də rədif olur. 4. bayatıda qafiyə ilə tərkibli cinasın qarışığından istifadə olunur.

Qafiyə və rədif assosiasiyanın oyadıcısı, poetik fikrin katalizatorudur, konstruktiv, sintetik və yaradıcıdır, semantik mərkəz, yəni attraktordur. Bayatıların topoloji strukturunun əyani təsvirində bu xassələr əsas götürülür.

Qeyd olunan bayatıların topoloji strukturları aşağıdakı kimidir:

1.Sular gəlir lilinən,
Bülbül oynar gülünən,
Bir söz dedim, küsdü yar,
Könlün aldım dilinən. [5, 118].

2. Əzizim, harayçı mən,
Carçı mən, harayçı mən,
Yar bu gün seyrə çıxıb,
Haray gül, haray çəmən. [5, 118].

● - attraktor nöqtəsi, - misra

Şəkil 1. 1 -ci və 2-ci variantların topoloji strukturu.
I struktur

3.Kəklik daşda nə gəzər?
Qələm qaşda nə gəzər?
Sən tək yarı olanın
Ağlı başda nə gəzər? [5, 145].



Şəkil 2. 3-cü variantın topoloji strukturu.
II struktur

Gəraylı, qoşma, müxəmməs və divaninin(misraların sayını nəzərə almaq və kiçik modifikasiya ilə) ikinci bəndindən başlayaraq qalan bəndləri II strukturu təkrar edir.

4.Sən yaxşı, mən də yaxşı,
Su gəlir bəndə yaxşı,
İmran dilli Aşiqi,
Salubdur bəndə Yaxşı. [6, 93].

Şəkil 3. 4-cü variantın topoloji strukturu
III struktur

Bu bayatıda mən də qafiyə, bəndə və yaxşı sözləri müxtəlif mənalarda cinas kimi işlənmişdir, bəndə yaxşı, bəndə Yaxşı tərkibli cinaslardır.

Mövcud topoloji strukturların müqayisəsi göstərir ki, kiçik həcmli bayatıda iki səviyyəli ierarxik struktur yaratmaq mümkündür(II və III strukturlar).

Yazılı ədəbiyyatdan aşıq poeziyasına keçmiş müxəmməs və divaninin də strukturunun nüvəsi bayatıdır.

Yuxarıda qeyd edildiyi kimi qafiyə və rədif şeirdə ritm yaradır, belə ki, poetik nitq baxımından yanaşdıqda adətən əsas sintaqma vurğusunun qafiyə üzərinə düşməsinə rast gəlirik. Qafiyə həm də xüsusi məna daşıdığından şeir sətri, başqa amillərlə yanaşı, fasilədən əvvəlki vurğu ilə də seçilir [1 , 24].

Bayatılar və bayatılardan yaranan xalq poeziyası rekursiv

prinsiplə, yəni ritm və metrin diktə etdiyi təməl prinsiplərinin təkrarı tətbiqi ilə formalaşır. Rekursivlik əlyetərlilikdir, öz-özünü təkrarı yaratmaqla öz mahiyyətini açır, öz inkişafını təmin edir, strukturunu formalaşdırıb tamamlayır. Qeyd edildiyi kimi rekursiyanın təməlində təkrarlar dayanır. Təkrarlar hadisə və proseslərin ardıcıllığını yaradır, eyni əməliyyatların zəncirvari davam etməsi ilə daxili əksliklərin mübarizəsini, yəni inkarı inkarla özünü inkişaf etdirmədir.

İdrak nəsəriyyəsi baxımından rekursivlik maddi və mənəvi aləmdə obyekt və proseslərin böyük bir sinfinin fundamental xəssəsidir, məhz rekursivlik şeirin maddi və mənəvi dünyanı adekvat inikas etməyini təmin edir.

Bununla yanaşı qeyd etmək lazımdır ki, "türk xalq şeirinin strukturu bütövlükdə paralelizm prinsipləri əsasında formalaşır"[20]. Paralelizm eyni qrammatik strukturların misra daxilində və qonşu misralarda təkrarıdır, xalq poeziyasında daha çox təbiət hadisələri ilə insan həyatı arasında paralellər şəklində ifadə edilir.

Bəzirganlar yük bağlamaz, gər xiridar olmasa,
Naməşhur qalmaz dünyada zatında zar olmasa.
Səng ilə xanə yapasan bir biyaban səhrada,
Tapasan qəflət yuxusun, əgər şahmar olmasa. [4, 195].

Divaninin birincə bəndində bayatının I strukturu təkrar olunur(şəkil 1.), qalan bəndlər qoşmada olduğu kimidir.

Qoşayarpaq qoşma
Çox çəkmişəm cəfa, gəl bir insafa,
And olsun müshəfa, olmam bivəfa,
Gəlmişəm təvafa, verəsən şəfa,
Ələsgır xəstədi, ocağa düşdü. [2, 153].



Şəkil 4. Qoşayarpaq qoşmanın topoloji strukturu

Qoşayarpaq qoşmanın strukturu II strukturun təkrarıdır (şəkil 2.).

Çox çəkmişəm cəfa, gəl bir insafa, olmam bivəfa, gəlmişəm təvafa, verəsən şəfa inversiyalardır, mübtəda ilə xəbərin yeri dəyişmişdir. Bənddə altı qoşa qafiyə, bir qoşma qafiyəsi, bir rədif var.

Müxəmməsin birinci bəndi.

Yüz mahi-münəvvər ola, könlüm səni istər,
Yüz şəmsi-müdəvvər ola, könlüm səni istər,
Yüz sərvi-sənubər ola, könlüm səni istər,
Yüs saqiyi-kövsər ola, könlüm səni istər,
Yüz qaməti-ər-ər ola, könlüm səni istər. [4 , 212].



Şəkil 5. Müxəmməsin birinci bəndinin topoloji strukturu.

Divaninin birinci bəndində kiçik modifikasiya ilə II struktur təkrar olunur(şəkil 2).

Xalq poeziyası formaları içərisində istər struktur universallığı, istərsə də poetik fikrin daha əhatəli ifadəsi baxımından təcnisi, məxsusi olaraq cığalı təcnisi ayrıca qeyd etmək lazımdır.

Cığaların yaranma mənşəyini aşıqların yeni-yeni ifa tərzi[10, 279], gəraylı və cığalı gəraylı, əsasən, xalq mahnıları ilə, cığalı qoşma, təcnis və cığalı təcnis qoşma ilə, divani, müxəmməs və cığalı müxəmməsi isə qəzəllə əlaqələndirirlər[10, 310].

Cığalı təcnis on bir hecalı təcnislə yeddi hecalı bayatı təcnisin üzvi sintezidir, belə ki, istər təcnisin bəndləri, istərsə də bayatı təcnislər müstəqildir, ayrılıqda bitgindir. Ancaq cinas qafiyələri ətrafında üzvi surətdə birləşərək vahid bir sistem yaratmışdır. Mərkəzdə yerləşən bayatı təcnis nüvə rolunu oynayır, əsas motivi lakonik şəkildə ifadə edir və cığalı təcnisin strukturuna simmetriklik gətirir.

Birinci bənddə təcnisin cinasları beş dəfə, qalan iki bənddə bir dəfə istifadə edilir. Birinci bənddə mövzu əsasən əhatə olunur. Qalan bəndlərdə mövzu daha geniş şərh olunur.

Könül sevdi gözəllərin xasını,
Qasidin əlində namə lim ola.
Qarşıda naməlum,

Hicran çəkdim, nə məlum?
Xoryad, evin yıxılsın,
Yurdun olsun naməlum!
Bir eyvan otaqda sürəm səfasın,
Ağ tər sinəsindən nəm əlim ola. [3 , 310]



Şəkil 6. Cığalı təcnisin birinci bəndinin topoloji strukturu.

Yuxarıda qeyd olunanlar belə bir qənaətə gəlməyə əsas verir ki, bayatının nüvə funksiyası xalq şeiri formalarını vahid bir sistem halına gətirir. Bu sistemin daxili bütövlüyü xalq şeiri formalarının üzvi vəhdəti, həmçinin bir şeir formasından digər şeir formasına keçid üçün zəruri və kafi şərtdir.

Bir söz sənəti kimi xalq poeziyasında sözün rolu dominantdır, şeirin forma və strukturu əsas rol oynayır. Rədif şeirin adıdır, qafiyələr rədifdəki məna çaıarlarını açmağa xidmət edir, bu mənada poeziya əsərinin bütövlüyü, məzmun əhatəliliyi bilavasitə qafiyə və rədifin - attraktorların ustalıqla seçilməsindən asılıdır.

Əsərin bədii forma xüsusiyyətlərinin onun poetik məzmununa uyğunluğu bədii formanın və incəsənət əsərinin bütövlüyünün əsas meyarıdır. Bu uyğunluğun təməlində rekursiya prinsipi, fraktallıq və heterogenlik xassələri dayanır.

Rekursiya prinsipi həm idrak proseslərinin, həm də xalq şeirinin formalaşmasının əsas prinsipidir.

Düşüncə və söz sənətinin strukturuna heterogenlik xasdır, belə ki, düşüncə və sözdə rasionalla irrasional, məntiqlə intuisiya, distretlə kontinuum vəhdət halındadır.

Fraktallıq əsərdə leytmotivin mikromotivlər şəklində açılışında, misra, bənd və bütöv şeirin struktur izomorfluğunda təcəssüm olunur.

ƏDƏBİYYAT

1. *Ağayeva F., Azərbaycan dilinin intonasiyası, Bakı:APİ-nin nəşri, 1978, 92 s.*
2. *Aşıq Ələsgər, əsərləri, dastan-rəvayətlər, xatirələr..., Bakı:Şərq-Qərb, 1999, 578 s.*
3. *Aşıq Hüseyn Bozalqanlı, seçilmiş əsərləri, Bakı: Vətən, 2015, 316 s.*
4. *Azərbaycan aşıqları və el şairləri, 375 s. Bakı:Elm, 1983, 375 s.*
5. *Bayatılar, Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1956, 582 s.*
6. *Bayatılar, Bakı:Elm,1977, 328 s.*
7. *Əliyev Sabir, Füzuli, Bakı:Azərbaycan dövlət nəşriyyatı, 1996, 316 s.*
8. *Məhəmməd Füzuli, əsərləri, I cild, Bakı:Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı, . 1958, 466 s.*
9. *Məhəmməd Füzuli, əsərləri, III cild, Bakı:Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı, 1958, 466 s.*
10. *Paşa (Paşayev) Sədnik Pirsultanlı, Azərbaycan şifahi xalq şeiri və heca vəzninin inkişaf tarixi, Bakı: Təknur, 2013, 482 s.*
11. *Tusi N., «Ritorika adlandırılan şeir haqqında, Azərbaysan jurnalı, Bakl:Kommunist nəşriyyatı, 1984, №11, 192 s.*
12. *Гегель, Лекции по эстетике: в 4-х т., т. I., М:Искусство, 1968, 312 с.*
13. *Гегель, Работы разных лет, в двух томах. Т.2., М.: Мысль, 1971, 630с.*
14. *Гегель, Сочинения, том II.Москва-Ленинград: Соцэкгиз 1934, 683 с.*
15. *Гегель, Сочинения, том I, Москва - Ленинград Государственное издательство 1929, 368 с.*
16. *Гегель, сочинения, том, XIV, М.: Издательство социально-экономической литературы, 1958. 440 с.*
17. *Лосев А.Ф. Философия имени / Самое само: Сочинения, М.: ЭКСМО-Пресс, 1999, 1024 с.*
18. *Новая философская энциклопедия, Т. 3, М.: Мысль, 2010, 692 с.*
19. *Томашевский Б.В., Стилистика, Л.: ИЗД. ЛГУ, 1983, 288 стр.*
20. *Трубецкой Н. С., О туранском элементе в русской культуре www.hrono.ru/statii/turan_ru.html*
21. *Философская энциклопедия в 5-ти томах, том V, М: Советская энциклопедия, 1970, с.140-144, 740 с. Структура,*
22. *Философский энциклопедический словарь, М.: Советская энциклопедия, 1989, 725.*
23. *Фуко М. Слова и вещи. Археология гуманитарных наук. СПб: A-cad, 1994, 408 с.*

Açar sözlər: *forma, məzmun, rekursiya, fraktallıq, heterogenlik.*

Ключевые слова: *форма, содержание, рекурсия, фрактальность, гетерогенность.*

Key words: *form, content, fractality, recursiveness, heterogeneity.*

Ф.А.Кулиев

Диалектика формы и содержания в народной поэзии.

РЕЗЮМЕ

Статья посвящена исследованию диалектики формы и содержания в народной поэзии. Народная поэзия создана на основе закономерности ритма, метра и параллелизма. По мере развития знания этноса о природе, обществе, вселенной и поэтическом искусстве рождаются новые темы, которые получают свое поэтическое выражение в новых формах стихотворения. Принцип рекурсии формирует фрактальную структуру народной поэзии. Взаимопереход между формой и содержания происходит с помощью свойств фрактальности, рекурсивности и гетерогенности.

F.A. Quliyev

Dialectics of form and content in folk poetry.

SUMMARY

The article is devoted to the study of dialectics of form and content in folk poetry. Folk poetry is created on the basis of the regularity of rhythm, meter and parallelism. As the knowledge of the ethnos develops about nature, society, the universe and poetic art, new themes are born, which receive their poetic expression in new forms of the poem. The principle of recursion forms the fractal structure of folk poetry. The mutual transition between form and content occurs through the properties of fractality, recursiveness and heterogeneity.

Sosial həyat

MÜASİR QLOBALLAŞMA ŞƏRAİTİNDƏ AZƏRBAYCANDA İNSAN KAPİTALI VƏ ONUN İNKİŞAF PROBLEMLƏRİ

LAMİYƏ BAĞIRLI
Azərbaycan Turizm və Menecment Universiteti

Dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan Respublikası ictimai həyatın bütün sahələrində öz suveren hüquqlarını gerçəkləşdirməyə və müstəqil siyasət yeritməyə başladı. Müxtəlif mülkiyyət formaları əsasında yaradılan iqtisadi sistem, bazar iqtisadiyyatına keçid və dünya iqtisadi məkanına inteqrasiya bu siyasətin başlıca istiqamətlərini təşkil edirdi. Bütün bunların nəticəsi olaraq, ölkəmizdə aparılan müstəqil dövlət quruculuğu prosesində iqtisadi islahatların və inkişafın mahiyyət etibarı ilə yeni bir modelinin - Azərbaycan modelinin yaranmasını ən böyük nailiyyət hesab etmək olar.

XXI əsrin ilk onilliyində sürətlə inkişaf edən və yayılan informasiya texnologiyaları, yeni vüsət almış qloballaşma prosesləri ölkələrin sosial-iqtisadi həyatına güclü nüfüz etməkdədir. Bu mənada qloballaşma dövrünün əsas prioritet istiqamətləri: innovasiya fəaliyyətinin keyfiyyətcə yeni müstəvidə genişlənməsi ilə bütün dünyada iqtisadi və təsərrüfat proseslərinin dəyişmə tempi, innovativ yeniliklərin yayılması, onların istehsal sahəsində tətbiqi misli görünməmiş şəkildə sürətlənir. Bu qloballaşmanın "müsbət yüklü" təsiri olmaqla getdikcə daha çox ölkənin innovasiya sahəsindəki nailiyyətlərdən, qabaqcıl texniki standartlardan və idarəetmədə yeni metodlardan yararlanmasına imkan verir. Ehtimallara görə, gələcəkdə dünya iqtisadiyyatında artım məhz bu amilin təsiri nəticəsində baş verəcəkdir.

Beynəlxalq bazarlarda ixtisaslaşmaya üstünlük verən, istehsal texnologiyasını, innovasiya potensialını inkişaf etdirən və bununla da, yüksək əlavə dəyər yaradan sahələri təşviq edən ölkələrin qlobal və regional səviyyədə rəqabətə davamlı olması gözlənilir. Bu şəraitdə Azərbaycanın məqsədi dünya ölkələrinin inkişaf sürəti ilə müqayisədə geriliyə yol verməməkdir. Artıq indidən ənənəvi iqtisadiyyatdan "bilik iqtisadiyyatına" keçidin əsası qoyulmalı, bunun üçün həlledici vasitə olan insan kapitalının inkişafı ön plana çəkilməlidir. Geniş imkanlarla yanaşı, kəskin riskləri də gətirən qloballaşma beynəlxalq miqyasda istehsalın, ticarətin, kapital axınının və əmək miqrasiyasının sərbəstləşməsi yollarını kəskin artırmışdır. Bu isə resursların yenidən bölüşdürülməsinə, həmçinin beynəlxalq rəqabətin güclənməsinə gətirib çıxarır. Azərbaycan üçün bu həm inteqrasiya baxımından yeni imkanlar açır, həm də sosial-iqtisadi inkişafın istiqamətində, lokal regional

dairə ilə məhdudlaşmamağı, müxtəlif iqtisadi məkanların təsərrüfat əlaqələrində və bazarlarında iştirakdan yararlanmağı zəruri edir. Qloballaşmanın səciyyəvi xüsusiyyətlərindən biri də yeni texnologiyaların, yeniliklərin yayılması kimi müsbət təsirli amillə yanaşı, mənfi yüklü iqtisadi proseslərin də yayılması, bu proseslərin ümumdünya təsərrüfat inteqrasiyasına cəlb olunmuş ölkələri öz əhatə etməsi bacarığıdır.

Müasir qloballaşma prosesləri bəşər cəmiyyətinin sosial-iqtisadi həyatının dəyişiklərə məruz qalması ilə xarakterizə olunur. Bu dəyişikliklərin əsasında XX əsrin ikinci yarısından etibarən meydana çıxan və hal-hazırda özünün inkişaf mərhələsində olan informasiya cəmiyyətinin və ona xas olan innovativ iqtisadiyyatın yaranması və inkişafı yeni bir nəzəriyyənin yaranışına təkan vermiş və obyektiv əsas olmuşdur. Nəticədə XX əsrin sonlarında amerikan alim-iqtisadçıları Q.Bekker və T.Şults tərəfindən müasir informasiya cəmiyyətinin və innovativ iqtisadiyyatın mahiyyət və məzmununu mükəmməl ifadə edə bilən insan kapitalı nəzəriyyəsi yaradılmışdır.

Qeyd olunmalıdır ki, tarixi inkişaf prosesində insan amilinin cəmiyyətin inkişafındakı rolu daha dəqiq və düzgün başa düşüldükcə, məhsuldar qüvvələrin mühüm tərkib hissəsi kimi onunla bağlı yeni anlayışlar – "iş qüvvəsi" (XIX əsrdə), "əmək ehtiyatları" (XX əsrin 20-ci illərində), "əmək potensialı" (XX əsrin 70-80-ci illəri və hal-hazırda), "insan amili" (XX əsrin 80-ci illərinin sonu-90-cı illərinin əvvəlləri), "insan kapitalı" (XX əsrin 90-cı illərinin əvvəli) anlayışları meydana gəlmişdir. Bugün də, elmi, iqtisadi ədəbiyyatlarda və real həyatda bu anlayışlardan geniş istifadə edilir. Ölkənin intellektual insan potensialını formalaşdıran, bütövlükdə xalqın, eləcə də hər bir fərdin gündəlik həyatında onun həyata keçirilməsini şərtləndirən amillərin nəzərə alınması, lazım gəldikdə onlara yenidən baxılması, təshih edilməsi və bundan sonra istifadə olunması zamanı bu anlayışlardan istifadə edilməsi xüsusi əhəmiyyətə daşıyır.

Yuxarıda qeyd olunduğu kimi, "insan kapitalı" anlayışı ilk dəfə amerika iqtisadçısı Teodor Şults tərəfindən irəli sürülmüş, sonradan onun həmyerlisi Qeri Bekker bu anlayışı daha da inkişaf etdirmişdir. T.Şults insan kapitalına yatırımların səmərəliliyini ön plana çəkərək insan davranışlarına iqtisadi yanaşmanın formulunu işləyib hazırlamışdır. Q.Bekkerə görə insan kapitalı insanın əldə etdiyi pul gəlirləri axınına təsir göstərən şəxsi keyfiyyətlərdir. İqtisadi tədqiqat və ədəbiyyatlarda isə insan kapitalı bir qayda olaraq insanın şəxsi keyfiyyətlərinin, yəni insanın əməyinin səmərəliliyinə təsir göstərən qabiliyyət və bacarıqlarının məcmusu kimi şərh edilir.

"İnsan kapitalı" anlayışı ilk dəfə işlədildikdə insanın əmək qabiliyyətinin, iş təcrübəsinin artırılması üçün onun təhsilinin və peşəkar biliklərinin artırılması nəzərdə tutulurdu. Sonralar "insan kapitalı" anlayışının məzmunu daha da genişlənməyə başladı. Bu anlayışı araşdıran Dünya Bankının ekspertləri "insan kapitalı"na ailələrin qida, geyim, mənzil, təhsil, səhiyyə və mədəniyyət üçün ayırdığı xərclərin də əlavə edilməsinin məqsədəuyğunluğunu irəli sürmüşlər. Deməli, insan kapitalının formalaşması və inkişafı üçün insanın dünyaya gəldiyi andan təbii olaraq ona verilən imkan və bacarıqlarla kifayətlənmək olmaz. İnsan kapitalının formalaşması və inkişafı üçün insana mükəmməl təhsil, peşə bilikləri verilməli, keyfiyyətli təlim keçirilməli, işgüzar fəaliyyət nəticəsində mükəmməl vərdişlər qazanmaq üçün müvafiq imkanlar yaradılmalı, mənzil-məişət və digər sosial-iqtsadi problemlərinin həllində köməklik göstərilməlidir.

Qeyd olunanlardan belə nəticəyə gəlmək olar ki, "insan kapitalı" geniş anlamda ölkə iqtisadiyyatının, cəmiyyətin və ailənin inkişafının həlledici amilidir. Əgər bu anlayışa tərif verməli olsaq onu aşağıdakı kimi ifadə etmək olar: "İnsan kapitalı – insanın ölkə iqtisadiyyatının inkişafına və bütövlükdə cəmiyyətin ehtiyaclarının daha dolğun ödənilməsinə yönəlmiş bilik, bacarıq və vərdişlərinin məcmusudur". "İnsan kapitalı" anlayışının məzmununun bu cür ifadə edilməsi, insan kapitalının formalaşması üçün həm fərdin özünün, həm də cəmiyyətin (dövlətin) qarşısında bir sıra tələblər və vəzifələr qoyur. Təbiidir ki, ilk növbədə hər bir fərd öz potensialının artırılmasında maraqlı olmalıdır. Bunun üçün o, yüksək səviyyəli təhsil, hərtərəfli biliklər almağa can atmalı; daim ixtisas, peşə üzrə bilik və vərdişlərinin təkmilləşdirilməsinə çalışmalı; mütəşəkkil, işgüzar olmalı; cəmiyyətin mənəvi dəyərlərini mənimsəməli və onlara riayət etməlidir.

Son illər insan kapitalı mövzusu Azərbaycanda da getdikcə daha çox aktuallıq kəsb etməyə başlamışdır və onun mahiyyəti, məzmunu haqqında müxtəlif fikirlər, mülahizələr irəli sürülür. Lakin təəssüflə qeyd etməliyik ki, Azərbaycanda insan kapitalının

formalaşması ilə bağlı hələ də müəyyən problemlər mövcuddur. Bunun başlıca səbəblərindən biri ölkəmizin zəngin təbii sərvətlərə, xüsusilə də, neft-qaz xammalına malik olması ilə əlaqədardır. Ancaq dünyada baş verən son hadisələr bir daha göstərdi ki, ölkə iqtisadiyyatının inkişafı, onun istehsal istehlakı mallarına, eləcə də cəmiyyətin istehlak predmetlərinə olan tələbatının ödənilməsində hasilat sənayesindən çox, məhz emal sənayesi aparıcı rol oynayır ki, onun da inkişafı, digər amillərlə yanaşı ilk növbədə, insan kapitalının formalaşmasından asılıdır.

Ona görə də müasir dövrdə ölkəmizin qarşısında duran ən vacib məsələlərdən biri, mövcud təbii sərvətlərdən maksimum istifadə etməklə yanaşı, onlardan əldə edilən vəsaitlərin əhəmiyyətli hissəsinin insan kapitalının formalaşdırılmasına yönəldilməsindən ibarətdir. Qeyd etmək lazımdır ki, son illər bu istiqamətdə müəyyən işlər görülür: Azərbaycanlı tələbələrin xaricdə təhsili ilə bağlı "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xaricdə təhsili üzrə Dövlət Proqramı" , "Azərbaycan Respublikası ümumtəhsil məktəblərinin İKT ilə təmin olunması" proqramı (2005-2007-ci illər)", "2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılmasına dair Dövlət Proqramı" və s.proqramların qəbul edilməsi və icrası, Elmin İnkişafı Fondunun və Bilik Fondunun yaradılması, neft kapitalının insan kapitalına çevrilməsi ilə bağlı "qara qızılın insan qızılına çevrilməsi" siyasəti çərçivəsində atılan addımlar təqdirəlayidir. Azərbaycan Respublikasında neftdən gələn gəlirlərin insan kapitalına yönəldilməsi prosesi uğurla həyata keçirilməkdədir. Bunu konkret yeni məktəb binalarının tikilib istifadəyə verilməsi, yeni təhsil müəssisələrinin açılması, yeni təhsil standartlarının müəyyən edilməsi, bilikli və qabiliyyətli uşaqların dövlət vəsaiti hesabına təhsilə cəlb edilməsi və onlara təqaüd verilməsi, xarici ölkələrdə təhsilə cəlb edilmək imkanlarının yaradılması kimi mühüm göstəriciləri göstərmək olar.

Ancaq bu addımlar ölkəmizdə insan kapitalının formalaşması üçün yetərli olmaya bilər. İnsan kapitalının formalaşmasında əsas yükü dövlətlə bərabər vətəndaş cəmiyyəti də öz üzərinə götürməlidir. Bu gün ölkəmizin ali məktəblərində yüksək bilikli gənc mütəxəssislər yetişir, xaricdə təhsil almış gənclərimiz ölkəyə qayıdır. Ancaq onların öz bilik və bacarıqlarını tətbiq etmək üçün ölkəmizdə kifayət qədər iş yerləri mövcud deyildir. Bu gün Azərbaycanda açılan yeni iş yerlərinin mütləq əksəriyyəti ticarət və xidmət sahələrinə aiddir. Elmin, texnika və texnologiyanın son nəaliyyətlərinə cavab verən, yüksək bilik və bacarıq tələb edən istehsal müəssisələrinin sayı azdır. Belə vəziyyət, təbii ki, gənclərin yüksək bilik almağa olan həvəslərinə mənfi təsir göstərir.

Sürətlə yeniləşən Azərbaycan Respublikasında təhsil sisteminin insan kapitalının inkişafı çağırışlarına cavab verməsi istiqamətində yeni addımların atılmasına və ümumi təhsilin keyfiyyət göstəricilərinin Avropa standartlarına uyğunlaşdırılmasına ehtiyac vardır. Təhsilin keyfiyyətinin daha da yaxşılaşdırılması üçün təhsili idarəetmə sisteminin yenidən qurulması, bu sahədə insan resurslarının inkişaf etdirilməsi və insan kapitalının nüfuzunun artırılması zəruridir.

Fikrimcə, Azərbaycanda insan kapitalının formalaşması və inkişafı üçün kifayət qədər imkanlar vardır və aşağıda qeyd edilən istiqamətlərdə tədbirlərin həyata keçirilməsi bu imkanlardan istifadə edilməsinə imkan və zəmin yaradar:

- ilk növbədə ölkəmizin ali məktəblərinin, xüsusilə də dövlətə məxsus ali məktəblərin, maddi- texniki bazası əsaslı şəkildə yeniləşdirilməli, kitabxana fondu yeni ədəbiyyatlarla zənginləşdirilməli, kompyüter mərkəzləri genişləndirilməli, ali məktəblər sürətli internetlə təmin edilməlidir;
- təhsildə ciddi, real islahatlar həyata keçirilməli, ali təhsil

müəssisələrində təhsilin keyfiyyətinə nəzarət gücləndirilməli, tələbələrə yüksək biliklərin verilməsində professor-müəllim heyətinin marağının təmin edilməsi, buna mənfi təsir edən neqtiv halların tamamilə aradan qaldırılması məqsədilə, onların sosial tələbatının daha dolğun ödənilməsi istiqamətində əsaslı tədbirlər görülməlidir;

- tələbələrin yüksək bilik almağa həvəsləndirilməsi, onların əsas diqqətinin yalnız tədris prosesinə yönəldilməsi üçün sosial vəziyyətlərinin yaxşılaşdırılması istiqamətində müvafiq tədbirlər görülməli, onların təqaüdləri artırılmalıdır;

- ölkəmizin ali məktəb tələbələrinin yüksək bilik almalarına şərait yaratmaq üçün onalrın xarici ölkələrin nüfüzlü ali məktəblərində təcrübə keçmələrinə, elmi fəaliyyətlə məşğul olmalarına imkan yaradılmalı, tez-tez beynəlxalq elmi konfranslarda və olimpiadalarda iştirak edə bilmələri üçün yetərli maliyyə vəsaiti ayrılmalıdır;

- insan kapitalının formalaşması istiqamətində həyata keçirilən tədbirlər, ölkədə yeni texnika və mütərəqqi texnologiyalara əsaslanan istehsal müəssisələrinin yaradılması ilə paralel aparılmalı və üzvi surətdə əlaqələndirilməlidir;

- ölkəmizdə insan kapitalının formalaşması daim dövlətin diqqət mərkəzində olmalıdır. Bu məqsədlə xüsusi Dövlət Proqramının qəbul edilməsi və ya Dövlət Neft Fondunun hesabına İnsan Kapitalı Fondunun yaradılması məqsədəuyğun olardı.

İnsan kapitalı intellekt, bilik, keyfiyyətli və məhsuldar qüvvədir ki, onun sayəsində əməyin təşkili, əmək intensivliyi və əmək intizamını təmin etmək mümkün olur, bu da əmək məhsuldarlığının artırılmasına gətirib çıxarır. Məhz müasir bazar rəqabəti şəraitində qarşıda duran başlıca məqsəd də elə budur: əmək məhsuldarlığının artırılması. Əmək məhsuldarlığının artırılması ümumi iqtisadi artıma zəmin yaradan başlıca amildir. Xalqın rifahının yüksəldilməsində insan kapitalının əhəmiyyətli dərəcədə xüsusi yeri və rolu var. İnsan - kapital toplayan, təbii qaynaqların bölüşdürülməsini həyata keçirən, sosial, iqtisadi və siyasi təşkilatlar quran və milli inkişafı irəli aparan faktordur. Ölkənin inkişafının təmin edilməsi insanların bilik və qabiliyyətlərindən çox asılıdır. Buna görə də davamlı milli inkişafa nail olmaq üçün insan kapitalının inkişafına çalışmaq və bunu hər sahədə ön planda tutmaq lazımdır. Bunun üçün isə sosial-iqtisadi sahələrin hər birinin inkişafı və onların vəhdətdə dəstəkləməsi ilə dəyər yaratmaq lazımdır.

Azərbaycanda həyata keçirilən uğurlu islahatlar siyasəti bu gün imkan verir ki, əldə olunan gəlirlər humanitar sahələrə, təhsilə, səhiyyəyə, ölkənin müdafiəsinə və yeni texnologiyaların tətbiq olunmasına yönəldilsin. Gənclərimiz bilikli olmalı, dünyada gedən prosesləri daim diqqətdə saxlamalı, yeni texnologiyalara sahib çıxmalıdır. İnsan kapitalı inkişaf etmiş ölkələrin bu yolla irəliləyişə nail olmaları göz qabağındadır. Bu ölkələrin çoxu təbii resurslar hesabına yox, intellektual potensiala, yeni texnologiyaların yaradılmasına, tətbiqinə görə inkişaf edirlər. İnkişaf etməkdə olan ölkələr məhz bu yolu seçməklə inkişafa nail olmaq istəklərini ortaya qoymuşlar. Azərbaycanda insan kapitalının zəngin elmi bazaya söykəndiyini nəzərə alsaq, elmi yeniliklər sahəsinə yatırılan kapitalın zəruri əhəmiyyət daşıdığını təyin etmək olar.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı proqramı. http://edu.gov.az/az/page/83/601

2. 2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sistemininin iformasiyalaşdırılması üzrə Dövlət Proqramı. http://edu.gov.az/az/page/83/599

3. Əliyeva Ş.T. Kiçik və orta biznesin inkişafı və məşğulluq problemləri. Bakı, Elm, 2005, 288 səh.

4. İnsan kapitalına qoyulan investisiyalar. http://www.azerbaijan-news.az/index.php?mod=3&id=27100

5. Muradov Ş.M. İnsan potensialı: əsas meyillər, reallıqlar, problemlər. Bakı, Elm, 2004, 656 səh.

6. Muradov Ş.M. Müasir mərhələdə insan potensialının inkişafının idarə edilməsinin bəzi nəzəri-metodoloji məsələləri.// Humanitar və ictimai elmlər seriyası (İqtisadiyyat). Bakı,2006, № 3-4, səh. 47-57.

7. Маршалл А. Принципы экономической науки. Т.1. М.: Прогресс, 1993. - 350 с.

8. Gary S. Becker (1993, 3rd ed.). Human Capital: A Theoretical and Empirical Analysis, with Special Reference to Education. University of Chicago Press, Chicago, 1964, 412 p.

9. Schultz T. Investment in Human Capital /American Economic Review, 1961, № 51.1, p. 1-17.

10. http://edu.gov.az/upload/file/xaricde-tehsil-dovlet-proqrami.pdf

Açar sözlər: *insan kapitalı, əmək ehtiyatları, məhsuldar qüvvələr, iş qüvvəsi*

İSTİNADLAR

1. *Schultz T. Investment in Human Capital /American Economic Review, 1961, № 51.1, p. 1-17.*
2. *Gary S. Becker (1993, 3rd ed.). Human Capital: A Theoretical and Empirical Analysis, with Special Reference to Education. University of Chicago Press, Chicago, 1964, 412 p.*
3. *Muradov Ş.M. İnsan potensialı: əsas meyillər, reallıqlar, problemlər. Bakı, Elm, 2004. səh. 208*
4. *Schultz T. Investment in Human Capital /American Economic Review, 1961, № 51.1, p. 1-17.*
5. *Gary S. Becker (1993, 3rd ed.). Human Capital: A Theoretical and Empirical Analysis, with Special Reference to Education. University of Chicago Press, Chicago, 1964, 412 p.*
6. *Маршалл А. Принципы экономической науки. Т.1. М.: Прогресс, 1993. - 350 с*
7. *İnsan kapitalına qoyulan investisiyalar. http://www.azerbaijan-news.az/index.php?mod=3&id=27100*
8. *http://edu.gov.az/upload/file/xaricde-tehsil-dovlet-proqrami.pdf*
9. *Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı proqramı. http://edu.gov.az/az/page/83/601*
10. *2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sistemininin iformasiyalaşdırılması üzrə Dövlət Proqramı. http://edu.gov.az/az/page/83/599*

İdarəetmə

"DÖVLƏT İDARƏETMƏ SİSTEMİ" ANLAYIŞI: MAHİYYƏTİ VƏ STRUKTURU

NİGAR AĞAYEVA
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası

Tarixi təcrübə göstərir ki, hər bir cəmiyyətin inkişafı onun optimal idarə edilməsindən, çevik mexanizmlərin və idarəetmə sisteminin hazırlanmasından kifayət qədər asılı olur. Məhz bu baxımdan dövlət idarəetmə sistemi anlayışının məzmun etibarilə təhlili həm elmi-nəzəri, həm də praktiki əhəmiyyət daşıyır.

Dövlət idarəetmə sisteminin məzmunca təhlili bir sıra anlayışlara aydınlıq gətirilməsini tələb edir. Belə anlayışlara "idarəetmə", "dövlət idarəetməsi", "sistem" və s. aiddir. İlk növbədə idarəetmə anlayışına diqqət yetirək.

İdarəetmə insanın fəaliyyət növlərindən olub, onun məqsədi idarə olunan obyektdə müəyyən nizamın yaradılmasıdır. Göründüyü kimi bu anlayışın məzmunu kifayət qədər dar, həcmi isə genişdir. Ona görə də idarəetmənin tərifinin verilməsi heç də asan deyil. Elmi ədəbiyyatlarda idarəetmə anlayışına müxtəlif təriflərin verilməsi bununla əlaqədardır. Belə təriflərdən birini rus tədqiqatçısı İ.N.Qluxix vermişdir. Onun fikrincə "idarəetmə deyildikdə hansısa sistemə, bu sistemin vəziyyəti, yaxud davranışında arzu edilən dəyişikliklər məqsədilə təsir başa düşülür".(1, s.16) Tədqiqatçı M.Tağıyevin fikrincə "idarəetmə (burada birbaşa dövlət idarəetməsi nəzərdə tutulur) dedikdə dövlətin qarşısında duran məqsədlərə nail olunması üçün dövlət hakimiyyəti orqanları tərəfindən həyata keçirilən, insanların davranışını və hərəkətlərini istiqamətləndirən, onların fəaliyyətini təşkil və tənzim edən məqsədyönlü təsiretmə başa düşülür. İdarəetmə sosial sistemin nizama salınması, həyatın bütün sahələrində ictimai münasibətlərin ümumi məqsədlərə nail olunması üçün əlaqələndirilməsi deməkdir". (2, s.158)

Buradan aydın olur ki, "idarəetmə" anlayışına heç də onun bütün əlamətlərini özündə ehtiva edən tərif verilməsi mümkün deyil. Belə

olduqda anlayışa tərif verilməsinin digər üsullarından istifadə etmək məqbuldur. Bu üsullara anlayışın ən ümümi və mühüm əlamətlərinin sadalanması da aiddir. Fikrimizcə, idarəetməyə aşağıdakı qaydada verilmiş tərif daha məqbul hesab edilə bilər:

1)Müəyyən informasiya əsasında çoxsaylı mümkün variantlar içərisindən seçilmiş və obyektin arzulanan hərəkətini (fəaliyyəti, davranışı) təmin edəcək, qarşıya qoyulmuş məqsədə çatdıracaq təsirin formalaşdırılması və gerçəkləşdirilməsi;

2)Obyektə çoxsaylı mümkün təsirlər içərisindən, bunun üçün mövcud informasiya əsasında seçilmiş təsir olub, mövcud obyektin fəaliyyət və yaxud inkişafının yaxşılaşdırılması;

3)Zəruri və kafi üsullar, vasitə və təsirlərin köməyi ilə məqsəd və bu məqsədə yetişmə faktının (nəticənin) müəyyənləşdirilməsi;

4)Məqsədlər və bu məqsədlərə nail olmaq üçün üsulların axtarılması və genişləndirilməsi üsullarının axtarılması və gerçəkləşdirilməsi prosesi;

5)İdarəetmə obyekti adlandırılan mühitin müəyyən hissəsinə elə bir məqsədyönlü təsirin təşkili prosesidir ki, bu təsirin nəticəsində həmin obyektlə qarşılıqlı təsirdə olan subyektin tələbləri ödənir;

6)Səbəb-nəticə münasibətlərinin elə ifadəsidir ki, bu zaman sistemin arzulanan nəticəyə gətirəcək davranışı meydana gəlir (sistem məqsədinə çatır, yaxud problemi həll edir);

7)Müxtəlif təbiətli (bioloji, sosial, texniki) təşkilatlanmış sistemlərin, onların müəyyən strukturunun qorunub saxlanılmasını, fəaliyyət rejiminin dəstəklənmə funksiyası, bu sistemlərin proqram və məqsədlərinin gerşəkləşdirilməsi;

8)İdarəetmə -təşkilatlanmamış kütlənin səmərəli və konkret məqsədlərə malik olan qrupa çevirən xüsusi fəaliyyət növüdür (Piter Draker);

9)Stafford Birin klassik tərifi: idarəetmə sistemin dəyişənlərinə təsir etmək yolu ilə onu yeni vəziyyətə köçürməkdir.(3, s.13)

İdarəetmə anlayışının məzmununun aşkarlanması ilə yanaşı, bu anlayışın həcmini də müəyyənləşdirmək lazımdır. Bu məqsədlə ilk növbədə idarəetmənin obyekti və subyektinin nə olmasına diqqət yetirək. Verilmiş tərifə görə idarəetmənin obyekti dedikdə idarə edilən altsistem (yəni, nə idarə olunur) başa düşülür. İdarəetmənin subyekti dedikdə isə idarə edən altsistem başa düşülür (yəni kim idarə edir).(3, s.14) Yalnız bundan sonra idarəetmə anlayışının həcmini aşkarlamaq olar. Bu məqsədlə, məntiqi qaydalara görə anlayışın təsnifatı, yaxud bölgüsü verilməlidir. Tədqiqatımız üçün əsas maraq doğuran idarəetmənin obyekti üzrə bölgü əhəmiyyət kəsb edir. Bu sahədə mövcud tədqiqatlara əsaslanaraq idarəetmə obyektinə görə belə təsnif edilə bilər:

-Təbii idarəetmə –təbiətdə baş verən proseslərin (bitkilərin inkişafı, su cərəyanlarının hərəkəti, vəhşi heyvanlar aləminə məqsədli müdaxilə və s.) idarəedilməsi;

-Texniki idarəetmə –yaradılmış obyektlərin (avtomobil, müxtəlif təyinatlı cihazlar və s.) idarəedilməsi;

-Sosial idarəetmə –insanların, onların arasında münasibət və davranışların idarəedilməsi.

Burada biz yalnız sosial idarəetmə haqqında danışacağıq. Çünki dövlət idarəetməsi onun xüsusi halı kimi çıxış edir.

İndi isə dövlət idarəetməsi anlayışının məzmununa diqqət yetirək. "Dövlət idarəetməsi inzibati-dövlət aparatının köməyi ilə həyata keçirilən siyasi və inzibati qərarların qəbulu sistemini əks etdirir".(4, s.84)

Siyasi-hüquqi ədəbiyyatlarda dövlət idarəçiliyinə verilmiş bütün təriflərdə əsas diqqət onun mühüm əlamətinə yönəlir: dövlətin müvafiq sistemin nizamlanması, təşkili və ona tənzimləyici nüfuz edilməsi üçün ictimai münasibətlərə məqsədyönlü praktiki təsiridir. Qeyd etmək zəruridir ki, belə təsir məhz dövlətin gücü ilə, yəni idarəetmə prosesində metod və vasitələrin hakimiyyət səciyyəsi ilə təmin olunur. Dövlət hakimiyyətinin əsas vəzifəsi icra hakimiyətini gerçəkləşdirməkdir. Təşkilati nöqteyi nəzərdən yanaşdıqda dövlət idarəetməsi –idarəetmə subyektinin (yəni, dövlətin və onun xüsusi orqanları, yaxud səlahiyyətli şəxslərinin) idarəetmə obyektinə (cəmiyyət, vətəndaş və s.) amiranə nizamlayıcı təsiridir. Daha konkret deyilərsə dövlət idarəetməsi –müxtəlif sahələr və sosiomədəni, təsərrüfat və inzibati-siyasi quruculuq sferalarında dövlətin idarəetmə funksiyalarını yerinə yetirən dövlət icra hakimiyyəti orqanları sisteminin məqsədyönlü təşkilati, qanuni, icraedici və tənzimləyici fəaliyyətidir.

Yuxarıda deyilənlər nəzərə alınmaqla inzibati hüquq nəzəriyyəsi də dövlət idarəetməsinin tərifinə iki yanaşma təklif edir: Dövlət idarəetməsi ən geniş anlamda dövlətin bütövlükdə tənzimləyici fəaliyyətidir (hakimiyyətin nümayəndəli orqanlarının, prokurorluq, məhkəmə və s. fəaliyyətidir). Dövlət idarəetməsinin funksiyaları (məsələn, kadrların seçilməsi, yerdəyişməsi, attestasiyası, qeydiyyatı və nəzarət, məcburetmə və mükafatlandırma tədbirlərinin görülməsi, proqnozlaşdırma, planlaşdırma, maliyyələşdirmə və s.) bu və ya digər ölçüdə bir sıra dövlət orqanları vasitəsilə gerçəkləşdirilir. Bu orqanlara məhkəmə, prokurorluq hakimiyyətin nümayəndəli orqanları nümunə göstərilə bilər. Dar anlamda dövlət idarəetməsi inzibati fəaliyyətdir, yəni dövlət hakimiyyətinin icra orqanlarının fəaliyyətidir.

Dövlət idarəetməsi mürəkkəb struktura malik olub sistem əmələ gətirir. Belə ki, idarəetmənin digər növlərinin heç də hamısı bu xüsusiyyətə malik olmur. Çünki, onlarda çoxsaylı elementlər, həmçinin bu elementlər arasında çoxobrazlı qarşılıqlı əlaqələr mövcud olmur.

Müasir dövlət idarəetmə nəzəriyyələrində dövlət idarəetmə sisteminə fərqli təriflər verilir. Bu təriflər içərisində aşağıda

əksini tapan müasir tədqiqatlarda daha geniş yayılmışdır: "Dövlət idarəetmə sistemi – bir-biri ilə iyerarxik əlaqədə olan hakimiyyət və idarəetmə orqanlarının müəyyən məcmusu olub, qarşılıqlı təsirdə iqtisadiyyatın dövlət sferasının və sosial həyatın idarə olunmasını gerçəkləşdirir və qanunların icrasını, vətəndaşların konstitusiyaya uyğun hüquq və azadlıqlarını təmin edir".(5) Lakin, bu tərifdə müəyyən çatışmazlıqlar da yox deyil. Belə ki, tərifdə dövlət idarəetmə sisteminin yalnız bir altsistemi – idarəetmə subyekti – üzərinə vurğu qoyulur. Bu da fikrimizcə anlayışın məzmununun tam aşkarlanmasına imkan vermir.

Dövlət idarəetmə sistemi iki mühüm aspektə malikdir. Əvvəla onu qeyd edək ki, dövlət idarəetmə sistemi müəyyən nəzəri ümumiləşdirmə, alət olub, idarəetmə sferasında müxtəlif hadisələrin sistem xüsusiyyətlərini aşkarlamağa və təsvir etməyə kömək göstərir. Bu halda dövlət idarəetmə sistemi kateqoriyası dövlət idarəetməsinin sistem təhlili üçün vasitədir. O, hər bir bütöv siyasi-hüquqi quruma: dövlətə, dövlət hakimiyyətinə, dövlət orqanlarına tətbiq edilə bilər. İkinci aspekt sistemin daha konkret əhəmiyyətini əks etdirir –normalar, təşkilati strukturlar, münasibətlər, kommunikasiya da daxil olmaqla dövlət hakimiyyəti və idarəetməsinin formalaşma və fəaliyyət mexanizmidir.

Dövlət idarəetmə sistemi mürəkkəb qurum olub, müxtəlif altsistemlərdən təşkil olunur, bu altsistemlər özləri də nisbi müstəqilliyə malikdirlər və qarşılıqlı əlaqəli sosial sistem kimi çıxış edirlər. Əsas alt sistemlər kimi aşağıdakılar qeyd oluna bilər:

-idarəedən sistem (subyekt);

-idarəedilən sistem (obyekt);

-kommunikativ sistem –idarəedən və idarəedilən sistemlərin elementləri arasında qarşılıqlı təsir sistemidir: birbaşa və əks, şaquli və üfüqi, tabeedici və dəstəkləyici əlaqələr.

İlk növbədə birinci alt sistemin, idarəedən sistemin strukturunu nəzərdən keçirək. Əgər onu şaquli kəsimində götürsək şərti olaraq A və B olmaqla iki altsistemdə təsvir etmək olar:

-A alt sistemi –cəmiyyətin kütləvi idarə olunması və hakimiyyətin hər üç qolunda dövlət hakimiyyətinin gerçəkləşdirilməsi. Bu altsistemin əsas vəzifəsi cəmiyyətin inkişafının məqsəd və vəzifələrini, inkişaf strategiyasını müəyyənləşdirir, milli suverenliyi təmin edir, beynəlxalq miqyasda milli maraqları qoruyur.

-B altsistemi –bu dövlət-inzibati altsistem olub ictimai həyatın konkret sahələrində gündəlik işlərin idarəedilməsi üzrə funksiyasını yerinə yetirir. Burada əsasən icraedici hakimiyyətdən söhbət gedir.

A altsistemi səviyyəsində icraedici hakimiyyət hökumətlə təmsil olunur. B altsistemi isə müxtəlif səviyyəli mürəkkəb iyerarxik inzibati orqanlar sistemidir. Sonuncu dövlət aparatının ən mürəkkəb və çoxtərəfli hissəsi olub öz əlində dövlət idarəçiliyinin ən mühüm vasitələrini və praktiki olaraq bütün idarəçilik informasiyalarını cəmləyir.

Burada əsas maraq kəsb edən inzibati hakimiyyət orqanlarının fəaliyyətidir. Onların əsas əlamətləri belədir:

1)Hakimiyyətin təşkilatı xarakteri. Məhz inzibati hakimiyyət siyasi hakimiyyətin qəbul etdiyi qərarların icrasını təşkil edir. Bu məqsədlə o, vətəndaşların fəaliyyətini birləşdirir, tənzimləyir, koordinasiya və bütün prosesə nəzarət edir.

2)İdarəedici təsirin universal xarakteri. Bu əlamət onu bildirir ki, harada insan mövcuddursa orada da inzibati hakimiyyət fasiləsiz gerçəkləşdirilir.

3)İnzibati resursların tətbiqi ilə hakimiyyət səlahiyyətlərindən istifadə. İnzibati hakimiyyətin idarəedici təsiri legitim məcburetmədən istifadə imkanlarında və dövlət aparatının gücünə arxalanmaqdır.

4)İnzibati hakimiyyət konkret ərazidə, real resursların cəlbi. Maddi stimullaşdırma və motivasiya alətlərindən istifadə etməklə vətəndaşların konkret kontingentinə münasibətdə gerçəkləşdirilir.

5)İnzibati orqanlar aşağıdan yuxarıya tabeçilik prinsipi əsasında qurulmuş iyerarxiyaya malikdir. Bunun nəticəsində də, inzibati hakimiyyətin hər bir orqanı idarəetmənin iyerarxik piramidasında müəyyən yerə malik olur.

Dövlət idarəetmə sisteminin özünün üfüqi kəsimində aşağıda göstərilmiş altsistemlərə malikdir: institusional altsistem; normativ-hüquqi altsistem; funksional-struktur altsistem; kommunikativ altsistem; peşəkar-kadr altsistemi; peşəkar-mədəni altsistemi; elmi-texnoloji altsistem.

Dövlət idarəetməsinin idarəedilən sistemi (obyekti) –cəmiyyətin, idarəetmə obyekti kimi dövlətin təsirinə məruz qalan bütün komponentləridir. Dövlət idarəetmə obyektləri mürəkkəb struktura malik olub aşağıda əksini tapmış komponentləri ehtiva edir: həyat fəaliyyətinin mühüm sferaları; ictimai proseslər; ərazi qurumları; dövlət və ictimai təşkilatlar; sosial birliklər; istehsal (sənaye, kənd təsərrüfatı, tikinti, energetika, nəqliyyat, rabitə, ticarət, meşə təsərrüfatı və s.); sosial sfera (mənzil-kommunal təsərrüfatı, səhiyyə, təhsil, mədəniyyət, idman, turizm və s.); inzibati-siyasi sfera (xarici siyasət və xarici-iqtisadi fəaliyyət, vətəndaşların konstitusion hüquq və azadlıqlarının müdafiəsi, təsərrüfat subyektləri).

İdarəedilən sistem idarəedən sistemdən bir sıra mühüm əlamətlərinə görə fərqlənir. Əgər idarəedən sistem üçün iyerarxik, subordinasiya, şaquli münasibətlər üstünlük təşkil edirsə, idarəetmənin obyekti üçün çoxobrazlı, çoxsaylı üfüqi, qeyri-hakimiyyət, dispozitiv əlaqələr xasdır. Bu əsasən cəmiyyətin həyat təminatı ilə əlaqəli olan (dil, ailə, əxlaq, bazar, millət və s.) sosiomədəni və siyasi münasibətlərdir.

Dövlət idarəetmə sisteminin üçüncü altsistemi kommunikativ altsistemdir. Səmərəli dövlət idarəetməsini gerçəkləşdirmək üçün idarəetmə subyektinin idarəetmə obyekti ilə qarşılıqlı əlaqə və təsirləri zəruridir. Bu isə onlar arasında birbaşa və əks əlaqə ilə gerçəkləşdirilir. Birbaşa əlaqə subyektin, yəni dövlət orqanı, yaxud səlahiyyətli şəxsin idarəetmə obyektinə təsiri olub onu davranışını yönləndirir. Əks əlaqə isə obyektin idarəetmə qərarları və subyektin hərəkətlərinə reaksiya olub, son nəticədə idarəetmənin keyfiyyətini müəyyənləşdirir.

İdarəetmə sistemində əsas altsistem kimi çıxış edən subyekt idarəetmə prosesinin hərəkətverici qüvvəsi, onun həlledici amilidir. Qeyd etmək zəruridir ki, subyektin strukturu və onun elementləri arasında qarşılıqlı əlaqələr tipi dövlət hakimiyyətinin təşkilini formalaşdırır. Hakimiyyətin ali institutu kimi mərkəzi idarəedici orqan çıxış edir.

Dövlət idarəetmə sistemində əlaqələr müxtəlif səciyyə daşıyır. Birbaşa əlaqələr (subyekt → obyekt) şaquli (tabeçilik, subordinasiya əlaqəsi) və üfüqi ola bilər. Təsiretmə müddətindən asılı olaraq onlar daimi (xidməti subordinasiya), müvəqqəti, yaxud epizodik (məsələn, böhranlı situasiyalarda dövlət başçısının qəbul etdiyi qərarlar və fövqəladə tədbirlər) səciyyə daşıyır. Optimal təşkil edilmiş idarəetmə mexanizmi qurularsa birbaşa əlaqələr yumşaq ("drijor idarəetməsi"), yaxud ümumiyyətlə nəzərəçarpmaz olur və bu bir qayda olaraq ən yaxşı nəticələr verir. Bununla belə böhranlı məqamlarda, zərurət yarandıqda o, güc tətbiqi ilə əvəzlənə bilər.

Üfüqi əlaqələr qanunla müəyyənləşdirilmiş qaydada səlahiyyətlərinə görə bərabərhüquqlu və nisbətən müstəqil idarəetmə orqanlarının qarşılıqlı təsiri ilə səciyyələnir. Onlar konkret orqanlar daxilində, orqanlar arasında, rəhbərlər arasında, əməkdaşlar arsında gerçəkləşir. Bu koordinasiya, qarşılıqlı təsir və əməkdaşlıq əlaqələri olub dövlət idarəetməsinin məqsədlərinin gerçəkləşdirilməsinə yönəlir və tabeçilik elementini də ehtiva edə bilər.

Bir qayda olaraq şaquli əlaqələr üfüqi əlaqələr üzərində dominantlıq edir. Çünki dövlət hakimiyyətinə təmərküzləşmə xasdır. Belə təmayül idarəetmənin ərazi orqanları tərəfindən əks təsirlə qarşılanır. İdarəetmə subyektlərinin qarşılıqlı əlaqələri dinamikdir: onlar konstitusiya normaları çərçivəsində tənzimlənən və həll olunan gerçək ziddiyyətlər şəklində gerçəkləşir.

Dövlət idarəetmə sisteminin, xüsusilə bu sistemdə birinci altsistemin, yəni idarəetmə subyektinin ölkənin inkişafında xüsusi rolu vardır. Belə ki, məhz bu altsistem həlledici qərarları qəbul etmək, onların icrası ilə məşğul olmaq səlahiyyətinə malikdir. Yəni dövlət idarəetmə orqanlarının fəaliyyəti ölkənin inkişafında həlledici rol oynayır. Zəruri olaraq qeyd edək ki, ümumilikdə dövlət idarəetmə sistemi, xüsusi halda isə onun subyekti heç də statik deyil, onun konstitusiya normaları çərçivəsində yenidən təşkili və onda islahatların aparılması, xüsusilə dövlət qulluqçularının peşəkarlıq səviyyəsinin yüksəldilməsi inkişafın əsas tələblərindən biridir. Bu haqda akademik Ramiz Mehdiyev yazır: "Dünya təcrübəsindən göründüyü kimi, iqtisadi islahatların gedişi, demokratikləşmənin irəliləməsi, hüquqi dövlətin təşəkkül tapması, ölkənin və hər bir vətəndaşın inkişafı məmur ordusunun keyfiyyətindən, onların peşəkarlığından, iş qabiliyyətindən, təşəbbüskarlığından və konstitusiyaya sadiqliyindən çox asılıdır. Respublikamızın dövlət idarəetmə sistemində islahatların aparılması üzrə dövlət komissiyasının yaradılması haqqında Azərbaycan Respublikasının Prezidentinin fərmanında göstərilir ki, demokratikləşmə və bazar münasibətləri sahəsində islahatlar dövlət idarəçiliyinin səmərəliliyini artırılmalı, iqtisadi fəaliyyət üçün beynəlxalq standartlara cavab verən hüquqi baza yaradılmasını təmin etməlidir".(6, s.103) Deyilənlər, yeni inkişaf modellərinin tətbiq zərurəti yarandıqda xüsusilə daha böyük əhəmiyyət kəsb edir.

Yuxarıda deyilənlənlər əsasında bəzi ümumiləşdirmələr aparmaq olar.

Dövlət idarəçilik sistemi kifayət qədər mürəkkəb anlayış olub, hər biri nisbi müstəqilliyə malik altsistemlərdən təşkil olunur. Üç belə altsistem mövcuddur:

-idarəedən sistem (subyekt);

-idarəedilən sistem (obyekt);

-kommunikativ sistem –idarəedən və idarəedilən sistemlərin elementləri arasında qarşılıqlı təsir sistemidir: birbaşa və əks, şaquli və üfüqi, tabeedici və dəstəkləyici əlaqələr.

İdarəetmə sistemində əsas, aparıcı rol idarəedən subyektə məxsus olur. Məhz onun rasional prinsiplərlə təşkili ölkənin səmərəli inkişafı üçün zəmin hazırlayır.

ƏDƏBİYYAT

1. *Глухих И.Н. Теория систем и системный анализ. Екатеринбург: 2002, 134 с.*
2. *Tağıyev M. Müasir Azərbaycanın dövlət idarəetməsində hüququn rolu. // Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. Elmi nəzəri və praktiki jurnal. 2006, №2 (14), səh.158-168*
3. *Теория управления: учебное пособие для бакалавров. М.: Издательство Юрайт, 2013, 375 с.*
4. *Василенко И.А. Государственное и муниципальное управление. М.: Издательство Юрайт, 2013, 485 с.*
5. *https://studopedia.su/10_160210_sistema-gosudarstvennogo-upravleniya-ee-osnovnie-elementi.html*
6. *Mehdiyev R.Ə. Heydər Əliyevin dövlət idarəçiliyinin nəzəriyyə və təcrübəsinə töhvəsi./ Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. Elmi nəzəri və praktiki jurnal. 2006, №2(14), səh.100-106*

Açar sözlər: *idarəetmə, dövlət idarəçiliyi, sistem, dövlət.*

Key words: *administration, public administration, system, state.*

Ключевые слова: *управление, государственное управление, система, государства.*

Нигяр Агаева

Понятие «система государственного управление»; сущность и структура.

РЕЗЮМЕ

В статье разъясняется суть системы государственного управления, выявлено его структура и структурные элементы. Показано, что система государственного управления состоит из трех основных подсистем. Они, в свою очередь, создают систему: система управления, управляемая система, коммуникативная система. Для оптимального управления государством подчеркивается необходимость гармонических отношений этих компонентов.

Nigar Agayeva

The concept of "system of public administration": essence and structure.

SUMMARY

The article explains the essence of the system of state administration, reveals its structure and structural elements. It is shown that the system of state administration consists of three main subsystems. They, in turn, create a system: a management system, a managed system, a communicative system. For the optimal management of the state, the need for harmonic relations of these components is emphasized

İnformasiya təhlükəsizliyi

İNFORMASİYA DAŞIYICILARINDA SAXLANAN MƏXFİ İNFORMASİYANIN KRİPTOQRAFİK MÜHAFİZƏSİNİN BƏZİ MƏSƏLƏLƏRİ

QURBANƏLİ CƏBRAYIL OĞLU VƏLİYEV
Azərbaycan Texniki Universiteti

İnformasiyanın qiymətli olduğunu insnlar hələ qədim zamanlarda başa düşürdülər və elə bu baxımdan hökmdarlar arasında yazışmalar onların düşmənləri və dostları üçün ciddi maraq obyekti idi. Elə buna görə də bu yazışmaların kənar gözlərdən mühafizə məsələsi meydana gəldi. Qədim insanlar bu problemin həlli üçün müxtəlif metodlardan istifadə etməyə çalışırdılar. Bunlardan biri – gizli yazışma idi: məktub elə formada yazılırdı ki, onun mənasını yazılış sirrinə bələd olanlardan başqa heç kim başa düşməsin. Uzun müddət belə yazışmalardan cəmiyyətin yüksək təbəqələri, dövlət başçıları, səfirliklər arasında və əlbəttə ki, kəşfiyyat işlərində istifadə edilirdi. Və yalnız bir neçə onillik bundan əvvəl hər şey köklü surətdə dəyişdi – informasiya müstəqil kommersiya qiymətinə malik olan adi əmtəəyə çevrildi. Onu istehsal edir, saxlayır, nəql edir, alır və satırlar və deməli, oğurlayır və dəyişdirirlər. Nəticədə onu mühafizə etmək zərurəti meydana çıxır.

Bütün informasiya mühafizə metodları sırasında kriptoqrafik metodlar xüsusi yer tutur. Başqa metodlardan fərqli olaraq onlar yalnız informasiyanın öz xüsusiyyətlərinə əsaslanır, informasiya daşıyıcılarının xassələrindən, onun emalı, ötürülməsi və saxlanma xüsusiyyətlərindən istifadə etmir.

Kompüter texnologiyalarının inkişafı və informasiya axınının həcminin daim artması kriptoqrafiyaya maragı getdikcə artıtır. Son zamanlar informasiya mühafizəsi üçün sadə yolla modernləşdirilə bilən, aparat kriptosistemlərlə müqayisədə böyük maliyyə xərcləri tələb etməyən proqram vasitələrinin rolu artmaqdadır. Müasir şifrələmə metodları verilənlərin demək olar ki, mütləq mühafizəsini təmin edir, ancaq onların reallaşdırılmasında etibarlılıq problemləri həmişə mövcuddur.

Etibarsızlığa nümunə kimi bu və ya digər proqramdakı səhvlər, ya da onların sındırılması barədə daim kompüter aləmində dolaşan informasiyaları göstərmək olar. Bu necə ki konkret proqramlara, eləcə də, ümumiyyətlə, kriptoqrafik metodlarla informasiyanın nəinki xüsusi xidmətlərdən, hətta adi xakerlərdən qoruna bilməsi imkanlarına inamsızlıq yaradır. Ona görə kriptosistemlərdəki zəif yerlərin bilinməsi və onları doğuran səbəblərin öyrənilməsi mühafizə olunan sistemlərin işlənilməsi üçün ən vacib şərtlərdən biri sayılır.

Hazırda artıq istifadədə olan kriptoalqoritmlərin qiymətləndirilməsi məsələsi xüsusi aktuallıq kəsb edir. Mühafizə vasitələrinin effektivliyinin müəyyən edilməsi bir çox hallarda daha çətin olur, nəinki onların hazırlanması, xüsusi biliklərin və bir qayda olaraq, daha yüksək kvalifikasiyanın olmasını tələb edir. Kompüter aləmində çoxlu sayda kriptoqrafik müdafiə vasitələri peyda olur. Bu zaman layihəçilər öz kriptoalqoritmlərini gizli saxlamağa çalışırlar. Ancaq onların etibarlılığına heç kim qarantiya verə bilməz, bir halda ki, bu layihəçilərin özünə məlumdur. Bundan başqa, əgər pozucu mühafizəni sındırmağın yolunu tapıbsa, o, bunu elan etməyəcək. Ona görə də kütləvi tətbiq edilən informasiya mühafizə sistemlərinin təhlükəsizliyi barədə açıq müzakirələrin olması cəmiyyət üçün sərfəlidir, layihəçilər tərəfindən kriptoalqoritmlərin gizlədilməsi isə yolverilməzdir [1,2].

Məqalənin mövzusu müxtəlif informasiya daşıyıcılarında yerləşən konfidensial informasiyanın kənar şəxslərin icazəsiz müdaxiləsindən kriptoqrafik mühafizənin işlənilməsidir. Mühafizənin prinsipi mühafizə olunan bütün verilənlərin iki istiqamətli şifrələnməsindən ibarətdir. Verilənlərə əlçatanlıq, məzmunu tamamilə istifadəçidən asılı olan, nə tipinə, nə də məzmununa görə heç cür məhdudlaşdırılmayan proqram məhsulunun yaratdığı virtual diskləri vasitəsilə reallaşdırılır. Hər bir belə diskin məzmunu yeganə obraz-fayl kimi istənilən uyğun informasiya daşıyıcısında yerləşə bilər. Daşıyıcı oxumağa, həm də qeydlər aparmağa imkan verməlidir. Proqram məhsulu virtual diski fiziki formatlama səviyyəsində reallaşdırır və onların yaratdığı virtual məntiq disklərinin istifadəsi üçün məhdudiyyətlər qoymur. Sistemin yaradılmasında məqsəd virtual disklərdə konfidensial informasiyanın etibarlı saxlanması üçün rahat interfeys təqdim edə bilən və bu disklərlə işləmək üçün əməliyyat sisteminin qoyduqlarından əlavə digər məhdudiyyətlər qoymayan proqram məsulunu hazırlamaq və reallaşdırmaqdır. Yaratmaq istədiyimiz proqram məhsulu Windows 2000 və daha sonrakıları əhatə edən MS Windows əməliyyat sistemlərində istifadə etmək üçün yaradılır. Proqram məhsulu, öz xüsusiyyətlərinə görə, konfidensial informasiyanın etibarlı saxlanması üçün maksimal dərəcədə etibarlı və stabil iş prosesini təmin etməlidir, eyni zamanda, hər hansı aparat qəzaları, daşıyıcının zədələnməsi və ya məqsədyönlü hücumlar zamanı informasiyanın mühafizəsini təmin etməyə borclu deyil.

Proqram məhsulu əməliyyat sistemlərinin bütün versiyalarında stabil işləməli, bununla yanaşı, hər hansı sistem tənzimləmələrindən, quraşdırılmış tətbiqlərdən və yaxud istifadəçinin tətbiqlə iş zamanı etdiyi hərəkətlərdən asılı olmayaraq informasiyanın saxlanmasının etibarlılığını aşağı salmamalıdır [3].

Proqram məhsulu kütləvi istifadə üçün nəzərdə tutulur və kriptoqrafiya sahəsində hər hansı xüsusi bilgilər tələb etmir. MS Windows əməliyyat sistemli kompüterlərdə elementar iş bacarığı olan istənilən adam ondan istifadə edə bilər.

Tətbiqin işləməsi üçün aşağıdakılar zəruridir:

- Windows 2000-dən aşağı olmayan MS Windows əməliyyat sistemi;
- sərt diskdə 50kB boş yer üstəgəl disklərin fayl-obrazları;
- operativ yaddaş üçün tələblər: yükləyici üçün 4MB, drayver üçün 100kB civarında.

Proqramın layihələndirilməsi üçün Microsoft Visio və Microsoft Word layihələndirmə mühitlərindən istifadə edilməsi zəruridir. Proqramın reallaşdırılması üçün RadAsm MASM32, həmçinin aşağıdakı köməkçi proqramlardan istifadə edilir: OllyDbg, DebugView, VMware Workstation и Restorator.

Yaradılmalı olan proqram məhsulu konfidensial informasiyanın sadə və etibarlı kriptoqrafik mühafizə üsulunu verməli, virtual məntiqi disklər vasitəsilə bu informasiyaya əlçatanlığı təmin etməlidir. Proqramın yerinə yetirməli olduğu əsas funksiyalar:

- faylların obrazının yaradılması;
- fayl-obrazların məntiqi disklər kimi montaj edilməsi;
- əməliyyat sistemi və fayl-obraz verilənləri arasında qarşılıqlı hərəkətlərin yerinə yetirilməsi;
- virtual diskin sistemdən silinməsi ilə obrazın boşaldılması;
- məzmunun tam pozulması ilə fayl-obrazın etibarlı silinməsi.

Proqram istifadəçi tərəfindən verilən obrazı diskə montaj etməlidir. İcazə üçün diskin montajı zamanı istifadəçi ilə dialoq yolu ilə şifrə/deşifrə açarının formalaşdırılması üçün parolun verilməsi tələb olunur. Şifrələmədə istifadə uçun seçilmiş alqoritm maksimum etibarlı və sındırılmalara qarşı davamlı olmalıdır. Bundan başqa, o



kifayət qədər sürətli olmalı və minimum resurslar tələb etməlidir [4,5, 6].

Kriptoqrafiya informasiyanı elə formada dəyişməyə imkan verir ki, onun oxunması yalnız açarı bilməklə mümkündür.

Əvvəlcə bəzi əsas anlayışları və tərifləri sadalayaq: Kriptoqrafik sistem açıq mətnin çevrilmələrindən ibarət T çoxluğu, bu çoxluğun elementləri k simvolu ilə indekslənir; burada k parametri açardır. K açarlar fəzası – bu açarların mümkün qiymətləri dəstidir. Adətən açar əlifba hərflərinin ardıcıllığından ibarət olur. Simmetrik kriptosistemlərdə həm şifrələmə, həm də deşifrələmə üçün eyni açardan istifadə edilir. Elektron (rəqəmsal) imza – mətnə birləşdirilən onun kriptoqrafik çevrilməsidir, hansı ki, başqa istifadəçi mətni aldıqda onun müəllifliyini və həqiqiliyini yoxlamağa imkan verir.

Kriptpodayanıqlılıq şifrənin açarı bilmədən deşifrə edilməyə davamlılığını müəyyən edən xarakteristikasıdır.

Tk çevrilməsi uyğun alqoritm və k parametrinin qiyməti ilə müəyyən edilir. İnformasiya mühafizəsi üçün şifrələmənin effektivliyi açarın gizli saxlanılmasından və şifrənin kriptodayanıqlı olmasından asılıdır.

Verilənlərin kriptoqrafik "gizlədilməsi" prosesi həm proqram , həm də aparat vasitələrlə həyata keçirilir. Aparat vasitələr yüksək qiyməti ilə seçilir, ancaq onların öz üstün cəhətləri də var, məsələn, yüksək məhsuldarlıq, sadəlik, etibarlı mühafizə və s. Proqram reallaşması daha çox praktikdir, istifadə elastikliyi ilə fərqlənir.

Məlum olduğu kimi Kriptoqrafiya informasiyanı elə dəyişməyə imkan verir ki, onu yalnız açarı bilməklə oxumaq və ya bərpa etmək olur.

Kriptoqrafik rejim adətən baza-şifrə, hansı isə əks rabitə və bir sıra sadə əməliyyatları birləşdirir. Əməliyyatlar ona görə sadədir ki, təhlükəsizlik rejimin deyil, istifadə edilən şifrənin funksiyasıdır. Üstəlik, şifrə rejimi istifadə olunan alqoritmin təhlükəsizliyini etibardan salmamalıdır.

Beləliklə, ən geniş yayılmış kriptoqraik informasiya mühafizə vasitələrinin və onları reallaşdırma üsulları çoxdur. Konkret sistem üçün seçim bu və ya digər metodun üstün və zəif cəhətlərini dərindən analiz etməklə aparılmalıdır. Ümumiyyətlə, bu və ya digər mühafizə sisteminin seçimi hansısa effektivlik kriteriyalarına əsaslanmalıdır. Ən sadə effektivlik kriteriyası – açarın açılma ehtimalı və ya açarlar çoxluğunun gücüdür. Məzmun etibarı ilə elə bu kriptodavamlılığın eynidir. Onun ədədi qiymətini hesablamaq üçün bütün açarları istifadə etməklə şifrə açmağın mürəkkəbliyindən istifadə etmək olar. Seçilmiş kriptoqrafik mühafizə metodları kompleksi həm istifadə rahatlığı, elastikliyi və operativliyi, həm də pozuculardan etibarlı mühafizəni özündə birləşdirməlidir.

Baxılan hər bir metod özünün kriptoqrafik mühafizə üsulunu reallaşdırır, hər birinin üstün və çatışmayan cəhətləri vardır, ancaq onların ümumi ən vacib xarakteristikası, bu üsuldan tələb olunan ən vacib xüsusiyyət – davamlılıqdır. Davamlılıq dedikdə, statistik analiz yolu ilə ilkin mətni bərpa etməyə imkan verən şifrələnmiş mətnin minimal həcmi başa düşülür. Konkret layihədə istifadə edilmək üçün kriptoqrafik alqoritmin seçimi zamanı onun davamlılığı əsas faktor kimi götürülür. Şifrələrin davamlılığının baxılan qiymətləri potensial göstəricilərdir.Onları yalnız kriptoqrafik mühafizə vasitələrinin istifadə qaydalarına ciddi əməl etməklə realaşdırmaq olar.

ƏDƏBİYYAT

1. Musayev V.H., Qəmbərov M.M., Əliyeva Ş.X., Kompüter təhlükəsizliyinin aparat-
proqram vasitələri., Bakı 2015.

2.Партыка Т.Л., Попов И.И. Информационная безопасность. Учебное пособие для студентов учреждений среднего профессионального образования.— М.: ФОРУМ: ИНФРА-М, 2004.

3.Крысин А.В. Информационная безопасность. Практическое руководство — М.: СПАРРК, К.: ВЕК+,2003.

4.Тарасюк М.В. Защищенные информационные технологии. Проектирование и применение — М.: СОЛОН-Пресс, 2004.

5. Лукашов И. В. Криптография? Железно! Журнал «Мир ПК». 2003. № 3.

6.Панасенко С.П., Защита информации в компьютерных сетях. Журнал «Мир ПК» 2002 № 2.

Marketinq

TURİZM MARKETİNQİNİN İNKİŞAF MƏRHƏLƏLƏRİ

AYTƏN MƏMMƏDOVA
Azərbaycan Dillər Universiteti

Turizm marketinqi haqqında beynəlxalq sferada ilkin tərifiər müxtəlif şəkildə verilmişdir. Ən son qəbulediləni isə, Dünya Turizm Orqanizasiyası (WTO –World Tourism Organisation) tərəfindən söylənən fikirdir. Dünya Turizm Birləşməsinin fikrinə görə, Turizm marketinqi bir turistlik bölgənin yaxud turizm müəsisinin yüksək qazanc əldə etmək hədəfinə uyğun olaraq, turizm məhsulunun bazarda yaxşı bir mövqe tutması məqsədi ilə turizm tələbinin xüsusiyyətlərini də diqqətə alaraq turistik məhsul ilə bağlı araşdırma, seçim etməyi hədəfləyən və bu mövzulardan alınacaq qərarlarla əlaqəli bir idarəetmə fəlsəfəsidir. [2 s 36] Verilən bu tərif turizmin coxsahəli xüsusiyyətini əks etdirməklə bərabər, həm turizm müəssisənin həm də turizm bölgələrini əhatə etməkdir. Digər tərəfdən bu tərifdə diqqət edilməsi lazım olan digər vacib məsələ turizm marketinqinin bir idarəetmə fəlsəfəsi olaraq ələ alınmasıdır.

Düzgün qurulmuş və uğurla nəticələnən turizm marketinqi üçün ilk növbədə turizm marketinqinin planlanması tam yerinə yetirilməlidir. Digər müəssisəsələr üçün olduğu kimi, turimz sektorlarının da və destinasiyaların da bir vizyona ehtiyacı vardır. Vizyon üçün bir strategiya, strategiya üçün isə bir plan lazımdır. Marketinq planlaması müəssisənin gələcəyi ilə əlaqədardır. Başqa mənbələrdə isə marketinq planlaması nəyi, nə zaman, necə, kimin tərəfindən, ediləcəyinə qərar verildiyi bir prosses olaraq qeydə alınmışdır. Müəssisənin marketinq planlamasının məqsədlərini aşağıdakı kimi sıralaya bilərik

1. Müəssisənin növbəti il üçün həyata keçirəcəyi bütün marketinq məşğuliyyətləri üçün bir gedişat təyin etmək
2. Bütün marketinq məşğuliyyətlərinin turizm müəssisinin strateji planı ilə uyğunluğunu təmin etmək

Marketinq planlamasının həyata keçirilməsində ən önəmli faktor isə onun ardıcıl şəkildə mərhələrini bilmək və bu ardıcıllıqı qorumaqdır. Belə ki, uğurlu həyata keçirilmiş marketinq planlaması üçün aşağıdakı ardıcıllıqı həyata keçirtmək vacibdir. Aşağıda marketinq planlaması mərhələləri ardıcıllıqı və onların açıqlamaları qeyd edilmişdir

1) Mövcud vəziyyətin analizi
2) Müəssisənin misiya, hədəf və məqsədlərinin təyin edilməsi
3) Strategiyanın təyin edilməsi

4) Tətbiqetmə
5) Dəyərləndirmə və sınaq müddəti

1) Mövcud vəziyyətin analizi marketinq planlamasında əsas və vacib məsələlərdən biridir, beləki, hər bir müəssisə birinci addımda mövcud çevrəni tanımalı və buna uyğun bir plan hazırlamalıdır

2) Müəssisənin missiya, hədəf və məqsədlərini təyin edilməsi.Turizm müəssisinin misiyası özünün rəqiblərdən necə fərqləndirdiyini və məqsədini müəyyən etməkdir. Müəssisə daxili istifadə edilən missiya sözü bütün qərarlar, məqsəd və strategiyalara birbaşa təsir etməkdədir. Beləki, müəssisə üçün missiya sözü öz özlüyündə aşağıdakı sualları cavablandırmalıdır.

Biz kimik ?

Müştərilərimiz kimlərdir ?

Müştəri qarşısında öhdəliklərimiz nələrdir ?

Bir turizm müəssisəsinin öz missiyasını müəyyən etməsi ilə hədəflər və məqsədlər ortaya çıxır.

3) Strategiyanın təyin edilməsi

Əgər bir müəssisə üçün hədəflər onun hara catmaq istədiyini göstərirsə, strategiya bu hədəfi çatmanın planıdır.

4) Tətbiqetmə

Marketinq planlamasının dördüncü addımı marketinq strategiyalarının tətbiq etmə mərhələsidir

Turizm sənayesində istehsal edilən məhsul və xidmətlərin marketinqində sənaye məhsullarının marketinqindən bəzi fərqli xüsusiyyətləri var. Bunları əsas göstəriciləri ilə alt qruplarda toplasaqda turizm sənayesində diferensiallıq xüsusiyyəti yaradır [1 s 98]

1) Adi istehlak məhsulu və xidmətlərindən fərqli olaraq turizm məhsulu iki ayrı səviyyədə bazara çıxarılır. Bunlardan birincisi, milli və ya regional rəsmi turizm təşkilatlarının ümumi olaraq ölkəyə və ya bölgəyə turist cəlb edə bilmək məqsədilə həyata keçirdikləri marketinq fəaliyyətidir. Bunlar, hər hansı bir turizm məhsulunun birbaşa satışına istiqamətlənmiş olmayan ölkənin və ya bölgənin bazarada tanıdılması, turistin razı salınması və ölkənin turizm cəlbediciliyinin ümumi və uyğun imicinin yaradılması məqsədilə həyata keçirilən fəaliyyətdir. Bu məqsədləri həyata keçirmək üçün milli rəsmi turizm təşkilatı ölkə daxilində və xaricində turistə düzgün və ətraflı məlumatlar verərək turizm tanıtma büroları şəbəkəsini qurmaq və turizm məhsulunun cəlbedicilik, rahat əldə edə bilmə və təsis cəhətdən yaradılmasına köməklik göstərir.

2) Turizm marketinqinin ikinci xüsusiyyəti ondan ibarətdir ki, bazara çıxarılan məhsul və xidmətlərin əksəriyyətini anbarlaşdırmaq olmur. Hər hansı bir satışın həyata keçirilməsi üçün xidmət göstərmə tutumu yaradılır və hazır saxlanılır. Bu tutumun istifadə edilməyən bir qismi başqa vaxt üçün saxlanıla və ya anbarlaşdırıla bilməz.

3) Turizm məhsulu olaraq satılan xidmətlərin həm anbarlaşdırıla bilməməsi və həm də "əmək-tezlik" məhsullar olmaları səbəbindən bir-birindən fərqli xüsusiyyətləri vardır. Xidmət göstərən insan ilə turist arasındakı xidmət təqdim etmə

prosesi məhsullarda olduğu kimi hər dəfə eyni tərzdə deyil, müxəlif tərzlərdə həyata keçirilir.

4) Məhsullar istehsal edilib bir müddət sonra satıldığı və istehlak edildiyi halda xidmətlər birinci satılır, istehsal ilə istehlak daha sonra eyni zamanda həyada keçirilir. Xidmətlər xidməti təqdim edəndən ayırmaq mümkün deyil. Bu səbəbdən müəyyən bir zamanda birdən çox bazarda satıla bilməz. [3 s16]

5) Turizm sənayesində əksər mal və xidmətlər mürəkkəb məhsul xüsusiyyəti daşıyır. Turist fərqli xidmətləri bir bütün olaraq tələb edir. Tələbin bağlılığı səbəbindən birinin təklifi digərinin təklifinə təsir göstərir.

6) Turizm sənayesində pərakəndə satış səviyyəsində bir marka imicinə bağlılıq olduqca zəifdir. Turizm bazarında gerçək məhsul əsasən turizm cəlbediciliyi yüksək olan bölgə, sağlamlıq mənbəyi, idman, mədəniyyət və ya iş mərkəzidir. Tələbi yaradan bu amillərin yanında çatdırılma və ya yerləşdirmənin idarəedilməsi markanın imicinə təsir etmə baxımından daha əhəmiyyətsiz hesab edilir.

Turizm bazarının seçimi hədəflərə nail olmaq üçün böyük bir köməklik edər. Turizm bazarının təsdiqində nəzərə alınmalı olan meyarlar aşağıdakı kimi göstərilmişdir.

1) Boş vaxtın qiymətləndirilməsi:

- Boş vaxtın qiymətləndirilməsində tezlik tələb edən fəaliyyətlər;
- Turizm fəaliyyətləri.

2) Turizm bazarı

- Birinci bazarlar;
- İkinci bazarlar;
- Bazarların potensialı;
- Bazarların bölüşdürülməsi;
- Bazar dalğalanmaları.

3) Turizmdə istehlakçı

- İstehlakçı qrupları və inkişaf etməsi;
- Motivasiya və ehtiyaclar;
- Turizm istehlak xərcləri;
- Gənclik fenomeni.

4) Turizm tələbi

- Turizm tələbinin vacibliyi və inkişafı;
- Turizm tələbinin xüsusiyyətləri;
- Turizm tələbinin elastikliyi.

5) Əlaqə
- Əlaqə növləri;
- Əlaqə növlərinin turizmdəki rolu;
- Turizmə təsir edən amillər.

6) Rəqabət
- Rəqabətin səviyyələri;
- Rəqiblərin analizi;
- Rəqiblərin üstünlükləri;
- Rəqiblərin maneələri;
- Hədəflərin seçimi və müəyyənləşdirilməsi.

7) Bazar strategiyasının müəyyən edilməsi
- Fokuslanma və paylaşdırma;
- Yaxın çevrə bazarları;
- Uzaq çevrə bazarları.

Bu amilləri nəzərdə saxlayan təşkilat və ya qurum hər hansı bir sahə üzrə istiqamətlənə bilər. Amma ümumi ifadə etsək, turizm bazarının hüdudlarını qeyd etmək mümkün olmayacaq dərəcədə çətindir. Bunun da səbəbi, istər turizm verilənlərinin, istərsə də istehlakçıların çox geniş əraziyə səpələnmiş olmalıdır.

ƏDƏBİYYAT

1. *Əlirzayev Ə. Q. Turizmin iqtisadiyyatı və idarəolunması, Bakı: İqtisad Universiteti nəşriyyatı, 2011. 494 s.*
2. *Arikan İ. Eskişehir. Turizm Geliştirme projeleri, Eskişehir: Anadolu Üniversitesi Yayınları, 2006. 226 s.*
3. *Tourism Strategy of Turkey – 2023. Ministry of Culture and Tourism. Ankara, 2007.*

Açar sözlər: *Marketinq, turizm marketinqi, online marketinq, marketinq planlaması*

Ключевые слова: *маркетинг, туристический маркетинг, онлайн-маркетинг, маркетинговое планирование*

Keywords: *Marketing, tourism marketing, online marketing, Marketing planning*

РЕЗЮМЕ

В этой статье будет рассмотрено значение туристического маркетинга в туризме и влияние хорошо организованного туристического маркетинга в развитии туристического потенциала.

Развитие современных информационных технологий основательно влияет не только на формы и методы работы предприятий в области производственной промышленности, но и на сферу обслуживания.

ABSTRACT

This article will examine the importance of tourism marketing in tourism and the impact of a well-established tourism marketing in promoting tourism potential. The development of modern information technologies has a profound effect not only on the forms and methods of the work of enterprises in the production industry, but also on the service industry.

Tarix

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN YARANMASI ƏRƏFƏSİNDƏ MİLLİ LİDERLƏRİN BOLŞEVİZMƏ MÜNASİBƏTİ

RAHİM HƏSƏNOV
AMEA Şəki Regional
Elmi Mərkəzinin şöbə müdiri.
AMEA A.A. Bakıxanov adına Tarix insititutu

1917-ci il bolşeviklərin Petroqradda həyata keçirdikləri dövlət çevrilişi Bakıda birmənalı qarşılanmadı. Bakıda hakimiyyət orqanları bu hadisəni çevriliş kimi qiymətləndirərək bolşevik hökümətini tanımaqdan imtina etdilər. Menşevik, eser, daşnakların bolşeviklərə qarşı siyasi cəbhə yaratması ilə müşahidə edilən 27 oktyabr Bakı Fəhlə və Əsgər Deputatları Sovetinin yığıncağı keçirildi. Bolşeviklərin yeni hökuməti dəstəkləmək təklifi 169 səsə qarşı 246 səs çoxluğu ilə qəbul edilmədi.(9) Əyalət Əsgər və fəhlə deputatları sovetinin Gecekorinin rəhbərliyi ilə keçirilən iclasında Petroqrad hadisələri pisləndi. (9) Eser-menşeviklərin bəyannaməsində bolşeviklərin hakimiyyəti ələ keçirmələrini inqilabi demokratiyaya zidd olduğu qeyd edildi. (10)

Menşevik-eser-daşnak bloku səs çoxluğu ilə Bakıda ali hakimiyyət orqanı kimi İctimai Təhlükəsizlik Komitəsinin yaradılması haqqında qərar qəbul etdilər. Komitəyə müsavatçılar daxil edilmədi.(18) Ancaq daşnakların bu komitədə olması eser-menşevik blokunun heç də milli partiyaları təkzib etmədiyini, yalnız müsəlmanların təcrid edilməsini göstərən fakt idi. Müsavatçıların komitəyə qəbul edilməməsi, ən ağır vəziyyətdə belə eser-menşeviklərin müsəlman siyasi xadimlərinə etibar etməməsini və əsasən də, Azərbaycanda milli hərəkata düşmən kəsilmələrini bir daha sərgilədi.

Bolşeviklər sovetlərə keçirilən səsverməni qanunsuz hesab edərək, 31 oktyabrda sovetin geniş iclasını çağırmağa müvəffəq oldular.(1,s,248)Bununla eser-daşnak-menşevik bloku razılaşmasa da, bolşeviklər istəklərinə nail oldular. Bolşeviklərin bu taktikası effekt verdi. 2 noyabrda bolşeviklərin ikinci dəfə belə bir iclasın keçirilməsi isə Sovetdə onların tam üstünlüyünü təmin etdi.(19) Bütün hakimiyyətin sovetlərə verilməsi qərara alındı.(10) Kaspi qəzetində eser-menşeviklərin uğursuzluğunun səbəbləri içərisində onların demokratiya daxilində koalisiya yaratmaq istəklərini qeyd edərək, bunu absurd adlandırırdı və sovetin geniş iclasında onların bütün siyasətinin alt-üst olmasında əsas səbəb kimi bunları göstərirdi. (17)

Oktyabr çevrilişindən sonra Azərbaycan siyasi xadimlərinin, əsasən də Müsavat partiyasının bolşeviklərə qarşı münasibəti məsələsi tarixşünaslıqda müxtəlif mövqelərlə qiymətləndirilir. Ənənəvi olaraq müsavatçıların V.İ. Leninin "xalqlara öz müqəddəratını təyin etmək hüququ" kimi şüarların səsləndiriyinə görə bolşeviklərə meyl etməsi göstərilir. Doğrudan da, bu şüar ABŞ prezidenti V. Vilsondan da qabaq V.İ. Lenin tərəfindən irəli sürülmüşdü. V.İ. Lenin hələ 1914-cü il fevral –may aylarında "Xalqların öz müqəddəratı" ilə bağlı yazdığı proqramda, hər bir millətin öz təyini müqəddəratına hörmət edildiyi söylənilir.(23,s,13)

Müsavat partiyasının ətrafındakı siyasi xadimlər fevral inqilabından bəri məqsədyönlü olaraq, Rusiyada mərkəzdənqaçma

siyasəti üzərində öz istiqamətlərini qurmuşdular. Xalqların müqəddəratı ilə bağlı V.İ.Leninin bu şüarı isə milli ziyalıların siyasi istəkləri ilə üst-üstə düşürdü. Lakin belə bir ciddi məsələni yalnız bir neçə aldadıcı şüarın verilməsi ilə izah etmək olmaz. Çünki Müsavat partiyası ilə Bolşevik ideologiyası arasında ciddi fərqlər mövcud idi və bu partiyalar konkret olaraq əks qütbdə dayanırdılar. Yalnız Xalqların müqəddəratı ilə bağlı şüarların verilməsi, Azərbaycan siyasi xadimlərini bolşeviklərlə müttəfiq edə bilməzdi və bu, ideoloji cəhətdən də mümkün deyildi. Yəni V. İ. Leninin başçılığı ilə Petroqradda bolşevik çevrilişi, Azərbaycan siyasi xadimlərinin mənafeyinə ziddiyyət təşkil ediridi. Sosializm prinsiplərinin böyük bir hissəsini dəstəkləyən M. Ə. Rəsulzadə dövlət çevrilişi ilə "sosialist diktaturasına" razı ola bilməzdi. Hələ 25 iyun 1917-ci il Açıq söz qəzetində o, sosializmin təkamülü haqqında belə çıxış etmişdi: " Kapitalizmin gördüyümüz bu surətli tərəqqisi nəticəsində heç şübhəsiz ki, bəşəriyyət bu böyük səadəti dərk edəcək. Bu dərki səadət tezmi olacaq, gecmi olacaq o bir başqa məsələ. Vazeh ola bir məsələ varsa, o da budur ki, bu inqilab birdən olmayıb, tədriclə vaqe olacaq və sosializm tamamilə yetişməyincə bəşəriyyət ağacından dərilməyəcəkdir".(3)

Sovet tarixşünaslığında da Müsavatçıların bolşeviklərə meyl etməsi yox, onların qüvvələr nisbətinin necə olacağını bilmək üçün gözləmə mövqeyində dayandıqları göstərilir.(2,s,82) Həm də onu qeyd etmək lazımdı ki, bu qurumlar və ətraflarında toplaşan siyasi xadimlərin fikir istiqamətlərində ciddi siyasi ziddiyyətlər mövcud idi. Siyasi mövqelərindəki əks qütblülük bu partiyalarda hələ 1917-ci ilin ortlarından özünü tam biruzə vermişdi. Məsələn, Bolşeviklərin əsas istəklərindən biri mədən zavod rayonlarını şəhərə birləşdirmək məsələsi təşkil edirdi.(26,s,11) Ancaq Müsavat partiyası və ətrafında topaşan Azərbaycan siyasi xadimləri bunun əleyhinə çıxırdılar. Bundan başqa bolşeviklər L. Kornilov qiyamından sonra bütün tətilllərdə əhalinin fikirlərini yalnız siyasi istiqamətlərə yönəlməyə çalışırdılar. Azərbaycan siyasi xadimləri isə tətillərədə proletariatı provakasiyalara uymamağı çağırır, özbaşınalıqların baş verməsinin qarşısını almaq üçün təbliğatlar aparırdılar.(20)

Fevral inqilabından sonra dövlətin hər bir vətəndaşının səbrsilziklə gözlədiyi Müəssislər Məclisi məsələsində də bolşeviklərin siyasi fikirləri Azərbaycan siyasi xadimlərinin fikirlərinə tam əsk idi. Belə ki, 2-7 okrtyabrda Tiflisdə keçirilən məclisdə qəbul etdikləri bəyannamədə onların heç bir siyasi partiya ilə seçkilərə qatılmayacağı və yalnız internasionalla ittifaqda olacağı elan edilmişdi.(8) Bu arqumentləri nəzərə alaraq Müsavat partiyasının oktyabr-noyabr hadisələrində bolşeviklərə qarşı loyal münasibətinin səbəblərini Bolşeviklərin xalqlara müqəddəratını həll etmə barəsində elan etdiyi şüarların Azərbaycan milli hərəkatının nümayəndlərinin fikirləri ilə üst-üstə düşməsi ilə izah etmək olar. Xalq Komissarları Sovetinin verdiyi bəyanatda Rusiya xalqlarının suverenliyi və bərabərliyi, Rusiya xalqlarının öz müqəddəratının təyin edilməsi, milli və dini ayrıseçkiliyə son qoyulması, milli azlıqlar və etnik qruplara Rusiya ərazisində azadlıq verliməsi öz əksini tapmışdı.(11) Hətta RSDFSR-in Zaqafqaziya əyalət qurultayında bolşeviklərin bəyannaməsində xalqlara muxtariyyat, müstəqillik verilməsi məsələsi dəstəklənir.(11) Milli məsələlər üzrə xalq komissarı İ.Stalinin imzası ilə verilmiş qərarda da Rusiya xalqlarına öz müqəddəratını sərbəst həll etmək, dini və milli qadağaların ləğv edilməsi ilə bağlı qərar verilir.(10) Yuxarıda göstərildiyi kimi bu, yalnız səbəblərdən biri ola bilərdi.

1917-ci il Fevral Burjua Demokrat İnqilabı baş verdikdən sonra hakimiyyətdə olan istər Kadetlər istərsə də eser-menşevik bloku, müsəlman milli hərəkatına qarşı düşmən mövqedə dayanırdılar. Onların " Vahid və bölünməz Rusya " şüarları da Azərbaycan siyasi xadilmərinin istəklərinə uyğun gəlmirdi.(25,s,123) Kaspi qəzetinin 1 avqust tarixli sayında qeyd edilir ki, hakimiyyət ruslaşdırma

Bakıda Qızıl Ordu, 1920-ci il may.

siyasəti yeridir, müqəddərat məsələsinə baxmır.(21) Öz mətbuat səhifələrində müsəlmanları silahlanmada və başqa təxribatçı işlərdə günahlandıraraq, onları hakimiyyət strukturlarına buraxmamaq siyasəti yeridirdilər. Bu isə başda Müsavat partiyası olmaqla müsəlman milli hərəkatı siyasi xadilmərini Müvəqqəti hökümətdə yer alan siyasi partiyaların yerli nümayəndəliklərinə qarşı mənfi münasibətin formalaşmasına gətirib çıxarırdı. Hələ 1917-ci ilin may ayında M.Ə. Rəsulzadə dövrü mətbuatlardakı müsəlmanlara qarşı tənqidlərinə dair yazırdı: " Müsəlmanları qara və "mədəniyytsiz xəlq" deyə böylə bir qələbəyi gözləməyən "yoldaşlar" səhvlərini dərk edərək bundan sonra müsəlman təşkilatları ilə dostluqda getməgə hazırlaşmaq əvəzinə "burjua" kapitalist kibi modalı sözlərə bir də "qoçu" kəlməsini əlavə ederək əhvəlı öylə təsvir etmək istiyorlar ki, guya on minlərlə müsəlman seçkiləri mauzer və tapanca gücilə gəlib "qoçu"ları özlərinə "ağa" seçmişlərdir." (4)

Sovetlərdəki siyasi abi hava da Azərbaycan siyasi xadimlərinin mövqeləri ilə əks qütbü təşkil edirdi. İnqilabdan sonra Azərbaycan siyasi xadimlərinin demək olar ki, bu orqanlarda təmsil edilməməsi, sovetlərin Azərbaycan siyasi hərəkatına düşmən kəsildiyini sərgiləyirdi. Kaspiy qəzetinin 5 avqust sayında qeyd edilir ki, sosial demokratlar Rusiyanın gələcək müqəddəratı məsələsinə sentralist nöqteyindən yanaşırlar.(22) Belə bir zamanda bolşeviklərin gözləmə mövqeyində dayanması, Azərbaycan siyasi xadimlərinin konkret olaraq bolşevik təbliğatına qarşı heç bir təkzibedici siyasi addımların atılmaması ilə müşahidə edilirdi.

Daşnakstyun partiyasının eser-menşevik bloku ilə ittifaqda olması da Azərbaycan milli hərəkatı nümayəndələrinin bu bloka qarşı mənfi möveyində dayanmasına təsir göstərməyə bilməzdi. Daşnakların əsrin əvvəllərində yeritdikləri siyasi xəttin dəyişməməsi və Azərbaycan milli hərəkatına qarşı əks mövqedə durması, siyasi xadimlərdə əlbəttə ki, əks münasibət yaradırdı. Ümumiyytələ inqilabdan sonra Azərbaycandakı erməni siyasi xadimlərinin kadetlərin və eser-menşeviklərin siyasi xəttinə uyğun istəklərinin olması danilmaz fakt idi. Azərbaycandakı kadetlərdən olan Vermişevin etiraflarında rus imperializminin erməni xalqının xilaskarı olması kimi fikirlər yer almışdı.(5)

Müsavat parityasının proqramında sosial məsələ, siyasi quruluş, təhsil, müharibə sülh məsələləri də bolşevik fikirləri ilə üst-üstə düşürdü. Fevral inqilabından sonra Kadet partiyası Rusiyanı bütöv halda görmək istəyrdisə, Azərbaycan siyasi xadimləri Rusiya tərkibində siyasi muxtariyyat məsələsini dəstəkləyirdi. Eser-menşeviklər müharibənin davamını istəyirdilərsə, Müsavat və boşlevikər müharibəyə son qoyulması məsələsini qabardırdılar. Müsavat partiyasının oktyabr qurultayında da qəbul edilən məsələlər, yuxarıda göstərilən faktlara uyğun gəlirdi.

Azərbaycan siyasi xadimləri həmin dövrdə ərazidə siyasi ziddiyyətlərin yüksək kuliminasiya nöqtəsinə çatmasını istəmirdilər. Müsavatçılar eser-menşeviklərin bolşevikləri tamamilə sıxışdırmaq taktikasına inqilabi demokratiyanın tənəzzülü kimi baxırdılar. Belə ki, eser-menşevik bloku mübarizdə məğlub olmamaq üçün müsavatçıları da, İctimai Təhlükəsizlik Komitəsinə daxil etmək təklifini verdilər. Yalnız bu komitənin təşkili zamanı Müsavatçıları, ümumiyyətlə müsəlman siyasi xadimlərini bolşeviklərdən daha qorxulu hesab edən, bolşeviklərin dili ilə desək "sazişçilər", indi komitəyə Müsavatçıları dəvət etməklə yalnız onların gücündən istifadə etmək istəyirdilər. Lakin Müsavat partiyası 7 noyabr tarixində keçirdiyi iclasda qəbul etdiyi bəyannamədə deyilirdi ki, İctimai Təhlükəsizik Komitəsi siyasətə və demokratiyaya

1917-ci ildə Qış sarayına edilən hücum.

zidd olduğu üçün Müsavatın bu komitəyə daxil edilməsi təklifi rədd edilir. Bəyannamədə göstərilir ki, bolşeviklərin sovetlərdən çıxarılması taktikası demokratiyaya ziddir.(12) Bəyannmədə xüsusən vurğulanırdı ki, inqilabın sol qanadının yıxılması sağ qanadı olan əksinqilabı tikməkdir. (6) Lakin bu bəyannamədə bolşeviklərin hakimiyyətə gəlməsi də, heç də alqışlanmır. Çünki bəyannamədə demokratik yolla sovetlərə yeni seçkilərin keçirilməsi dəstəklənir.(12)

Alay, rota, batalyonların böyük bir hissəsi bolşevikləri dəstəkləyirdi. Eser-menşevik bloku istəklərinə nail olduğu halda bolşeviklərin qarşıdurmalar yaratması məsələsi məntiqə uyğun idi. Bu isə Azərbaycan siyasi xadimlərinin mənafelərinə heç cür uyğun gəlmirdi. Hətta F. Xoyski də sonralar Cənubi Qafqaz seyminin iclasında belə bir məsələni təsdiqləmişdi.

Bolşeviklərə münasibətdə Müsavat və onun ətrafındakı Azərbaycan siyasi xadimlərinin mövqeyini həm sovet dövrü tarixçiləri həm də müasir dövr yazarlar müxtəlif cür rəy vermişlər. Bir sıra yazarlar Müsavatın tutduğu mövqeni taktiki addım kimi qiymətləndirərək, praqmatik siyasətdən çox uzaqgörənlik kimi dəyərləndirmişlər.(13) B.İşxanyan qeyd edirdi ki, "elə bir məsələ yox idi ki, müsavatçılar bolşeviklərin əleyhinə çıxsınlar. Ancaq bir çox məsələlərdə müsavatçılar eser-menşevik blokunun əleyhinə çıxırdılar.(15) Yazarlardan A. Milman kimiləri müsavatçıları İctimai Təhlükəsizlik Komitəsindən çox sovetlərdə qalmaq istədiyini qeyd edir.(24,s,22) Ancaq burada səbəbin və nəticənin yalnız bu faktla bitməsinin üzərində dayansaq sadəlövhlük olardı. Yalnız onu qeyd etmək olar ki, Müsavat partiyası ətrafında toplaşan siyasi xadimlər başda M. Ə. Rəsulzadə olmaqla, yalnız reallığa uyğun hərəkət etdilər. Yəni yuxarıda göstərildiyi kimi bolşeviklərin bir sıra şüarları, siyasi fikirlərindəki müəyyən sosial prinsiplər, eser-menşevik-daşnak blokunun konkret olaraq antiazəbaycan siyasəti, Azərbaycan siyasi xadimlərini realizm siyasi çərçivəsindən çıxara bilmədi.

Doğrudur, M. Ə. Rəsulzadə bu siyasi xəttin yürüdülməsini sonralar taktiki addım adlandırmışdı. Ancaq ümumi siyasi auraya baxdıqda bunun müsavatçılar tərəfindən heç də siyasi addım deyil, yuxarıda göstərilən faktlara uyğun olaraq, realizm siyasi xətti və tərəddüd kimi qiymətləndirilməlidir. Çünki Bakı sovetinə noyabr seçkiləri zamanı M. Ə. Rəsulzadənin əvvəlcə sovetdə iştirakdan imtina etməsi sonradan razılaşaraq müsavatçıların həmin sovetdə yer almaları siyasi tərəddüddən başqa bir şey deyil. Bu

məsələdə yalnız inandırıcı F. Xoyskinin Cənubi Qafqaz Seymində söylədiyi bu ifadə idi: " Bakı müsavatçılarının Sovetdə iştirakı silahlı toqquşmalara yol verilməməsi, sabitliyin təmin edilməsi məqsədi daşıyırdı.(14,s,124) M. Ə.Rəsulzadə seymin iclasında bu məsələyə aydınlıq gətirərək, müsavatdan başqa heç kimin bolşeviklərin əleyhinə çıxmadığını, buna görə də onların təklikdə qaldıqlarını və sovetə daxil olduqlarını, müsavatçıların boşlevikləri deyil, soveti dəstəklədiyini bildirmişdi. (27,s,37) Bu faktın üzərində dayanmağımızın səbəbi ondan ibarətdir ki, müsavatçılar Azərbaycanın milli partiyası idi və bu paritya ətafında toplaşanlar heç cürə ərazidə silahlı qarşıdurmanın olmasını istəməzdilər. Müsavatçılar üçün isə eser-menşevik blokunun hakimiyyətdə qalması heç cür sərf etmirdi. Ona görə də onlar bu məsələdə loyal mövqe tutmaqla həm silahlı qarşıdurmanı dəf etməyə müvəffəq oldular həm də şüarlarına inandıqları, bir sıra məsələlərdə fikir ortaqlıqları olan bolşevikərin hakimiyyətə gəlməsinə bir növ kömək etmiş oldular .

Azərbaycan siyasi xadimlərinin belə bir addımı atmalarının səhv və ya doğru olduğunu söyləmək həmin dövr aspektindən çox çətindir. Çünki bu addımı doğru addım kimi qiymətləndirsək, onda bir müddət sonra müsavatçılarla bolşeviklər arasında başlanan qarşıdurmanı müşahidə edərək belə bir addımın atılmasının səhv olduğu qənaətinə gəlmiş olarıq. Bolşeviklərin hakimiyyətə gəlməsində müsavatı günahlandrsaq, bu zaman siyasi vəziyyətə düzgün qiymət verilməz. Yəni müsavatçıların eser-menşevik-daşnak blokunun siyasi addımlarına müsbət münasibət göstərməsi, elə həmin blokun günahı ucbatından qeyri mümkün idi. Çünki elə həmin blok heç bir məsələdə Azərbaycan milli ziyalılarını önə buraxmırdı. Buna görə də həmin dövrün siyasi ictimai durumuna dəqiq nəzər salmaq lazımdır və müsavtçıların bu addımı yalnız siyasi məcburiyyət və tərəddüd kimi qiymətləndirilməlidir. Lakin onu da qeyd etmək lazımdır ki, müsavatçılar bolşeviklərin onlardan istifadə etdiyi kimi, onlar bolşeviklərdən istifadə edə bilmədilər. Yəni bolşeviklər eser-menşevik blokunun antimüsəlman siyasətindən istifadə etməyi bacardılar.(7,s,44)

Bolşeviklər Müsavat partiyasının hadisələrə müəyyən dərəcədə loyal münasibətilə xalq kütlələrinin bir hissəsini öz tərəflərinə çəkə bildilər. Tarixin sonrakı gedişi göstərdi ki, bolşeviklər nəinki müsəlman xalqarına azadlıq verəcək, hətta Müvəqqəti Hökümət dövründə əldə olunan müəyyən demokratik azadlıqların aradan qaldrılmasına çalışacaqdılar.

İnqilab səhnəsi

ƏDƏBİYYAT

1. *Azərbaycan tarixi XIX-XXI əsrin əvvəllərində . Bakı Univeristeti 2010 . 448 səh*
2. *Azərbaycan tarixi Elm nəşriyyatı Bakı 1973 . 217 səh*
3. *Açıq söz qəzeti 25 iyun 1917 N 560*
4. *Açıq söz qəzeti 29 may 1917 N 483*
5. *Açıq söz qəzeti 1917 ci il 31may N 485*
6. *Açıq söz qəzeti 15 noyabr 1917-ci il N 606*
7. *Балаев А. Азербайджанскще национальное движение. В 1917-1918 гг . 220 səh*
8. *Бакинский Рабочий 1917 22 октябр N 69*
9. *Бакинский Рабочий 1917 27 октябр N 72*
10. *Бакинский Рабочий 1917 4 ноября N 73*
11. *Бакинский Рабочий 1917 10 ноября N 76*
12. *Бакинский Робочий . 14 ноября 1917 N 82*
13. *İbrahimov Z. Sosialist inqilabı uğrunda Azərbaycan zəhmətkeşlərinin mübarizəsi (1917-1918-ci illər). -Bakı: Azərnəşr, 1957.-588 s.*
14. *İbrahimova A. Azərbaycanda ictimai-siyasi qüvvələrin mübarizəsi. 1917-1918-ci illər. -BAKI: 2010.-208 s.*
15. *Ишханян Б. Контрреволюция в Закавкзье. Баку 1919 119 səh*
16. *Каспий 27 октябр 1917 N 241*
17. *Каспий 4 ноября 1917 N 248*
18. *Каспий 29 октября 1917 N 243*
19. *Каспий 2 ноября 1917 N 246*
20. *Каспий 30 sentyabr 1917 N 218*
21. *Каспий 1 август 1917 N 170*
22. *Каспий 5 август 1917 N 171*
23. *Мустафа-заде. Р ДВЕ РЕСПУБЛИКИ Азербайджано-российские отношения в 1918-1922 гг. МОСКВА 2006 . 356 səh*
24. *Milman A. Bakı Soveti-Azərbaycanda proletariat diktaturası orqanıdır. Bakı 1957 s 224*
25. *Sadıqov R. Rus İhtilalerinin Azerbaycana etkileri: Bağımsızlığa giden yol. Gazi Türkiyat Türkoloji Araşdırmaları dergisi. 2015 N 16*
26. *Шамуян С. Бакинская коммуна. Баку 1927 118 səh*
27. *Закавказский сейм. Стенографический отчеть 20 март 1918 .*

Keywords: *Musavat, political figures, the bolsheviks, the soviets*

RESUME

The second decade of the twentieth century in the history of Azerbaijan was one of the conflicting period.The overthrow of Romanov dynasty in the Russian Empire and the scope of the revolutionary movement in the country had given rise to increased political conflicts.The october revolution and the loyal attitude of the musavatists which was considered the main party in Azerbaijan had given rise to a variety of contradictions in Azerbaijani historiography.During investigation of positions of opposing political parties some various trends emerged in historiography. In the article the author has tried to investigate the attitude of the musavatists towards the Bolshevik revolution.The main essence of the article is to reveal contraversial thoughts in political leaders' attitude who are on the side of the Musavat party and against Bolshevik party.

Təhlükəsizlik

AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN OLUNMASINDA HƏRBİ TƏHLÜKƏSİZLİK SİSTEMİNİN YERİ VƏ ROLU. HƏRBİ TƏHLÜKƏSİZLİYİN ƏSAS ELEMENTLƏRİNİN TƏYİNATI, ONLARIN MÖVCUD VƏZİYYƏTİ

VÜQAR HÜSEYNOV
Azərbaycan Respublikasının
Müdafiə Nazirliyi

Milli təhlükəsizlik haqqında Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq, Azərbaycan Respublikasının hərbi sahədə milli təhlükəsizliyinin təmin olunması – Azərbaycan Respublikasının müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünə qarşı yönəlmiş hərbi xarakterli real və potensial təhdidlərdən müdafiə sahəsində tədbirlər kompleksinin həyata keçirilməsi və milli maraqların hərbi vasitələrlə qorunması qabiliyyətinin təmin edilməsidir. [1, maddə 19, bənd 19.1.]. Məhz Azərbaycan Respublikası öz hərbi təhlükəsizliyinin təmin edilməsini necə həyata keçirir?

Dövlətlərin hərbi təhlükəsizlik problemlərinin həlli üçün dünya təcrübəsində daha çox aşağıda göstərilmiş yanaşma tətbiq edilir:

- birinci yanaşmanın əsasını döyüş qabiliyyətli, etibarlı müdafiə potensialının (silahlı qüvvələrin) mövcudluğu təşkil edir. Bu yanaşmanın tərəfdarları olan dövlətlərin müdafiə siyasəti öz milli maraqlarına mövcud olan və proqnozlaşdırılan təhdidlərin qarşılanması və aradan qaldırılması üçün yetərli olan hərbi potensialın yaradılmasına və saxlanılmasına yönləndirilir;

- ikinci yanaşmanın tərəfdarları, silahlı mübarizə vasitələrinin bilavasitə tətbiqini ikinci plana çəkərək, müvafiq beynəlxalq hüquqi normaların tələblərinə sözsüz əməl etməklə və başqa dövlətlərlə qarşılıqlı faydalı əməkdaşlıq həyata keçirməklə öz hərbi təhlükəsizlik problemlərini həll edir. Bu yanaşmaya əsasən, məhz beynəlxalq hüquq və dövlətlərarası qarşılıqlı faydalı əməkdaşlıq sülh və təhlükəsizliyin təminatının qarantıdır. Qeyd edilməlidir ki, Azərbaycan Respublikası bu yanaşmanın tərəfdarıdır. Belə ki, öz müdafiə siyasətinin formalaşmasında və həyata keçirilməsində Azərbaycan Respublikası beynəlxalq hüququn norma və prinsiplərinə riayət edir, bütün dövlətlərlə dinc yanaşı yaşamağa səy göstərir, beynəlxalq münasibətlərdə bərabərhüquqlu tərəfdaşlıq, qarşılıqlı faydalı əməkdaşlıq və mehriban qonşuluq prinsiplərinin bərqərar olunmasına çalışır, təcavüzə məruz qaldığı, habelə beynəlxalq-hüquqi öhdəliklərindən irəli gələn hallar istisna olmaqla, heç bir dövlətə qarşı

hərbi əməliyyatlara başlamır, başqa dövlətlərin müstəqilliyinə qəsd vasitəsi və beynəlxalq münaqişələrin həlli üsulu kimi müharibəni rədd edir [2, maddə 28].

Hərbi təhlükəsizliyin təmin edilməsinə ikinci yanaşmanın tərəfdarı olaraq, Azərbaycan Respublikasının hərbi-siyasi rəhbərliyi dövlətin müdafiə siyasətini planlaşdırılması və həyata keçirilməsi zamanı müasir hərbi-siyasi vəziyyətin gerçəkliyini diqqət mərkəzində tutur. Belə ki, irimiqyaslı (həm nüvə, həm də adi) hərbi toqquşmaların təhlükəsi tam aradan qalxmasa da, sabitlik və sülh üçün əsas təhlükəni lokal müharibələr və silahlı münaqişələr təşkil edir [2, maddə 42]. Bu, güc təzyiqi və silahlı mübarizə vasitələrinin tətbiqi (və ya tətbiqi ilə hədələnməsi) metodlarının dövlətlərin öz siyasi məqsədlərinə nail olunmasında alət vasitəsi qismində öz aktuallığının saxlanılması deməkdir.

Məhz bu səbəbdən, dövlət rəhbərliyi ölkənin hərbi təhlükəsizliyinin təmin olunmasına hazırki ana uyğun olan vahid münasib yanaşmanı seçmişdir. Bu üçüncü yanaşmanın mahiyyəti qeyri-hərbi xarakterli tədbirlərin (qonşu və digər dövlətlərlə dostluq, tərəfdaşlıq və ya müttəfiqlik münasibətlərinin qurulması, inkişafı və möhkəmləndirilməsi) döyüşə hazır müdafiə potensialının qorunub-saxlanması və inkişaf etdirilməsi ilə uzlaşdırılmasından [2, maddə 26], həmçinin dövlətin milli təhlükəsizlik sisteminin tərkib hissəsi olan hərbi təhlükəsizlik sisteminin inkişafından və təkmilləşdirilməsindən ibarətdir.

Hərbi təhlükəsizlik sistemi – dövlət idarəetmə orqanlarının, Silahlı Qüvvələrin və başqa silahlı birləşmələrin, müdafiə sənayesinin, eləcə də Azərbaycan Respublikasının hərbi təhlükəsizliyinin təmin olunmasına səlahiyyət verilmiş və müdafiə siyasətinin təşkilində və həyata keçirilməsində iştirak edən digər müəssisə və təşkilatların bir-biri ilə əlaqələndirilmiş fəaliyyəti və məcmusudur.

Təhlükəsizlik sisteminin əsasını Azərbaycan Respublikasının müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün qorunması, habelə təhlükəsizliyinin və müdafiəsinin təmin edilməsi məqsədilə yaradılmış, Azərbaycan Ordusundan və başqa silahlı birləşmələrdən ibarət hərbi təsisat olan Azərbaycan Respublikasının Silahlı Qüvvələri (bundan sonra – Silahlı Qüvvələr) təşkil edir [3, maddə 1., müddəa 1.0.1.].

Dövlətin döyüş potensialı lokal miqyasda təcavüzün dəf edilməsini təmin edəcək səviyyədə saxlanılmalı [2, maddə 50.1], silahlı münaqişənin başlandığı (bərpa olunduğu) təqdirdə isə, münaqişənin qısa zamanda və Azərbaycan Respublikası üçün minimal itkilərlə həlli məqsədi ilə hərbi gücün tətbiqini təmin etməlidir [2, maddə 50.3]. Silahlı Qüvvələr, öz növbəsində, etibarlı mühafizəni, müdafiəni və Azərbaycan Respublikasına qarşı hər hansı dövlət tərəfindən hərbi təcavüzün qarşısının alınmasını, habelə qoşunların tam strateji açılmasını və ölkə ərazisinin həm dinc, həm də müharibə dövründə silahlı müdafiəsini təmin etməlidir. Hərbi doktrinanın əsasını təşkil edən zəruri və səmərəli müdafiə yetərliyi prinsipi [2, maddə 7] Azərbaycan Respublikasının həyatı vacib milli maraqlarının müdafiəsinin təmin olunması etibarlılığının səviyyəsi ilə, bu məqsədlər üçün ayrılan maliyyə və maddi resurslarının həcmi arasında tarazlığın saxlanılmasını nəzərdə tutur. Başqa sözlə, hərbi təhlükəsizlik sisteminin saxlanılması ölkə iqtisadiyyatı üçün həddən artıq ağır olmamalıdır.

Bu sahədə öz fəaliyyətini formalaşdıran və həyata keçirən Azərbaycan Respublikasının hərbi-siyasi rəhbərliyi:

- beynəlxalq hüququn norma və prinsiplərinə riayət edir, başqa dövlətlərlə münasibətlərini bərabərhüquqlu tərəfdaşlıq, qarşılıqlı faydalı əməkdaşlıq və mehriban qonşuluq prinsiplərini rəhbərlik tutaraq qurur;
- hərbi sahədə etibarlılıq etimadının yayılması üçün kömək göstərir, tərəfdaş dövlətlərlə ikitərəfli və çoxtərəfli hərbi-siyasi əməkdaşlığı davam etdirir;
- silahların məhdudlaşdırılması, ixtisarı və ləğv edilməsi üzrə qüvvədə olan müqavilələrə əməl edir, kütləvi qırğın silahlarının yayılmasının, işlənib hazırlanmasının, istehsalının, toplanmasının, əldə edilməsinin, saxlanılması və ötürülməsinin qarşısının alınmasında iştirak edir;
- beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, ərazi bütövlüyünü bərpa etmək məqsədi ilə hərbi güc daxil olmaqla bütün lazımi vasitələrdən istifadə etmək hüququnu özündə saxlayır, başqa dövlətlərin müstəqilliyinə qəsd vasitəsi və beynəlxalq münaqişələrin həlli üsulu kimi müharibəni rədd edir, təcavüzə məruz qaldığı, habelə beynəlxalq-hüquqi öhdəliklərindən irəli gələn hallar istisna olmaqla, heç bir dövlətə qarşı hərbi əməliyyatlara başlamır;
- terrorçuluğun bütün növləri ilə mübarizədə beynəlxalq birliyin səylərini dəstəkləyir.

Hərbi təhlükəsizliyin təmin edilməsi üzrə fəaliyyət aşağıda göstərilmiş başlıca prinsiplərə əsaslanır:

- Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına ciddi riayət etmək şərti ilə, hərbi təhlükəsizlik sisteminin elementlərinə mərkəzləşdirilmiş rəhbərliklə yanaşı onların fəaliyyətinə demokratik nəzarət;
- Azərbaycan Respublikasının hərbi təhlükəsizliyinə potensial təhdidlərin qabaqcadan proqnozlaşdırılması, vaxtında aşkarlanması və qiymətləndirilməsi ilə yanaşı tabelikdə olan qüvvə və vasitələrin fasiləsiz, effektiv, uzlaşdırılmış operativ idarə olunması məqsədilə hərbi təhlükəsizlik sisteminin elementləri arasında səlahiyyətlərin dəqiq bölüşdürülməsi;
- Azərbaycan Respublikasının hərbi təhlükəsizliyi sahəsində görüləcək fəaliyyətin vahid dövlət hərbi-iqtisadi siyasəti çərçivəsində planlaşdırılması və həyata keçirilməsi sayəsində, müvafiq dövlət plan və proqramlarının qabaqcadan planlaşdırılması, hərtərəfli təminatı və vaxtında həyata keçirilməsi;
- hərbi təhlükə və təhdidlərə adekvat reaksiyanın göstərilməsi üçün zəruri tədbirlərin vaxtında görülməsi, müdafiə yetərliyi prinsipindən irəli gələrək, müdafiə planlaşdırılması çərçivəsində hərbi təhlükəsizliyin təmin edilməsi üçün zəruri olan qüvvə, vasitə və ehtiyatların ayrılması və səmərəli istifadəsi;
- vaxt, resurs və vasitələr baxımından yerinə yetirilə biləcək tapşırıqların qoyulması, Azərbaycan Ordusunun və başqa silahlı birləşmələrin döyüşə hazırolma səviyyəsinin real şəraitə uyğun

saxlanılması, müasir standartlar əsasında peşəkar kadrların hazırlanması;

- hərbi təhlükəsizliyin təmin olunmasında siyasi, iqtisadi və informasiya vasitələrinə prioritetin verilməsi, silahlı güc vasitələrinin yalnız beynəlxalq hüquq normaları əsasında və qanunlara uyğun olaraq tətbiq edilməsi.

Hərbi təhlükəsizliyin təmin olunması sahəsindəki fəaliyyət aşağıdakı istiqamətlər üzrə həyata keçirilir:

- müdafiə siyasətinin və hərbi doktrinanın müəyyənləşdirilməsi, hərbi təhlükəsizlik sahəsində prioritet istiqamətlərin təyin edilməsi, hərbi münaqişələrin qarşısının alınması sahəsində siyasi, diplomatik, informasiya və digər qeyri-hərbi tədbirlər kompleksinin həyata keçirilməsi;

- silahlı təcavüzün qarşısının alınması üçün beynəlxalq əməkdaşlığın aparılması;

- dövlətin hərbi təhlükəsizlik sisteminin təkmilləşdirilməsinə yönəlmiş tədbirlər kompleksinin həyata keçirilməsi, qoyulmuş tapşırıqların yerinə yetirilməsi üçün Silahlı Qüvvələrin döyüş hazırlığının yüksək səviyyədə saxlanılması;

- müdafiə və hərbi quruculuq məsələlərinin hüquqi tənzimlənməsi;

- Silahlı Qüvvələrin strukturunun formalaşdırılması və təkmilləşdirilməsi, zəruri sayda şəxsi heyətlə komplektləşdirilməsi, onların döyüş və səfərbərlik hazırlığının yüksək səviyyədə saxlanılması;

- dövlət sərhədlərinin mühafizəsi və onların qanunsuz dəyişdirilməsinin qarşısının alınması;

- hərbi elmin və hərb məharətinin inkişafı;

- dövlət hərbi-iqtisadi siyasətinin müəyyən edilməsi və həyata keçirilməsi, zəruri iqtisadi və elmi-texniki bazanın yaradılması, normayaratma fəaliyyətinin həyata keçirilməsi, Silahlı Qüvvələrin silah, hərbi texnika və bütün təminat normaları ilə təmin edilməsi;

- ölkə iqtisadiyyatının səfərbər edilməsi üzrə fəaliyyətin təşkili, həmçinin dövlət orqanlarının, iqtisadiyyatın, əhalinin və ölkə ərazisinin müharibə dövrü üçün səfərbərlik hazırlığı;

- müdafiə planlaşdırılmasının təşkil edilməsi, ölkə ərazisinin və əhalinin ərazi və mülki müdafiəyə hazırlanması.

Hərbi təhlükəsizlik sisteminin mövcudluğu hərbi təhlükəsizlik sahəsində mövcud və meydana gələn problemlərin həllinə (problemin yaranması anından, onun yaranmasına səbəb olan amillərin aradan qaldırılmasınadək) sistematik və mərkəzləşdirilmiş yanaşmanı təmin edir.

Hərbi təhlükəsizlik sisteminə aşağıdakı vəzifələr həvalə edilir:

- mümkün təhdidlərin aşkarlanması, proqnozlaşdırılması və analizi, əhəmiyyətli vacib hərbi təhlükəsizlik obyektlərinə olan təhdidlərin aradan qaldırılması üçün meyarların, üsulların, vasitələrin hazırlanması, təhdidlərin aradan qaldırılması;

- hərbi təhlükəsizliyə yönəlmiş təhdidlərin qarşısının alınması və neytrallaşması üzrə operativ və uzunmüddətli tədbirlər kompleksinin həyata keçirilməsi;

- dinc və müharibə dövründə (fövqəladə hallarda) hərbi təhlükəsizliyi təmin edən qüvvə və vasitələrinin yaradılması, təyin edilmiş vəziyyətdə saxlanılması və idarə edilməsi;

- hərbi təhlükəsizlik obyektlərinin dayanıqlı fəaliyyətinin bərpa edilməsi və saxlanılması üzrə tədbirlər kompleksinin həyata keçirilməsi;

- Azərbaycan Respublikasının qanunvericiliyə uyğun sülhün dəstəklənməsi üzrə ölkə xaricində tədbirlərdə iştirak.

Hərbi təhlükəsizlik sisteminə daha dərindən nəzər salaq.

Dövlətin suverenliyinin və ərazi bütövlüyünün müdafiəsi üçün yaradılan qüvvə, vasitə və orqanlar (hərbi təhlükəsizlik sisteminin elementləri) ümumi məqsəd, vəzifə, tapşırıq və onların realizə üsullarına malik olur. Hərbi təhlükəsizlik sistemin elementlərinin fəaliyyəti milli təhlükəsizliyin təmin olunması üzrə ümumi prinsiplər əsasında həyata keçirilir və vahid hüquqi-normativ baza ilə nizamlanır. Dövlət qanunverici və icra orqanlarının fəaliyyətinin əlaqələndirilməsi, habelə ictimaiyyətin və vətəndaşların iştirakı ilə, hərbi təhlükəsizlik sisteminin mexanizmi çərçivəsində dövlətdə hərbi təhlükəsizlik sahəsində konseptual baxışlar və doktrinalı göstərişlər realizə olunur.

İcra funksiyaları ilə yanaşı, hərbi təhlükəsizlik sistemi çərçivəsində milli maraq və məqsədlər dövlətin siyasi kursu ilə uyğunlaşdırılır, hərbi xarakterli təhdidlərin həm siyasi-hərbi, həm də yalnız hərbi metodlarla qabaqlanması və aradan qaldırılması üzrə yeni forma və üsulları hazırlanır və tətbiq olunur. Hərbi təhlükəsizlik sisteminin xarici aspekti Silahlı Qüvvələrin Azərbaycan Respublikasına qarşı yönəlmiş xarici hərbi təcavüzün qarşısını almaq (saxlamaq), daxili aspekti isə ölkənin real iqtisadi imkanlarını nəzərə almaqla hərbi quruculuğu həyata keçirmək qabiliyyətində göstərilir.

Milli təhlükəsizliyin tərkib hissəsi olaraq, hərbi təhlükəsizlik sistemi dövlət və ictimai həyat fəaliyyətinin demək olar ki bütün sahələrini əhatə edir:

- hərbi-siyasi sahə (iki və çoxtərəfli hərbi, hərbi-siyasi və hərbi-iqtisadi əməkdaşlığın genişləndirilməsi və inkişafı, sülhün möhkəmləndirilməsi və saxlanılması üzrə Azərbaycan Respublikasının öz üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsi, beynəlxalq və regional təhlükəsizliyin möhkəmləndirilməsi üzrə əməliyyatlarda iştirak və s.);

- hərbi-iqtisadi sahə (zəruri müdafiə potensialının yaradılması, vahid dövlət hərbi-iqtisadi siyasətinin aparılması, hərbi quruculuğun iqtisadi cəhətdən və resurslarla təmin olunması məsələləri, hərbi quruculuq tədbirlərinin hərbi təhlükəsizlik tələblər ilə uyğunlaşdırılması, qüvvə və vasitələrin həcminin dövlətin müdafiə qabiliyyətini təmin edən səviyyədə saxlanılması, səfərbərlik resurs və ehtiyatlarının toplanılması, iqtisadiyyatın, ərazinin və əhalinin müdafiəyə hazırlanması və s.);

- hərbi-sosial sahə (dövlətin müdafiəsi məsələləri üzrə dövlət və yerli icra hakimiyyəti orqanlarının, ictimai institutlarının və vətəndaş cəmiyyətinin fəaliyyətinin uzlaşdırılması, gənclərin vətənpərvər və hərbi-vətənpərvər tərbiyəsi, hərbi xidmətin nüfuzunun artırılması, hərbi qulluqçuların və onların ailə üzvlərinin sosial müdafiəsi və s.);

- hərbi sahə (hərbi təhlükəsizlik sisteminin inkişafı və təkmilləşdirilməsi, hərbi təhlükə və təhdidlərin qabaqcadan aşkarlanması, qiymətləndirilməsi, qarşısının alınması və aradan qaldırılması üzrə tədbirlərin planlaşdırılması, hərbi quruculuq

tədbirlərinin vaxtında yerinə yetirilməsi, müdafiə planlaşdırılmasının, habelə qoşunların əməliyyat və döyüş hazırlığının planlaşdırılması və həyata keçirilməsi və s.);

- hərbi-texniki sahə (yerli və xarici ixtisaslaşdırılmış tədris müəssisələrində peşəkar və elmi-texniki kadrların hazırlanması, təhsil sisteminin təkmilləşdirilməsi, silahlı mübarizənin assimetrik üsul, metod və vasitələrini tətbiq edən düşmənlə konseptual və effektiv mübarizə metodlarının inkişafı, ölkənin müdafiəsinin təmin olunması sahəsində əsaslı elmi tədqiqatların aparılması, müasir tətbiqi və baza hərbi texnologiyalarının inkişafı, silah və hərbi texnika nümunələrinin yaradılması, modernləşdirilməsi və utilizasiyası, effektiv informasiya qarşıdurma sisteminin yaradılması, Silahlı Qüvvələrin informasiya təhlükəsizliyi səviyyəsinin artırılması, onların fəaliyyətinin informasiya təminatı vasitələrinin təkmilləşdirilməsi və s.);

- hərbi-texnoloji sahə (baza hərbi texnologiyalarının inkişafı üçün elmi-texniki və istehsal-texnoloji bazasının modernləşdirilməsi, müasir telekommunikasiya vasitələrinin və avtomatlaşdırılmış idarəetmə sistemlərinin tətbiqi sayəsində qoşunların idarə olunması sisteminin təkmilləşdirilməsi, hərbi idarəetmə orqanlarının idarəetmə məntəqələri şəbəkəsinin optimallaşdırılması, müasir nəzarət, idarə və rabitə vasitələrinin tətbiqi və geniş yayılması, müdafiə təyinatlı məmulatların istismarının tam həyat dövrünün yaradılması və s.);

- hərbi quruculuğun normativ-hüquqi təminatı (inkişaf planlarının qabaqcadan hazırlanması, Silahlı Qüvvələrin qarşısında duran vəzifələrin planlaşdırılması və dəqiqləşdirilməsi, hərbi quruculuğun normativ-hüquqi bazasının təkmilləşdirilməsi və inkişafı və s.).

Hərbi təhlükəsizliyin təmin edilməsinə sistemli yanaşma dövlət ərazisinin inzibati-ərazi bölünməsi prinsipinə uyğun olaraq yerləşdirilmiş qüvvə və vasitələrinin mərkəzləşdirilmiş qaydada idarə olunması, qüvvədə olan qanunvericiliyin müvafiq normativ-hüquqi müddəaların tələblərinə ciddi şəkildə riayət edilməsi, həmçinin dövlət hakimiyyəti və yerli icra hakimiyyəti orqanları arasında müdafiə məsələləri üzrə vəzifələrinin bölünməsi ilə əldə edilir. Hərbi təhlükəsizlik sisteminin əsasını Azərbaycan Ordusunun və başqa silahlı birləşmələrin qüvvə və vasitələri, habelə siyasi, iqtisadi, sosial, hüquqi, idarə və başqa xarakterli səlahiyyətləri verilmiş, fəaliyyəti hərbi sahədə təhdidlərin neytrallaşdırılmasına və dövlətin hərbi təhlükəsizliyinin təminatına yönləndirilmiş digər nazirlik və müəssisələr təşkil edir.

Qeyd edildiyi kimi, hərbi təhlükəsizlik tədbirlər kompleksinin həyata keçirilməsi ilə əldə edilir. Bugünkü gündə, inkişaf etmiş dövlətlərin əksəriyyətində yalnız hərbi xarakterli vasitələrin tətbiqi ilə əlaqəli olan fəaliyyətə (hərbi təhlükəsizliyin hərbi komponenti) heç də prioritet verilmir. Dövlətlərin hərbi təhlükəsizliyinin səviyyəsi və etibarlılığı dövlətdə aparılan xarici və daxili siyasət, dövlətin demokratik inkişaf dərəcəsi, iqtisadi, informasiya, hərbi və texnoloji bazanın inkişaf səviyyəsi, beynəlxalq əməkdaşlıq sistemi ilə və s. şərtlənir və onlardan bilavasitə asılıdır.

Hərbi təhlükəsizlik sisteminin idarə komponenti sistemin başlıca struktur elementi olaraq, Azərbaycan Respublikasının ali dövlət hakimiyyəti orqanlarından, yerli özünüidarəetmə orqanlarından (Naxçıvan Muxtar Respublikası) və hərbi idarəetmə orqanlarından ibarətdir [4].

İdarə komponenti ilə yanaşı, güc komponenti hərbi təhlükəsizlik sisteminin əhəmiyyətçə ikinci elementidir və özündə Azərbaycan Ordusunu və dövlətin hərb i təhlükəsizliyinin təmin edilməsi üzrə səlahiyyətlər verilmiş digər silahlı birləşmələri birləşdirir.

Hərbi təhlükəsizliyin hərtərəfli təminatı komponenti (iqtisadi, maddi-texniki, maliyyə, hüquqi və s.) özündə dövlətin sənaye və elmi komplekslərinin bir hissəsini, müdafiə infrastrukturunu, normativ-hüquqi, maliyyə-iqtisadi və xarici siyasi təminat sistemlərini əhatə edir.

Hərbi təhlükəsizliyin təminatında əsas xarici siyasi istiqamətlər aşağıdakılardır:

- ərazi bütövlüyünün bərpa olunması, Azərbaycan Respublikasına qarşı təcavüzün və ərazisinin işğalının nəticələrinin aradan qaldırılması;

- Avropa və Avro-Atlantik siyasi, iqtisadi, təhlükəsizlik və digər strukturlarla əməkdaşlığın genişləndirilməsi və dərinləşdirilməsi;

- beynəlxalq təhlükəsizliyə töhfə, beynəlxalq sülhün və sabitliyin qorunub saxlanmasına yönəlmiş birgə tədbirlərdə iştirak, hərbi-siyasi vəziyyətini pisləşdirə və hərbi təhlükə səviyyəsini artıra bilən dövlətlərarası ziddiyyətlərin aradan qaldırılması məqsədilə digər dövlətlərlə dostluq münasibətlərinin qurulması və möhkəmləndirilməsi;

- dövlətin müdafiə qabiliyyətinin möhkəmləndirilməsi.

Hərbi təhlükəsizliyin təminatında əsas daxili siyasi istiqamətlərə aşağıda göstərilmiş fəaliyyətlər aiddir:

- demokratik idarəetmə və vətəndaş cəmiyyətinin inkişaf etdirilməsi, dövlətin iqtisadi və sosial inkişafı, daxili və sərhəd təhlükəsizliyinin möhkəmləndirilməsi, elm, təhsil, mədəniyyət siyasəti və mənəviyyatın qorunması, effektiv informasiya təhlükəsizliyi siyasətinin aparılması;

- dövlətin müdafiəsi məsələləri üzrə hökumətin qəbul etdiyi qanunverici aktların və qərarların vaxtında yerinə yetirilməsi və hərtərəfli təminatı, habelə ölkə iqtisadiyyatının müharibə dövründə fəaliyyətə hazırlanması, ərazi müdafiəsinə hazırlıq tədbirlərinin həyata keçirilməsi;

- sülhün möhkəmləndirilməsi və sabitləşdirilməsinə kömək edən, təşkil edilmiş formada əhalinin etiraz aksiyalarının keçirilməsini istisna edən sosial və milli siyasətinin praktiki olaraq aparılması.

Hərbi təhlükəsizliyin etibarlı təmin olunmasının vacib şərtlərindən biri də, milli müdafiə sənayesinin inkişafı ilə yanaşı, ölkə iqtisadiyyatı ilə müdafiə arasında optimal nisbətin əldə edilməsidir. Dövlətin sabit iqtisadi inkişafı hərbi quruculuğun planlaşdırılmasını və həyata keçirilməsini, müdafiə qabiliyyətinin səviyyəsini, silahlı qüvvələrin bütün təminat normaları və hərbi texnika ilə hərtərəfli təchiz edilməsi üzrə dövlətin imkanlarını şərtləndirir.

Yuxarıda qeyd olunmuş komponentlərlə yanaşı, əhalinin və silahlı qüvvələrin müharibənin ağırlıqlarına dözmək, qələbənin əldə edilməsi üçün bütün mövcud imkanlarını səfərbər etmək və onlardan maksimum dərəcədə istifadə etmək bacarığına və hazır olmasına xalqın mənəvi və əxlaqi keyfiyyətləri, mülki əhalinin psixoloji hazırlığı və hərbi qulluqçularının mənəvi-psixoloji vəziyyəti

bilavasitə təsir göstərir. Beləliklə, dövlətin hərbi təhlükəsizliyinin təmin edilməsi üzrə tədbirlərin planlaşdırılması və həyata keçirilməsi zamanı hərbi təhlükəsizliyin mənəvi-psixoloji komponentinə lazımi diqqət yetirilməlidir.

Dövlətdə hərbi təhlükəsizlik sisteminin olması Azərbaycan Respublikasının milli maraqlarına potensial hərbi təhlükəni (təhdidi) törədən təhlükəsizlik amillərini fasiləsiz proqnozlaşdırmaq və təhlil etmək ehtiyacı ilə şərtlənir. Təbii ki, ölkənin hərbi təhlükəsizliyinin təmin edilməsi üzrə bütün fəaliyyət dövlətin hərbi təhlükəsizlik sisteminin fəaliyyətinin hərtərəfli təmin edilməsi imkanından, dövlətdə qanunverici, icraedici və məhkəmə səlahiyyətləri verilmiş dövlət orqanlarının, habelə bütün sistemin fasiləsiz və arası kəsilmədən fəaliyyətini təmin etmək məqsədilə koordinasiya funksiyalarını həyata keçirən vahid mərkəzi orqanın mövcudluğundan asılıdır. Məhz bu funksiyalar, Azərbaycan Respublikasının Prezidentinin 10 aprel 1997-ci il tarixli Fərmanı ilə yaradılmış Təhlükəsizlik Şurasına həvalə edilib. Təhlükəsizlik Şurası Prezidentin yanında məşvərətçi orqanı olaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 27-ci bəndinə uyğun olaraq Prezident tərəfindən yaradılır.

İstənilən digər sistemlər kimi, hərbi təhlükəsizlik sistemi ayrı-ayrı tərkib hissələrdən ibarətdir. Ayrılıqda götürülmüş hər bir hissə sistemin ayrıca elementini təmsil edir. Nəticə etibarilə, hərbi təhlükəsizlik sisteminin effektiv və arası kəsilməz fəaliyyəti onun elementlərinin qarşılıqlı əlaqəsinin düzgün təşkil edilməsindən asılıdır. Beləliklə, hərbi təhlükəsizlik problemlərinin vaxtında həll edilməsi yalnız hərbi təhlükəsizliyi təmin edən strukturların özlərinin (dövlət hakimiyyəti orqanlarının) mövcudluğundan yox, vahid sistemin çərçivəsində birləşdirilmiş bu strukturlarının arası kəsilməz fəaliyyəti ilə təmin olunur. Milli, o cümlədən hərbi təhlükəsizlik sahəsində dövlət hakimiyyəti orqanlarının fəaliyyəti və səlahiyyətlərin bölüşdürülməsi Azərbaycan Respublikasının qanunvericiliyinin müvafiq müddəaları ilə nizamlanır.

Hərbi təhlükəsizlik sisteminin hüquqi əsasını Azərbaycan Respublikası Konstitusiyası [5], "Milli təhlükəsizlik haqqında" [1], "Kəşfiyyat və əks-kəşfiyyat haqqında" [6], "Dövlət sirri haqqında" [7], "Fövqəladə vəziyyət haqqında" [8], "Hərbi vəziyyət haqqında" [9], "Müdafiə haqqında" [10], "Azərbaycan Respublikasının dövlət sərhədi haqqında" [11], "Mülki müdafiə haqqında" [12] və s. Azərbaycan Respublikası qanunları, digər normativ-hüquqi aktları, habelə respublikanın tərəfdar çıxdığı dünyada sülhün və beynəlxalq təhlükəsizliyin qorunması sahəsində dövlətlərarası münasibətləri tənzimləyən beynəlxalq müqavilələr təşkil edir. Mövcud qanunvericiliyə əsasən, dövlətin hərbi təhlükəsizliyinin təminatı sahəsində tapşırıqların yerinə yetirilməsi üzrə bütün fəaliyyətin təşkilinə nəzarəti Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

Müdafiə və hərbi quruculuq məsələlərini qanunvericiliklə nizama salınması Azərbaycan Respublikası Milli Məclisinin müstəsna səlahiyyətinə aiddir. Azərbaycan Respublikasının Milli Məclisi aşağıdakıları təsdiq edir:

- hərbi doktrinanı və hərbi quruculuğun konsepsiyasını;
- büdcədən müdafiə üçün ayrılan məbləği, Silahlı Qüvvələrin ümumi strukturunu və sayını;
- Azərbaycan Respublikasının hərbi sahədə digər dövlətlərlə əməkdaşlığının əsas istiqamətlərini, hərbi məsələlərə dair beynəlxalq və dövlətlərarası müqavilələri;
- Azərbaycan Respublikasının ərazisində hərbi vəziyyətin tətbiq edilməsi və ləğv olunması barədə Azərbaycan Respublikası Prezidentinin fərmanlarını;
- hərbi andın mətnini və ümumqoşun nizamnamələrini;
- silahların və hərbi texnikanın dövlət inkişaf proqramını.

Azərbaycan Respublikasının Milli Məclisi:

- Azərbaycan Respublikası prezidentinin müraciətinə əsasən müharibə elan edilməsinə və sülh bağlanmasına razılıq verir;
- Azərbaycan Respublikasının beynəlxalq öhdəliklərinə müvafiq olaraq Azərbaycan Respublikasının hüdudlarından kənarda Azərbaycan Respublikasının Silahlı Qüvvələrindən istifadə haqqında qərar qəbul edir;
- Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin onun təyinatı ilə bağlı olmayan vəzifələrə cəlb edilməsi barədə qərar qəbul edir;
- müdafiə məsələləri üzrə Azərbaycan Respublikası qanunvericiliyinin həyata keçirilməsinə nəzarət edir [10, maddə 4].

Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanıdır.

Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı kimi:

- Azərbaycan Respublikası Milli Məclisinin təsdiqinə hərbi doktrinanın layihəsini, silahların və hərbi texnikanın dövlət inkişaf proqramını Silahlı Qüvvələrin ümumi strukturu və sayı haqqında təkliflərini təqdim edir;
- Azərbaycan Respublikası Milli Məclisinin razılığı ilə müharibə elan edir və sülh bağlayır;
- hərbi quruculuğun konsepsiyasını, Silahlı Qüvvələrin ümumi strukturunu və sayını təsdiq edir;
- Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi məktəblərini, ali məktəblərin hərbi kafedralarını və elmi tədqiqat təşkilatlarını yaradır və ləğv edir;
- Azərbaycan Respublikasının Konstitusiyası və qanunları hüdudlarında müvafiq orqanların müdafiə sahəsində səlahiyyətlərini, təşkilini və fəaliyyət qaydasını müəyyənləşdirir və onların fəaliyyətinə rəhbərlik edir;
- birgə müdafiə və hərbi əməkdaşlıq, kollektiv təhlükəsizlik və tərksilah məsələləri barəsində danışıqlar aparır və Azərbaycan Respublikasının beynəlxalq müqavilələrini imzalayır;
- Azərbaycan Respublikası Silahlı Qüvvələrinin inkişaf, səfərbərlik, yerləşdirilmə və tətbiq planlarını, iqtisadiyyatın və idarəetmənin səfərbərlik planlarını, Azərbaycan Respublikasının mülki müdafiə planını və ərazi müdafiəsi haqqında Əsasnaməni təsdiq edir;
- Azərbaycan Respublikasının Konstitusiyasına müvafiq olaraq Azərbaycan Respublikasının bütün ərazisində və ya ayrı-ayrı yerlərində hərbi vəziyyət elan edir və bu barədə qəbul etdiyi fərmanı 24 saat müddətində Azərbaycan Respublikası Milli Məclisinin təsdiqinə verir; ümumi və qismən səfərbərlik elan edir, habelə səfərbərlik üzrə çağırılanları tərxis edir;
- hərbi vəziyyət haqqında Qanuna müvafiq olaraq hərbi dövrün dövlət idarəçilik orqanlarını yaradır və ləğv edir;
- hərbi əməliyyatlar aparılması barədə Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə əmr verir;
- Azərbaycan Respublikası Silahlı Qüvvələrinin onun təyinatı ilə bağlı olmayan vəzifələrin icrasına cəlb edilməsi barədə Azərbaycan Respublikasının Milli Məclisinə təqdimat verir;
- Azərbaycan Respublikası vətəndaşlarının müddətli hərbi xidmətə çağırılması və müddətli xidmət hərbi qulluqçularının ehtiyata buraxılması barədə fərmanlar verir [10, maddə 5].

Təhlükəsizlik Şurası müdafiə sahəsində dövlət siyasətinin

formalaşdırılması üçün Prezidentin yanında yaradılan məşvərətçi orqandır. Təhlükəsizlik Şurasına hərbi təhlükəsizlik sistemində koordinasiya funksiyalarının həyata keçirilməsi həvalə edilir və onun səlahiyyətləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyənləşdirilir. Təhlükəsizlik Şurası vətəndaşların hüquq və azadlıqlarının, Azərbaycan Respublikasının müstəqilliyinin və ərazi bütövlüyünün qorunması sahəsində Prezidentin öz Konstitusiya səlahiyyətlərini həyata keçirməsinə şərait yaradılmasını təmin edir. Təhlükəsizlik Şurasının səlahiyyətlərinə həmçinin hərbi-siyasi şəraitin analizi və qiymətləndirilməsi, onun sonrakı inkişafı, meydana gələn hərbi təhlükələrin (təhdidlərin) qarşısının alınması üzrə dövlət rəhbərliyinə məsləhətlərin hazırlanması, hərbi təhlükəsizlik sisteminin elementlərinin saxlanılması və təkmilləşdirilməsi üzrə hərbi təhlükəsizlik sisteminin strukturlarının fəaliyyətinin təşkili daxildir.

Azərbaycan Respublikasının Nazirlər Kabineti:

- Silahlı Qüvvələrin vəziyyətinə görə məsuliyyət daşıyır;
- Silahlı Qüvvələrin silah, hərbi texnika, döyüş sursatı və başqa vasitələrlə təchiz olunmasını təşkil edir;
- müdafiə və Silahlı Qüvvələrin ehtiyacları üçün maddi-texniki, ərzaq, geyim və digər ehtiyatların həcmini, həqiqi hərbi xidmətə çağırılmalı olan Azərbaycan Respublikası vətəndaşlarının sayını, hərbi vəzifəlilərin və çağırışçıların uçotunun aparılması və səfərbərlik elan edilərkən hərbi vəzifələrin ölkə iqtisadiyyatının ehtiyacları üçün səfərbərlik üzrə hərbi çağırışına və müharibə dövründən sonrakı çağırışlarına möhlət verilməsi qaydalarını müəyyənləşdirir;
- səfərbərlik ehtiyatlarına maddi sərvətlərin toplanması planını təsdiq edir;
- ölkə iqtisadiyyatının səfərbərlik hazırlığına və səfərbərlik üzrə işə başlamasına, onun hərbi vəziyyət şəraiti rejiminə keçirilməsinə rəhbərlik edir, bu məsələlərə aid müvafiq qərarlar qəbul edir;
- mülki və ərazi müdafiəsinin ümumi planlaşdırılmasını təşkil edir və onun yerinə yetirilməsinə nəzarət edir;
- hərbi komissarlıqların fəaliyyət və maddi-texniki təchizat qaydasını müəyyən edir;
- silahların və strateji materialların ixracı üzərində nəzarəti təşkil edir;
- hərbi qulluqçuların, hərbi qulluqdan ehtiyata və ya istefaya buraxılmış şəxslərin, onların ailələrinin sosial və hüquqi təminatlarına dair qanunvericiliyin icrasını təmin edir [10, maddə 6].

Qeyd etmək lazımdır ki, yuxarıda sadalanan vəzifələr yalnız hərbi təhlükəsizliyə bilavasitə təsir göstərən vəzifələrdir və qeyd olunan qurumların və dövlət orqanlarının müdafiə sahəsində səlahiyyətlərini tam açıqlamır.

Hərbi təhlükəsizlik sisteminin hərbi komponentini təmsil edən Azərbaycan Ordusuna və Azərbaycan Respublikasının Konstitusiyasına əsasən yaradılan başqa silahlı birləşmələrinə dövlətin hərbi təhlükəsizliyinin təmin olunmasında əsas rol ayrılır. Müharibənin qarşısının alınması üçün təyin olunan digər qeyri-güc metodlarının effektiv olmadığı halda, məhz güc strukturları dövlətin suverenliyinin və ərazi bütövlüyünün silahlı müdafiəsinin əsas qarantıdır.

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Azərbaycan Respublikası Prezidentinin təsdiq etdiyi Əsasnaməyə uyğun olaraq fəaliyyət göstərir, Azərbaycan Respublikasının Azərbaycan Ordusuna və yerli hərbi idarəetmə orqanlarına rəhbərlik edən dövlət orqanıdır və onların inkişafına, həmçinin müdafiə vəzifələrinin yerinə yetirilməsinə hazırlığına görə tam məsuliyyət daşıyır [10, maddə 7].

Azərbaycan Respublikasının Azərbaycan Ordusu hərbi dövlət qurumu olub Azərbaycan Respublikasının suverenliyinin, müstəqilliyinin, ərazi bütövlüyünün və bölünməzliyinin silahlı müdafiəsi üçün təsis olunur. Müharibə şəraitində Azərbaycan Ordusu öz vəzifələrini sərhəd qoşunları, daxili qoşunlar və Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər qoşunlarla sıx əlaqədə yerinə yetirirlər [10, maddə 12].

İstehsalat bazasında hərbi sifarişlər yerləşdirilmiş digər nazirliklər və mərkəzi dövlət icra orqanları silahların və hərbi texnikanın yaradılmasının və hazırlanmasının keyfiyyətinə görə, Azərbaycan Respublikası Silahlı Qüvvələri və müdafiə ehtiyacları üçün zəruri malların tədarükünə görə və müharibə dövründə müdafiənin təmin olunması üçün tədbirlərin həyata keçirilməsinə görə məsuliyyət daşıyırlar [10, maddə 8].

Nəticə

Dünyada baş verən müasir hərbi-siyasi proseslərinin təhlili hal-hazırda mövcud olan və mənfi təsiri "dondurulmuş" münaqişələrin yenidən bərpa olunmasına və ya yeni münaqişələrin meydana gəlməsinə səbəb ola bilən bir çox amillərin mövcudluğunu göstərir. Ermənistan Respublikası tərəfindən Azərbaycan Respublikası ərazisinin bir hissəsinin işğalını, iqtisadi və sosial infrastrukturun dağıdılması ilə nəticələnmiş təcavüz aktının davam etdirilməsini nəzərə alaraq, Azərbaycan Respublikasının Hökuməti tərəfindən dövlətin hərbi təhlükəsizlik məsələlərinin həllinə prioritetli əhəmiyyət verilir.

Ölkənin hərbi təhlükəsizliyinə mənfi təsir göstərən amillərin hərtərəfli analiz edilməsi, Azərbaycan Respublikasına hərbi təhdidlərin qarşısının alınması, lokallaşdırılması və neytrallaşdırılması, habelə yaranmış vəziyyətə uyğun olaraq adekvat qərarların hazırlanması üçün milli təhlükəsizlik sistemi çərçivəsində hərbi təhlükəsizlik sistemi fəaliyyət göstərir.

Hərbi təhlükəsizlik sistemi, dövlətin müdafiə siyasətini konkret qurum, müəssisə, təşkilat, ictimai birlik və vətəndaşların müdafiə sahəsində məsələlərin həlli üzrə uzlaşdırılmış fəaliyyətə çevirən mexanizmi rolunda çıxış edir. Hərbi təhlükəsizliyə proqnozlaşdırılan təhdidlər və ölkənin sosial-iqtisadi inkişafı dövlətin hərbi təhlükəsizlik sisteminin qurulmasını şərtləndirən əsas

parametrlərdəndir.

Hərbi təhlükəsizlik sisteminin elementlərinin uzlaşdırılması üzrə vəzifələrin həyata keçirilməsi Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasına həvalə olunur. Bu orqan hərbi təhlükəsizlik problemlərinə dövlət miqyasında vahid yanaşmanı, müdafiə sahəsində müvafiq qanunvericiliyin yaradılmasını və təkmilləşdirilməsini, həmçinin hərbi təhlükəsizlik sisteminin elementlərinin vahid sistem çərçivəsində uzlaşdırılmış fəaliyyətini təmin edir.

ƏDƏBİYYAT

1. *Milli təhlükəsizlik haqqında Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 29 iyun tarixli, 712-IIQ nömrəli Sərəncamı ilə təsdiq edilmişdir*
2. *Azərbaycan Respublikasının Hərbi doktrinası, Azərbaycan Respublikası Milli Məclisinin 2010-cu il 8 iyun tarixli, 1029-IIIQR nömrəli Qərarı ilə təsdiq edilmişdir*
3. *Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 29 dekabr tarixli, 955-VQ nömrəli Sərəncamı ilə təsdiq edilmişdir*
4. *Система национальной безопасности, Независимый Азербайджан http://republic.preslib.az/ru_a5.htm*
5. *Azərbaycan Respublikasının Konstitusiyası, 1995-ci il 12 noyabr tarixli, 00 nömrəli*
6. *Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 29 iyun tarixli, 711-IIQ nömrəli Sərəncamı ilə təsdiq edilmişdir*
7. *Dövlət sirri haqqında Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 7 sentyabr tarixli, 733-IIQ nömrəli Sərəncamı ilə təsdiq edilmişdir*
8. *Fövqəladə vəziyyət haqqında Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 8 iyun tarixli, 681-IIQ nömrəli Sərəncamı ilə təsdiq edilmişdir*
9. *Hərbi vəziyyət haqqında Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikası Prezidentinin 1994-cü il 6 yanvar tarixli 779 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir*
10. *Müdafiə haqqında Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikası Prezidentinin 1993-cü il 26 noyabr tarixli 744 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir*
11. *Azərbaycan Respublikasının dövlət sərhədi haqqında Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikası Prezidentinin 1991-ci il 9 dekabr tarixli 13 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir*
12. *Mülki müdafiə haqqında Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 30 dekabr tarixli 420-IQ nömrəli Sərəncamı ilə təsdiq edilmişdir*

Açar sözlər: *milli təhlükəsizlik, hərbi təhlükəsizlik sistemi, hərbi təhdid, hərbi təhlükə, hərbi quruculuq, müdafiə siyasəti.*

Ключевые слова: *национальная безопасность, система военной безопасности, военная угроза, военная опасность, военное строительство, оборонная политика.*

Key words: *national security, system of military security, military threat, military danger, development of the armed forces, defense policy.*

РЕЗЮМЕ

Место и роль системы военной безопасности в обеспечении национальной безопасности Азербайджанской Республики. Назначение основных элементов военной безопасности, их сегодняшнее состояние

В.М. Гусейнов

Обеспечение военной безопасности Азербайджанской Республики подразумевает осуществление комплекса мероприятий по предотвращению, локализации и нейтрализации военных угроз, направленных против Азербайджанской Республики и является одним из наиболее важных направлений государственной деятельности. Азербайджанская Республика обеспечивает свою военную безопасность в контексте построения демократического правового государства, проведения социально-экономических реформ, осуществления взаимовыгодного сотрудничества и добрососедства, поэтапного формирования единой системы международной безопасности, сохранения и укрепления мира.

В статье рассматриваются вопросы, связанные с системой военной безопасности, являющейся одним из важных элементов военной безопасности государства и представляющей собой совокупность взаимосвязанной деятельности органов государственного управления, Азербайджанской Армии и других вооружённых формирований, оборонной промышленности, а также других учреждений и организаций, наделённых полномочиями по обеспечению военной безопасности и участвующих в организации и осуществлении оборонной политики Азербайджанской Республики.

SUMMARY

The role and place of the system of military security in the provision of the national security of the Republic of Azerbaijan. The purpose and current condition of the main elements of military security

V.M. Huseynov

Provision of military security of the Republic of Azerbaijan implies the realization of a complex of actions for prevention, localization and neutralization of the military threats directed against the Republic of Azerbaijan and is one of the most important directions of the government's activity. The Republic of Azerbaijan provides the military security in a context of construction of a democratic lawful state, carrying out of social and economic reforms, realization of mutually advantageous cooperation and good neighborhood, stage-by-stage formation of unified system of the international security, and preservation and strengthening of the peace in the world.

In article the matters related with the system of military security, which is one of the important elements of military security of the state are considered. The system of military security is the set of interconnected activities of the public authorities, the Azerbaijani Army and other armed formations, the defense industry, and other establishments and the organizations empowered with responsibilities for maintenance of military security and participating in the organization and realization of the defense policy of the Republic of Azerbaijan.

Təhsil

AZƏRBAYCAN RESPUBLİKASI VƏ MACARISTAN ARASINDA XXI ƏSRİN İLK İLLƏRRİNDƏ TƏHSİL SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ

ZÜMRÜD NURİYEVA
Bakı Dövlət Universiteti

Təhsil hər bir ölkənin gələcək inkişafının təməlinin qoyan əsas bir sahədir. Məhz bu səbəbdən istənilən dövlətdə təhsilə qayğı və təhsilə kapital qoyuluşu proritet məsələlərdən biri hesab edilir. Azərbaycan Respublikası hökuməti də bu sahədə digər dövlətlərdən geri qalmamaq məqsədi ilə müstəqilliyin əldə edilməsindən sonra təhsil sahəsində islahatların keçirilməsinə və yeni innovativ metodların tətbiqinə diqqət ayırır. Sözsüz ki, yeni dünyanın və müasir cəmiyyətin tələblərinə uymaq böyük bir işinin görülməsini tələb edir. Bu istiqamətdə Azərbaycan dövləti artıq bəlli bir yol keçmiş və sosialist sistemindən çıxaraq daha müasir təhsil sistemini qurmağa nail olomuş Macarıstanın təcrübəsindən faydalana bilər. Dövlətlərimiz arasında qarşılıqlı əməkdaşlığın perspektivli sahələrindən biri də məhz təhsil və elm sahələridir. Əslində bu əməkdaşlığın artıq bəlli bir tarixi mövcud idi .

İkinci dünya müharibəsindən sonra eyni ideya-siyasi istiqamətə və sosial-iqtisadi bazisə malik olmaları Azərbaycan SSR və Macarıstan Xalq Respublikası arasında elm, təhsil mədəniyyət və incəsənət sahələrində əməkdaşlığın inkişafına da təkan vermişdir. Bu, elmi əməkdaşlıqda daha sürətlə təzahür tapdı.

Azərbaycan Neft və Kimya İnstitutu ilə Macarıstanın Mişkolts Texniki İnstitutu arasında mövcud olan təcrübə və elmi mübadilələr sovet dövründə iki ölkə arasındakı elm və təhsil əlaqələrinə gözəl nümunələrdən biri idi. Belə ki, Azərbaycan Respublikası EA-nın Macarıstan Xalq Respublikasının Elmlər Akademiyası ilə əməkdaşlığı səmərəli və məhsuldar idi. Azərbaycan Dövlət Universiteti Loranda Etvens adına Budapeşt Universiteti ilə elmi əməkdaşlıq edirdi. Xüsusilə, riyaziyyat, kibernetika, bitki fiziologiyası və kimya sahələrində birgə əməkdaşlığın nəticələri beynəlxalq səviyyəli konfrans, simpozium və konqreslərdə təzahür tapırdı. Akademiki A.Mirzəcanzadə 1961-ci ildə Macarıstanda “ “SSRİ-də qazma və hasilat üzrə hidravlik tədqiqatların xülasəsi” mövzusunda çox maraqlı məruzə etmişdi.Görkəmli alim M.Abutalıbov 1967-1968-ci illərdə bir neçə dəfə bu ölkəyə təcrübə mübadiləsi məqsədilə dəvət olıumuş, mineral yemlərlə bəslənilən bitkilərin fiziologiyası haqqında maraqlı mühazirələrlə çıxış etmişdi.

1963-cü ilin avqustunda Macarıstanın paytaxtı Budapeştdə makromolekulyar kimyanın müasir nəzəri problemlərinə həsr olunan XI Beynəlxalq simpoziumda Bakıdakı Ümumittifaq Elmi- Tədqiqat Olefinlər İnstitutunun direktoru, akademik M.Dalin və həmin institutun laboratoriya müdiri, alim A.Bünyadzadə “Çatlamaya qarşı davamlı olan yeni növ polietilen alınması” və “Yüksək temperaturlarda polimer maddələrin parçalanma mexanizmi haqqında” mövzularında məruzələrlə çıxış emtiş və çox böyük maraqla qarşılanmışlar. SSRİ-nin süqutundan sonra baş vermiş siyasi dəyişimlər keçmiş sosialist düşərgəsinin üzvlərini yeni dünyada münasibətlərin qurulmasına yenidən baxmağa məcbur etdi.

2004-ci ildə Azərbaycanın Macarıstanda səfirliyinin açılması və 2009-cu ildə Macarıstanın ölkəmizdəki səfirliyinin təsis edilməsi ikitərəfli təhsil, elm və mədəni münasibətlərinin inkişafına mühüm təkan verdi. Belə ki,yeni açılmış səfirliyin Macarıstanla Azərbaycan arasında mədəni əlaqələrin inkişafı sahəsində gördüyü ilk dəyərli tədbirlərdən biri 2006-cı il mayın 23 - 24-də həmin ölkədə Azərbaycan günlərinin keçirilməsi faktı oldu. Tədbirin keçirilməsində əsas məqsəd Macarıstan ictimaiyyətini Azərbaycanın

qədim və zəngin mədəniyyəti ilə yaxından tanış etmək, ölkəmizlə bağlı həqiqətləri macar xalqının diqqətinə çatdırmaq, onları Qarabağla bağlı tarxi məqamlarla məlumatlandırmaq idi[1].

Elm, təhsil, mədəni əməkdaşlıq məsələləri yüksək səviyyəli dövlət və hökumət başçılarının, yüksək vəzifəli şəxslərin qarşılıqlı səfərlər zamanı müzakirə mövzularından biri olmuşdur. Məsələn, 2006-cı il yanvarın 23-də Bakıda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Macarıstan Xarici İşlər Nazirliyinin siyasi məsələlər üzrə dövlət katibi Andraş Barşoni ilə görüşdə mədəniyyət sahəsində ikitərəfli əməkdaşlıq üçün hüquqi-normativ bazanın yaradılmasına ehtiyac duyulduğu, ölkələr arasında turizmin inkişaf etdirilməsi üçün hərtərəfli imkanların olduğu qabardıldı. Bu sahədə tədbirlərin reallaşdırılması məqsəd kimi qarşıya qoyuldu[1].

Son illərdə Azərbaycan Respublikası ilə Macarıstan Respublikası arasında təhsil sahəsində əlaqələr getdikcə artmaqdadır. Artıq iki ölkənin ayrı-ayrı ali məktəbləri müəyyən əməkdaşlıq münasibətləri qurublar. Belə ki, Bakı Dövlət Universiteti Budapeşt Korvinus Universiteti (06.11.2009), Budapeşt Fondu Açıq Cəmiyyət İnstitutu (17.08.2013) və KodolaniYanoşadına Tətbiq Elmlər Universiteti (20.08.2013) ilə, Bakı Slavyan Universiteti Budapeşt Korvinus Universiteti (2010) ilə, Azərbaycan Tibb Universiteti Macarıstanın Szeged Universiteti ilə, Azərbaycan Dövlət İqtisad Universiteti Macarıstanın Dunayvaros Universiteti ilə, Naxçıvan Dövlət Universiteti Budapeşt Corvinus Universiteti ilə əməkdaşlıq müqaviləsi imzalanmışdır. Azərbaycan Dillər Universiteti və Balaşi İnstitutu arasında əməkdaşlıq haqqında ilkin razılıq əldə edilib. Bu iki universitet arasında əməkdaşlığa dair imzalanacaq saziş əsasında Azərbaycanın ali məktəbində macar dili tədris ediləcəkdir.

Macarıstan hökumətinin humanitar sahədə, xüsusilə təhsil sahəsində Azərbaycanla əlaqələri inkişaf etdirmək niyyəti əməkdaşlığa mühüm təkan vermişdir. Macar tələbələri Azərbaycanın ali məktəblərində, xüsusilə Lomonosov adına MDU-nun Bakı filialı, Azərbaycan Neft Akademiyası, Azərbaycan Diplomatik Akademiyası, Azərbaycan Dillər Universiteti və b. təhsil almaqda maraqlı olduğunu görən hökumət hazırda bu istiqamətdə fəallığı artırmışdır.

Hökumətimizin məqsədinə uyğun olaraq səfirliyimiz Azərbaycan və Macarıstan ali məktəbləri arasında əməkdaşlığın qurulması və inkişafı istiqamətində müəyyən işlər görmüşdür. Belə ki, 2007-ci ildə "Azərbaycan Respublikasının Macarıstandakı səfirliyi və Gödöllő Müqəddəs İştvan Universitetinin İqtisadiyyat və sosial elmlər fakültəsi arasında 2007-2008-ci tədris ilində əməkdaşlıq haqqında Protokol" imzalanmışdır. Protokolda tərəflərlər razılaşırdılar ki, səfirlik Azərbaycanda həm dövlət, həm də özəl ali məktəblər arasında tərəfdaş universitet tapmağı, Azərbaycanın tərəfdaş universiteti ilə Müqəddəs İştvan Universiteti arasında əməkdaşlıq haqqında Müqavilənin imzalanmasına dəstək verməyi, Müqəddəs İştvan Universitetində Azərbaycanla bağlı elmi tədqiqatla məşğul olmaq istəyən mağistr, aspirant və gənc alimləri zəruri elmi ədəbiyyatla təmin etməyi öz üzərinə götürürdü. Həmçinin protokolda tərəflər bu universitetdə birlikdə Azərbaycana həsr olunmuş sərgi təşkil etmək və s. barədə də razılığa gəldilər.[2]

2009-cu ilin fevral-mart aylarında Macarıstanda keçirilən "Azərbaycan kitab ayı" proqramı çərçivəsində Macarıstan Milli Elmlər Akademiyası Kitabxanası, bir sıra ali məktəblərin nəzdində yerləşən kitabxanalar, habelə digər kitabxanalara Azərbaycan mövzusunda kitablar hədiyyə olunmuş, həmin ilin 5-8 noyabr tarixlərində Macarıstanın Korvinus Universitetinin rektoru prof. T.Mezaroşun rəhbərliyi altında nümayəndə heyəti iki ölkə arasında təhsil sahəsində əməkdaşlıq imkanlarının müzakirəsi məqsədilə Azərbaycana səfər etmişdir.[3]

Təhlil göstərir ki, son illərdə Bakı Slavyan Universiteti Macarıstanın bir çox nüfuzlu universitetləri ilə əməkdaşlığı genişləndirmişdir. Belə ki, 2009-2012-ci illərdə Macarıstanin Debresten Universitetinin Slavistika İnstitutunun dosenti Veneta Yankova BSU-nun qonağı olmuşdur; Avropaşünaslıq kafedrasının müdiri prof. E.Ə.Nəcəfov Macarıstanın Mərkəzi Avropa Universitetində treninqlərdə iştirak etmişdir; Macarıstanın Budapeşt

Korvinus Universitetinin Beynəlxalq Şöbəsinin rəhbəri Erzsebet Veres, Dünya İqtisadiyyatı Şöbəsini əməkdaşı Andras Tetenyi və Macarıstan Respublikasının Azərbaycandakı Səfirliyinin Avropa Birliyi məsələləri üzrə müşaviri Zoltan Başla BSU-nun qonaqları olmuşlar; Regionşünaslıq fakültəsinin IV kurs tələbəsi, "Kölgə kabineti"nin rektoru H.H. Babayev Macarıstanın Budapeşt Korvinus Universiteti ilə imzalanmış əməkdaşlıq müqaviləsi əsasında həmin universitetin nəzdində "Azərbaycanın dostları" klubunun yaradılması ilə bağlı Korvinus Universitetinin tələbə və gənclər təşkilatı ilə müzakirələr aparmaq üçün Macarıstanın Budapeşt şəhərinə ezam olunmuşdur; BSU-nun rektoru prof. K.M.Abdullayev Bakı Slavyan Universiteti ilə Macarıstanın Budapeşt Korvinus Universiteti arasında imzalanmış əməkdaşlıq müqaviləsi çərçivəsində həmin Universitetin rəhbərliyi ilə gələcək əməkdaşlığa dair müzakirələr aparmaq üçün Budapeştə ezam olunmuşdur və s.[4]

Macarıstanın Debresen, Kaposvar, Korvinus, Sent İştvan və digər nüfuzlu universitetlərdə "Azərbaycan günü" adı altında tədbirlər keçirilməsi ənənə halını almışdır.

2010-cu il 21-26 fevral tarixlərində Azərbaycan Respublikası Hökuməti ilə Macarıstan Respublikası Hökuməti arasında İqtisadi Əməkdaşlıq üzrə Birgə Komissiyanın birinci iclası və elecə də iclas çərçivəsində hər iki ölkənin iş adamlarının iştirakı ilə təşkil olunmuş Biznes Forumunda Təhsil Nazirinin müavini Elmar Qasımov iştirak etmişdir. İclas zamanı Sent İstvan Universiteti ilə Azərbaycan Dövlət Aqrar Universiteti arasında birgə Protokolun imzalanması, Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə Macarıstan Təhsil və Mədəniyyət Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş layihəsinin imzalanmasının sürətləndirilməsi, Korvinus Universitetinə hər il 15-20 tələbənin təhsil almağa göndərilməsi və s. məsələlər müzakirə olunmuşdur.[5]

2011-ci ilin 21 sentyabrında Azərbaycanın Macarıstandakı Səfirliyində Macarıstanın müxtəlif ali məktəblərinin tələbələri arasında Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 20-ci ildönümü münasibətilə keçirilmiş "Mən Azərbaycan haqqında nə bilirəm?" mövzusunda esse müsabiqəsinin qaliblərinin elan olunması mərasimi təşkil olunmuşdur. Təqdim olunmuş esselər Ermənistan - Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, Azərbaycanın enerji siyasəti, Azərbaycan - Aİ münasibətləri, Azərbaycan iqtisadiyyatı, ədəbiyyatı və digər mövzuları əhatə etmişdir. Qaliblər Azərbaycana bir həftəlik səfər imkanı qazanmışdır.

2012-ci ildə Macarıstan EA-nın həqiqi üzvü, dünya miqyasında tanınan türkoloq-alim Georq Xazai şəxsi kitabxanasında saxlanan 300-ə yaxın kitab və məcmuəni Naxçıvan Dövlət Universitetinə hədiyyə etdi. Macar alimi özünün bu addımını son illərdə azərbaycanlı həmkarları ilə yaranmış sıx qarşılıqlı əməkdaşlığın nəticəsi kimi qiymətləndirdi. Əksəriyyəti 1950-1980-ci illərdə Avropanın müxtəlif ölkələrində çap olunan kitablar müasir filologiya elminin, xüsusən də türkologiyanın aktual problemlərinə həsr edilib.

Qeyd edək ki, akademik Georq Xazai Xazainin ölkələrimiz arasında elmi əməkdaşlığın inkişafına ilk töhfəsi deyil. Ötən il o, şəxsi kitabxanasında saxlanan 1000-ə qədər kitab, məcmuə, jurnal, habelə bir sıra əlyazmalarını təmənnasız olaraq Azərbaycan Milli Elmlər Akademiyasının Əsaslı kitabxanasına bağışlamışdı. [6]

2012-ci ilin 15-18 mart tarixlərində Budapeştdə Azərbaycanlı Tələbələr və Məzunların Beynəlxalq Forumunun (ASAİF) "Mən gənc səfirəm" devizi altında keçirilən ikinci beynəlxalq konfransında çıxış edən Gənclər və idman naziri A.Rəhimov bildirdi ki, humanitar sahədə - tarix, sosiologiya, politologiya, beynəlxalq münasibətlər, jurnalistika və s. sahələrdə təhsil alan tələbələr öz tədqiqat işlərini Azərbaycan ilə bağlı aparmalı, eləcə də digər tədqiqatçıları bu işə cəlb etməlidirlər". Macarıstan Respublikasının Milli Assambleyasının vitse-spikeri Jakap İstvan bilik üzərində



qurulan əlaqələrin möhkəmliyindən və ölkələrarası əlaqələrin intensivləşməsində gənclərin xüsusi rolundan danışaraq vurğuladı ki, "Bu gün Azərbaycan və Macarıstan arasında möhkəm, sabit və davamlı inkişaf edən sıx əlaqələr vardır. Macarıstanda digər xarici ölkələrlə bərabər, Azərbaycandan da çoxlu tələbə təhsil alır. Qeyd etmək istərdim ki, xaricdə təhsil gənclərə tolerantlığı, digər ölkələrin mədəniyyətlərinə, adət-ənənələrinə daha böyük hörmətlə yanaşmağı öyrədir". [7]

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası əcnəbi tələbələr cəlb etmək istəyən Macarıstanın ali məktəbləri üçün ən perspektivli bazarlardan biri hesab edilir və ölkənin qabaqcıl ali təhsil müəssisələri azərbaycanlı tələbələrə beynəlxalq münasibətlər, menecment, İKT, tibb, aqrokultura (əkin mədəniyyəti), mühəndislik, su təchizatı və digər ixtisaslar üzrə keyfiyyətli təhsil verməyə hazırdırlar. Hazırda "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində Azərbaycanın 35 tələbəsi Macarıstanın müxtəlif ali məktəblərində təhsil alır.[8]

Ümumiyyətlə, Azərbaycan Respublikası Hökuməti və Macarıstan Respublikası Hökuməti arasında İqtisadi Əməkdaşlıq üzrə Birgə Komissiyanın 2012 – ci ildə keçirilmiş üçüncü iclasından sonra Naxçıvan və Budapeştin ali təhsil müəssisələri arasında əməkdaşlığa dair saziş imzalanmış, müqavilə-hüquq bazasının genişləndirilməsi istiqamətində işlər davam etdirilmiş, təhsil sahəsində bir çox sahələrarası sənədlər imzalanmağa razılaşdırılmışdır. Məsələn, tələbələr üçün təqaüd proqramı haqqında sazişin imzalanması azərbaycanlı tələbələrin Macarıstanın ali məktəblərində təhsil almaları üçün yaxşı imkan yaratmışdır. Belə ki, bu proqram çərçivəsində Macarıstanın 11 ali məktəbi yer alaraq 200 azərbaycanlı tələbəni qəbul edəcəkdir. Sazişə əsasən, Macarıstan təhsil haqqını ödəyəcək, tələbələri yataqxana və təqribən 42 min forint və ya təqribən 150 manat həcmində aylıq təqaüdlə təmin edəcəkdir".

Beləliklə, son illərdə Avropa İttifaqı məkanında ən münasib təhsil və yaşayış xərcləri, daha az sənəd tələb edən və sadələşdirilmiş qəbul şərtləri, ingilis dilli təhsil sistemi ilə Macarıstan ali məktəbləri digər ölkələrdən əsaslı şəkildə fərqlənərək azərbaycanlı gəncləri də özünə cəlb etmişdir. Artıq 200-ə yaxın azərbaycanlı tələbə Macarıstanın nüfuzlu universitetlərində təhsil alırlar. Xarici vətəndaşların, o cümlədən azərbaycanlıların Macarıstanın ali təhsil almasına böyük maraq göstərməsini nəzərə alaraq "Study in Hungary" (www.study-hungary.com) internet portalı yaradılmışdır. Portalda xarici ölkə vətəndaşlarına Macarıstan universitetləri barədə, burada ali təhsil almaq (o cümlədən təqaüdlü) haqda bitkin məlumat verilir. Eləcə də Macarıstanın Təhsil Nazirliyi və ayrı-ayrı ali məktəblərinin nümayəndələri Baklda keçirilən təhsil sərgilərində fəal iştirak edərək macar universitetlərini ölkəmizdə vaxtaşırı təbliğ edir.

ƏDƏBİYYAT

1. Beynəlxalq mədəni əlaqələr. Dərslik. (M.C.Manafovanın və N.T.Əfəndiyevanın redaktəsi ilə. Bakı: Sabah, 2008, 660 s. (s.560)

2. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Tarix-Arxiv İdarəsi, f.26, siy.11, iş №-si 516, v..

3. Humanitar sahədə əlaqələr Azərbaycan - Macarıstan münasibətləri / http://mfa.gov.az/files/file/AzMacarstan.pdf

4. Bakı Slavyan Universitetinin beynəlxalq əlaqələr şöbəsinin cari arxivi. 2000-2015-ci illər, 152 s.(s.72-73).

5. Beynəlxalq əlaqələr sahəsi üzrə 2010-cu ildə görülmüş işlərə dair Hesabat http:// www.edu. gov.az / upload file/ hesabat2010/ beynelxalq-elaqeler.pdf

6. Macar alim Azərbaycana 300 kitab bağışladı / http://news.lent.az/news/99894

7. Macarıstanda Azərbaycanlı Tələbələr və Məzunların Beynəlxalq Forumunun ikinci konfransı işə başlamışdır. "Azərbaycan" qəzeti, 2012, 07 aprel

8. Səfir: Macarıstanın ali məktəbləri azərbaycanlı tələbələrə Avropa səviyyəli təhsil verməyə hazırdırlar. http://az.trend.az/azerbaijan/society/2197692.html

Açar sözlər: *Təhsil, tələbələr üçün layihələr, rəsmi protokollar, Biznes Forum*

Ключевые слова: *Образование, проекты для студентов, официальные протоколы, Бизнес Форум.*

Key words: *Education, projects for students, official protocols, Business Forum.*

РЕЗЮМЕ

В данной статье рассматривается сотрудничество между Азербайджаном и Венгрией в сфере образования. Отмечая важность и незаменимость образования в будущем развитии любой страны , рассматриваются те шаги которые были предприняты государствами для обмена опытом и для налаживания сотрудничества в сфере образования. Студенческий обмен между вузами Венгрии и Азербайджана, так же разные проекты открывающие возможности для азербайджанских студентов также были изучены. Таким образом было отмечено что несмотря на то что развитие сотрудничества между Азербайджаном и Венгерским государством в сфере образования еще не достигло желаемого уровня. Меры предпринятые с обеих сторон дает основания предполагать что в ближайшем будущем сотрудничество в сфере науки и образования будут развиваться.

SUMMARY

In this article cooperation between Azerbaijan and Hungary in education is considered. Noting importance and indispensability of education in future development of any country, those steps which have been taken by the states for exchange of experience and for establishing cooperation in education are considered. Student's exchange between higher education institutions of Hungary and Azerbaijan, also different projects the opening opportunities for the Azerbaijani students have also been studied. Thus it has been noted that in spite of the fact that development of cooperation between Azerbaijan and the Hungarian state in education hasn't reached desirable level yet. The measures taken on both sides gives the grounds to assume that in the near future cooperation in the sphere of science and education will develop.

РОЛЬ РОССИЙСКОЙ ФЕДЕРАЦИИ В ФОРМИРОВАНИИ КАСПИЙСКОГО РЕГИОНА НА СОВРЕМЕННОМ ЭТАПЕ

ДЖАВИД ШИХАЛИЛИ
Киевский Институт международных отношений имени Т.Г. Шевченко

Современная российская внешняя политика в Каспийском регионе берет свое начало 8 декабря 1991 г., когда в Беловежской Пуще [10]. В результате на Каспии, в который почти 250 лет был зоной российско-иранских политических и экономических интересов, появилось новые государства. К ним добавились новые «владельцы» — Азербайджан, Туркменистан и Казахстан.

Каспийский регион превратился в сложный клубок интересов прикаспийских государств, часто весьма противоречивых, стал местом столкновения геополитических стратегий внерегиональных стран. Этому способствовали месторождения нефти и газа Каспийского региона, которые вызвали повышенный интерес у западных государств и стремительно приобрели ключевое значение для новых прикаспийских стран.

Как известно, один из классиков геополитики первой половины XX века Х. Маккиндер еще в 1904 г. в труде «Географическая ось истории» назвал «Пятиморьем» регион, который включает пространство, заключенное в пятиугольник Каспийского, Черного, Средиземного, Красного морей и Персидского залива и подчеркивал его геополитическую функциональную значимость. (В работах же ряда современных западных политологов этот регион в тех или других комбинациях получил также названия «Новый Ближний Восток», «Большой Ближний Восток», «Большой Средний Восток», «Евразийские Балканы»). Причем, английский геополитик еще в начале XX столетия утверждал, что «Кавказ и Каспийский регион следует рассматривать в более широком политическом контексте» [2].

В 90-е годы XX века начался процесс постепенного перемещения геополитического противостояния Запад-Восток из Восточного Средиземноморья в Каспийский регион и на передний план вышли геостратегические императивы США и НАТО с одной стороны, России и Ирана – с другого. Причем геополитическое давление атлантизма на этот регион шло и продолжает идти по трем основным направлениям:

западному – Средиземноморье (через Турцию) – южному (Аравию) и восточному – Пакистан (через Афганистан и Центральную Азию), в связи с чем, появилась реальная угроза вытеснения России из всего геополитического поля этого региона, лишение ее традиционной доминирующей роли на Каспии. По мнению политолога А.С. Панарина, Каспий сегодня стал эпицентром «пиратских игр». «Открытые там залежи нефти, – считает российский ученый, – притягивают сюда силы, которые никогда раньше не достигли такого углубления в тело Континента. Идея нефтяного пути, который идет от Каспия на запад и к востоку и объединяет два океана – Атлантический и Тихий – есть ни что другое, как попытка сил Моря отколоть от Континента неслыханно большой кусок, обкорнать его. Кому все еще не ясно, что идет речь о беспрецедентной агрессии Моря, которое собирается раздробить Континент, поэтому уже ничем нельзя помочь. Инициаторы этого проекта хотят не просто провести новую черту связи между Атлантикой и Тихим океаном и тем самым закрепить достижение вестернизации. Они хотят предупредить возможность новой консолидации Континента по индоевропейской вертикали, поскольку каспийский проект прямо направлен на то, чтоб срезать эту вертикаль, прервать ее» [1]. По мнению российского ученого «линия вскрытия выглядит так: Украина – Грузия – Азербайджан - республики Средней Азии» (теперь называемой Центральной) – Китай (на этом этапе приглашаемый победителями к участию в разделе) – Тихоокеанское побережье» [1].

С геополитической точки зрения, контроль над всем каспийско-черноморским пространством, по мнению одного из ведущих российских теоретиков идей евразийства Александра Дугина, является стратегической задачей глобального противостояния атлантизму и евразийства. Задачей же России состоялось в том, чтобы создать ось Москва-Тегеран, что позволило бы ей достичь своей многовековой геополитической цели – выхода к теплым морям. [5] В целом же, как заявил в середине 2000 года прежний министр обороны США Каспар Уайнбергер, «если бы России удалось удержать господство в Каспийском море, это было бы для нее более важной победой, чем победа Запада, который добился расширения НАТО на восток»[7].

Период, с начала XXI столетия, характеризуется существенными изменениями в политике каспийских государств под воздействием процессов глобализации. Проведенный анализ текущих тенденций позволяет нам сделать вывод о начале новой фазы процессов в регионе Каспийского моря, вызванной, с одной стороны, повышением значения каспийских сырьевых ресурсов в мировом масштабе. С другой стороны, усилением интеграционной мотивации во внешней политике каспийских государств. Проведение регулярных саммитов глав государств Каспийского региона свидетельствует о том, что идея региональной интеграции всерьез рассматривается как одна из главных альтернатив развития региона в XXI ст.

В связи с этим, в сложившихся условиях, России приходится пересматривать ориентиры внешней политики



с целью ее соответствия реалиям глобализующего мирового сообщества и новой системы регионального сотрудничества, которое складывается в регионе. Именно этим был вызван поворот в политике России в Каспийском регионе, озвученный И.С. Ивановым в апреле в 2000 году на заседании Совета Безопасности Российской Федерации: «Масштабность интересов России на каспийском направлении обусловливает необходимость ее всестороннего присутствия в регионе, проведение там более активной политической линии. В России не остались незамеченными попытки определенных зарубежных сил ослабить наши позиции на Каспии, вбить клин в отношения с другими прикаспийскими государствами, под разговоры о недопустимости возвращения к «имперским временам» укрепить собственное влияние в регионе, наложить руку на его богатства. Подобные попытки противоречат духу международного сотрудничества. Россия не претендует на доминирующую роль в регионе, не хочет конфронтации, выступает за конструктивное взаимодействие с иностранными партнерами, готовая к честной, цивилизованной конкуренции. В то же время мы намереваемся твердо отстаивать и продвигать свои законные интересы на Каспии, ущемлять которые никому не разрешено» [5].

Однако, многовекторность интересов России и интересов каспийских государств, наличие интересов внерегиональных акторов, тесное переплетение экономических и геополитических интересов всех участников новой «Большой игры» бросает серьезный вызов интересам России, поскольку создает, прежде всего, угрозу безопасности России.

По нашему мнению, Россия является ключевым игроком в Каспийском регионе, что свидетельствует о наличии у нее неопровержимых интересов. По мнению российских политологов, эти интересы включают:

1) сохранение стратегического присутствия в Центральной и Южной Азии для того, чтобы не допустить перехода Афганистана в сферу исключительно доминирования США;

2) обеспечение своего участие в региональных экономических проектах;

3) противостояние угрозе собственной безопасности в связи с проникновением в близлежащее к российской территории геополитическое пространство исламского фундаментализма, терроризма, контрабанды наркотиков;

4) реабилитация и возобновление авторитета российского государства в глазах стран-членов СНГ, проявив твердость и решительность в обеспечении неприкосновенности границ Содружества [4].

Разделяя вышеупомянутую позицию, мы считаем, что интересы укрепления тенденций регионального сотрудничества являются существенной частью национальных интересов России в регионе, поскольку их обеспечение будет способствовать наращиванию политического влияния России в Каспийском регионе, а также на более обширном пространстве Кавказа и Центральной Азии, способствуя модернизации всего Каспийского региона в духе современных тенденций глобализации и сохранению российского лидирующего положения в вопросах транспортировки каспийских энергоресурсов на мировые рынки.

Однако, на Западе склонны рассматривать современную политику России как стремление возобновить гегемонию в региональном масштабе. Поэтому обновленное российское участие в политике Каспийского региона вызывало бурную критику в западных политических кругах, поскольку, по мнению некоторых аналитиков, данная политика есть не что

иное, как «возвращение империи» [11]. В данной связи мы придерживаемся мысли о том, что восприятие России на Западе в целом можно свести к следующему высказыванию С. Телбота: «природа российского внутреннего режима детерминирует ее поведение во внешней политике. Россия, которая управляет собственным народом посредством силы и приказов, а не на основе консенсуса и гражданских прав и свобод, рано или поздно наверное станет проводить политику запугивания относительно соседей и сделает себя одной из мировых проблем, а не поклонником ее решения» [8].

В настоящее время Россия все военно-стратегические вопросы в бассейне Каспийского моря и на Южном Кавказе стремится решать методами и средствами, которые исключают участие своих исторических соперников – на Каспийском море – Ирана, а на Кавказе – Турции, а также новых конкурентов в обоих пространствах в лице США, НАТО и Европейского Союза. Например, политика России, которая опирается на относительно конструктивную позицию всех прикаспийских государств, относительно создания общей миссии этой «пятерки» по вопросам безопасности «без внешнего вмешательства» дала определенные результаты. Но, возникшие спустя некоторое время проблемы с Грузией и продолжение агрессивной политики Армении пока не позволяют ей решать региональные проблемы на Южном Кавказе на основе формулы «3+1» – три страны Южного Кавказа и Россия. Данный формат так называемой «Кавказской четверки» в геополитический контекст региона был введен еще в середине 90-х годов прошлого века. Несмотря на то, что под лозунгами создания системы безопасности на Южном Кавказе были проведены разные встречи и консультации на уровне президентов стран, руководителей Советов безопасности, религиозных лидеров и т.д., позиция, которая сохраняется Россией относительно этнического сепаратизма и территориальной целостности этих государств, не позволил достичь значительного прогресса в этой области.

Геополитика считает, что, в отличие от Южного Кавказа, Россия, осуществляя в бассейне Каспийского моря прагматическую геополитику, сумела положить конец почти двадцатилетней «геополитике отступления» и добиться серьезного продвижения на пути возобновления своего военно-геостратегического влияния. Как известно, сегодня Россия владеет самыми сильными военно-морскими силами на Каспии, имеет благоприятное военно-стратегическое положение и отнюдь не думает ограничивать их в чью-то пользу, или же делиться с кем-то.

Возможно, именно по этим причинам Россия 7 октября 2015 года осушестаила запуск новейших ракет класса «Калибр» по позициям исламских боевиков в Сирии с кораблей ВМФ РФ из дислоцируюшегося в южной части Каспийского моря [3]. Понятно, стоит воспринимать данный факт, в том числе, как демонстрацию силы российского присутствия на Каспии, а, главное как выражение уверенности руководства страны в своих международных действиях направленных на укрепление стабильности региона. Такими методами Россия, вне сомнения, ограничивает влияние внешнего влияния на Каспии.

Но в связи с этим могут возникнуть новые риски, способные в той или другой степени принести России существенные «хлопоты» в данном регионе. Освещение в западной прессе дезинформации о попадании ракет на территорию Ирана [3], были ничем другим как попыткой испортить международный имидж России в свете последних событий. В данном случае, применение так называемой «умной силы» может быть использовано в целях ограничения военного присутствия России на Каспии, с целью снижения эффективности посредничества Москвы в ходе сирийского урегулирования с использованием новейшего вооружения.

Мы же считаем, что современная позиция России относительно Каспийского региона является выражением жизненно важных интересов России, которые включают:

1) интересы национальной безопасности, которые предусматривают контроль собственных границ и сохранение территориальной целостности страны для поддержки экономических, политических и других отношений с мировым сообществом на приемлемых для России условиях;

2) глобальные интересы, а именно сохранение и поддержка статуса большого государства;

3) экономические интересы, реализация которых позволит модернизировать и диверсифицировать региональную экономику, а также максимизировать прибыль от добычи и транспортировки углеводородных ресурсов Каспия;

4) региональные интересы - развитие трансграничного сотрудничества, возобновления и закрепления влияния России на постсоветском пространстве в целом и в Каспийском регионе в частности.

Однако, считаем, что до недавнего времени политика России относительно Каспийского региона носила ситуативный характер. Мы убеждены, что в отстаивании своих интересов в регионе России необходимо взять курс на развитие трансграничного сотрудничества, использование «мягкой силы» в продвижении своих интересов на Каспии. Механизмы обеспечения национальных интересов России на данном направлении ни в коей мере не должны ограничиваться использованием силовых инструментов влияния. Напротив, они должны фокусироваться на принятии превентивных мер по охране интересов России в регионе с учетом социально-экономических и геополитических аспектов регионального сотрудничества, в рамках существующих и новых международных организаций и структур, поскольку сегодня в мировой политике и экономике в связи с усилением взаимозависимости государств и необходимостью повышения управляемости мирового развития объективно повышается роль многосторонней дипломатии, международных институтов и механизмов [6].

В данной связи возникает необходимость выработки новых форматов взаимодействия, направленных на «поиск согласия и совпадающих интересов с другими государствами и межгосударственными объединениями в процессе решения задач, которые определяются национальными приоритетами России, создание на этой основе системы двусторонних

и многосторонних партнерских отношений, призванной обеспечить стойкость международного положения страны к колебаниям внешнеполитической конъюнктуры» [9].

После распада СССР Россия стремилась сберечь геополитический контроль над прикаспийскими государствами. Был взят курс на сохранение доминирующей роли в определении энергетической ситуации в регионе, в частности в добыче и транспортировке углеводородных ресурсов из новых прикаспийских стран. Тем более, что каспийская нефть снова приобрела исключительное значение, став основой экономического развития для стран региона и заняв важное место на мировом рынке.

К началу первого десятилетия XXI века России пришлось решить проблему международно-правового статуса Каспия на трехсторонней основе (с Азербайджаном и Казахстаном) и сберечь сотрудничество в энергетической сфере, добившись согласия прикаспийских стран на поставки части своих углеводородных ресурсов через российскую территорию.

Каспийский регион получил для РФ такое большое значение, что его проблема нашла отражение в ряде ключевых документов. Так, в «Стратегии национальной безопасности Российской Федерации до 2020 года», принятой 12 мая 2009 года, было отмечено, что «решение задач обеспечения безопасности государственной границы Российской Федерации достигается за счет создания высокотехнологических и многофункциональных пограничных комплексов, особенно на... Каспийском направлении».

Основные усилия России сосредоточены на противодействии реализации проектов по прокладке трубопроводов по дну Каспия и на освоении собственной ресурсной базы на Каспии. Также Россия возложила усилие на определения международно-правового статуса Каспийского моря, рассматривая Конвенцию о правовом статусе Каспийского моря как базовый документ, регулирующий деятельность прибрежных государств на Каспии.

В последние годы Россия продвигает свои стратегические интересы в регионе через систему двусторонних отношений с прикаспийскими государствами, сосредоточив внимание на решение вопросов освоения и транспортировки углеводородных ресурсов. Подобная стратегия позволяет России сохранять свои позиции, оставаясь ключевым региональным государством.

ЛИТЕРАТУРА

1. Большой Кавказ. [науч. ред. Панарин С. А.]. - Москва : народов Кавказа, 2015. -3 с.

2. Жильцов С. С. Геополитика Каспийского региона : Междунар. отношения, 2003 - 276 с.

3. Жильцов С. С. Политика России в Каспийском регионе Аспект Пресс, 20. - 236 с.

4. Зонн И. С. Каспийское море / Витте". - 2-е издание, - Москва , 2015. – 542-544 с.

5. Калюжный В. Международно-правовой статус Каспийского моря Москва, 26—27 февраля 2002 года // Вестник Каспия. — 2002. — № 2.

6. Концепция внешней политики Российской Федерации // Независимая газета. — 2000. — 11 июля.

7. Ланда К. Г. Геополитические проблемы Каспийского региона Власть. – 2010. – № 5. – С. 117-120. 14

8. Лавров С.В. Вестник Каспия. — 2006. — № 2.

9. Медведев Д. Астрахань. 17 августа 2009 г.

10. Соглашение между Российской Федерацией и Азербайджанской Республикой о раз¬граничении сопредельных участков дна Каспийского моря (1998—2003). — М.: Эдель-М, 2003.

11. Указ Президента Российской Федерации от 12 мая 2009 г. № 537 // Российская газета. — 2009. — 19 мая.

Ключевые слова: *Российская Федерация, Каспийский регион, политика России, международно-правовой статус, углеводородные ресурсы, экология, милитаризация.*

Key words: *Russian Federation, Caspian region, the policy of Russia,international legal status, hydrocarbon resource, ecology, milititization.*

АННОТАЦИЯ

В статье проанализирована эволюция внешней политики России в Каспийском регионе на современном этапе (1991—2018). Рассмотрены изменения в подходах российской внешней политики к ключевым проблемам региона проблем региона: международно-правового статусу Каспия, добыче и транспортировке каспийских углеводородных ресурсов, милитаризации и экологии.

Современная политика России в Каспийском регионе направлена на то, чтобы принимать активное участие в регионе, к которым относились вопросы определения международно-правового статуса Каспия, экологии и сохранения биоресурсов, нарастающей милитаризации.

ABSTRACT

The article analyzes the evolution of Russia's foreign policy in the Caspian region at the present stage (1991-2018). Changes in the approaches of the Russian foreign policy regarding the key problems of the region are considered: the international legal status of the Caspian, the extraction and transportation of Caspian hydrocarbon resources, militarization and ecology.

Russia's current policy was aimed at taking an active part in solving the problems of the Caspian region, which included issues of determining the international legal status of the Caspian, ecology and conservation of bioresources, increasing militarization.

Cəmiyyət

AYRI-SEÇKİLİYİN ANLAYIŞI VƏ HÜQUQI MƏZMUNU, ONA QARŞI MÜBARİZƏ

AYGÜN MEHDİYEVA
AMEA Tarix İnstitutu

Ayrı-seçkiliyin anlayışına çoxsaylı ədəbiyyatlarda müxtəlif formalarda rast gəlmək olur. Ayrı-seçkilik – bir dövlətin və ya cəmiyyətin bəzi fərdlərinin digərlərinə təmin edilmiş müəyyən hüquq və imtiyazlardan məhrum edilməsidir. Bəzi şəxslər yaxud qruplar "kateqoriya olaraq ayrı seçkiliyin" mövzusu olurlar, çünki ictimai cəhətdən "irq, din, cinsiyyət və ya bir cəmiyyətin üzvlərini bir-birindən fərqləndirməkdə istifadə olunan hər hansısa bir anlayış səbəbi ilə" müəyyən bir təsnifata aid edilirlər. [6] Bu vəziyyət istər qanundan doğan, istərsə də müəyyən bir fərdin gəldiyi qənaət və ya hər hansısa bir fərziyyəyə söykənməsindən irəli gələn və müəyyən qrup insana mənfi təsir göstərərək onların daha da pis davranışa məruz qalmaları ilə səciyyələnir. Bu isə öz növbəsində bu cür "mənfi fikirlərin" tərəfdarı olan insan qruplarının artmasına səbəb olur.

Digərləri "doğulandan malik olduqları üstünlükləri, yaxud sahib olduqları maddi imkan, təhsil, ya da vəzifələri baxımından" daha artıq hüquq və imtiyazlara malikdirlər. [7] Ənənəvi və ya hüquqi səbəblərlə müşayət olunan bu ayrı seçkilik həmin cəmiyyətin üzvlərindən bəzilərinə rəngləri və ya fərz edilən digər irqi xüsusiyyətləri səbəbi ilə bərabər olmayan ölçüdə davranıldığında irqi ayrı seçkilik halına gətirib çıxarır.

Hər nə qədər də olsa bəzi cəmiyyətlər "bərabər rəftara" ehtiyac duymasalar da və "məqbul" bir səviyyədə qaldığı müddət ərzində sinifləndirməni "sanki qəbul edirlərmiş" kimi davransalar da, bu cür ayrı seçkilik bir çox hallarda milli və ya beynəlxalq qarşıdurmaların səbəbi olur. [9]

Bəzi cəmiyyətlərin konstitusional sistemləri və orqanları, qrupların bir hissəsinin üstünlüyünə, digərlərinin isə daha aşağı səviyyədə olduğu fərziyyəsinə söykənərək tətbiq edilməkdədir. Zaman keçdikcə imtiyazlı olanlar daha artıq imtiyazlar əldə etdikləri halda, hüquq və imtiyazlardan məhrum edilənlərin vəziyyəti daha da ağırlaşır. Bu vəziyyətdə üstün qrup imtiyaz və immunitetlərini qorumaq üçün qarşıdurmanı intensivləşdirərək, daha artıq təzyiqdən istifadə edirlər. Beləliklə müəyyən olunmuş düşmənçiliklər qanlı mübarizələr də daxil olmaqla, fərqli ölçülərdə qarşıdurmalara gətirib çıxarır. Bu qarşıdurmalar isə ayrı-seçkiliyə son qoyulanadək davam edir. [5]

Bəzi ədəbiyyatlarda qeyd olunur ki, ayrı-seçkilik halları ona görə baş verir ki, müəyyən fərdlər qrupu digərlərindən daha güclü olmaq, daha geniş hüquq və azadlıqlardan istifadə eləmək arzusunda olur. Bu zaman özünü daha üstün hesab edən qrup digər təbəqələrə aid olan insanları özlərini onlardan daha aşağı hiss eləməyə vadar edir. Hamıya məlum olduğu kimi Amerika tarixində afroamerikalılar hər zaman öz dəri rənglərinə görə ayrı-seçkiliyə məruz qalmışlar və zaman keçdikcə bu hal daha da qlobal xarakter almağa başlamışdır. Hal-hazırda isə bu növ ayrı-seçkilik yalnız Amerikada deyil, bütün dünyada mövcuddur.

Ayrı-seçkilik coğrafi, irqi, sinfi, dini və mədəni sərhədləri aşır. Hər bir insan gündəlik həyatında ayrı-seçkiliyin bu və ya digər forması ilə rastlaşır. Qeyd olunmalıdır ki, bu cür böyük problemdən heç bir ölkə sığortalanmayıb. Ayrı-seçkiliyə qarşı mübarizə və insanların hər növ ayrı-seçkilikdən müdafiəsi məsələsi beynəlxalq hüquqda da çox aktualdır. Ayrı-seçkiliklə bağlı atılan ciddi addımlara baxmayaraq heç bir dövlət bu sahədə immunitetə malik deyil.

Ayrı-seçkilik halları birbaşa və dolayı yollarla baş verə bilər.

Eyni vəziyyətdə olan şəxslərlə fərqli şəkildə rəftar "birbaşa" ayrı-seçkilik adlanır. Avropa İnsan hüquqları Konvensiyasına əsasən, birbaşa ayrı-seçkilik hallarına qarşı obyektiv və əsaslı şəkildə müdafiə təmin olunmalıdır, Avropa İttifaqı qanunvericiliyinə əsasən isə birbaşa ayrı-seçkilikdən qanuni müdafiə tədbirləri müəyyən dərəcədə məhduddur. Eyni zamanda, ayrı-seçkiliyi qadağan edən qanunlar, fərqli vəziyyətdə olan şəxslərin konkret imkanlardan başqaları ilə eyni əsaslarla istifadə etmələri üçün şərait yaratmaq məqsədilə həmin şəxslərlə zəruri dərəcədə fərqli tərzdə rəftarı nəzərdə tutur. Bununla da, konkret tədbirlər həyata keçirildiyi və ya konkret hüquqi normalar işlənib hazırlandığı zaman, müvafiq "müdafiə olunan" əsaslar nəzərə alınmalıdır. Fərqli vəziyyətdə olan şəxslərlə müvafiq şərait yaradılmadan, fərqli tərzdə rəftaretmə "dolayı" ayrı-seçkilik hesab olunur. Müvafiq iddia ərizəsi Avropa İnsan hüquqları Konvensiyasına və ya Avropa İttifaqı qanunvericiliyinə əsaslanmasından asılı olmayaraq, dolayı ayrı-seçkiliyin bütün formalarına qarşı obyektiv və əsaslı şəkildə müdafiə təmin olunmalıdır. [8] Həyata keçirilmə formasından asılı olmayaraq nəticə etibarilə hər biri öz mənfi və dağıdıcı təsirini göstərir. Məhz bu səbəbdən də ayrı-seçkilik qlobal problem olaraq dünya əhalisini narahat edir. Ayrı-seçkiliyin bütün formaları istənilən insan cəmiyyətinin ideallarına ziddir. Təəssüflər olsun ki, müasir dövrdə də dünyanın bir çox dövlətlərində ayrı-seçkiliyin bu və ya digər formasına rast gəlinir. Ən çox da irqi ayrı-seçkilik təzahürləri, eləcə də irqi üstünlüyə, yaxud irqi nifrətə əsaslanan dövlət siyasəti müşahidə olunur.

Qeyd etmək istərdim ki, hal-hazırda dünya praktikasında ən mühüm və diqqət cəlb edən məsələlərdən biri ayrı-seçkilik problemidir. Bu cür halların qarşısını almaq üçün müxtəlif müdafiə mexanizmlərindən istifadə olunmalıdır. Ümumilikdə isə, insan hüquqlarının təmin olunması hər bir dövlətin demokratiya yolu ilə inkişaf etdiyinin ən mühüm göstəricisidir.

Azərbaycanda da bu prinsiplər dövlət siyasəti səviyyəsində tanınır, tətbiq edilir və daim təkmilləşir. Müvafiq beynəlxalq standratlara uyğunluğu təmin etmək məqsədilə mövcud qanunvericilikdə boşluqların müəyyənləsdirilməsi və əlaqədar strategiyaların, qanunların və hüquqi vasitələrin təkmilləşdirilməsi sahəsində ölkə potensialını gücləndirmək üçün ayrı-seçkiliyə qarşı mübarizə sahəsindəki qanuvericilik bazasının və istiqamətləndirmə mexanizmlərinin ümumiləşdirilərək vahid bir sənəd formasında tərtib edilməsi Azərbaycanda bu istiqamətdə aparılan ilk işlərdəndir. Azərbaycan dövlətinin əsas məqsədi fərdlərin heç bir ayrı-seçkilik halları olmadan, onların dinindən, irqindən, inancından, etnik mənsubiyyətindən və digər hallardan asılı olmayaraq öz hüquq və vəzifələrindən eyni dərəcədə faydalandığı mühitə nail olmaqdır. Azərbaycan Respublikasının Konstitusiyasında da bərabərlik hüququ müdafiə olunur, bu hüquqlara dövlət tərəfindən təminat verilir. Belə ki, Azərbaycan Respublikasının Konstitusiyasının 25-ci maddəsinin 1-3 bəndlərində qeyd olunur: "Hamı qanun və məhkəmə qarşısında bərabərdir.Kişi ilə qadının eyni hüquqları və azadlıqları vardır. Dövlət, irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, etnik, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır." [1] İnsan və vətəndaş hüquq və azadlıqlarının irqi, milli, dini və digər əsaslara görə məhdudlaşdırılmasının yolverilməzliyi prinsipi Konstitusiya ilə yanaşı, Cinayət, Cinayət-Prosessual, Mülki-Prosessual, Ailə, Əmək məcəllələrində və digər qanunvericilik aktlarında təsbit edilmişdir. Qeyd etmək lazımdır ki, şəxsin milliyyətindən, irqindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olaraq hüquq və qanuni mənafelərinə zərər vurmağa görə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 109-cu (təqib), 111-ci (irqi ayrı-seçkilik (aparteid), 154-cü (bərabərlik hüququnu pozma), 283-cü (milli, irqi və ya dini düşmənçiliyin salınması) maddələrində məsuliyyət nəzərdə tutulur. [3]

Eyni zamanda qeyd etmək istərdim ki, cəmiyyətin bütövlüyünün qorunması dövlətimizin əsas prioritet istiqamətlərindəndir. Bu mənada, Azərbaycan Respublikası Hökuməti müxtəlif qruplara mənsub insanların ayrı-seçkiliyə məruz qalmadan birgə yaşamalarını qarşıya məqsəd qoymuşdur.

İnsan hüquqları haqqında Ümumi Bəyannamə bütün insanların ləyaqətcə və hüquqca bərabər və azad doğulduğunu və hər bir insanın heç bir fərq, o cümlədən irqinə, dərisinin rənginə, yaxud milli mənşəyinə görə fərq qoyulmadan, orada elan edilən bütün hüquq və

azadlıqlara malik olmasının vacibliyini bəyan edir.

Qeyd etmək lazımdır ki, bütün insanlar qanun qarşısında bərabərdirlər və onların hər cür ayrı-seçkilikdən və ayrı-seçkiliyə təhrikdən qanunla bərabər şəkildə qorunmaq hüququ vardır.

Birləşmiş Millətlər Təşkilatı harada və hansı formada təzahür etməsindən asılı olmayaraq, müstəmləkəçiliyi, onunla bağlı seqreqasiya və ayrı-seçkilik praktikasını pisləmiş və Müstəmləkə ölkələrinə və xalqlarına istiqlaliyyət verilməsi haqqında 1960-cı il 14 dekabr tarixli Bəyannaməsində (Baş Məclisin 1514(XV) nömrəli qətnaməsi) bütün bunlara təcili surətdə və qeyd-şərtsiz son qoyulmasının zəruriliyini təsdiq və elan etmişdir.

Eyni zamanda, Birləşmiş Millətlər Təşkilatı İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında 1963-cü il 20 noyabr tarixli Bəyannaməsində (Baş Məclisin 1904(XVIII) nömrəli qətnaməsi) bütün dünyada irqi ayrı-seçkiliyin bütün forma və təzahürlərinin tezliklə ləğv edilməsinin və şəxsiyyətin, insan ləyaqətinin dərk edilməsinin və ona hörmətin təmin olunmasının zəruriliyinin təsdiqləmişdir.[4]

Bundan başqa Avropa İnsan Hüquqları Konvensiyasının 14-cü maddəsində də ayrı-seçkiliyin qadağan olunması öz əksini tapır. Qeyd olunur ki, bu Konvensiyada təsbit olunmuş hüquq və azadlıqlardan istifadə cins, irq, dərinin rəngi, dil, din, siyasi və digər baxışlar, milli və ya sosial mənşə, milli azlıqlara mənsubiyyət, əmlak vəziyyəti, doğum və ya hər hansı digər əlamətlərə görə ayrı seçkilik olmadan təmin olunmalıdır.[2]

Ayrı-seçkiliyin qadağan olunması ilə bağlı qanunların məqsədi bütün şəxslərə müvafiq cəmiyyətdə mövcud olan imkanlardan bərabər və ədalətli şəkildə istifadə etmək üçün şərait yaratmaqdan ibarətdir. İlk növbədə bu qanunvericiliklər oxsar vəziyyətdə olan şəxslərlə bərabər səviyyədə rəftar olunmanı və onlarla sadəcə olaraq hansısa "müdafiə olunan" xüsusiyyətlərinə görə qeyri-münasib şəkildə rəftar etməməni nəzərdə tutur.

Ümumiyyətlə insan hüquqlarına hörmət cəmiyyətin sağlam inkişafının göstəricilərindən biridir. İnsan hüquqları sahəsində də ayrı-seçkilik halları yol verilməzdir. Bu cür hallar cəmiyyətin möhkəm əsaslarını daxildən oynadır və süqutuna gətirib çıxardır. Ayrı-seçkilik hər bir halda, hər zaman, hər bir şəxsin insan hüquqlarının pozulması deməkdir. Ayrı-seçkilik hallarının qarşısının alınması, demokratik cəmiyyətin prinsiplərinə uyğun insan həyatının təhlükəsizliyin təmin olunması, hüquq və azadlıqların həyata keçirilməsi, hüquq normalarına riayət edilməsi, insani dəyərlərin formalaşması problemlərinin həll edilməsi ilə bağlıdır.

ƏDƏBİYYAT

1. *Azərbaycan Respublikası Konstitusiyası, maddə 25. Bakı: Qanun, 2009*
2. *Avropa İnsan Hüquqları Konvensiyası, maddə 14. 1950*
3. *Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Hüquq Yayım Evi 2017*
4. *İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiya 1965*
5. *Prof. Dr.Türkkaya Ataöv, Çatışmaların kaynağı olarak Ayrımcılık, Ankara 1996, s. 2*
6. *Ellis Cashmore, Dictionary of Race and Ethnic Relations, London, Routledge,1988, p.79*
7. *Edward Conrad Smith and Arnold John Zurcher, A Dictionary of American Politics, New York, Barnes and Noble, 1944, p.102.*
8. *Handbook on European non-discrimination law, 2010, p.21.*
9. *Б.Н.Пономарева,Политический Словарь, Москва, Государственное Издательство Политической Литературы, 1958, стр.175.*

Açar sözlər: *ayrı-seçkilik,cəmiyyət,mübarizə,insan hüquqları, hüquq və azadlıqlar*

Key words: *discrimination, society, struggle, human rights, rights and freedoms*

Ключевые слова: *дискриминация, общество, борьба, права человека, права и свободы*

The concept and the legal content of discrimination and the ways of countering it

RESUME

In the modern world on the background of changing public relations adiscrimination problem and fight against it become increasingly important from the perspective of human rights.

With regards to this, the subjects of international law, particularly states, carry out an effective policy to resolve this global problem. Nevertheless, the existence of discrimination in the modern world makes the issue of struggling highly relevant. To this end, the concept and the legal content of discrimination and countering it have been studied in this article from the various aspects.

Понятие и юридический контент дискриминации, борьба с ней

АННОТАЦИЯ

В современном мире на фоне меняющихся общественных отношений проблема дискриминации и борьба с ней приобретает особую важность с точки зрения прав человека. В связи с этим субъекты международного права, в частности государства, осуществляют эффективную деятельность для урегулирования этой глобальной проблемы. Несмотря на это, существование дискриминации в современном мире делает вопрос борьбы с ней крайне актуальным. С этой целью в данной статье понятие и юридический контент дискриминации, а так же борьба с ней были изучены с разных аспектов.

Beynəlxalq hüquq

TERRORÇULUQLA BEYNƏLXALQ MÜBARİZƏNİN HÜQUQİ-NORMATİV ƏSASLARI

RƏCƏB BABAYEV
AMEA-nın Fəlsəfə İnstitutu

Uzun tarixi keçmişə malik olmaqla birlikdə, 1960-cı illərin Soyuq Müharibə mühitində beynəlxalq münasibətlərin dəyişməz mövzularından birinə çevrilən terrorçuluq, XXI əsrin başlarından etibarən yeni bir mərhələyə daxil olaraq qlobal problemə çevrildi. Yaşadığımız dövrdə inkişaf tempi və forma etibarilə, yenilənən terrorçuluq anlayışı beynəlxalq sülh və təhlükəsizliyə ən böyük təhdidlərdən birinə çevrilmişdir. Son dövrlərdə dövlət və qeyri-dövlət təşkilatlarının, siyasi və ictimai obyektlərin terrorçuluq aktlarının hədəfi olması bunun əyani sübutudur.

Terrorçuluğun nə beynəlxalq hüquqda, nə də beynəlxalq hüququn əsas subyekti olan milli dövlətlər tərəfindən ümumi qəbul edilmiş vahid tərifi yoxdur. Hətta, eyni dövlətin müxtəlif qurum və təşkilatlarının terrorçuluq ilə bağlı verdikləri tərifler müəyyən müddət sonra dəyişdirilmişdir. Terrorçuluğa ən əhatəli təriflərdən biri İslam Konfransı Təşkilatı tərəfindən verilmişdir. Bu tərifə görə, "terrorçuluq, motiv və səbəblərə baxmadan, xalqa qarşı terror aktı törətmək və ya onu zərər verməklə təhdid etmək, yaxud vətəndaşların həyatı, şərəfi, azadlığı, təhlükəsizliyi və hüquqlarını təhlükəyə atmaq, və ya ekologiyaya ziyan vurmaq, kommunal xidmətlərin göstərilməsinə mane olmaq, və yaxud dövlət və şəxsi mülkiyyətə ziyan vurmaq və ya onları işğal etmək, və ya onları qeyri-qanuni müsadirə etmək, və ya bir milli sərvəti və ya beynəlxalq xidməti təhlükəyə atmaq, ya da müstəqil dövlətlərin stabilliyini, ərazi bütövlüyünü, siyasi birliyini və ya suverenliyini təhdid etmək məqsədilə fərdi və ya qrup şəklində cinayət planını həyata keçirmək üçün törədilən hər cür şiddət aktı törətmək və ya şiddət aktı törətməklə təhdidi etməkdir" [7, s.10].

Müstəqil Dövlətlər Birliyi isə terrorçuluğa belə tərif vermişdir: "Terrorçuluq, ictimai stabilliyə ziyan vuran, səlahiyyətli orqanlar tərəfindən qərarların alınmasına təsir etmək və yaxud xalqı terrorun təsiri altına almaq məqsədilə işlənən və cinayət məcəlləsinə görə cəzalandırılan hüquqa zidd fəaliyyətlərdir".

Terrorçuluğun universal tərifinin verilməsinin vacib olduğu ilə bağlı siyasətçilər qədər bu sahənin mütəxəssisləri arasında da fikir ayrılığı mövcuddur. Terrorun hər şeydən əvvəl, universal bir tərifinin verilməsinin vacib olduğunu qeyd edən mütəxəssislərdən biri olan Wardlaw, terrorun qarşısının alınması ilə bağlı ən böyük problemin onun tərifinin verilməsi olduğunu önə sürür [6, s.19]. Eyni fikirdə olan digər mütəxəssislər də, bütün dövlətlərin qəbul edəcəyi bir tərifi qəbul edilməsi durumunda terrorçuluqla mübarizədə bir çox maneənin aradan qalxacağına inanırlar.

Terrorçuluğu izah etmək üçün hökmən "şiddət" anlayışını izah etmək lazımdır, çünki bu iki anlayışın arasında güclü əlaqə mövcuddur. Şiddət, konkret olaraq əsas əxlaq normalarına qarşı

çıxmaq və ya onlardan məqsədyönlü şəkildə sui-istifadə etməkdir. Oxşar şəkildə, terrorçuluq da, fərdlərin öz siyasi fikirlərini, sosial-mədəni dəyərlərini və normalarını şiddət yoluyla cəmiyyətə zorla qəbul etdirmək mənasına gəlir [10, s.36].

Terrorçuluq məsələsini tədqiq edərkən, diqqət edilməsi lazım gələn əsas cəhətlərdən biri də, terror ilə terrorçuluq arasındakı fərqlilikdir. Terrorçuluq anlayışı terror metodlarından siyasi məqsədlə təşkilatlı, sistemli və müntəzəm şəkildə istifadə edilməsini əsas alan bir strategiya olaraq terror anlayışından ayrılır. Terror termini dəhşət və qorxunu ifadə etdiyi halda, terrorçuluq, bu anlayışa müntəzəmliklik və siyasi məzmun qatır [2, s.34]. Terrorçuluq günahsız insanları öldürməklə yanaşı, geniş xalq kütlələrini qorxuya düşürməklə və ya məqsədyönlü şəkildə təsir altına almaqla siyasi və ictimai mövqe qazanmaq əldə etmək üçün marjinal qruplar yaxud fərdlər tərəfindən şiddətə söykənən təhdidlər və planlı fəaliyyətdir [5, s.1-3].

Müasir dövrdə törədilən terror aktları müxtəlif məqsədlər, hədəflər, ideologiyalara xidmət edir, həmçinin çox fərqli coğrafiyalarda meydana gəlir. Bu baxımdan terrorun təsnifatı məsələsi ilə bağlı mütəxəssislərin mövqeyi fərqlilik göstərməkdə və hamılıqla qəbul edilən bir tipologiyanın qəbul edilməsi mümkün olmamışdır. Buna baxmayaraq, yenə də terrorçuluğu müəyyən kriteriyalara görə aşağıdakı kimi təsnifatlandırmaq mümkündür:

1. Daxili terrorçuluq – bir dövlətin siyasi sərhədləri daxilində qalan və xarici ünsürlərin, əlaqələrin və ya iştirakın olmadığı sistemli şiddət aktlarıdır. Ancaq ölkə daxili terrorçuluğa xalis şəkildə rast gəlmək mümkün deyil. Belə bir vəziyyət ancaq nəzəri olaraq qeyd edilə bilər [12, s.34].

2. Beynəlxalq terrorçuluq – bu anlayış, 1960-cı illərdən bəri artan şiddət hərəkətlərinin dövlətlərarası səviyyəyə yüksəlməsi nəticəsində, beynəlxalq münasibətlər sistemində öz yerini almışdır. Bu terrorçuluq növü, "məzmun və ortaya çıxan nəticələri etibarilə beynəlxalq xarakter daşıyır". Əcnəbilərə və onlara məxsus obyektlərə yönələn terrorçuluq da beynəlxalq miqyaslıdır. Dövlətlərin ikitərəfli və qarşılıqlı münasibətlərinə neqativ təsir etməkdə və aradan qaldırılması uzun illər alan konfliktlər doğurmaqdadır.

3. Transmilli terrorçuluq – hər hansı bir şəkildə dövlətin müdaxiləsi olmadan, dövlət xarici aktorlar tərəfindən reallaşan terror aktlarını ifadə edir. Bu çərçivədə transmilli terrorçuluğu, beynəlxalq terrorçuluqdan fərqləndirən əsas cəhət, terror təşkilatları tərəfindən həyata keçirilən aktların hər hansı bir dövlət tərəfindən tərtib və idarə edilməməsi ya da nəzərət edilməməsidir.

4. Dövlət terroru – demokratik olmayan rejimlərdə daha çox istifadə edilən bir vasitədir. Demokratik ölkələrdə isə dövlət öz daxili siyasətində heç vaxt terrorçuluqdan bir vasitə olaraq istifadə etmir.

5. Dövlət dəstəkli terrorçuluq – dövlətlərin daxili siyasətdə olduğu kimi, xarici siyasətdə də terrordan bir vasitə olaraq istifadə etdiklərini sübut edən bir çox örnək mövcuddur ki, buna da "dövlət dəstəkli terrorçuluq" deyilir. Dövlətlərin xarici siyasətdə terrorçuluğa verdiyi dəstək, aşağı səviyyəli yardımlar formasında ola bildiyi kimi, həmçinin "sponsorluq" səviyyəsində də ola bilər. Dövlətlər, atəş gücü yüksək silahlar, maliyyə yardımı, istihbarat və təlim üçün şərait yaratdığı zaman terrorçuluq daha təhlükəli və dağıdıcı xarakter alır. Dövlət sponsorlu terrorçuluq ciddi təhlükəsizlik problemləri yaradır.

Xüsusilə, etnik əsaslı terrorçuluğun mövcud olduğu ölkələrdə xarici dövlətlərin sponsorluğu terror fəaliyyətlərinin təsir gücünü xeyli artırır. Maraqlı cəhət bundan ibarətdir ki, demokratik dövlərlərin də, müxtəlif səbəblərlə terrorçuluğa hətta sponsorluq səviyyəsində dəstək verdiyinə dair bir çox nümunə vardır.

6. Etno-terrorçuluq - əsas etibarilə, bir etnik qrupa mənsub fərdlərin terrorçuluq təşkilatlarında və ya terror aktlarında iştirak etdikləri terrorçuluq növüdür. Etnik xarakterli terror aktlarına bəzən "millətçi" terrorçuluq da deyilir. Lakin etniklik ilə millətçilik eyni məna kəsb edən iki anlayış deyil. Etnik mənşəyə dayanan terrorçu fəaliyyətlər daha çox özünü haqlı tələbi və ya bu tələbi əldə etmək üçün silahlı mübarizədən başqa yol və metodun qalmadığına inanan ya da elə olduğu qəbul edilən vəziyyətlərdə özünü göstərir.

7. Kiber (internet) terrorçuluq – Kiber terrorçuluğu ənənəvi terror fəaliyyətlərindən kompyuter və kompyuter sistemlərindən istifadə edərək törədilməsi kimi izah etmək mümkündür. Kiber terrorçuluq, faydalandığı vasitələr baxımından qabaqcıl texnologiya və biliklərdən istifadə edərək ənənəvi terrorçuluğun yeni formada davam etməsidir.

2001-ci ildə Brüsseldə toplanan Avropa İttifaqına daxil olan dövlət başçıları, BMT-nin nəzarətində, İttifaqa daxil ölkələr, üzvlüyə namizəd dövlətlər və ABŞ, Rusya Federasiyası, ərəb və müsəlman ölkələr və terrorçuluğa qarşı mübarizəyə qoşulmaq istəyən bütün müttəfiqlərin də iştirak edə biləcəyi geniş anti-terror koalisiyası yaratmaq istədiklərini bəyan ettilər [8].

Terrorçuluğa qarşı mübarizə ilə bağlı Avropa İttifaqı iki əsas qərar qəbul etmişdir. Bunlardan birincisi, bütün təhlükəsizlik orqanlarının əməkdaşlığını təkmilləşdirmək; ikincisi, ittifaqa üzv ölkələrdə qüvvədə olacaq tək həbs qətimkan tədbirinin tətbiq edilməsidir [11].

Bundan başqa Avropa miqyasında qüvvədə olan həbs qətimkan qərarı Avropadakı təhlükəsizlik orqanlarının bir-birləri ilə bilavasitə əlaqə qurmasını asanlaşdırmış və məhbusların qısa müddətdə

qaytarılmasını təmin etmişdir. İttifaqın məsələ ilə bağlı qəbul etdiyi bəyanatda xüsusi proseduraların tətbiq edildiyi hallarda bütün demokratik haqlar və insan hüquqlarının diqqət mərkəzində olacaqağ xüsusi qeyd edilmişdir [8].

Terrorçuluğa qarşı mübarizədə geniş əhatəli konvensiya layihəsi 9 dekabr 1994-cü ildə qəbul edilən 49/60 saylı BMT Baş Assambleyasi qərarına edilən əlavədə yer alan "Beynəlxalq Terrorçuluğa Qarşı Alınması Vacib Tədbirlər" adlı bəyanat ilə bildirisi ile başlamışdır [4]. BMT, təşkilata üzv dövlətlərin iştirakı ilə, terrorçuluğun qarşısının alınması məqsədilə, geniş miqyaslı hüquqi tənzimləmənin həyata keçirilməsi məqsədilə bir sıra bəyanatlar yayır. Bu bəyanatlar müəyyən qədər öz nəticəsini verir. Belə ki, 1997-ci ildə "Terrorist bombalamaların qarşısının alınması haqqında" Konvensiya, həmçinin, 1999-cu ildə "Terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması haqqında" Konvensiya imzalanmışdır. Lakin əvvəlki dövrlərdə olduğu kimi, spesfik terror aktlarının qarşısının alınması məqsədilə imzalanan belə konvensiyalardan başqa, daha geniş miqyaslı və bütün dövlətləri bağlayıcı bir konvensiyanın imzalanması hələlik mümkün olmamışdır. Bunun səbəbi, dövlətlərin terrorçuluqla mübarizədə həmfikir olduqları halda, hansı təşkilatların terror təşkilatı olduğu, kimin terrorçu olduğu, hansı aktların terror aktı olduğu kimi məsələlərdə ciddi fikir ayrılığı içində olmalarıdır. Dövlətlər arasında bu məsələ ilə bağlı əsas fikir ayrılıqları aşağıdakılardır:

- Terrorçuluğun hüquqi tərifi;
- Terrorçuluq ilə müstəmləkə əleyhdarlığı və milli azadlıq hərəkatları arasındakı əlaqə;
- Dövlətlərin silahlı qüvvətlərinin fəaliyyətləri.

ABŞ-da 22 dekabr 1987-ci il tarixli qanuna görə, "Terror fəaliyyəti, silahlı insident və qarşıdurmada yer almayan fərdlərin fiziki sağlamlığına ciddi zərər yetirən və ölümlərinə səbəb olma riskinə qarşı həddindən artıq laqeydlik nümayiş etdirərək şüurlu və fərq qoymadan bir şiddət aktını tərtib etmək, dəstəkləmək və yaxud bu aktın törədilməsində rol almaq deməkdir".

Böyük Britaniyada, 1976-cı və 1984-cü illərdə qəbul edilən qanunlarda yer alan tərifə görə, terrorçuluq, "siyasi məqsədlərlə şiddət tətbiq etmək və xalqa yaxud xalqın müəyyən hissəsini qorxutmaq məqsədilə, hər hansı şiddət fəaliyyətini əhatə edir". Buradakı şiddət termini, sadəcə fiziki şiddəti deyil, həmçinin digər şiddət formalarını da əhatə edir.

Almaniya qanunvericiliyi "cinayət və girov götürmə kimi müxtəlif cinayətləri törətmək məqsədilə gibi muhtelif suçlar isleme amacıyla təşkilatlanma" cinayəti üçün ağırlaşdırılmış cəzalar nəzərdə tutur. Belə təşkilatlanmaları "terrorçu" olaraq xarakterizə edən qanunvericilik, əslində, Qızıl Ordu Fraksiyası ilə mübarizə məqsədi daşıyırdı və terrorçuluğun əhatəli tərifini verməkdən çox uzaqdır.

Yuxarıda istər beynəlxalq təşkilatlar, istərsə də dövlətlər səviyyəsində terrorçuluğa verilən tərifləri nəzərdən keçirərkən, görürük ki, terrorçuluğun dörd əsas komponenti mövcuddur [1, s.7-9]. Bunlar:

1. Zərər çəkən. Terrordan zərər çəkənlər deyiləndə, bu fəaliyyətdən birbaşa zərər çəkənlər nəzərdə tutulur. Əsasən, zərər çəkənlər ilə hədəf kütlə bir-birindən fərqlənir. Zərər çəkənlər hədəf kütləyə mesajın çatdırılması üçün seçilmiş vasitədir. Zərər çəkənlər əsasən, mülki əhali kütləsidir.

2. Motiv. Geniş mənada terrorçuluğun motivi "siyasi"dir. Bu motiv fəlsəfi, ideoloji, dini, etnik, hərbi və s. bütün aspektləri əhatə edir.

3. Qəsd. Terror cinayətini, digər cinayətlərdən ən fərqləndirən cəhətdir. Siyasi motivlə terror aktının şüurlu surətdə və istəyərək törədilməsidir.

4. Metod. Terrorun başlıca metodu şiddət və güc tətbiq etmək və ya bunlardan istifadə etməklə təhdid etməkdir. Lakin bu metodlardan istifadə edilməsi və ya istifadə etməklə təhdid edilməsi ilə politik məqsədlərə çatmaq istənilir. 30.

Terrorun müəyyənləşdirilməsində ən böyük maneələrdən biri də öz müqəddəratını təyin etmə hüququndan istifadə etdiyini irəli sürən milli qurtuluş hərəkatlarının mövqeyinin müəyyən edilməsindəki çətinlikdir. Terrorçuluq məsələsi ilə bağlı yuxarıda qeyd edilən qərarlar nəzərdən keçirilən zaman bunların terroru qınaq obyektinə çevirməklə yanaşı, bir çoxunun milli qurtuluş hərəkatlarını terrorçuluqdan fərqləndirməyə çalışdığı diqqəti cəlb edir [9, s.104-105].

Əvvəllər bütün dövlətlərin milli qanunvericiliyində yer almayan terror cinayətləri, sondakı dövrlərdə cinayət məcəlləsinə daxil edilmişdir. Beynəlxalq hüququn terrorçuluğa qarşı getdikcə müəyyən tənzimləmələr həyata keçirməsi, terrorçuluq fəaliyyətlərinin beynəlxalq miqyas kəsb etməsinin nəticəsidir. 1926-cı ildə Rumıniyanın Millətlər Cəmiyyətinə təqdim etdiyi "Terrorçuluğun qarşısının alınmasının universallaşması haqqında" Beynəlxalq Konvensiya" təklifi, belə hadisələrin sayının az olması səbəbilə nəzərə alınmamışdır [3, s.82]. Terrorizmin beynəlxalq ölçüləri ilə ələ alınması və qadağan edilməsinə dair göstərilən səylər İkinci Dünya müharibəsindən əvvəlki illərə təsadüf edir. 1937-ci il tarixli "Terrorçuluğun qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiya, Millətlər Cəmiyyətinin mövcud olduğu dövrdə imzalanmış, sadəcə bir dövlət tərəfindən ratfikasiya edilmişdir. Bu sahədəki ilk konvensiyanın bağlandığı 1937-ci ildən bu yana, terrorçuluqa beynəlxalq miqyasda qəbul edilmiş vahid tərif verilməmiş, bu əksiklik bütün dövlətlərin qəbul edəcəyi vahid terrorla mübarizə konvensiyanın hazırlanmasına mane olmuş, bu boşluq spesifik terror aktları üçün nəzərdə tutulmuş konvensiyalarla doldurulmağa çalışılmışdır. Bu gün beynəlxalq terrorçuluğun qarşısının alınması məqsədilə ondan çox müqavilə və protokol imzalanmışdır.

Bu müqavilələrdən başqa, "Terrorizmin maliyyələşdirilməsi ilə mübarizə haqqında" Beynəlxalq Konvensiya 10 yanvar 2000-ci il tarixdə, "Nüvə silahı terrorunun qarşısının alınması haqqında" beynəlxalq Konvensiya 14 sentyabr 2005-ci ildə qəbul edilmiş və dövlətlərin ratfikasiya etmələrindən sonra qüvvəyə minmişdir.

Nəticə. Terrorçuluq əleyhinə qəbul edilmiş konvensiyalar ümumi cəhətləri nəzərə alınaraq qiymətləndirildiyi vaxt, görürük ki, çox əhəmiyyətli məsələləri əhatə etməklə yanaşı, terrorçuluq anlayışına bütöv şəkildə yanaşılmır. Həmçinin, bu konvensiyalarda aparılan sektoral bölgü keçmişdə baş vermiş cinayətləri əsas almış və gələcəkdə törədiləcək terror aktlarının bütün növlərini əhatə etmir.

Bu konvensiyaların nəzərə çarpan başqa bir əksik cəhəti, hökmlərin qətilikdən uzaq olması və maddələrin şərhə açıq olmasıdır. Məsələn, "Bombalamalar Konvensiyasına görə, "bütün tərəf dövlətlər, lazım olduğu ölçüdə" və "bu cinayətlərin ağırlıq dərəcəsini diqqətə alaraq, müvafiq şəkildə cəzalandırılmalarını təmin etmək" məcburiyyətindədir. Bu konvensiyalardan "Terrorun maliyyələşdirilməsi ilə mübarizə haqqında" Konvensiya məsələyə daha təfərrüatlı yanaşmışdır.

Konvensiyaların zəif cəhətlərindən biri də, dövlətlərin terrorçuluq fəaliyyətlərini əhatə etməməsi, dövlət dəstəkli terror aktlarına qarşı beynəlxalq səviyyədə lazımi hüquqi qiymət verməməsidir.

ƏDƏBİYYAT

1. Bal İ. Terör nedir? Neden terörist olunur?. Terörizm: terör, terörizm ve küresel terörle mücadelede ulusal ve bölgesel deneyimler. Ankara, USAK nəşriyyatı, 2006.

2. Caşın M.H. Uluslararası terörizm. Ankara, Nobel nəşriyyatı, 2008.

3. Çitlioğlu E. Gri tehdit terörizm. Ankara, Ümit nəşriyyatı, 2006.

4. Деятельность организации обединенных наций в области борьбы с терроризмом. http://www.un.org

5. Enders W. ve Sandler T. Economıc Consequences of Terrorısm ın Developed and Developıng Countrıes: An Overvıew. School of International Relations University of Southern California Von Kleinsmid Center 330. Los Angeles, CA 90089-0043, USA, 2003.

6. Grant W. Political Terrorism: Theory, Tactics and Countermeasures. Cambridge University Press, 1982.

7. Kaya İ. Terörle mücadele ve uluslararası hukuk. Ankara, USAK nəşriyyatı, 2005

8. Кольчев А. Со злом бороться сообща. Европейский союз призвал все страны сплотиться в борьбе с терроризмом, http://www.delrus.cec.eu.int

9. Laqueur W. Terörizmin yorumlanması. Red: C. Güzel, Ankara, Ayraç nəşriyyatı, 2002, ss.95-141.

10. Micheal S. Terrorism a Socio-Economic and Political Phenomenonwith Special Reference to Pakistan. Journal of Management and Social Sciences, No.3/1, 2007, pp. 35-46.

11. Proposal for a Council Framework Decision on the European Arrest Warrant and the Surrender Procedures between the Member States, www.europa.eu.int

12. Tasdemir F. Uluslararası terörizme karşı devletlerin kuvvete başvurma yetkisi. Ankara, USAK nəşriyyatı, 2006.

Key words: *terror, terrorism, struggle against terrorism, national security*

Ключевые слова: *террор, терроризм, борьба с терроризмом, национальная безопасность.*

Babayev Rajab

Legal and normative methods of international struggle against terrorism

SUMMARY

The concept of terrorism, which has a long history, has become a global problem since the beginning of the 21st century into a new stage. Terrorism does not have a common definition of national law, which is neither the international law nor the principal subject of international law. One of the most comprehensive definitions of terrorism is given by the Organization of the Islamic Conference.

Efforts to address terrorism in international dimensions and forbid it to coincide with the pre-World War II era. International law is increasingly making certain arrangements against terrorism as a result of international scrutiny of terrorist activities.

Бабаев Раджаб

Международно-нормативные основы борьба против терроризма

РЕЗЮМЕ

Терроризм имеющее длительное историческое прошлое в XXI веке перешел в новую стадию и превратился в глобальную проблему. Терроризм не имеет единого правового не в международно правовом аспекте, не со стороны государств-субьектов международного права. Широкое определение терроризма дано со стороны Организации Исламского Конгресса. Попытка характеристики терроризма с его международными измерениями и борьбы против него была предпринята еще до начала Первой Мировой войны. Введение норм регулирования против терроризма международным правом является итогом нарастания террористической деятельности до международных масштабов.

İqtisadiyyat

QLOBAL İQTİSADİ ÇAĞIRIŞLAR ŞƏRAİTİNDƏ KİÇİK VƏ ORTA MÜƏSSİSƏLƏRİN İNKİŞAF ETDİRİLMƏSİ PROBLEMLƏRİ

ELNARƏ ÖMƏROVA
Sumqayıt Dövlət Universiteti

Qlobal iqtisadi çağırışlar şəraitində kiçik və orta müəssisələrin inkişaf etdirilməsi problemlərinin kompleks şəkildə baxılması və həll edilməsi vacib şərtlərdəndir. Belə ki, qlobal şəraitdə istehsal və istehlak arasında nicbətin dəyişməsi, xidmət sahələrinin rolunun artırılması diqqət çəkir. Bundan əlavə, cəmiyyətdə təhsil səviyyəsinin yüksəlməsi, insan kapitalına və intellektə böyük önəm verilməsi, əməyə yaradıcı yanaşmanın təmin edilməsi məsələlərinə münasibət yeni xarakter alır. Bu şəraitdə ekoloji məsələlər xüsusilə aktuallaşır, belə ki, təbii və iqtisadi resurslardan səmərəli və qənaətlə istifadə etmə problemlərini həll etmək lazım gəlir. Digər tərəfdən, iqtisadiyyatın humanistləşməsi, başqa sözlə sosial yönümlülüyünün artırılması diqqət mərkəzinə gəlir, insanlar iqtisadi proseslərdən daha çox səmərə gözləyirlər və informasiya cəmiyyətinin gücləndirilməsi hesabına iqtisadiyyatın şəffaflığına nail olmaq isdəyirlər. Kiçik biznesin inkişafının təmin edilməsi, kiçik və orta müəssisələrin yaradılması hesabına iqtisadi fəallığın artırılması, yeni iş yerlərinin təşkili proseslərinin sürətləndirilməsi və məhsul istehsalının artımı təmin edilmiş olur. Belə ki, kiçik biznes iri şirkətlərə nisbətən daha çox çevikdir və istehsalın profilini qısa müddət ərzində dəyişə bilir. Bu səbəbdən inkişaf etmiş sənaye ölkələrində daxili milli məhsulun yarısından çoxu kiçik biznesin payına düşür [1, s.115]. Kiçik və orta biznesin inkişaf etdirilməsi, bununla bağlı rəqabət qabiliyyətli müəssisələr şəbəkəsinin yaradılması dövlətin fəal iştirakını və iqtisadi siyasətini şərtləndirir. İqtisadi cəhətdən inkişaf etmiş dünya ölkələrində bu proseslər strateji səviyyədə baxılır, kiçik və orta müəssisələrin inkişaf etdirilməsi problemlərinə kompleks və sistemli şəkildə yanaşma daha çox diqqət çəkir. Kiçik və orta müəssisələr ölkənin bütün regionlarında, xüsusilə ucqar regionlarında

yaradılmaqla, bu ərazilərdə iqtisadi fəallığa müsbət təsir göstərir və məhsulların çevik istehsalının təminatı üçün baza rolunu oynayırlar. Bir qrup tədqiqatçılar- N.Q.Aqurbaş, İ.V.Vasilyeva, N.M.Filimonova, Q.M.Kulapina kiçik və orta müəssisələrin yaradılması və inkişaf etdirilməsi ilə bağlı dövlət dəstəyi və tənzimlənməsi mexanizmlərinin mahiyyəti, həmin müəssisələrin inkişaf problemləri ilə bağlı iqtisadi və təşkilati şərtlərin formalaşdırılması məsələləri, bu istiqamətlər üzrə dövlət strategiyasının əsas hədəfləri və məqsədləri üzrə fundamental araşdırmalar aparmışlar. Kiçik və orta müəssisələri özündə birləşdirən sistem milli iqtisadiyyatın tərkib hissəsi kimi baxılmalı və milli iqtisadiyyatda kiçik və orta müəssisələrin bir subyekt kimi rolu obyektiv olaraq qiymətləndirilməlidir. Kiçik və orta müəssisələrin ölkənin, xüsusilə regionlarının sosial-iqtisadi inkişafında rolu və əhəmiyyəti araşdırılmalı və əldə edilmiş nəticələrə uyğun şəkildə bu istiqamətdə prioritet vəzifələr müəyyənləşdirilməlidir. Kiçik və orta müəssisələr sahibkarlıqla məşğul olmaq istəyənlər üçün daha çox motivasiya yaradır və bu tip müəssisələrdə sərbəstlik, müstəqillik, sahibkarların bacarıq və potensiallarının reallaşdırılması üçün daha əlverişli fəaliyyət məkanı hesab olunurlar [2, s. 57]. Kiçik və orta müəssisələrin inkişaf etdirilməsi ilə bağlı iqtisadi və təşkilati problemlərin həll edilməsinə metodoloji və praktiki yanaşmalarda xüsusi əhəmiyyət kəsb edir. Xüsusilə, kənd rayonlarında və ucqar regionlarda bu kateqoriyadan olan müəssisələrin geniş şəbəkəsinin yaradılması hesabına həmin ərazilərin sosial-iqtisadi inkişafına nail olmaq və yerli əhalinin iri şəhərlərə axınlarının qarşısını almaq mümkündür. Digər tərəfdən, bu kimi müəssisələr regionlarda iqtisadi proseslərin tarazlaşdırılması və sabitləşdirilməsi baxımından xeyli əhəmiyyətlidirlər Kiçik və orta müəssisələr əhalinin əsas mal və məhsullara olan tələbatını daha çevik və davamlı şəkildə ödəməklə bərabər, bu regionların təbii iqtisadi, kadr və insan, həmçinin digər maddi-texniki resurslarından, bütövlükdə iqtisadi resurslardan maksimum səmərəli istifadəyə imkan verir [3, s. 114]. Kiçik və orta müəssisələr şəbəkəsinin inkişaf etməsi regionların və ayrı-ayrı ərazilərin investisiya cəlbediciliyinin artırılması baxımından da mühüm əhəmiyyət kəsb edir. Bu müəssisələr özlərinin çevikliyi və operativliyi hesabına iqtisadi proseslərin dinamikliyini sürətləndirir və ölkə əhalisinin iqtisadi cəhətdən fəal olan hissəsinin işlə təminatında, məhsuldar qüvvələrin daha optimal yerləşdirilməsində mühüm funksiyaları yerinə yetirirlər. Bunlarla bərabər, dövlət tərəfindən kiçik sahibkarlığın inkişaf strategiyasının işlənib hazırlanması və reallaşdırılması qlobal iqtisadi çağırışlar şəraitində, bu kimi müəssisələrin potensialından daha səmərəli istifadəyə əlavə imkanlar yaradardı. Kiçik sahibkarlığın inkişaf üzrə dövlət strategiyasının əsasında ilk növbədə bu istiqamətdə strateji hədəflərin və prioritetlərin müəyyənləşdirilməsi, həmin müəssisələrin inkişafı ilə bağlı baryerlərin aradan qaldırılması, ucuz kredit resurslarına çıxışların təmin edilməsi, bu kimi müəssisələrin qeydiyyatı və təşkili ilə bağlı süni maneələrin azaldılması, kiçik və orta biznesin inkişafına imkan verən infratrukturun yaradılması maddi-texniki bazanın gücləndirilməsi, sağlam rəqabət mühitinin formalaşdırılması, güclü qanunvericilik bazasının yaradılması və s. mütləq şəkildə yer almalıdır. Belə ki, dövlətin kiçik sahibkarlğın inkişafı ilə bağlı strategiyasının əsas məqsədi dünya səviyyəsində toplanmış mütərəqqi təcrübənin fəal şəkildə tətbiqinə nail olunmasıdır [4, s. 158]. Eyni zamanda, kiiçik və orta müəssisələrin inkişaf etdirilməsi üçün onların maaribləndiilməsi, kadr hazırlığına diqqətin artırılması, müxtəlif problemlər üzrə məsləhət xidmətləinin göstərilməsi, təlimlərin keçirilməsi vacib şərtlərdəndir. Tədqiqatçı Q.M.Kulapinaya görə, hər

bir kiçik və orta sahibkarlıq subyektri yaradılarkən və fəaliyyətinə başlayarkən bir neçə suallara uzunmüddətli dövr üçün əsaslandırılmış cavablar almaq istəyir: müəssisənin fəaliyyəti uğurlu olacaqmı? Gəlir proqnozları özünü doğruldacaqmı? Kiçik resurslarla bu müəssisənin rəqabət qabiliyyətini formalaşdırmaq mümkündürmü? [5]. Bu suallar baxımından kiçik və orta sahibkarlıq subyektlərinin maaribləndirilməsi və onlara dəstəyin göstərilməsi dövlətin bu sahədə əsas strateji fəaliyyət istiqamətlərindən biri olmalıdır. Bundan əlavə, kiçik və orta müəssisələrin manervlilik qabiliyyətləri daha yüksəkdir, hər bir belə müəssisə öz potensialına uyğun şəkildə strateji fəaliyyət istiqamətlərini kifayət qədər qısa müddət ərzində yenidən baxa və dəyərləndirə bilər. Belə ki, hazırkı şəraitdə kiçik və orta müəssisələrin inkişaf etməsində texnologiyaların və digər amillərin rolu əhəmiyyətli səviyyədə artmaqdadır. Müasir dövrdə bir tərəfdən texnologiyanın sürətlə inkişafı, digər tərəfdən isə rəqabətin planetar miqyas alması iqtisadi strukturda əhəmiyyətli dəyişiklikləri zəruri edir. Ardıcıllıqla davam edən qlobal yenidənqurma prosesində müəssisələrin uğuru və gələcəkdə müəssisələrin xüsusiyyətinin necə inkişaf edəcəyi barədə suallar mikroiqtisadi səviyyədə mühüm maraq mərkəzinə çevrilib. Texnoloji inkişafın ən mühüm nəticələrindən biri sənaye inqilabını həm işin, həm də iş yerinin yeni texnoloji inkişafa uyğunlaşa biləcək formada təşkilatlanmasını zəruri edir. Başqa sözlə, texnoloji sahədəki sürətli dəyişikliklər işin və iş yerinin xüsusiyyətinin yenilənərək mikro baxımdan biznes səviyyəsində çox əhəmiyyətli dəyişiklikləri vacib edir. Belə irəliləyişlər iqtisadi ədəbiyyatda "işin və iş yerinin yenidən təşkilatlanması" prosesi adlandırılır [6]. Müəssisə səviyyəsində mikro dəyişikliklər bir tərəfdən dünya iqtisadiyyatındakı struktur dəyişikliklərilə, digər tərəfdən inkişaf edən texnologiya və beynəlxalq bazar şərtlərinə uyğun qaydalarla işin yenidən təşkili formasında inkişaf edir. Kütləvi və sərt ierarxik istehsal idarəetmə sistemindən elastik istehsal və idarəetmə sisteminə keçilməsiylə yanaşı, böyük təşkilatlanmaların zamanla funksionallaşaraq bir-biri ilə əlaqəli kiçik alt vahidlərə ayrıldığı yeni bir model inkişaf edir [7].

Qeyd edək ki, qlobal iqtisadiyyat şəraitində yaranan və formalaşan milli iqtisadiyyatlar orta xərci minimuma endirərək "miqyasdan asılı olaraq gəlirin artması" nəticələrinə daha çox önəm verirlər. İkinci dünya müharibəsindən sonrakı dövrdə Avropa dağılmış sənayesini yenidən qurmaq və iqtisadiyyatı canlandırmaq üçün böyük səylə yenidənqurmaya başladı və inkişaf edən texnologiya ilə birlikdə irimiqyaslı müəssisələri quraraq, kütləvi istehsala başladı. Həmin dövrdə "kiçik və orta sahibkarlığın" həm iqtisadi, həm də ictimai quruluşdakı əhəmiyyəti ikinci plana keçdi. Bütün bu proseslər nəticəsində irimiqyaslı müəssisələrə dəstək və

yardımlar edilməsi siyasətinə üstünlük verildi [8] Amma XX əsrin 70-ci illərində özünü göstərən neft böhranının doğurduğu sarsıntıdan böyük müəssisələr daha çox zərər gördülər və ağır vəziyyətə düşdülər. Belə müəssisələrin böhranın təsirinə daha çox məruz qalmaları və nəticədə dünyadakı konyunkturaya uyğunlaşmaqda üzləşdiyi çətinliklər onlara olan etibarın sarsılmasına səbəb oldu. Bundan əlavə, həmin dövrə qədər istehsalda arxa plana atılan kiçik və orta müəssisələr iqtisadi tənəzzülə baxmayaraq, özlərini çevik toplamaları, bazar şərtlərinə böyük müəssisələrə nisbətən daha asan uyğunlaşmaları və iqtisadi strukturdakı boşluqları aradan qaldırmaqda göstərdikləri uğur bu müəssisələrə üstünlük verilməsinə gətirib çıxardı [9]. 1980-ci illərin əvvəlində kiçik və orta müəssisələr haqqında yeni ideologiya formalaşdı. Bu müəssisələrin sənayeləşmə, məşğulluq, iqtisadiyyatın böyümə və inkişaf baxımından mühüm rol oynamaları dünya və ölkə miqyasında onların dəstəklənməsi və inkişafı məsələsini ön plana çəkmişdir. Həmin illərdə dünya ölkələrinin çoxunda bu tip müəssisələrin inkişafı və təşviq edilməsi siyasəti güclənmişdir.

Qeyd edək ki, qloballaşma kütləvi istehsal əvəzinə fərdi istehsal, bu isə öz növbəsində özəl istehsalı ön plana çıxarmışdır. Həmin bu dəyişiklik böyük miqyaslı, böyük həcmdə istehsalı olan müəssisələri çətin vəziyyətə salmış, kiçik və orta müəssisələri isə üstün vəziyyətə gətirmişdir. Qloballaşma və elastiklik - istehsal və istehlakın bir mərkəzdən planlanması, standart məhsulların istehlakı və çeşidli bir dünya bazarına təsir edərək yerli bazarın iqtisadi, sosial və mədəni fərqliliklərinə uyğun yeni iqtisadiyyatı meydana gətirmişdir. Hazırkı dövrdə sənaye istehsalının miqyasında 1960-cı illərdən fərqli bir struktur müşahidə edilir. Miqyas iqtisadiyyatı getdikcə əhəmiyyətini itirdiyi halda, çeşid iqtisadiyyatına əsaslanan kiçik miqyaslı, lakin yüksək texnologiyalar istifadə edən sənaye müəssisələri ön plana çıxır. Yəni, fordist istehsal və əmək şəraitinin kütləvi emala əsaslanan tək bir model və standart əmtəə anlayışının yerini elastik ixtisaslaşmaya əsaslanan elastik istehsal və əmək sistemləri tutur. Elastik istehsal sistemləri əsrin tələbidir. Beləliklə, miqyas iqtisadiyyatına əsaslanan kütləvi istehsal sistemlərinin əvəzinə fərqliləşən özəl ehtiyacları qarşılaya biləcək müxtəlif fərqli məhsulu istehsal edə bilmək imkanlarına malik olan elastik istehsal sistemləri keçir. Dünyanın inkişaf etmiş ölkələrində kiçik və orta müəssisələri dəstəkləyən siyasətlərin bu qədər geniş vüsət alması da təsadüfi deyildir. Çünkü, gələcək dünyamızda bugünkü sənaye cəmiyyətinin makro iqtisadiyyatları öz yerlərini çeşid iqtisadiyyatına verəcək, inteqrasiya olunmuş təsisatların yerinə isə ana sənaye-alt sənayenin bütövləşməsi istiqamətində daha elastik və sürətli modellər üstünlük təşkil edəcəkdir. Bir tərəfdən azad ticarət zonaları növündən regional inteqrasiya meyilləri, digər tərəfdən Ümumdünya Ticarət Təşkilatı vasitəsi ilə davam etdirilən beynəlxalq ticarətin liberallaşması cəhdləri ilə ənənəvi müdafiə divarlarının (gömrük vergiləri və kvotalar) aradan qaldırılması ilə beynəlxalq ticarət, liberal əsaslar çərçivəsində idarəçilik sistemi yaradılır. Beləliklə, həm əmtəə, həm də xidmətlərin sərbəst hərəkəti vasitəsilə qloballaşma böyük ölçüdə meydana çıxır. Digər tərəfdən, informasiya, telekommunikasiya və rabitə texnologiyalarındakı sürətli inkişafda "milli iqtisadi sistemlərin bir-birinə bağlı vəziyyətə gəldiyi, qlobal qarşılıqlı asılılıq olaraq adlandırılan bu yeni dünya nizamında müəssisələr artıq sadəcə milli bazarlar üçün deyil, beynəlxalq bazarlar üçün də istehsala yönəltməkdədirlər. Milli bazarların beynəlxalq kapital və əmtəə bazarları ilə birləşdiyi bu gəlişmələrlə dünya sanki kiçilərək tək bir bazar vəziyyətinə gəlmişdir. Komputer sistemli informasiya texnologiyalarına əsaslanan istehsal prosesi mühərriklə bağlı mexanizm prosesindən komputer sistemli avtomatik dövrə dönərkən "komputer, rəqəmsal nəzarət maşınları, mikroelektronik və robotların istehsala tətbiqi ilə "elastik istehsal" deyilən, yeni bir istehsal və biznes strukturuna keçildiyi müşahidə edilir." [10, s.114]. Elastik istehsal sistemi inkişaf etmiş ölkələrdəki struktur problemlərinə qarşı, xüsusilə kütləvi istehsala bir alternativ kimi irəli sürülən mikro siyasət nümunəsidir. İkinci dünya müharibəsindən sonrakı inkişaf etmiş kapitalist ölkələrindəki kütləvi istehsalı əsas götürən sənaye siyasəti yeridilmişdir. Bu siyasət çox da yüksək ixtisaslı işçi tələb edilməyən texnologiyalar, iş təşkilatının teylorist formatlar daxilində standart istehlak proseslərinin yaradılıb, geniş və fərqlilik tələb etməyən bazarlara paylanmasında uğurlu olmasını təmin etmişdir. Lakin, mikro texnologiyanın tətbiq edilməyə başlanması ilə istər iş yerindəki istehsal və iş əlaqələrinin, istər məşğulluq və istərsə də, rəqabət şərtlərindəki dəyişikliklər nəticəsində kütləvi istehsalda uğurlu olan metodlar öz mövqeini postsənaye iqtisadiyyatlarında itirməyə başlamışdır. Elə bu mərhələdə "Piore ve Sabel"in liderlik etdiyi elastik ixtisaslaşma axını, bir tərəfdən artan rəqabət şərtlərini, digər tərəfdən yeni komputer əsasında işləyən texnologiyanın təsiri ilə elastik istehsal texnikasının lazım gəldiyini və beləliklə də standart istehsaldan fərdi istehsala keçilməsinə imkan verən elastik istehsal sistemi ortaya çıxmaqdadır. Elastik istehsal sistemi yeni ixtira və dəyişikliklərə üstünlük verərək hər partiya əmtəədən çox az sayda,

lakin iqtisadi artıma imkan verən istehsal sistemi olaraq tanınır. Texnologiyanın yaratdığı rəqabət, beynəlxalq bazarlarda elastikliyi və bu elastikliyə uyğunlaşa biləcək təşkilatların ön plana çıxmasına səbəb olmuşdur. Xüsusilə, mikroelektrik texnologiyalarındakı yeniliklər, istehlakçının daha keyfiyyətli məhsulu, öz istəklərinə uyğun olaraq, daha qısa müddətdə və satış sonrası xidmətlər ilə birlikdə istehlak edə bilməsini təmin edir. Beləliklə, istehsaldakı elastiklik və bunun nəticəsində ortaya çıxan məhsul çeşidliliyi rəqabətdə üstünlük qazanmağın digər bir əhəmiyyətli məqamıdır. Nəticə etibarilə, rəqabət şəraitində istehsal strukturunun elastik olması dəyişən bazar şərtlərinə uyğunlaşa bilməkdə üstünlük verən bir amildir. Buna görə istehsal strukturlarında lazım olan tənzimləmələri həyata keçirə bilən şirkətləri də üstün mövqeyə gətirir.

Qlobal iqtisadi çağırışlar şəraitində kiçik və orta müəssisələrin inkişaf strategiyalarının və mexanizmlərinin hazırlanmasında baş vermiş transformasiyalar və konseptual yanaşmaların kompelks şəkildə baxılması və nəzərə alınması vacibdir [11, s. 188; 12, s. 231]. Bu sırada sosial-iqtisadi inkişaf proseslərində və xüsusilə bazar iqtisadiyyatı infrastrukturunun yaradılmasında mövcud dəyişikliklərin, tendensiyaların nəzərə alınması və qiymətləndirilməsi mühüm məsələlər kimi baxılmalıdır. İstehsal sahələrinin yaradılması, yeni iş yerlərinin açılması, yerli istehlak bazarının rəqabət qabiliyyətli mal və məhsullarla təmin edilməsi, əhalinin tələbatları, gəlirləri və həyat səviyyəsinin yüksəlməsi amilləri nəzərə alınmaqla, daha yüksək standartlara cavab verən istehlak mallarının və məhsullarının geniş çeşidinin təmin edilməsi vacib şərtlərdəndir. Kiçik və orta müəssisələr bu mühüm məsələlərin reallaşdırılmasında səmərəli vasitələr və fəaliyyət sahələri kimi diqqət çəkirlər. Bu amillər baxımından dövlət kiçik və orta müəssisələr şəbəkəsinin inkişaf etdirilməsinə institusional dəstək göstərməli və bu müəssisələrin inkişaf ilə bağlı problemləri sistemli, ardıcıl şəkildə həll etməlidir [13, s. 136]. Regionlarda kiçik və orta müəssisələrin fəaliyyətini dəstəkləyən mərkəzlər yaradılmalı, kredit və sığorta xidmətlərinin yüksək səviyyədə təşkili təmin edilməlidir. Kiçik və orta müəssisələr infarstruktur baxımından əziyyət çəkməməli, yetişdirdikləri və topladıqları məhsulun tədarük edilməsi və satılması imkanlarına malik olmalıdırlar. Bu tip müəssisələrin texnika, kənd təsərrüfatı gübrələri və yanacaqla təminatı məsələləri də etibarlı şəkildə həll olunmalıdır. Bütün bu amillər baxımından, dövlətin kiçik və orta müəssisələr şəbəkəsinin gücləndirilməsi məqsədilə regional iqtisadi siyasəti, o cümlədən regional sənaye siyasəti işlənib hazırlanmalı və reallaşdırılmalıdır [14, s. 201]. Regional iqtisadi siyasətin əsas mexanizmləri sırasında kiçik və orta müəssisələrin innovasiya-investisiya mühitinin yaxşılaşdırılması, infarstrukturun gücləndirilməsi, yerli resursların səmərəli şəkildə istehsal dövriyyəsinə cəlb edilməsi yer almalıdır. Regional səviyyədə, o cümlədən ölkənin sərhəd zonalarında və ucqar rayonlarında kiçik və orta müəssisələrin inkişafının genişləndirilməsi modeli hazırlanmalı və reallaşdırılmalıdır. Burada hər bir regionun resurs potensialına və inkişaf imkanlarına uyğun olan kiçik və orta müəssisə formalarna üstünlük verilməli və bununla əlaqədar strateji yanaşmalar müəyyənləşdirilməlidir [15, s. 108]. Məsələn, sərhədyanı regionlarda hər iki tərəfdə yaşayan insanların maraqları nəzərə alınmaqla, həmin maraqlar milli iqtisadi və milli maraqlar kontekstində balanslaşdırılmalı, qarşılıqlı işgüzar fəaliyyət və rəqabət mühiti yaradılmalı, müəssisələrin müasir texnologiyalar və innovasiyalar əsasında inkişafı təmin edilməlidir. Və yaxud, hər hansı bir sahə üzrə kiçik müəssisələr kompleksinin inkişaf etrdirilməsi problemləri baxılarkən, bu sahənin inkişaf xüsusiyyətləri və potensialı nəzərə alınmalıdır. Məlumdur ki, ölkənin hər bir regionunda ət və süd məhsulları üzrə kiçik müəssisələrin yaradılmasına və inkişaf etdirilməsinə ehtiyac vardır və bunlar obyektiv zərurətdən yaranmışdır. Bu baxımdan, belə kateqoriyadan olan kiçik və orta müəssisələrin inkişaf ilə bağlı problemlər və yanaşmalar dərindən əsaslandırılmalı və hər bir fəaliyyət istiqaməti üzrə təsiredici amillər nəzərə alınmalıdır [16, s. 191]. Bunlarla bərabər, kiçik və orta müəssisələrin ən mürəkkəb problemlərindən biri də, əvvəldə qeyd etdiymiz kimi ucuz və əlverişli kredit resurlarına çıxışın təmin edilməsi, başqa sözlə maliyyə mexanizmlərinin gücləndirilməsidir. Kiçik sahibkarlığın müxtəlif layihələri, xüsusilə innovasiya layihələrini reallaşdırmaq üçün vəsaitləri azlıq edir və buna görə də bu müəssisələrin maliyyə resurslarına əlçatanlığı dövlətin diqqət mərkəzində olmalıdır [17, s. 166]. Məsələn, Cənubi Koreyada kiçik və orta müəssisələrin maliyyə resurslarına və texnologiyalara çıxışının asanlaşdırılması üçün xüsusi fond yaradılmışdır. Analoji yanaşmalar bir sıra digər ölkələrdə də geniş yer almışdır. Kiçik və orta müəssisələr şəbəkəsinin iqtisadiyyatın bütün sahələrində davamlı və tarazlı inkişafının təmin edilməsi tədbirləri görülməlidir. İqtisadi cəhətdən inkişaf etmiş ölkələrin təcrübəsi baxımından, xidmət sektorunda kiçik və orta sahibkarlığın inkişafına uzunmüddətli dövr nəzərə alınmaqla strateji yanaşmalar təmin olunmalıdır [18, s. 151]. Bütün bunlarla yanaşı, kiçik və orta müəssisələrin inkişafının intensivləşdirilməsi, onların rəqabət qabiliyyətinin yüksəldilməsi, maddi-texniki bazasının gücləndirilməsi məqsədi ilə daha əlverişli və mütərəqqi vergiqoyma konsepsiyası hazırlanmalı və "dövlət-özəl sektor" əməkdaşlığı prinsipləri formalaşdırılmalıdır [19; 20]. Qlobal iqtisadi çağırışlar şəraitində ölkəmizdə də kiçik və orta müəssisələrin inkişaf etdirilməsi proseslərinə dövlət dəstəyi mexanizmlərinin hazırlanmasına və fəal şəkildə tətbiq edilməsinə xüsusi önəm verilir. Kiçik və orta sahibkarlıq sahəsində idarəetmənin daha da təkmilləşdirilməsi haqqında Azərbaycan Respublikasının Prezdentinin 28 dekabr 2017-ci il tarxili Fərmanı buna bariz nümunədir [21]. Bu Fərmanın əsas məqsədi ölkədə investisiya və biznes mühitinin daha da yaxşılaşdırılması, sahibkarlıq fəaliyyətinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsi, kiçik və orta sahibkarlığın ölkə iqtisadiyyatında rolunun və rəqabət qabiliyyətinin artırılması üçün kompleks tədbirlərin görülməsinin təmin edilməsidir. Milli iqtisadiyyatın və iqtisadiyyatın 11 əsas sektorları üzrə starteji yol xəritələri çərçivəsində kiçik və orta sahibkarlıq subyektlərinin maliyyə resurslarına sərfəli və səmərəli çıxışının təmin edilməsi, xarici bazarlara çıxış imkanlarının artırılması üçün strateji hədəflər müəyyənləşdirilmişdir [22; 23].

Bütün bunlarla bərabər, kiçik və orta sahibkarlğın inkişafı ilə bağlı bir sıra problemlərin həll edilməsi yaxın perspektivdə qlobal iqtisadi çağırışlar şəraitində qarşıda duran ən mühüm vəzifələr sırasındadır. Bunlara kiçik və orta sahibkarlıq subyektlərinin -müəssisələrinin müasir texnologiyalar və innovasiyalar əsasında inkişafının təmin edilməsi, mütərəqqi idarəetmə sistemlərinin bu tip müəssisələrin fəaliyyətində tətbiqinin genişləndirilməsi, ölkənin bütün regionlarında yerli regional iqtisadi inkişaf xüsusiyyətləri və resurs potensialı nəzərə alınmala, rəqabət qabiliyyətli müəssisələr şəbəkəsinin yaradılması, bu müəssisələrin investisiya-innovasiya cəlbediciliyinin yüksəldilməsi, həmin müəssisələrin güclü kadr potensialı ilə təmin olunması, kiçik və orta müəssisələrin dünya bazarlarına çıxışının genişləndirilməsi və s. aiddirlər.

ƏDƏBİYYAT

1. Vəliyev D. Azərbaycanın qlobal iqtisadiyyata inteqrasiyası. "Adiloğlu", Bakı, 2008.-428 s.
2. Агрубаш Н.Г. Государственное регулирование развитие малых предприятий. Дисс. д-ра экон. наук. Москва, 2006.- 342 с.
3. Васильева И.Н. Экономические и организационные условия создания и развития малых форм хозяйствования. Дисс. д-ра экон. наук. Москва, 2012.- 412 с.
4. Филимонова Н.М. Разработка государственной стратегии развития малого предпринимательства в России. Дисс. д-ра экон. наук. Санкт-Петербург, 2006.- 289 с.
5. Кулапина Г.М. Развитие консалтиновых услуг для малого и среднего бизнеса: теория и методология. Дисс. канд. экон. наук. Самара, 2005.- 336 с.
6. Колесников А., Колесникова Л. Малый и средний бизнес: эволюция понятий и проблема определения // Вопросы экономики. 1996. - №7. -С. 46 - 58
7. Лапуста М.Г., Старостин Ю.Л. Малое предпринимательство: М.: ИНФРА-М, 2006.-354 с.
8. Развитие малого предпринимательства: отечественный и зарубежный опыт/ В.Е. Лялин, В.И. Ляшенко, К.В. Павлов, В.В. Хахулин. М.: Экономиста, 2006. - 254 с.
9. Лебо А. Проблемы развития мелких предприятий в Европе // Социальные и гуманитарные науки: Отечественная и зарубежная литература. Сер. 2. экономика: РЖ / ИНИОН. 2006. - № 1. - С. 92-95.
10. Кастельс М. Информационная эпоха: экономика, общество и культура. -М.: ГУ ВШЭ, 2000.-608 с.
11. Крылова Е.Б. Трансформация занятости в условиях развития малого предпринимательства. Дисс. д-ра экон. наук. Москва, 2009.- 364 с.
12. Лескова Т.М. Концептуальные основы развития малого предпринимательства в депрессивных регионах. Дисс. д-ра экон. наук. Иркутск, 2005.- 410 с.
13. Манаев В.В. Совершенствование политики занятости населения в малом предпринимательстве. Дисс. д-ра экон. наук. Москва, 2011.- 333 с.
14. Гришин И.А. Региональная промышленная политика развития малых предприятий. Дисс. д-ра экон. наук. Москва, 2007.- 368 с.
15. Радченко М.В. Методология формирования и развития малого предпринимательства в приграничных территориях. Дисс. д-ра экон. наук. Благовещенск, 2011.- 362 с.
16. Конаков М.А. Развитие малых форм хозяйствования в мясо-молочном подкомплексе: теория, методология, практика. Дисс. д-ра экон. наук. Москва, 2011.- 317 с.
17. Меркушев А.И. Финансовый механизм развития малого предпринимательства: теория, методология, практика. Дисс. д-ра экон. наук. Москва, 2008.- 370 с.
18. Симанавичене Ж.И. Функционирование малого и среднего предпринимательства в сфере услуг Литвы. Дисс. д-ра экон. наук. Москва, 2005.- 291 с.
19. Мандрощенко О.В. Концепция налогообложения инвестиционной деятельности малых предприятий. Дисс. д-ра экон. наук. Москва, 2010.- 384 с.
20. Леонова Ж.К. Государственно-частное партнерство в подготовке кадров для малого и среднего предпринимательства. Дисс. д-ра экон. наук. Москва, 2013.- 292 с.
21. Kiçik və orta sahibkarlıq sahəsində idarəetmənin daha da təkmilləşdirilməsi haqqında Azərbaycan Respublikasının Prezdentinin Fərmanı, Bakı şəhəri, 28 dekabr 2017-ci il.
22. Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritələrinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 6 dekabr 2016-cı il.
23. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 06 dekabr 2016-cı il-cı il tarixli Fərmanı ilə təsdiq edilmişdir.

Açar sözlər: *qlobal iqtisadi çağırışlar, kiçik və orta müəssisələr, kiçik və orta sahibkarlıq subyektləri, kiçik və orta müəssisələrin inkişaf etdirilməsi problemləri, qlobal şəraitdə kiçik və orta müəssisələrin strateji yanaşmaları.*

Ключевые слова: *глобальные экономические вызовы, малые и средние предприятия, субъекты малого и среднего предпринимательства, проблемы развития малых и средних предприятий, стратегические подходы к малым и средним предприятиям в глобальных условиях.*

Key words: *global economic challenges, small and medium-sized enterprises, small and medium-sized enterprises, development of small and medium-sized enterprises, strategic approaches to small and medium-sized enterprises in global conditions.*

РЕЗЮМЕ

Проблемы развития малых и средних предприятий в условиях глобальных экономических вызовов

В статье исследованы проблемы развития малых и средних предприятий в условиях глобальных экономических вызовов. Анализированы сущность и теоретически-методологические подходы по формированию и развитию малых и средних предприятий. Раскрыты эффективность и роль малых и средних предприятий по сбалансированию устойчивости национальной экономики. Обосновано важность расширения сети малых и средних предприятий в регионах страны по эффективному использованию ресурсов региона и обеспечение экономической активности населения, рациональное размещение производительных сил. Рассмотрены процессы развития и проблемы в сферах малого и среднего препринимательство в Азербайджане с выявлением существующих проблем. В конце статьи дан ряд предложений и рекомендаций по проблемам развития малых и средних предприятий в условиях глобальных экономических вызовов.

SUMMARY

Problems of development in small and medium-sized enterprises in the face of global economic challenges

Problems of development in small and medium-sized enterprises in the face of global economic challenges are explored in the article. The essence and theoretical-methodological approaches to the formation and development of small and medium-sized enterprises are analyzed. The effectiveness and role of small and medium-sized enterprises in balancing the sustainability of the national economy is revealed. The importance of expanding the network of small and medium-sized enterprises in the regions of the country on the efficient use of the region's resources and ensuring economic activity of the population, rational allocation of productive forces is justified. The development processes and problems in the spheres of small and medium business in Azerbaijan are examined with the identification of existing problems. A number of proposals and recommendations on the development of small and medium-sized enterprises in the face of global economic challenges are given at the end of the article.

Region

TÜRKİYƏ RESPUBLİKASININ CƏNUBİ QAFQAZDA ƏSAS GEOSİYASİ PRİORİTETLƏRİ

HASAN KARADEMİR
Bakı Slavyan Universiteti

Hazırda ölkənin təhlükəsizliyi həmişə təkcə milli maraqları nəzərdə tutmur, buraya həm də onların həyata keçirilməsi üçün bacarıq və imkanlar, bunun üçün vacib potensiallıq və alətlər komplektinə yiyələnmə daxildir. Siyasi instrumentari, öz növbəsində, şəxsi siyasi-iqtisadi, sosial və başqa təsirin möhkəmlənməsi və nailiyyəti, eləcə də onun gələcəkdə saxlanması üçün konkret praktiki tədbirləri inkişaf etdirir. Bundan əlavə, rəqib dövlətin öz maraqları sahəsinə nüfuzunun qarşısının alınması, onun təsirinin neytrallaşması üçün mümkün tədbirlərin həyata keçirilməsi, necə deyərlər, coğrafi və geosiyasi məkandan "çıxarılması" mühüm şərtdir. Lakin bu gün dünyada bir çox ölkələr vardır ki, onlar müxtəlif bölgələrdə öz geosiyasi maraqları üçün iddia edə bilər, lakin onları həyata keçirmək iqtidarında deyil, qoyulan tələblərin əksəriyyətinə cavab vermir və buna görə də yalnız bir regional dövlət kimi qəbul edilə bilər.

Regional siyasətə aparıcı dövlətlərin coğrafi və geosiyasi mövqeyinin təsirinin metodoloji əsaslarını nəzərdən keçirərkən, ilk növbədə, bu anlayışların mahiyyətini aydınlaşdırmaq, onların hər birinə dəqiq tərif verməyə cəhd etmək zəruridir. Bununla belə, dövlətlərin coğrafi və geosiyasi mövqeyinin regional siyasətə təsir mexanizminin anlaşılmasının başlanğıc nöqtəsi olan nəzəriyyənin bəzi başlıca müddəaların, əsas paradiqmaların qısa təsviri ilə onu obyektiv olaraq hazırlamaq lazımdır.

Bu gün geosiyasət, ilk növbədə, sosial-iqtisadi və siyasi inkişafın milli özünəməxsusluğu ilə xarakterizə olunur. Bu elmi sahə eyni zamanda bir neçə fənlərin – siyasi coğrafiya, politologiya, tarix – kəsişməsində yaranmışdır və fəaliyyət göstərir. Geosiyasət bəzi mənada "qlobal düşüncənin, qlobalizasiyanın bizim zamanda məşhur konsepsiyalarının ortaya çıxmasında şərtləndirici amil" [5, s. 508] hesab edilə bilər.

Belə ki, "Beynəlxalq Ensiklopediya"nın müəllif kollektivi geosiyasəti "müasir siyasətdə fiziki mühit və onun dövlətlərin hərbi-siyasi, iqtisadi və ekoloji təhlükəsizliyinə təsiri parametrlərindən fəal istifadənin real imkanlarının açıqlanması və araşdırmasının başlıca amili" [6, s.193] kimi nəzərdən keçirir. A.S.Panarin bunu belə izah edir: geosiyasət "xarici-siyasi fəaliyyətin elə növüdür ki, o, ilk növbədə tərəfdaş ölkələrin və ya rəqiblərin ərazi oxşarlığı ilə müəyyən edilir və onların qonşu dövlətlərdə strateji ehtiyacları və maraqlarının bir-birinə bağlılığı üçün müvafiq sahə yaradır" [4, s.108].

Qlobal inkişafın ictimai-siyasi paradiqmasının dəyişməsinə baxmayaraq, bu gün bir çox geosiyasi konsepsiyalar və layihələr ənənəvi (klassik) geosiyasətin çərçivəsində qurulmaqda davam edir. Eyni zamanda XX-XXI əsrlərin qovşağında dəyişdirilmiş geosiyasi konfiqurasiya inkişafın iki mümkün ola bilən birqütblü dünyanın yaradılması və birqütblülüyə tədricən keçid qlobal tendensiyasını

yaratmışdır. Birqütblü dünya geosiyasi subyektin (yalnız ABŞ və ya ABŞ-la birlikdə onun NATO bloku üzrə yaxın müttəfiqləri) tam hakimiyyətini müəyyən edəcək model əsasında, yaxud qlobal miqyasda geniş idarəetmə funksiyaları olan beynəlxalq təşkilatın – "dünya hökuməti"nin yaradılması ilə təşkil edilə bilər. Çoxqütblü dünya regional və ya mədəniyyət xüsusiyyətləri prinsipləri ilə yaradıla bilər.

Çoxqütblü dünyanın formalaşması sivilizasiya çoxqütblülüyünün konsepsiyalarına uyğun olaraq baş verə bilər. Bunun əsasında S.Huntinqtonun təklif etdiyi sivilizasiyaların toqquşma paradiqması durur. Hazırkı vəziyyətdə dinamizmə tabe olan və sistem yaradan əsas prinsiplərin formalaşması kimi yerli sivilizasiyalara xas olan dini, etnik və sosial-mədəni universallar üstünlük təşkil edir. Sivilizasiya qütbləri olmaq üçün ən böyük şans Qərb, konfusiya, İslam, Buddist və yerli Avrasiya sivilizasiyalarındadır.

Eyni zamanda, bu paradiqmaların hər biri ən azı bir, öz növbəsində, milli maraqlarla müəyyənləşən geosiyasi məqsədin olmasını nəzərdə tutur. Dünyanın geosiyasi strukturunda hər bir dövlətin (və ya geosiyasi subyektin) onun müddəalarının birbaşa təzahürü olan müəyyən yeri var.

Adı çəkilən Lüğətin müəllifləri dövlətin geosiyasi mövqeyi adı altında onun geosiyasi region dövlətləri və ya bütövlükdə beynəlxalq ictimaiyyət sistemində yeri kimi başa düşməyi təklif edirlər. Dövlətin geosiyasi vəziyyəti onun iqtisadi, siyasi, hərbi, demoqrafik və intellektual potensialı tərəfindən müəyyən edilir. Əslində, Cənubi Qafqazda Türkiyənin geosiyasi prioritetlərinin bizə maraqlı olacağı baxımından, gələcəkdə onun geosiyasi vəziyyətinə əhəmiyyətli dərəcədə təsir edən bu dövlətin dənizə çıxışlarını qeyd etmək vacibdir. Burada daha çox inkişaf etmiş rabitə sistemi, təbii sərvətlər, dəniz sərhədlərinin uzunluğu, həmçinin iqlim şəraiti, dövlətlərarası beynəlxalq münasibətlər və dünya (beynəlxalq) əmək bölgüsü sistemində iştirakı səviyyəsi nəzərdə tutulur [3, s.40].

Yuxarıda göstərilənləri nəzərə alaraq, eləcə də geosiyasi nəzəriyyənin əsas anlayışlarının təhlili əsasında bizi maraqlandıran anlayış aşağıdakı kimi müəyyən edilə bilər: hər hansı bir müasir sivil dövlətin geosiyasi mövqeyi obyektiv və subyektiv coğrafi, tarixi, iqtisadi, siyasi, hərbi, qlobal tarixi prosesdə rol oynayan sosial komponentlərin cəmidir. Bu, həmçinin beynəlxalq münasibətlər sistemində onun yerini müəyyən edir. Müasir Türkiyə üçün ilk növbədə xarici əlaqələrin möhkəmləndirilməsi, sərhəd təhlükəsizliyi vəziyyətini yaratmaq üçün əsas hökumət səylərinin mərkəzləşdirilməsi, regionluqdan separatizmə, ondan isə geosiyasi məkanın genişləndirilməsinə tədricən keçid prosesi – "mondializm" deyilən xətti təklif edən demokratik qüvvələrə əsaslanan geosiyasi ideologiya xarakterikdir.

Cənubi Qafqazda Türkiyənin geosiyasi prioritetlərindən danışarkən, biz ölkənin İranla sıx əlaqələri faktı üzərində dayanmaya bilmərik. Məsələ belədir ki, müasir tarixi mərhələdə İranda İslam qlobal islam inqilabının sürətlə həyata keçməyində aydın iddiaları olan antimondialist və anti-Amerika istiqamətli güclü və dinamik qüvvədir. Hər halda, İran hökumətinin bəzi liderlərinə bu belə görünür. Geosiyasi aspektdə İran böyük Avrasiya oazisinin mərkəzində olmağa həm strateji, həm də ideoloji şansı olan sırf kontinental dövlətdir. Birincisi, geniş coğrafi məkan İrana Pakistan və Əfqanıstanı xarici əlaqələrinin orbitinə daxil etməyə imkan verir. İkincisi, "Bakı-Tbilisi-Qars" dəmir yolu layihəsi Türkiyə üçün əhəmiyyətli olduğu qədər, Tacikistan və Özbəkistanın ərazi uzunluğunun açıq zolağı İranın coğrafi və geosiyasi məkanı üçün çox vacibdir. Türkmənistanla isə İran birbaşa həmsərhəddir. Üçüncüsü, Azərbaycan neftinin ehtiyatları hələ də çoxdur və Qazaxıstanda nəhəng nüvə qazanı İran və Türkiyəyə kontinental suverenliyinin yenidən qurulması üçün real zəmindir.

Digər məsələ İranın Türkiyəyə siyasi oriyentasiyadır ki, hazırda bu, tez-tez "pan-türkçülük" fikri ilə müşayiət olunur. Hamıya məlumdur ki, Türkiyə Osmanlı İmperiyasının varisi olaraq, ideoloji münasibətdə onun davamçısı deyil. Bizim fikrimizcə, bəzi siyasətçilər (E.A.Pozdnyakov, A.S.Panarin və başqaları) səhvən aydın şəkildə Türkiyənin siyasi ambisiyalarında onun ənənəvi rolunu şişirdirlər. Məsələn, politoloq O.Barnaşov məqaləsində nəticələri ümumiləşdirərək qeyd edir: "Etiraf etmək lazımdır ki, müasir Türkiyə cəmiyyəti islahatçı Kamal Atatürk irsinin ideoloji inkişafının ənənəvi prosesinə dərin qapılmışdır. Müasir Türkiyənin güc strukturları əsasən İslam prinsiplərinin qorunması, həmçinin, ictimai həyatda daha da gücləndirilməsi ilə məşğul olurlar. Əslində, bu dövlətin xarici və daxili siyasəti buna müvafiq olaraq formalaşır" [1, s.117].

Bütövlükdə və ümumiyyətlə, bu, düzgün ümumiləşdirmədir. Türkiyə ümummilli lider K.Atatürkün vəsiyyətinə sadiqdir. Lakin, 2016-2017-ci illərin son siyasi hadisələri, eləcə də "dövlət çevrilişi" cəhdini nəzərə alaraq, sual qəti şəkildə qoyulur: Ənənələrə "qapılma"nın dərinliyi belədirmi? Bir tərəfdən, imperiya İslam polisentrik və multi-etnik quruluşu əvəzinə dünyəvi, ateist xarakterli millət-dövlətin Şərq versiyası yaradılır. Digər tərəfdən, hələ 1918-ci ildə məğlub edilən Osmanlı imperiyasının ideallarını bütün vasitələrlə bərpa etməyə çalışan müxalifət var. Türkiyə özünün mənəvi, dini və geosiyasi ənənələrindən kəskin uzaqlaşan Şərqin ilk dövlətidir. NATO üzvü kimi, bu gün o, mondialism və atlantizmin şərqi istehkamıdır. Eyni zamanda, o, Asiya və ərəb dünyası arasında "sanitar kordondur". Hansısa mənada belə "şərəfli" rol özünüyüksəlmə və böyük geosiyasi dövlət olmaq prosesində müasir Türkiyə üçün əlavə stimuldur. Türkiyənin geosiyasi modelində Qərb məkanına olduqca real inteqrasiya planları var. Lakin bu günə qədər onun Avropa Birliyinə üzv olmaması bu planları bir qədər ləngidir. Hətta Z.Bjezinski öz zamanında qeyd etmişdir ki, "Aİ-yə buraxılmama, çox ehtimal, Avropa Böyük Məkanında tam üzvlüyü deyil, ABŞ-ın siyasi və ideoloji koloniyasını xatırladır" [2, s.133].

Bu təhlildə müəyyən bir bölgədə geosiyasi subyekt kimi regional siyasətə Türkiyənin təsiri mexanizmi əhəmiyyətli rol oynayır. Burada söhbət bir-biri ilə qarşılıqlı münasibətdə olan, ölkənin bu regionda geosiyasi xarakterini müəyyənləşdirən coğrafi, tarixi,

iqtisadi və hərbi təyinatlı komponentlərin cəmindən gedir. Bu isə öz milli maraqlarını daha dəqiq ifadə etmək və ardıcıl həyata keçirmək üçün imkan verir.

Bununla belə, coğrafi komponent mexanizminə geosiyasi subyektə münasibətdə regionunun məkan mövqeyi, region ölkələri ilə ümumi sərhədlər və onların uzunluğu, bölgədə geosiyasi subyektlərin sayı və ölçüsü və s. daxildir. Tarixi komponent əsasən tarixi retrospektiv baxımdan region ölkələri ilə əlaqələrin dinamikasını nəzərə alır. İqtisadi komponent Cənubi Qafqaz regionu ölkələri arasında cari təsərrüfat və müxtəlif növ əlaqələri təşkil edir. Bundan əlavə, nəqliyyat infrastrukturunun inkişaf səviyyəsi, təbii ehtiyatların və s. mövcudluğu da nəzərə alınır. Cənubi Qafqazda Türkiyənin hərbi komponenti üç respublikanın (Ermənistan, Azərbaycan və Gürcüstan) regionlarında silahlı qüvvələrin sayı və tərkibi nisbəti, hərbi ittifaqlar olması və ya olmaması, bölgədə digər ölkələrin hərbi kontingentinin iştirakı, silahlı münaqişələrin xarakteri və intensivliyi və s. təşkil edir.

Türkiyənin Cənubi Qafqazda siyasətinin formalaşması mənbəyi kimi onun müasir geosiyasi mövqeyinin xüsusiyyətlərinə gəldikdə Z.Bjezinskinin aşağıdakı şərhini sitat gətirmək yerinə düşər: "Türkiyə öz siyasi xəttinin müəyyənləşməsində yerləşən imperiyadan sonra yaranmış dövlətdir. Lakin onu sanki bir neçə yerə parçalamaq istəyirlər. Modernləşmə tərəfdarları Türkiyədə müasir Avropa ölkəsi görmək arzusundadırlar. Belə siyasətçilər Qərbə baxırlar. Öz növbəsində, islamçılar dövləti Yaxın Şərqə yönəltmək istəyirlər və buna görə də müsəlman icma Cənuba baxır. Lakin millətçilər daxilən hiss edirlər ki, son illərdə, bu üstünlük Xəzər dənizi və Mərkəzi Asiyada qərar tutub" [2, s.139].

Cənubi Qafqazda Türkiyənin real məqsədləri və perspektivləri hansılardır? Son zamanlar, Türkiyə Xarici İşlər Nazirliyi Qafqaz, Orta Asiya, Slavyan ölkələri, Monqolustan şöbəsinin müdiri X.Akıncı bildirmişdir: "Soyuq müharibə dövrünün başa çatması bütün bəşəriyyət üçün yeni bir səhifə açdı. Müstəqil gənc dövlətlər tarixdə öz yerini aldı və Avrasiya yeni siyasi orqanizm kimi meydana çıxdı. Siyasi səhnədə radikal dəyişikliklər Türkiyəni təkcə Avrasiyanın mərkəzində qabaqcıl strateji mövqeyə tərəf sürükləmədi, həm də geniş bir coğrafiyada Türkiyənin aparıcı rolunu müəyyən etdi. Türkiyə artıq eyni zamanda bir neçə istiqamətə diqqət yetirə bilər və yetirməlidir – Avropaya inteqrasiya prosesi və yeni təhlükəsizlik arxitekturasından tutmuş Cənubi Qafqazda türk ölkələri zonası yaranana qədər; Balkanlarda faciəli inkişafdan tutmuş Cənubi Qafqazda qeyri-sabitliyə qədər" [7, s. 9-10]. Əlavə edək ki, müasir Türkiyə dünyəviliyə, demokratiya və azad sahibkarlığa sadiq bir ölkədir. O, Avrasiyanın gənc demokratik ölkələri və həmçinin Cənubi Qafqazın regionları üçün nümunədir. Ölkə bu gün öz müstəqilliyinin möhkəmləndirilməsində, iqtisadi və siyasi inkişafın təmin edilməsində onlara kömək edir. Belə ki, dünyanın narahat yerlərində Türkiyənin rolu sabitləşdirici qüvvə kimi daha əhəmiyyətlidir.

2001-2017-ci illərdə Türkiyə inteqrasiyanın məqsəd və layihələrinin katalizatorudur. Türk xalqlarını birləşdirmək siyasi ideyası indi dövlətin prioriteti olmuşdur. Şübhəsiz, Türkmənistan, Azərbaycan, Özbəkistan, Qazaxıstan qaz və neft yataqlarını Aralıq dənizi və Qara dənizdə türk limanlarına birləşdirən nəqliyyat dəhlizləri genişləndirilir. Hakimiyyət əslində yaxşı bilir ki, Cənubi Qafqazın geniş sahələri son illərdə Fransa, İngiltərə, Almaniya, Rusiya, İran və digər ölkələrin maraqlarında və imperiya

ambisiyalarında əngələ çevrilmişdir. Regional (siyasi, iqtisadi) və qlobal ("Asiya və Avropa arasında körpü", "mərkəzi hökumət") maraqların həyata keçirilməsi etno-milli və mədəni-tarixi əsaslara söykənir.

İqtisadi və siyasi maraqlara indi hərbi məsələ də əlavə edilib. Azərbaycan-Türkiyə sıx hərbi əməkdaşlığı faktdır və bunu heç kəs ört-basdır etməyə çalışmır. Bundan başqa, Türkiyə, müəyyən çərçivədə Azərbaycan zabitlərinin qoşunların müxtəlif növləri üçün böyük kadr hazırlığını təmin edir. Buna görə də, Azərbaycan Türkiyə qüvvələri ilə, demək olar ki, Alyansın hərbi maraqlarını cəlb edir. Amma eyni zamanda, "ikili standartlar" qanunu mövcuddur: geosiyasi məkanın genişləndirilməsi öz təmannasız marağı olmadan qarşılıqlı faydanın strategiyasını diktə edir.

Azərbaycanla neft layihələri ilə yanaşı, KİV əhəmiyyətli diqqəti Türkiyənin Abxaziyada və Gürcüstanda müəyyən əlaqələrinə yetirirlər. Burada mühüm rolu Qafqaz xalqının qarışıq ərazilərlə çox böyük diasporu oynayır. Türkiyə Cənubi (qismən də Şimali) Qafqazda öz təsirini gücləndirmək üçün onlardan fəal surətdə istifadə edir. Bu problemin aktuallaşması Cənubi Qafqaz və Şimali Qafqaz xalqları kimi böyük diasporun nöqteyi-nəzərindən daha aydın görünür. Cənubi Qafqazın etnik qruplarının əhəmiyyətli dinamizmi xalqların Türkiyənin yüksək siyasi, hakimiyyət və güc strukturlarına ilhaq edilməyində yüksək dərəcədə nəticə vermişdir. Bu isə bəzi hallarda onun daxili və xarici siyasətinə nəzərəçarpacaq təsir göstərmişdir.

İşin mahiyyəti ondan ibarət idi ki, Sovet imperiyasının süqutundan sonra 1991-ci ilin sonunda Azərbaycan, Türkmənistan, Özbəkistan, Qırğızıstan və Qazaxıstanın müstəqilliyinin elan edilməsi Xəzər dənizində beynəlxalq münasibətlərdə vəziyyəti əhəmiyyətli dərəcədə dəyişdi. ABŞ-ı "dünyanın ən qüvvətli vahid dövləti" adlandıran ölkənin aparıcı siyasi dairələrinin hegemon istəkləri üçün yaxşı perspektivlər açıldı. Amerika Birləşmiş Ştatları Cənubi Qafqazda da öz mövqelərini gücləndirirdilər. Amerika diplomatları ən böyük diqqəti ilk növbədə Xəzər dövlətlərinə - Türkmənistan, Azərbaycan və Qazaxıstana ayırırdılar. Eyni zamanda, uzun illər Amerikanın bu planlarına Türkiyə də aktiv surətdə müdaxilə etdi. Yeganə Asiya, müsəlman dövləti və xüsusən daha vacibi NATO üzvü kimi Türkiyə öz çevik və bacarıqlı siyasəti ilə Rusiya və Amerikanın Xəzər hövzəsində təsirini sarsıdırdı. Və bu hələ 1992-ci ildə başlamışdı. O zaman Baş nazir və sonra Prezident olmuş Dəmirəl çıxış edərək, Sovet İttifaqının dağılması nəticəsində "Adriatikdən Böyük Çin Səddinə kimi uzanan nəhəng türk dünyası"nı yaratmaq üçün əlverişli perspektivlərin açıldığını vurğulamışdı.

Amerika Birləşmiş Ştatları kimi, Ankara Azərbaycana xüsusi diqqət ayırmışdır və bu hələ də davam edir.

Cənubi Qafqazda Türkiyənin təsir dairəsi genişləndi; Türkiyə rəhbərliyinin və onun arxasında dayanan, tez-tez Vaşinqton və Londonda hakim dairələrə təkan verənlərin neft siyasəti, Türkiyə vasitəsilə Yaxın və Orta Şərqi nəzarət altında qoymaq, Cənubi Qafqazda öz hegemon təsirini gücləndirmək NATO və ABŞ-ın uzunmüddətli əsas siyasətinin mühüm hissəsi idi.

Türkiyədə hesab edirdilər ki, Rusiyanın Cənubi Qafqaz və ya Orta Asiyada müvəqqəti zəifləmiş təsirini bərpa etmək üçün atdığı hər addım Türkiyənin özü üçün geriyə addım demək idi. Xatırladaq ki, məsələn, İran Cənubi Qafqaz regionunda siyasi hegemonluğa can atmaqdan nə qədər çəkinmişdi, amma İqtisadi Əməkdaşlıq Təşkilatında Türkiyənin əlindən liderliyi almış və bir növ "Qaz OPEK" yaratmağa cəhd etmişdi. İran İƏT ölkələrindən neft və qaz ixracını qısa cənub marşrutu ilə təmin etməyə hazır idi və bununla da o, ABŞ-Türkiyənin iddialı layihəsi üzrə Bakı – Ceyhan neft kəmərinin üstündən faktiki olaraq xətt çəkirdi. Qərbə doğru Trans-Xəzər boru kəməri də sual altında qalmışdı. Türkiyə və İran arasında rəqabətdə bizi maraqlandıran regionda əsas rolu böyük miqyaslı ziddiyyətlər tuturdu.

Buradan belə nəticə çıxartmaq olar: Türkiyə Cənubi Qafqazda özünəməxsus "neft" siyasətini həyata keçirərək öz iradəsi ilə yanaşı sanki ABŞ-ın aparıcı geosiyasətçiləri tərəfindən hazırlanmış ümumi istiqamətləri riayət etmək məcburiyyətindədir. ABŞ-ın "boru kəməri" siyasəti özünəməxsus və aydın məntiqə malikdir. İranın Ermənistanla yaxınlaşmasında ABŞ qəsdən anti-İran embarqosunu zəiflətmişdir. Birincisi, Ermənistana İrandan boru kəməri Qərb üçün nəzərdə tutulmuşdur, və ikincisi, Türkiyə və NATO zonasında Ermənistan və İrana təsir edilə bilər. İrandan Hindistana boru kəməri layihəsi yarananda, Amerika Birləşmiş Ştatları onu bir şərtlə dəstəklədi ki, layihə Pakistan və hətta Əfqanıstan vasitəsilə keçsin, çünki o dövrdə Hindistanın mövqeyi həssas idi. Hər iki halda (Ermənistan və Hindistan) ABŞ "Amerika Yaxın Şərq" formalaşması məqsədini güdmüşdür.

ƏDƏBİYYAT

1. Барнашов О. Особенности внешнеполитического процесса в современной Турции // Россия и мусульманский мир. Москва, 2013, № 9, с. 107-117.

2. Бжезинский З. Великая шахматная доска. Издание второе, исправленное и дополненное. М.: Политика, 2002, 431 с.

3. Геополитика и национальная безопасность. Словарь основных понятий и определений. М: РАЕН, 1998, 231 с.

4. Панарин А.С. Философия политики. М.: Новая школа, 1996, 222 с.

5. Geopolitics. Encyclopedia Americana. Grolier inc. 1987. Vol. 12, 559 p.

6. Geopolitics. The New Encyclopedia Britannica. Univ. of Chicago Press.,1988. - Vol. 5, 232 p.

7. Opportunities and Challenges in the Eurasian Area. Panel by TUSIAD November 3, 1997, Istanbul. p.9-10

Açar sözlər: *Cənubi Qafqaz, geosiyasi prioritet, Türkiyə Respublikası*

Ключевые слова: *Южный Кавказ, геополитический приоритет, Республика Турция*

Key words: *South Caucasus, геополитический приоритет, Республика Турция*

Главные геополитические приоритеты Турецкой Республики на Южном Кавказе

РЕЗЮМЕ

В XXI столетии одной из важнейших проблем чёткого определения причин, взаимосвязей, устойчивых тенденций, политических, экономических и любых других процессов, так или иначе определяющих современную географическую и геополитическую картину мира, становится ведущим направлением не только российской, но и общемировой социальной, философской и политической мысли. Многие политические события на современном витке истории, происходящие в самых разнообразных сферах общества и государства, отличаются особой динамичностью и потому определяют возможности создания надежных и оправданных сценариев и прогнозов дальнейшего их развития, изучение и обсуждение острых назревших проблем.

Термин «геополитика» стал неизменным атрибутом политических и общественных дискуссий, материалов прессы и телевидения. И, несмотря на то, что политология и теория геополитики считаются сравнительно молодыми отраслями собственно политической и исторической наук, они имеют глубокие корни, напрямую связанные и детерминированные самим возникновением, развитием и распадом как империй, так и государств меньшего масштаба.

В связи с отмеченным тем более приобретают особый политический вес «взоры» Турции на Южный Кавказ. Очевидно, что правильно подобранный политический вектор может стать хорошим противовесом в нелёгкой борьбе с Россией и Западным миром. Каждый из российско-западных держав также активно стремится урвать «свой кусок пирога» на территории Южного Кавказа.

The main geopolitical priorities of the Republic of Turkey in the South Caucasus

SUMMARY

In the 21st century, one of the most important problems in the clear definition of the causes, relationships, stable trends, political, economic and any other processes that somehow determine the contemporary geographic and geopolitical picture of the world becomes the leading direction not only of Russia, but of the world social, philosophical and political thoughts. Many political events in the modern round of history taking place in the most diverse spheres of society and the state are particularly dynamic and therefore determine the possibilities for creating reliable and justified scenarios and forecasts for their further development, studying and discussing acute urgent problems.

The term "geopolitics" has become an invariable attribute of political and public discussions, press and television materials. And, despite the fact that political science and the theory of geopolitics are considered relatively young branches of the actual political and historical sciences, they have deep roots, directly related and determined by the very appearance, development and disintegration of both empires and smaller states.

In connection with the above, the special political weight of Turkey's "gaze" towards the South Caucasus is especially important. It is obvious that a correctly chosen political vector can become a good counterbalance in the hard struggle with Russia and the Western world. Each of the Russian-Western powers is also actively seeking to snatch "its piece of pie" in the South Caucasus.

Tarix

OSMANLI İMPERİYASINA QARŞI 1821-1830-CU İLLƏRDƏ BAŞ VERMİŞ YUNAN ÜSYANININ İLK İLLƏRİNDƏ RUSİYANIN MÖVQEYİ

GÜLNARƏ SƏDRƏDDİNOVA
Bakı Dövlət Universiteti

Rusiya çarı I Aleksandr

İpsilanti

Hələ üsyan başlamazdan əvvəl Peterburq ilə Babıali arasındakı əlaqələrdə bir gərginlik var idi. Çünki 1774-cü il Kiçik Qaynarca sülh müqaviləsinin həyata keçirilməsi məsələsi öz həllini tapmamışdı. (7, s.61) 1806-1812-ci illərdə baş vermiş Türk-Rus müharibəsində özünü müharibənin qalibi olaraq görən Rusiya, bu müharibənin sonunda imzalanan Buxarest sülh müqaviləsindən razı qalmadığını hər fürsətdə dilə gətirirdi. Əslində, Osmanlı imperiyasına qarşı yeni mübarizə mərhələsi başlatmaq niyyətində idi. Bu zaman Rusiya, yunanlardan çıxış yolu kimi istifadə etməyi planlaşdırırdı. (22, s.31)

Rusiya, dünyanın ən güclü dəniz dövlətinə çevrilə bilmək üçün Balkanlara və Türk Boğazlarına sahib olmaq istəyirdi. Bu üstünlüklərə sahib olan Osmanlı imperiyası Rusiyanın qarşısında maneə təşkil edirdi. Məqsədinə nail ola bilməsi üçün ilk növbədə imperiyanı daxildən zəiflətməyi, daha sonra isə ona xaricdən zərbə vurmağı planlaşdırırdı. Türkləri daxildən zəiflətmək istəyən Rusiya, yunan üsyançılarına havadarlıq edirdi. Rusiya təkcə Yunanıstanı deyil, eyni zamanda bütün Balkanları qarışdırır və üsyana təşviq etməyə çalışırdı.(12, s.14-32.)

1821-ci ildə İpsilanti Əflak və Boğdan bəyliklərində üsyan qaldırdığı zaman Rusiya çarı I Aleksandr, İtaliya yarımadası və İspaniyada başlayan üsyanların qarşısını almaq məqsədi ilə keçirilən Laybax konqresində iştirak edirdi. (11, s.80.) Konqresdə İpsilantinin üsyan qaldırdığını eşitdikdə çar, "afərin, cəsur dəliqanlı" deyə yüksək səslə İpsilantini tərifləmişdi. Lakin Avstriya baş naziri Metternix, Avropadakı vəziyyətin üsyan və ya çevriliş kimi hərəkətləri dəstəkləməyə münasib olmayacağını çara bildirdi. Avropa dövlətləri, Fransa inqilabı və I Napoleon böhranını aradan qaldırmaq üçün 1815-ci ildə "Müqəddəs İttifaq" qurmuşdular. Sülh və əminamanlığı tətbiq etmək məqsədini daşıyan bu ittifaqın üzvləri yunan üsyanına da qarşı çıxmalı idi. Konfransda yunan məsələsinin Osmanlı dövlətinin daxili məsələsi olduğu barədə qərar qəbul edildi.

(4, s.85)

Bu zaman Peterburqda yunanlara meyllilik getdikcə artırdı. Lakin, Aleksandrın özünün yaratdığı Müqəddəs İttifaqa sadiqliyi onu qəti addım atmaqdan çəkindirirdi. Bundan başqa, həm Avstriya baş naziri Metternix, həm də Prussiya Xarici İşlər naziri Bernstorff, çara təzyiq göstərirdilər ki, birliyin qorunması üçün Rusiya fədakarlıq etsin. (7, s.62-63)

Balkanlardakı milliyətçilik və qiyam hərəkətlərinin Rusiyaya da yayılması təhlükəsini görən I Aleksandr İpsilantini ordusundan qovdu. Rusiya çarı martın 7-də Vidindəki Osmanlı hərbi qüvvələrinin Əflak bəyliyinə girmələrinə müsbət münasibət göstərdiyini bildirdi. Hətta Osmanlı ordusunun üsyançılara qarşı hərbi müdaxilə etməsində israr etdi. (16, s.219)

Rusiyanın İstanbuldakı səfiri Baron Stroqanov çarın əmri ilə bəyənnamə nəşr etdirdi. Bəyənnamədə deyilirdi ki, Rusiya yunanları dəstəkləmir və Aleksandr İpsilanti Əflak və Boğdan ərazisinə Rusiyanın xəbəri olmadan daxil olmuşdur. (10, s.55) Çarın gözdən pərdə asmaq üçün atdığı bu addım əslində reallıqdan uzaq idi. Çar, üsyanı düzgün qəbul etmədiyini bildirsə də Xocabəyə qaçıb gələn qaçaq yunanları qəbul edərək onlara yüz min rubl nəğd pul vermişdi. (19, s.116) Rusiya hökuməti Osmanlı imperiyasından ayrılıb, yenidən qurulacaq Yunanıstan krallığında özünün böyük nüfuz sahibi olacağını düşünərək "Filiki Eterya"nı əlaltından dəstəkləyirdi." (14, s.3)

Yunanların Osmanlı imperiyasına qarşı qaldırılmasının dəstəkçisi Rusiya olsa da İstanbuldakı rus səfiri Osmanlı hökumətini inandırmağa çalışırdı ki, bu işlərdən xəbəri yoxdur və yunanları türklərə qarşı təhrik etmək niyyətində deyil. (18, s.134) Bu zaman İstanbul patriarxı keşiş və mitropolitlərə hökumət əleyhinə onları sözdə pisləyən məktub göndərdi. Məktubda, "Filiki Eterya" cəmiyyətinin üzvlərinin andlarının batil olduğunu və dövlətə qarşı döyüşə davam edənlərin lənətlənəcəklərini elan etdi. İstanbul patriarxlığının yunan "Dostlar cəmiyyəti" ilə əlaqədə olduğu məlum idi. Üstəlik üsyançılara ayağa qalxmaq əmrini də aparan "Filiki Eterya"nın ən yüksək dini lideri olan keşiş Qriqori Dikoeos Flessas idi. (17, s.112) Patriarx bu məktubu ilə özünün Osmanlı hökumətinə sadiq olduğunu göstərməyə çalışırdı. İstanbul patriarxlığının göndərdiyi məktub çox təsirli olmasa da Peloponnesdə yunanlarda bir durğunluq və geri çəkilmə əhval ruhiyyəsi yaratdı. (12, s.24)

Peterburq rəhbərliyi, Kiçik Qaynarca müqaviləsinə istinadən, 1821-ci il iyunun 28-də Babıaliyə bir ultimatum verdi. Ultimatumun müddəti səkkiz gün idi. Çar, ultimatumda bu tələbləri irəli sürdü: "Fanatik müsəlmançılığın nəticəsində yandırılan və təxribata məruz qalan kilsələr təmir edilməli, xristian dininin qorunması və əminamanlığın təmin edilməsi üçün tədbirlər görülməli, üsyan olan yerlərdə günahkarlarla günahsızlar bir-birindən düzgün şəkildə ayrılmalıdır." (9, s.-157-159.) Burada bütün provaslavların təhlükəsizliyi və ibadət azadlığının təmin edilməsi, Əflak və Boğdanda müqavilələrə əsaslanan nizam-intizamın yaradılması və qorunması şərtləri irəli sürülürdü. Qeyd etmək lazımdır ki, Rusiya, həm də Əflak və Boğdan üsyanından sonra qaçıb Odessaya gələn üsyançı fərariləri qəbul edib onlara maddi yardım etmişdi. (21, s.122)

Osmanlı Dövləti iyunun 28-də Rusiya tərəfindən göndərilən ultimatumdakı istəklərə rədd cavabı verdi. Rusiyanın səfiri isə 1821-ci il avqustun 8-də İstanbulu tərk etdi. (13, s.72.)

London hökuməti və Metternix, artıq baş verənlərdən narahat idilər. Artmaqda olan gərginlik, Rusiya ilə Osmanlı dövləti arasında müharibəyə səbəb ola bilərdi. Bu müharibənin nəticəsinin Yunan məsələsinə birbaşa təsir etməsi qaçınılmaz idi. Beləliklə, Rusiyanın yunan üsyanında getdikcə daha qüvvətli söz sahibi olması ehtimal belə Avropanın ürəyincə deyildi.

Avstriyanın Osmanlı imperiyası ilə bağlı siyasəti qatı və dəyişməyən qanunlar üzərində qurulmamışdı. Müxtəlif dövrlərdə müxtəlif siyasi vəziyyətlərə uyğunlaşırdı. Habsburqlar sülaləsinin Şərq siyasəti, Avstriya dövləti üçün əsasən ikinci dərəcəli önəm kəsb edirdi. (7, s.68-69.)

Beləliklə, Avstriya imperiyası, Rusiya və Osmanlı dövlətinə qarşı ayağa qalxan Balkanlardakı xristian millətlərə qarşı, Osmanlının yanında mövqe tutdu. (8, s. 71.)

Kastler, İngiltərənin iqtisadiyyatı üçün həyati əhəmiyyət daşıyan Hindistana ticarət yolunun təhlükəsizliyi barədə düşünürdü. Bununla əlaqədar, Osmanlı dövlətinin ərazi bütövlüyünün qorunması prinsipini müdafiə edirdi. Kastler, Çar I Aleksandra yazdığı məktubda, yunan üsyanının sistemli şəkildə yayılmaqda olan və idarəçiliyin zəiflədiyi yerlərdə baş verən bir üsyan olduğunu bildirirdi. Məktubda Kastler, çara yunan üsyanının qarşısında səbrli olmasını, hərəkətə keçməmişdən əvvəl, fırtınanın öz-özünə sakitləşməsini gözləməsini vurğulayırdı. (20, s.360-361.)

Yunan məsələsində özünə müttəfiq axtaran çar I Aleksandr, buna ən uyğun ölkə kimi Fransanı görürdü. Hətta Fransanın Peterburqdakı səfirinə bunları bildirmişdi: "Türklərin aradan qaldırılması və hər

millətin rahatlıqla öz işini görməsi lazımdır. Bunun üçün Fransa Rusiya ilə ittifaq halında olmalıdır... Cəbəllütariqdən Çanaqqalaya qədər müharibə elan edin. Hansı bölgələrin sizə aid olduğunu müəyyənləşdirin. Rusiyanın təkcə müvəffəqiyyətinə deyil, köməyinə də etimad edə bilərsiniz." (3, s.441.) Bu zaman İngiltərə və Avstriya dövlətləri müstəqil bir Yunanıstan dövlətinin qurulmasının onların mənfəətlərinə zidd olacağını açıqladılar. Bu isə Fransanı yunanları aktiv şəkildə dəstəkləməsinə gətirib çıxartdı.

1822-ci ildə Patriarxın edam edilməsindən sonra Rusiya yunan məsələsini bir müsəlman-xristian məsələsi kimi görməyə başladı və Avropaya da elə göstərmək istəyirdi. Lakin Rusiya bununla da kifayətlənməyib daha da irəli getdi. Həmin ilin iyulun 4-də Rusiya, digər dörd böyük dövlətlərə etdiyi müraciətdə Balkanlarda gözü olmadığını, öz siyasi xəttində Dördlü İttifaqa bağlı olduğunu vurğuladı. Çar müraciətində Avropa dövlətlərinə bu sualları verirdi: "Birincisi, Rusiya ilə Osmanlı dövləti arasında bir müharibə olarsa, necə bir mövqə seçəcəklər; İkincisi, belə bir müharibə nəticəsində Osmanlı dövləti süquta uğrayarsa, "türk hökmranlığı" əvəzində necə bir idarəçilik təklif edirlər?" Çar I Aleksandr bu suallarla Osmanlı İmperatorluğunun yerini kimin tutacağı məsələsini açıq aşkar ortaya atırdı. Çar, iyunun 28-də verilən ultimatumun açıq-aşkar müharibəni başlatmaq məqsədli olduğunu və tez bir zamanda başlayacağını gizlətmirdi. Hətta 1821-ci ilin iyul ayında Osmanlı dövlətinə qarşı müharibəyə hazırlıq barədə əmr vermişdi. (2, s.263-264)

Çar I Aleksandr, yunan üsyanı vasitəsi ilə Osmanlı dövləti ilə Avropa arasında əlaqələrin zəifləməsini istəyirdi. Bu məqsədlə 1821-ci ilin iyulun 19-da Fransaya müraciət etdi. Fransanın Peterburqdakı səfiri La Ferronnaya ilə danışıqlar zamanı yunan məsələsində Fransa ilə razılığa gəlmək istədiyini bildirdi. (15, s.59) Müttəfiqlik qarşılığında Peloponnesin ona verilməsini təklif etdi. Çar səfirə bunları bildirdi: "Cəbəllütariq boğazından Çanaqqala boğazına qədər müharibə başladın. Rusiyanın həm müvəffəqiyyətinə, həm də səmimi yardımlarına etimad edin... Bugün Fransanın Rusiya kimi bir müttəfiqə ehtiyacı var..." Fransa Aralıq dənizində rus təhlükəsinin artmasını istəmədiyindən bu təklifi rədd etdi. (15, s.61)

1821-ci ilin sentyabr ayında Rusiya İngiltərə hökumətinə müraciət etdi. İngiltərə Xarici İşlər naziri Kastler, Metternix ilə Hannoverdə baş tutan görüşdə bu təklifin qəti şəkildə rədd edilməsi barədə qərara gəldilər. (6, s.197)

Stroqanov İstanbulu tərk etdikdən sonra Çar I Aleksandr, Avstriya imperiyasına Yunan üsyanı ilə bağlı heç bir addımın atılmamasından narahat olduğunu bildirdi. O, Avstriyadan Osmanlı dövləti ilə Rusiya arasında vasitəçilik etməsini istədi. Avstriya səfiri Lutzov bunu Babıaliyə bildirdi. Rəüsülküttab Həmid bəy Osmanlı dövlətinin qanunlara əsasən idarə olunduğunu və yunanlara bu baxımdan ayrı-seçkilik etməyəcəklərini vurğuladı. Həmid bəy əlavə etdi ki, bu barədə Rusiyaya məlumat verilib, lakin ruslar təkid etməkdə davam edirlər. (5, s.205)

Rusiya, 1822-ci ilin əvvəllərində İngiltərə və Avstriya hökumətlərinə yunan məsələsinin həlli ilə əlaqədar gizli bir müqavilə bağlamağı təklif etdi. Hər iki dövlət Rusiyanın Balkanlardakı prestijini artırmaq məqsədi daşıyan bu təklifi rədd etdi. (11, s.61)

Digər tərəfdən Avropa dövlətləri Rusiya ilə Osmanlı dövləti arasında münasibətlərin pozulmasından narahat idilər. Onlar müharibənin başlamasının qarşısını almaq üçün Babıaliyə müraciət edərək, rusların irəli sürdükləri təklifləri qəbul etməsini istədilər. Osmanlı dövləti müharibə ehtimalının qarşısını almaq üçün Əflak və Boğdandan türk hərbi qüvvələrinin 3-də 2-sini geri çəkməyi qəbul etdi. Qarşılığında Rusiyaya qaçan yunanlar Osmanlı torpaqlarına geri qaytarılacaqdı. 1822-ci il yanvarın 22-də türk hərbi qüvvələrinin 3-də 2-si Əflak və Boğdan bəyliklərini tərk etdilər. (16, s.227)

Osmanlı dövlətinə bir nota verən Rusiya, yunanlara amnistiya verilməsini, onlara güzəşt edilərək aqibətlərinin böyük dövlətlərin ixtiyarına verilməsini, Əflak və Boğdan ərazisinin Osmanlı dövlətinin hərbi qüvvələri tərəfindən boşaldılmasını, Aralıq dənizi Boğazlarında keçidlərə qoyulan məhdudiyyətlərin aradan qaldırılmasını istəyirdi. İngiltərə və Avstriya da Babıalidən bu təklifləri qəbul etməsini istədi. Lakin 1822-ci il fevarın 22-də rəisülküttab Mehmet Sadiq Əfəndi bu təklifləri rədd etdi. Bu iki dövlət martın 10-da və 30-da eyni təklifləri yenidən irəli sürdülər. Babıali yalnız təhlükəsizliyin tam təmin edilməsindən sonra bu barədə fikirləşəcəyini bildirdi. Beləliklə, bu dövlətlərin vasitəçiliyini də rədd etmiş oldu. (13, s. 123)

1822-ci il martın 14-də Rusiya ilə Prussiya arasındakı razılığa əsasən, Prussiya, Osmanlı dövləti ilə Rusiya arasında vasitəçilik etməyə razılıq verdi. (16, s.236)

İngiltərə hər an müharibəyə hazır olan Rusiyanı sakitləşdirmək üçün Osmanlı dövlətini razı salmağa çalışdı. İngiltərənin İstanbuldakı səfiri Stranqford, Əflak və Boğdandakı vəziyyəti bəyənmədiyini Babıaliyə bildirdi. Osmanlı dövləti bu sərt müraciətdən sonra 1822-ci il mayın 15-inə kimi Əflak və Boğdanı tərk edəcəyini bildirdi. (1)

İngiltərə Xarici İşlər naziri Kastler intihar etdikdən sonra 1822-ci il sentyabrın 22-də Corc Kanning onun yerinə keçdi. Kanningin Xarici İşlər naziri vəzifəsinə keçməsindən sonra İngiltərinin yunanlarla bağlı siyasi xətti də dəyişdi. Bu isə digər Avropa dövlətlərinin xarici siyasətinə də təsir edəcəkdi. (6, s.199) İspaniyadakı qarışıqlıqları müzakirə etmək üçün 1822-ci ilin oktyabr ayında Veronda konfrans keçirildi. Bir çox tarixçilər bu konfransda yunan məsələsinin müzakirə olunmadığını yazır. (5, s.209) Lakin İngiltərə arxivlərindən əldə edilən məlumatlarda göstərilir ki, Vyanada irəli sürülən təkliflər burada da ortaya qoyulmuşdur.
(1) Hətta konfransa yunan üsyançıları öz nümayəndələrini də göndərmişdilər. Onlar konfransa müraciət edərkən, "barbarların hakimiyyəti altından çıxıb, ana vətən qurmaq" arzusunda olduqlarını bildirmişdilər. (16, s.246)

Veron konfransında Rusiya çarının irəli sürdüyü təkliflərə bunlar daxil idi:

1. Osmanlı dövləti Avropa dövlətləri ilə razılığa gələrək, yunanların əvvəlki vəziyyətlərini təmin etməli idi.

2. Osmanlı dövləti yunanların azad ibadət etmək hüququnu əllərindən almamalıdır.

3. Osmanlı dövləti yunanların can və mal təhlükəsizliklərini təmin etməlidir.

4. Osmanlı dövləti bu bölgədə sülhü təmin etməlidir.

5. Osmanlı dövləti Əflak və Boğdandan bütün hərbi qüvvələrini çıxartmalıdır. (1)

Avstriya, Prussiya və Fransa dövlətləri sülhün təmin ediləcəyi halda bu təklifləri qəbul etdiklərini bildirdilər. (5, s.210.) Bundan sonra İngiltərə dövlətinin konfransdakı nümayəndəsi Vellinqton, Osmanlı dövlətinin daxil məsələsinə müdaxilə etməyin düzgün olmadığını bildirdi. (8, s.28)

I Aleksandr yunanlarla bağlı yeni addımlar atmaq istəyirdi. Lakin bu addım Avropa birliyini pozmamalı və kənardan yunan məsələsinə müdaxilə kimi görünməməli idi. Əsas da Rusiyanın üsyançıların tərəfində olması barədə təəssurat bağışlamamalı idi. Üsyan başladıqda öz məkrli siyasətini gizlədən Rusiya, sonrakı illərdə yunanlardan və Avropa dövlətlərindən aldığı dəstəklə niyətini aşkara çıxardı.

ƏDƏBİYYAT

1. Abstarct of Proceedings in Greek Question. (A.P.G.Q.). Part I, 1822. s.1. Public Record Office Foreign Office. F.O. 421/2.

2. Armaoğlu Fahir. 19. Yuzyıl Siyasi Tarihi. İstanbul. Alkım yayınevi. 2006.

3. Charles Seignobos. Asrı Hazırda Avrupa Siyasi Tarihi. Tərc: A.Reşad. C: 2. Kanaat K.hanesi. İstanbul, 1925.

4. Fevzi Kurtoğlu. Yunan İstiklal Harbi ve Navarin Müharebesi. C:I. Genelkurmay Başkanlığı Yayınları. 1944. s.22.

5. Hasan Demirhan. Büyük Güçlerin gölgesinde Yunan isyanı. İdil yayıncılık. İstanbul, 2016.

6. Hasan Demirhan. İngilizlerin Balkan Politikası ve Yunanistan. İstanbul, 2016. s.151-206.

7. Hüner Tuncer. Metternixin Osmanlı Politikası (1815-1848). Kaynak yayınları.Ankara, 2013. 192 s.

8. Hüner Tuncer. 19. Yüzyılda Osmanlı-Avrupa İlişkileri (1814-1914). Ümit Yay. Ankara, 2000.

9. İsmayıl Hakkı Uzunçarşılı. Osmanlı Tarihi. Cilt II. TTK yayını. IV Baskı. Ankara, 1983.

10. Kocabaş Süleyman. Traihte ve günümüzde Türk-Yunan mücadelesi. İstanbul. Bayrak Yayımçılık. 1984. 254 s.

11. Matthew Smith Anderson. Doğu Sorunu. Çev: İdil Eser. Yapı Kredi Yay. İstanbul, 2001.

12. Məmməd Fətəliyev. Türkiyə,Yunanıstan və Böyük dövlətlər. Birinci dünya müharibəsi ərəfəsində və illərində. Bakı universiteti nəşriyyatı, Bakı, 2005. 359 s. s.14-32.

13. Meral Bayrak, "Osmanlı Arşivleri İşığında Rum İsyanı Sırasında Avrupa Devletlerinin Tutumu", Osmanlı Ansiklopedisi II. Yeni Türkiye Yayınları. Ankara, 1999.

14. Mercia Mac Dermott. A History of Bulgaria 1393-1885. Frederick A.Preager Publisher, New York, 1962. s.III.

15. Misha Glenny, Balkanlar 1804–1999, Çev. M. Harmancı, Sabah Kitapları, İstanbul 2001.

16. Nicolae Jorga. Osmanlı İmperatorluğu Tarihi (1774-1912) Çev: Nilüfer Epçeli. Yeditepe yayınevi. İstanbul, 2009. s. 227.

17. Nureddin Tursan. Yunan Sorunu. Ankara, 1987.

18. Selahattin Salışık. Türk-Yunan İlişkileri Tarihi ve Etniki-Eterya. İstanbul, 1968. 951 s.

19. Türk-Yunan İlişkileri ve Megalo İdea. Hazırlayan: Genelkurmay Askeri Tarih ve Stratejik Etüt Başkanlığı. Türk Kültür ve Turizm Bakanlığı yayınları: 594. Gençlik ve Halk Kitapları Dizisi: 4. Ankara, 1985.

20. Webster Charles K. The Foreign policy of Castlereagh 1815-1822. G. Bell and Sons Ltd. London 1925.s.360-361.

21. Yücel Özkaya. 1821 Yunan (Eflak-Boğdan) İsyanları ve Avrupa'nın İsyan Karşısındaki Tutumları. Tarih Boyunca Türk-Yunan İlişkileri. ATASE. Ankara 1986, s.122.

22. Zeki Arıkan. 1821 Yunan İsyanının Başlangıcı. Askeri Tarih Bülteni. Genelkurmay Basımevi. Ankara, 1987. s.25

Açar sözlər: *Osmanlı imperiyası, Yunan üsyanı, Rusiya, I Aleksandr, İpsilanti.*

Ключевые слова: *Османская империя, Греческое восстание, Россия, Александр I, Ипсилантис.*

Key words: *Ottoman Empire, Greek Revolution, Russia, Alexander I, Ypsilanti.*

ABSTRACT

Organization of the Greek revolution had been realised by Russia. Russia also provided financial assistance to the rebels. When Ypsilanti started revolution Alexander I drove him out of the Russian army, under Metternich`s pressure. But Russia continued to support the revolution by secretly thinking about its own interests. Because he wanted the Ottomans to give autonomy to the Greeks. Alexander I, on June 28, 1821, gave the Turks an ultimatum about it. France was an allied state with Russia on the Greek issue. England and Austria were worried by the policy pursued by I Alexander during the revolution.

РЕЗЮМЕ

Организация греческой революции была реализована Россией. Россия также оказала финансовую помощь повстанцам. Когда Ипсиланти начал революцию, Александр I выгнал его из российской армии под напряжением Меттерниха. Но Россия продолжала поддерживать революцию, тайно думая о своих собственных интересах. Потому что он хотел, чтобы османы дали автономию грекам. Александр I, 28 июня 1821 года, дал туркам ультиматум об этом. Франция была союзным государством с Россией по греческому вопросу. Англия и Австрия были обеспокоены политикой, которую проводил я Александр во время революции.

Культура

РОССИЯ И ЗАПАД - ПРОБЛЕМЫ ВЗАИМОВОСПРИЯТИЯ КУЛЬТУР

ФАИК АЛИЕВ
Доктор философии по истории, доцент

На первый взгляд, проблема взаимовосприятия культур и религий России и Запада кажется вполне понятной, однако нельзя сказать, что она исследована в полной мере. Восприятие инокультурного является сложной проблемой, которая исследуется в рамках философского, культурологического и историософского знания. В то же время, понимание и интерпретация Западной культуры является сложнейшим культурным актом, который представлен в нескольких измерениях и для постижения которого необходима серия рассуждений.

История свидетельствует о том, что культуры как целое являются системами вполне инертными, которым свойственно минимизировать познавательные усилия. Так, можно свидетельствовать о том, что массовое сознание довольствуется примитивными безбожными мифами и созданиями народной фантазии. Однозначно, что тип цивилизаций был задан разностями конфессий, роль которых неоспоримо значима. Можно говорить о том, что конфессиональный аспект является формообразующим фактором, который непосредственно определяет природу культуры. Конфессия и крупная идеология представляют собой фундаментальную форму цивилизационного синтеза, в ходе которого локальные общества интегрируют глубинные культурные черты, которые являются общими для всего мироздания в общем.

Запад принял христианство от Римской Церкви. По словам И.В. Киреевского, Римская Церковь отделилась от Восточной оттого, что посредством умозаключения изменила догматы, существовавшие в общецерковном предании. Таким образом, логическое убеждение легло в основание католицизма. Следствием того же логического начала в Римской Церкви явилась и схоластическая философия, стремившаяся доказать веру посредством тех же умозаключений. Господством того же рационализма Киреевский объясняет и то, что основанием веры сделался внешний авторитет, и появление идеи непогрешимой иерархии. Поэтому в средние века Римская Церковь была непримиримым врагом разума. Господством всесильного авторитета иерархии, подавлявшего всякую свободу человеческого мышления, Киреевский объясняет и оправдывает

Реформацию как логическое следствие того же рационализма. Вся разница заключалась в том, что «право суда над Преданием было перенесено из разума временной иерархии в разум современного событиям христианского мира. Вместо одного внешнего авторитета, равно обязательного для всех, основанием веры сделалось личное убеждение каждого».

Католицизм и православие, которые сложились во второй половине первого тысячелетия, являлись тем самым итогом цивилизационного синтеза. На сегодняшний день граница между православием и двумя направлениями: католицизмом и протестантизмом разделяет западноевропейскую и восточноевропейскую цивилизации.

Цивилизационный подход в том виде, в котором он занимает прочные позиции на Западе и в постсоветский период, активно пропагандируется в качестве альтернативы формационному в отечественной науке (локально-дискретный подход), в целом следует традиции, заложенной Данилевским и Леонтьевым, а также развитой впоследствии Шпенглером и Тойнби. В этой традиции деятелями всемирной истории признаются последовательно сменяющие друг друга цивилизации, созданные отдельными народами или отдельными группами народов и развивающиеся независимо друг от друга, хотя и по общим для всех их законам развития. Предмет всемирной истории в этом случае сводится к совокупности историй отдельных цивилизаций. При таком подходе исчезает из виду человечество как единое целое и его историческая судьба. Таким образом, в ходе критического анализа нельзя не прийти к выводу, что обе рассмотренные парадигмы не могут быть признаны удовлетворительными.

На сегодняшний день сравнение России и Запада является классическим аспектом не только политологии, но и других знаний, о которых уже было упомянуто. Россия, несмотря на наблюдающиеся положительные сдвиги во многих областях жизнедеятельности, исходя из исторического ряда причин в XV в. и начала XVI в. развивалась значительно медленнее, чем происходило развитие культуры Запада. В процессе борьбы с некоторыми странами Запада Россия на протяжении длительного периода все более отдалялась от Запада в культурном аспекте. Церковь, а под ее влиянием и благочестивые великие князья, выражали свое сопротивление слишком тесному общению с «еретиками» Запада. В этой связи со времени образования централизованного государства Россия на продолжительный период стала для Запада страной закрытой.

Процесс сопоставления России и Запада как двух крупных цивилизаций наталкивается на существенные методологические и психологические трудности, порожденные присущим сознанию интеллигенции евроцентризмом. Как идеология евроцентризм сложился в эпоху Просвещения, время становления западной цивилизации. В сознание же культурного слоя России евроцентризм внедрялся постепенно и методично. Культурное подражание Западу всегда имело место быть.

Достаточно весомым компонентом в аспекте формирования русского национального самосознания представляются 40-50-е гг. XIX в., позже названные периодом славянофильства и западничества. Для исследователей привлекательным является раскол внутри мыслящей России, который в первую очередь ознаменовал возникновение течений славянофилов и западников, братьев-врагов, а впоследствии и к локальному размежеванию в среде самих западников. Необходимо обратить особое внимание на то, что расколы произошли среди людей, которые получили одинаковое западное образование и воспитание, среди тех, кто сформировал своеобразную «вторую природу», так или иначе искусственную, среди тех, кто вступил в яростное противостояние с первоприродой. Иначе говоря, расколы проходили среди людей с двойной идентичностью. То есть, они связывались с народной традицией, а также с Западом путем приобщения к универсалиям европейского Просвещения.

Западническая система ценностей сама по себе является неким развитием идеалов итальянских гуманистов в эпоху Ренессанса, деятелей немецкой Реформации, английских либералов XVIII в., французских просветителей, философов Г. Гегеля, И. Канта, И. Фихте, Л. Фейербаха и других. Основоположником русского западничества принято считать П.Я. Чаадаева, который чрезвычайно мучительно раздумывал о судьбе Родины и в цикле «Философических писем» описал всю сущность своих взглядов. При этом Чадаев отрицательно относился к историческому прошлому русского народа и к текущему состоянию России, идеалом же рассматривал западноевропейскую культуру, в том числе католицизм.

Базой западнического мировоззрения являлся ряд принципов. Так, наибольшую ценность представляла собой человеческая личность, а не славянофильская коллективность. Более того, западники видели в удовлетворении разумных потребностей отдельной личности конечную цель истории. Такого рода взгляд на сущность человека являлся своеобразным стержнем, вобравший в себя прочие понятия, среди которых следующие: прогресс, совершенствование, цивилизованность. Последняя ассоциировалась у западников с обширным комплексом духовных качеств гуманного человека.

В Западную Европу западники верили, как в миф. Они нарочито демонстрировали свой интернационализм, отрицая провинциальность. Они являлись, по сути, яркими

сторонниками свободного обмена идеями и культурными достижениями различных народов, в том числе и неевропейских.

Разногласия между радикалами и либералами обострились в 50-х гг., а в 60-х гг. произошел разрыв. В правление Николая западничество являлось исключительно идейным течением. С началом «эпохи великих реформ» для многих западников была открыта возможность активной практической деятельности. Многие теоретические положения западничества послужили серьезной идеологической основой ряда радикальных и либеральных течений русской общественной мысли. В целом, западничество представлялось как новая форма русского либерализма, которая отличалась от зрелых проявлений либерализма конца XIX - начала XX вв.

В это же время славянофилы, разрабатывая христианское и прежде всего православное мировоззрение, идеализировали социально-политическое прошлое России, русский национальный характер, абсолютизировали порою самобытность и особенность русской культуры, утверждая, что отечественная общественно-политическая жизнь всегда развивалась и должна будет развиваться по своему собственному пути, в корне отличному от пути западных стран, приходили к выводу о том, что только Россия призвана оздоровить Запад духом своих идеалов и помочь ему в разрешении своих противоречий и проблем.

Чаадаев писал: «В соответствии с нашим географическим положением между Западом и Востоком, положив один локоть на Китай, а другой на Германию, мы должны объединить в себе два великих фундаментальных знания: воображение и разум. Мы должны соотносить в нашем гражданском образовании историю всего мира. Но мы этого не делали. Покинутые в мире, мы ничего не дали ему, ничего не взяли от него. Мы не добавили ни одной идеи в массу человеческих идей, ничего не дали, чтобы усовершенствовать человеческое понимание, и исказили все, что принесло нам это усовершенствование». Корень этого зла, по мнению Чаадаева, заключается в том, что Россия, получила «первые семена нравственности и интеллектуального просветления от испорченной Византии, подвергнутой остракизму всеми народами». Чаадаев считает, что единственный путь к цивилизованности для России лежит в присоединении к Римско-католической церкви и вере. Он смотрит с подобострастием на Римскую Церковь, которой удалось объединить Европу, нечто такое, что с момента раскола, вызванного реформацией, ни один другой институт не был в состоянии достичь.

Данилевским был поставлен провокационный вопрос: «Почему Европа не признает Россию своей частью?». В процессе анализа данной проблемы, им было отмечено, и довольно точно, что географическое понятие Европы не следует смешивать с культурно-историческим понятием. Так, в культурно-историческом аспекте «Европа есть поприще германо-романской цивилизации, ни более, ни менее; или, по употребительному метафорическому способу выражения, Европа есть германо-романская цивилизация. Оба эти слова – синонимы». Запад, по мнению автора, рассматривает себя как общечеловеческая цивилизация. В то же время в России сложилось ложное представление о том, что Европа

представляет собой нечто прогрессивное и передовое, в то время как сама Россия демонстрирует регресс и застой. Именно по этой причине некоторая часть населения России во что бы то ни стало хочет быть европейцами, и тот, кто придерживается противоположной точки зрения, считается еретиком. Обратим внимание на то, что Данилевский выделяет следующие культурно-исторические типы: египетский, китайский, ассирийско-вавилоно-финикийский, халдейский, или древнесемитический; индийский; иранский; еврейский; греческий; римский; ново-семитический, или аравийский, и германо-романский, или европейский». И, как можно увидеть, культур достаточно для того, чтобы не рассматривать Запад как мировую и единственно приемлемую цивилизацию.

Обращаясь к историософским началам, Ю.Ф. Самарин полагал, что христианство является в своем роде «историческим агентом в прошедших судьбах человечества». В христианском учении Самарин акцентировал внимание на ряде уточнений, которые так или иначе, но сыграли в истории значимую роль. Имеются ввиду следующие: развитие сознания (фактическое отречение от кровной связи), распространение братских отношений на все человечество и низведение начал верховной власти от Бога. Отсюда, заметим, что Самарин не соглашался с положениями западников, в том числе и с мнением К.Д. Кавелина, о том, что «сущность христианства» быстро исчерпывается представлением о неоспоримом и точном достоинстве личности человека, полагая, что такое понимание христианства не является полным. Так, автор считал, что, христианство предполагает и определенные обязанности, обусловленные свободным самоотречением от собственной личности, в том числе и от собственной исключительности «в пользу всех», а именно, всего общества, высшей формой которого является Церковь.

Философия культуры современной России — это культура как некая синергетическая система, стремящаяся к выживанию и развитию на основе самоорганизации при сильном давлении извне и недостаточно сильной поддержке изнутри национального организма. Практически весь XX в. Россия была участником протекающей цивилизационной борьбы с Западом, активно сопротивляясь его экспансии. Более того, можно говорить о том, что Россия сформировалась



уже как противоположная Западу христианская цивилизация. Относительно вопросов бытия, Россия на протяжении всего периода предлагала человечеству принципиально другие решения, противоположные Западу, отчего и стала не просто серьезным конкурентом, а, в то же время, и экзистенциальным, бытийным оппонентом. На сегодняшний день политические декларации России и Запада нельзя принимать в качестве признания настоящей цивилизационной принадлежности державы.

Н.Я. Данилевский считал, что любая историческая национальность имеет исключительную собственную задачу, необходимую для решения, свою идею и основную мысль. В настоящее же время остро осознается потребность в наличии национальной идеи, требуется наличие целого комплекса смыслообразующих жизненных целей, ценностей, идеалов, которые связаны непосредственным образом с судьбой России. При этом, данный комплекс должен хотя бы частично разделяться основным большинством членов общества.
Он и представляет собой некое этническое самосознание, являющееся своеобразным стержнем, без которого не может произойти и развиться сознание России как суперэтноса, под которым подразумевается вектор идентификации индивидов.

ЛИТЕРАТУРА

1. Богданов, А.В. Западничество в России: история и современность [Текст] / А.В. Богданов // Философия и общество. – 2008. - №3. – С.160-175.

2. Головятинская, М.Д. Философия истории русского западничества: стратегия подражания (к постановке проблемы) [Текст] / М.Д. Головятинская // Вестник ВолГУ. – 2005. – сер.7. – №4. – С. 41-49.

3. Данилевский, Н. Я. Россия и Европа [Текст] // Н.Я Данилевский. – М.: Рипол Классик, 2015. – С. 58. – 764 с.

4. Кара Мурза С.Г. Россия не Запад, или Что нас ждет [Текст] / С.Г. Кара Мурза. –М.: Эксмо, 2011. – 256 с.

5. Кириевский, И.В. Собрание сочинений [Текст]: в 2 т. – т.2.: М.: Типография Императорского Московского Университета, 1911. С. 238.

6. Кочешков, Г.Н., Сараева, Е.Л. Истоки русского западничества 40-х гг. XIX века [Текст] / Г.Н. Кочешков // Ярославский педагогический вестник. – 2010. - №4., т.1. – С.28-39.

7. Малинов, А.В., Прохоренко, А.В. Философия истории в России [Текст] / А.В. Малинов. - СПб.: 2001. – С. 67–69. – 69 с.

8. Тихонова, Е.Ю. В.Г. Белинский в споре со славянофилами [Текст] / Е.Ю. Тихонова. – М.: Едиториал УРСС, 1999. – С.76. – 132 с.

9. Чаадаев, П.Я. Философские письма [Текст] / П.Я. Чаадаев. –М.: РИМИС, 2011. – 272 с.

10. Чаадаев, П.Я. Философские письма [Текст] / П.Я. Чаадаев. –М.: РИМИС, 2011. – С. 106. – 272 с.

11. Чичерин Б.Н. Воспоминания [Текст] / Б.Н. Чичерин. – М.: Издательство имени Сабашниковых, 2010. – 1024 с.

12. Яковенко И.Г. Россия и Запад: диалектика взаимодействия. Сборник научных трудов М.:, 1996. - С.8. 228 с.

13. Алхазашвили, Д. Общественная мысль и идейная борьба в 30 - 50 гг. XIX века [Электронный ресурс] // Д. Алхазашвили. https://www.rusempire.ru/rossijskaya-imperiya/istoriya-rossijskoj-imperii/88-obshchestvennaya-mysl-i-idejnaya-borba-v-30-50-gg-xix-veka.html.

14. Воробьев, Ю.Л. К истокам российского патриотизма [Электронный ресурс] // Ю.Л. Воробьев. //danilevsky.ru/doc-214.html.

15. Фролов, А.А. Историософия славянофильства: Л.С.Хомяков, И.В.Киреевский, К.С.Аксаков [Электронный ресурс] // А.А. Фролов. http://iphlib.ru/greenstone3/library/collection/articles/document/HASH019d23d9541f5d3726daee81.

Ключевые слова: *Россия, Запад, взаимодействие культур, взаимовосприятие религий, западничество, славянофильство, цивилизация.*

АННОТАЦИЯ

В данной статье анализируется взаимовосприятие культур России и Запада не только в настоящее время, но и в период зарождения и более раннего периода данного процесса. Рассматриваются глубинные аспекты противостояния двух культур, их цивилизационные первопричины и историософские положения. Делается акцент на русское западничество, рассматриваются его мотивы, которые являются противопоставлению славянофильству. Важно также обратить внимание на конфессиональные различия, а именно, на их истоки. В статье акцентируется внимание на том, природа культуры определяется именно конфессиональными и идеологическими особенностями. Также упоминается феномен «двойственности» России по отношению к Западу и индивидуальная цивилизационная задача.

Tarix

XIX-XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ MİNGƏÇEVİR VƏ ƏTRAF BÖLGƏLƏRİ ƏHALİSİNİN DAİMİ YAŞAYIŞ MƏSKƏNLƏRİ

AYGÜN QƏDİROVA
AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu

Kür çayı Mingəçevir şəhəri ərazisində

Mingəçevir və ətraf bölgələri əhalisi tarixən çoxlu məskən tipləri yaratmış, onların əksəriyyəti XIX-XX əsrin əvvəllərinə qədər gəlib çatmışdır. "Məskən insanların uzun müddət yurd salıb məişət və təsərrüfat həyatı qurduğu, yaşayış evləri və yardımçı binalar, su təchizatı, əlaqə yolları və s. ilə təchiz olunmuş, zaman keçdikcə abadlaşdırılıb müvafiq görkəmə salınmış insan düşərgəsi olmaq etibarı ilə çox böyük təkamül yolu keçmişdir. Yaşayış evləri, təsərrüfat tikililəri və fərdi həyətlər daimi məskənlərin başlıca məişət göstəricisi sayılır. Bütün bunlardan əlavə yollar, küçə və döngələr, meydanlar, sənət və ticarət dükanları, ictimai və dini binalar iri məskənlərin mühüm nişanəsi idi" [18, səh. 98]. Tipoloji cəhətdən bir-birindən fərqlənən müxtəlif məskən formalarının yaranmasında təbii-coğrafi şəraitin, mövcud ictimai-iqtisadi və siyasi quruluşun, məhsuldar qüvvələrin inkişafının, həmçinin sosial-iqtisadi inkişafın xüsusiyyətlərinin, ailə həyatının normalarının və təsərrüfat fəaliyyətinin yönümünün həlledici rolu olmuş, bu amillərin fəal təsiri sayəsində sosial-iqtisadi tərəqqi ilə həmahəng xalq məişətində əmələ gələn yeni keyfiyyət dəyişikliyi, yaşayış məskənlərinin müxtəlif tip və formalarının meydana gəlməsinə zəmin yaratmışdır [20, səh. 19]. Məskən növlərinin tipoloji təsnifatını verərkən maddi nemətlər istehsalı prosesində insanların kollektiv əməyinin və yaradıcılıq səyinin, məişətin xarakterindən asılı olaraq onların dəyişikliyə uğramasının [7, səh. 114], eləcə də əhalinin sayının, etnik mənsubiyyətinin, məskənlərin əsas şosse yollarından və iri şəhərlərdən hansı məsafədə yerləşməsinin də rolunu nəzərə almaq məqbul hesab edilməlidir [2, səh. 139].

Bölgədə tarixən əmələ gələn daimi yaşayış məskənlərinin əsas vahidi kəndlərdən ibarət olmuşdur. Sonralar meydana gələn qəsəbə və şəhər tipli yaşayış məskənləri bölgənin məskən fondunu daha da zənginləşdirmişdir. Kənd (oturaq əhaliyə məxsus daimi yaşayış evləri, təsərrüfat tikililəri, həyətyanı sahələri, inzibati, sosial-mədəni və dini mərkəzləri, ümumi otlaqları, əkin sahələri, içməli suları, ayrıca qəbiristanlığı olan və əhalinin etnik tərkibinin ümumiliyi ilə xarakterizə olunan tarixən formalaşmış məskəndir. Hər bir kəndin özünəməxsus, xüsusi mərzlərlə ayrılmış həndi var idi. Hənd (əkin sahəsindən, örüş, biçənək, meşəlik, cələ, axmaz və s.-dən ibarət olub, bütün icma üzvləri tərəfindən elliklə istifadə edilirdi. Həndin təkcə əkin sahəsi vaxtaşırı icma üzvləri arasında bölüşdürülürdü [17, səh. 18]. Tədqiq etdiyimiz dövrdə bölgədə poligen, yəni qan qohumluğu cəhətdən eyni olmayan kəndlər üstünlük təşkil etmişdir.



Belə ki, Yevlax rayonunun Ərəş kəndində Zaman yüzbaşının adı ilə adlandırılmış Zamanlar tayfası, Molla Musalar tayfası, Kərimoğullular tayfası, Həmidlilər tayfası, Adıgözəllər tayfası, Əbdürrəhmanlılar tayfası, Hasanlar tayfası, Nazarlılar tayfası, Mürşüdlülər tayfası kəndin əsas tayfalarından hesab olunmuşdur. Yenə də Yevlaxın Tanrıqulular kəndi 1050-yə qədər təsərrüfatdan və 2645 nəfər əhalidən ibarət olub, tayfalarla təmsil olunmuşdur. Burada 6-7 kənd birləşmişdir ki, bunlardan Kiçikli, Bağırlı, Qamışlı, Bayramlı, Samux-Tomullular və b. adlarını sadalamaq olar. Buna uyğun olaraq tayfalar da Kiçiklilər, Bağırlılar, Qamışlılar, Bayramlılar, Samuxlular və s. adlanmışlar. Yevlaxın Gülövşə kəndində Hacı Qasımlılar, Ələkbərli, Fərzalılar, Allahverdilər, Sicimalılar (Şəkidən gəliblər) tayfaları yaşayırlar. Xanabad kəndində Keçəllər, Faxralı, Ağdaşlı (Kircəli), Atgötürənlər Kərbəlayı İsmayıllılar, Öjəklilər, Samuxlular kimi tayfalar kəndin əsas tayfaları sırasında olmuşdur. Salahlı kəndində isə Qaranəsibli, Göyənli, Eminli, Qaratəpəlilər, Kəblə Abbaslı, Samuxlular kimi nəsillər yaşamışdılar. Goranboy rayonunun Borsunlu kəndi isə Tatarməhlə, Karrar, Alıhüseynli, Salahlı, Məşədi Kilarli, Elyaslı və b. məhəllələrdən təşkil olunmuşdur [İsmayılqızı V. Goranboy. Ensiklopedik toplu. Bakı, "İsmayıl" Nəşriyyat-Poliqrafiya müəssisəsi, 2000, səh.31]. Bölgənin kəndləri arasında monogen xarakterli kəndlərə rast gəlmədik.

İctimai inkişafın sonrakı gedişində bölgənin qohumluq prinsipinə əsaslanan kəndlərində böyük dəyişikliklər olmuş, onlar böyüyərək qarışıq tərkibli kəndlərə çevrilmişlər. Belə kəndlərin əmələ gəlməsində patronimiyaya (qohum ailələr qrupuna) mənsub ailələrin-patronim qrupların (tayfa, tirə, ocaq, nəsil, dəngə, təbəh, tabun, suban, nebi, əqrəba, çilək, övladı, uşağı, əbəcdad, toxum və s.) böyüyərək parçalanması, orta əsrlərdə və hətta daha sonrakı dövrlərdə böyük saylı əhali qruplarının düşünülmüş şəkildə Azərbaycan ərazisinə köçürülməsi, müxtəlif obyektiv tarixi səbəblər üzündən ölkə daxilində əhalinin bir kənddən digər kəndə köçməsi əsas rol oynamışdır. Məhz bu səbəblərin nəticəsi olaraq qohumluq prinsipi əsasında məskunlaşma prosesi getdikcə zəifləmiş, yaşayış məskənlərinin salınmasında qonşuluq prinsipi üstünlük təşkil etmişdir [17, səh. 19; 20, səh. 19]. Tarixi-etnoqrafik ədəbiyyatda Şirvan bölgəsinə aid edilən məskunlaşmanın belə səciyyəsini Mingəçevir və ətraf bölgələrin də kəndələrinə aid etmək olar. VII əsrdən başlamış ərəb işğallarının nəticəsi olaraq Azərbaycanda məskunlaşdırılmış ərəb tayfalarının saldıqları ərəb etnonimli kənd adlarına Mingəçevir və ətraf bölgələrdə də rast gəlmək mümkündür. Məsələn, Yevlax rayonunun Ərəbbəsrə kəndi bu qəbildəndir. Bölgə ilə qonşuluqda olan keçmiş Ağdaş qəzasında da Ərəbkönül, Giləşəərəb, Ərəbocağı və Ərəbşəki kimi kəndlərin mövcudluğu [21, səh. 54] fikrimizi bir daha təsdiq edir. Tarixi ədəbiyyatda bəzən "Şərqli Napaleon" adlandırılan Nadir şah Əfşar [1, c. 84] 1736-cı ildə Muğanda qurultay çağıraraq özünü şah elan edəndə Gəncə-Qarabağ bəylərbəyi Uğurlu xan Ziyadoğlu öz etirazını bildirmişdi. O, gizli olaraq böyük fədakarlıqla çalışırdı ki, Səfəvilərdən başqa heç kim hakim olmamalıdır [14, səh. 30]. Bu işdən qəzəblənən Nadir şah, hökmü-rəvan olduqdan sonra Ziyadoğluların hakimiyyətini zəiflətmək məqsədilə Gəncə-Qarabağ bəylərbəyiliyinin tərkibində olan Qazax, Şəmşəddil və Borçalı mahallarını xüsusi fərmanla ayırıb Kartli çarı Teymurazın sərəncamına vermişdi [14, səh. 30; 1, səh. 103; 11, c. 107]. Bunun nəticəsi olaraq həm yadellilərin (gürcülərin), həm də yerli ağaların ikili zülm və istismarına dözməyən qazax soyları XIX əsrdə Azərbaycanın Gəncə, Cavanşir, Quba, Göyçay, Ağdaş, Lənkəran və b. qəzalarındakı kəndlərdə məskun olmuşdular [6, c.30-31]. Mingəçevir və ətraf bölgələrinin bir çox kəndlərinin (Alpoud, Salahlı, Quşçu, Tanrıqulular, Qazaxlar, Quşçular, Yəhərçi Qazaxlar, Veyisli, Qarasüleymanlı, Qızılhacılı, Rəhimli, Səfikürd, Faxralı, Şıxlar və b.) məskunlaşmasında tarixin müxtəlif dönəmlərində Borçalı, Qazax və Şəmşəddildən köçüb gələn ailələrin müəyyən rolu olmuşdur.

Yazılı məlumatlar XIX əsrin sonlarında Ərəş bölgəsində müxtəlif etnik mənşədən olan əhalinin məskunlaşdığı 3 kəndin olması haqqında da məlumat verir [5, səh. 148]

XIX əsrin ikinci yarısından başlayaraq bölgənin maldar elatlarının oturaqlaşması prosesi ilə əlaqədar olaraq salınmış kəndlərdə məskunlaşmanın qohumluq prinsipi əsasında səciyyəsinə daha tez-tez rast gəlmək olardu.

Mingəçevir və ətraf bölgələrdə məskunlaşmanın başlıca tipləri əkinçilik və əkinçilik-maldarlıq təsərrüfat-mədəni tiplərinə uyğun olaraq çaykənarı-yolkənarı, düzənlik-aran məskunlaşma tipləri olmuşdur. Bölgənin Kür, Kürəkçay, Gorançay, Korçay, Əlicançay, İncəçay, Qaraçay və b. çayları boyunca salınan kəndlər çaykənarı məskunlaşma tipinin bariz nümunələridir. Yazılı ədəbiyyatda Ərəş qəzasının cənubunun suvarıldığı Əlicançay boyunca 20-dək kəndin məskunlaşdığı və yerli əhali tərəfindən Ərəş mahalı adlandığı qeyd olunur ki, onun da əsas mərkəzi sahibkar kəndi olan Xaldan kəndi idi. Xaldan kəndi ətrafında da çoxlu miqdarda digər kəndlər qruplaşmışdı ki, onlar bir-biri ilə bağ sahələri ilə üzvi şəkildə birləşmişdilər və ilk baxışda Əlicançayın hər iki sahili boyunca onlarla kvadrat-verst uzanan vahid bağ massivini xatırladırdı [5, səh. 142]. Köhnə Mingəçevir, Xanabad, Varvara, Yuxarı Qarxun kəndləri Kür çayı boyunca; Muzdurlar, Xoylu, Qaradağlı kəndləri Kürəkçay boyunca məskunlaşmışlar.

Yolkənarı məskunlaşma tipinə gəldikdə isə bölgədən keçən Bakı-Tiflis, Yevlax -Balakən magistral yolları, eləcə də daxili əhəmiyyətli Yevlax-Mingəçevir, Xaldan-Mingəçevir, Mingəçevir kəndi-Mingəçevir dəmiryol stansiyası yollarının hər iki tərəfi boyunca salınan Dəliməmmədli, Bağçakürd, Borsunlu, Qızılhacılı, Goranboy-Əhmədli, Goranlı, Rəhimli, Sarov, Xanqərvənd, Şahməmmədli, Hürüuşağı, Salahlı, Balçılı, Tanrıqulular, Havarlı, Hacıselli, Əkşəm, Gülövşə, Salamor, Xaldan, Aşağı və yuxarı Bucaq, Xanabad, Ərəş-Şilyan, Ərəş Ləmbəti kəndləri yolkənarı

Dəliməmmədli şəhəri

məskunlaşma tipinə aid edilən yaşayış məskənləridir.

Mingəçevir və ətraf bölgələrinin əksər kəndləri düzənlik-aran məskunlaşma tipinə aid edilən kəndlərdir. İstər Kürün sağ sahilində - Gəncə-Qazax düzənliyinin cənub-şərqində, Qarabağ və Şirvan düzlərinin çimal-qərb kənarında – Qədim İpək Yolunun üzərində yerləşən Yevlax rayonunun [3, səh. 99], istərsə də Kiçik Qafqazın şimal-şərq ətəklərində yerləşən, cənub və cənub-qərb hissəsini Murovdağ silsiləsinin şimal yamacları əhətələyən, böyük hissəsi Gəncə-Qazax düzənliyinə düşən Goranboy rayonunun [4, səh. 80; 8, səh. 19] kəndləri düzənlik-aran məskunlaşma tipinin bütün xüsusiyyətlərini özündə cəmləşdirir. Düzənlik-aran məskunlaşma tipi həm də ərazinin relyef quruluşuna görə qruplaşmasının ən böyük vahidini təşkil edir. Azərbaycanın bir çox bölgələrindən fərqli olaraq tədqiq etdiyimiz bölgədə relyef üzrə qruplaşmada dağ-yamac kəndləri azlıq təşkil edir. Buradakı kəndlərin əksəriyyəti düzənlik kəndləri, az bir qismi isə dağətəyi və ya yarımyamac tipli kəndlərdir. Yuxarıda adlarını çəkdiyimiz kəndlər yolkənarı-çaykənarı olmaqla yanaşı, həm də düzənlik-aran kəndlərinin səciyyəvi xüsusiyyətlərinin daşıyıcılarıdır. Düzənlik-aran kəndlərində başlıca olaraq bölgənin azərbaycanlı əhalisi məskunlaşmışdı.

Mingəçevir və ətraf bölgələri kəndlərinin bir qismini təşkil edən dağlıq, dağətəyi və ya yarımyamac tipli kəndlər əsasən Goranboy rayonunun payına düşür. Buradakı Aşağı Ağcakənd, Yuxarı Ağcakənd, Mehmanlı, Meşəli, Gülüstan, Başqışlaq, Buzluq kəndləri dağlıq-yamac tipli kəndlərə, Ballıqaya, Börü, Qaraçinar, Qarqucaq, Erkəc, Zeyvə, Qaşaltı, Gürzalılar, Mənəşli, Səfikürd, Todan kəndləri isə Murovdağ silsiləsi ətəklərində yerləşən dağətəyi və ya yarımyamac tipli kəndlərə bariz nümunələrdir. Etnoqrafik və memarlıq ədəbiyyatında daqlıq-yamac və dağətəyi-yarımyamac tipli kəndlərin xarakterik xüsusiyyətləri genişliyi ilə verildiyindən [17, səh. 22; 7, səh.115; 12, səh. 229-231; 16, səh. 100-105; 20, сящ. 33-34; 9, səh. 38-43; 13, с. 54-69 və s.], ətraflı araşdırmalara lüzum görmədik.

XIX-XX əsrin əvvəllərində tədqiq etdiyimiz bölgənin kəndləri forma (qruplaşma) cəhətdən də müxtəlif səciyyə kəsb etmişdir. Sosial-iqtisadi inkişafın gedişi ilə əlaqədar olaraq bölgə kəndlərinin plan quruluşu tədricən dəyişdiyindən, etnoqrafik səfərlər zamanı apardığımız müşahidələr bölgədə kənd yaşayış məskənlərini, şərti şəkildə nizamsız (dağınıq), koma-koma, və yığcam kənd forması kimi təsnif etməyə imkan vermişdir. Nizamsız (dağınıq) kəndləri, əsasən, bölgənin Gəncə-Qazax düzənliyində məskunlaşan kəndləri təşkil edirdi. Düzənlik bölgədə torpaq sahəsinin genişliyi yaşayış məskəninin də geniş arealda salınmasını şərtləndirirdi. Buradakı evlər bir-birindən xeyli aralı tikilir, məişət-istehsal, bağça-pərəkər (dirrik-əkin) sahələri və təsərrüfat təyinatlı tikililər dağınıq halda həyətin geniş ərazisinə səpələnirdi. Bütün bunlar isə həm kəndin böyük ərazi tutumuna malik olmasına gətirib çıxarır, həm də sərbəst təsərrüfat məşğulluğu yaradırdı. Bölgənin Bölgənin Dəliməmmədli, Əkşəm, Gülövşə, Bağçakürd, Tanrıqulular, Qızılhacılı, Ərəş-Şilyan, Goranboy-Əhmədli, Xaldan, Goranlı, Ərəş Ləmbəti, Sarov, Xanqərvənd, Xanabad, Hürüuşağı, Salahlı, Havarlı, Hacıselli və b. kəndləri nizamsız (dağınıq) kəndlərdəndir. Statistik məlumatlardan da məlum olur ki, XIX əsrin sonlarında keçmiş Ərəş qəzasının 51845 nəfərdən ibarət 131 kəndi Kür-Araz ovalığının bir hissəsi olan Gəncə-Qazax düzənliyində məskunlaşmışdı [19, табл. IX-XI, XIII].

Koma-koma salınmış kəndlərin xarakterik xüsusiyyəti ondan ibarətdir ki, "tikililər əsasən müəyyən qrup halında, çox zaman isə bir-birindən xeyli aralı məsafədə yerləşən komalar halında mövcud olurdu" [7, səh. 115]. Belə kəndlərin formalaşmasında patronimik münasibətlərin (qan qohumluğu ilə birləşən icma üzvlərinin bir yerdə yaşamağa can atması meylinin), təbii-coğrafi şərait və yerin relyef quruluşunun, həmçinin iqtisadi amillərin (təsərrüfat fəaliyyətinin istiqaməti, məişət tərzi və s.) mühüm rolu olmuuşdur [20, сящ. 35]. Belə kəndlərə Goranboy rayonun dağlıq və dağətəyi kəndlərini (Aşağı Ağcakənd, Yuxarı Ağcakənd, Mehmanlı, Meşəli, Gülüstan, Başqışlaq, Buzluq, Ballıqaya, Börü, Qaraçinar, Qarqucaq, Erkəc, Zeyvə, Qaşaltı, Gürzalılar, Mənəşli, Səfikürd, Todan və b.) aid etmək olar. Koma-koma formalı kəndlərin bəhs olunan dövrdə qonşu Gəncəbasar bölgəsinin dağlıq hissəsində çoxluq təşkil etdiyini etnoqraf Q.T.Qaraqaşlı da qeyd etmişdir [9, səh. 37].

Mingəçevir və ətraf bölgələri kəndlərinin bir qismini də yığcam formalı kəndlər təşkil edirdi. Belə kəndlərin başlıca məskunlaşma amili yerin relyef-landşaft quruluşu, həyətyanı torpaq sahəsinin azlığı, artan əhalinin kəndin mürəkkəb relyef qurluşunun imkan vermədiyinə görə məcburən bir-birinə yaxın evlər tikməsi, eləcə də evlənərək böyuk (patriarxal) ailədən ayrılıb, yəni böyük ailəni parçalayıb müstəqil yaşamağa can atması və s-dən ibarət idi. Etnoqraf B.P.Kobıçev yığcam kənd formasını Azərbaycanın ancaq dağlıq bölgələrinə aid olduğunu iddia etsə də [10, səh. 9-10], belə kənd forması Azərbaycanın, o cümlədən tədqiq etdiyimiz bölgənin həm dağlıq, həm də düzənlik əraziləri üçün xarakterik olmuşdur. Kəndlərin bu formasından bəhs edən prof. H.A.Həvilov yazırdı ki, "yığcam kənd formasınəsli quruluşu və habelə əkinçi-maldar və maldar təsərrüfatların üstünlüyünü xatırladan əvvəlki iki

Goranboyda XI-XII əsrə aid tarixi tapıntılar

formadan fərqli olaraq, nisbətən son tarixi dövrlərin məhsuludur. Bunlar kəndlərin inkişafındakı son mərhələni təşkil edirlər. Belə kəndlərdə məhəllələr bir neçə nəsildən ibarət olur. Bu nəsillər öz növbəsində, bir-biri ilə sıx qonşuluq münasibətlərinə girərək yığcam vəziyyətdə yerləşirlər. Bu, hər şeydən əvvəl, yarımoturaq maldar tayfaların tamam oturaqlaşması və əkinçilik təsərrüfatına keçmələri ilə əlaqədar olmuşdur. Əkinçiliyin inkişafı ilə vəziyyət tədricən dəyişmiş və hər bir ayrıca nəsil başqa nəsillərlə sıx iqtisadi qonşuluq münasibətləri yaratmışdır" [7, səh. 116]. Etnoqrafın bu fikirlərini tədqiq etdiyimiz bölgənin də yığcam kənd formasının yaranması prosesinə şamil etmək olar. Goranboyun Borsunlu, Faxralı, Rəhimli, Yevlaxın Gülövşə, Əkşəm, Hacıselli, Malbinəsi, Qoyunbinəsi və b. kəndləri yığcam kənd formasına aid edilir.

Mingəçevir və ətraf bölgələrdə qəsəbə və şəhər tipli yaşayış məskənləri nisbətən sonralar yaranmışdır. Hazırda bölgədə Mingəçevir, Yevlax, Naftalan kimi şəhərlər, Goranboy ərazisində 2 şəhər (Goranboy və Dəliməmmədli), 4 şəhər tipli qəsəbə (Aşağı Ağcakənd Yuxarı Ağcakənd, Qazanbulaq, Qızılhacılı), Yevlax ərazisində isə 4 qəsəbə (Aran, Düzdağ, İrəvanlı və Meyvəli) mövcuddur ki, bunlar da müasir şəhərlər və şəhər tipli qəsəbələrin bütün xarakterik xüsusiyyətlərini özlərində cəmləmişlər.

ƏDƏBİYYAT

1. Абдуллаев Г. Азербайджан в XIII веке и взаимоотношение его с Россией. Баку, 1965

2. Азербайджанцы. Историко-этнографический очерк. Баку, Елм, 1998

3. Azərbaycan Sovet Ensiklopediyası.V cild. Bakı, ASE-nin Baş redaksiyası, 1981

4. Azərbaycan Sovet Ensiklopediyası. III cild. Bakı, ASE-nin Baş redaksiyası, 1979

5. Арасханиянц А.Н. Экономический быть государственных крестьян Арешского уезда Елисаветпольской губернии. // МИЭБГКЗК. т. VII. Тифлисъ, Типография А.А.Михельсона, 1887

6. Велиев (Бахарлы) М.Г. Азербайджан (физико-географического, этнографичского и экономического очерки) Баку. Изд-во Азерб. Совета Народ. Хоз-ва, 1921

7. Həvilov H.A. Azərbaycan etnoqrafiyası. Bakı, 1991

8. İsmayılqızı V. Goranboy. Ensiklopedik toplu. Bakı, "İsmayıl" Nəşriyyat-Poliqrafiya müəssisəsi, 2000

9. Каракашлы К.Т. Материальная культура азербайджанцев. Баку, 1964

10. Кобычев В.П. Крестьянское жилище народов Азербайджана в XIX в. / ТИЭ, т. 79.

11. Левиатов В.Н. Очерки из истории Азербайджана в XVIII веке. Баку, 1948

12. Мехтиев А.М. Сельское поселение Азербайджана. / МНКППИАЭНА, Баку, Билик, 1992

13. Мехтиев А.М. Народное жилище Азербайджана (сдревнейших времен до начала XX века). Тебрия, 2001

14. Mirzə Adıgözəl bəy. Qarabağnamə. Bax: Qarabağnamələr. I kitab, Bakı, 1989

15. Musəvi T. M. Orta əsr Azərbaycan tarixinə dair farsdilli sənədlər (XVI-XVIII əsrlər). Bakı, 1977

16. Насирли М.Н. О поселениях скученного типа Куба-Хачмасской зоны / АЭИА (1975 г.). Баку, Элм, 1978

17. Mustafayev A.N. Şirvanın maddi mədəniyyəti. Bakı, Elm, 1977

18. Mustafayev A.N. Azərbaycanın maddi mədəniyyət tarixi (etnoqrafik materiallar əsasında tipoloji tədqiqat). Bakı, Bakı Universiteti nəşriyyatı, 2009

19. Свод статистических данных о населении Закавказского края, извлеченных из посемейных списков 1886 года. Елисаветпольская губерния – Тифлис, 1893, табл. IX-XI, XIII

20. Vəliyev F.İ. XIX-XX əsrin əvvəllərində Azərbaycanın maddi mədəniyyəti (tarixi-etnoqrafik tədqiqat). Bakı, Şərq-Qərb, 2010

21. Vəlili M. Azərbaycan. Coğrafi-təbii, etnoqrafik və iqtisadi mülahizat. Bakı, Az. Döv. Nəşri, 1993.

SUMMARY

In the article presented at the beginning of the XIX-XX centuries, the permanent settlements of Mingachevir and the surrounding regions were investigated ethnographic. It shows the role of socio-economic, ethnic-cultural and political factors that affect the formation of residential areas. Characteristic features of residential settlements (villages, settlements, cities), types of settlements, ethnic composition, monogenic or polygene character are defined. In addition, the types and forms of the villages - the location of the area according to the natural-landscape structure and economic-cultural types (mountainous, foothill and plains) are also studied in detail on the basis of actual ethnographic desert materials.